AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİ

# İQTİSADİ MODERNİZASİYA

*Vüsal Qasımlı*

BAKI-2014

**Məsləhətçilər:**
Həmzə Xəlilov,
*iqtisad elmləri doktoru, professor,*

Ədalət Muradov,
*iqtisad elmləri doktoru, professor, İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin müdiri*

**Dizayner:**
İntiqam Məhəmmədli

*Kitab yeni sənaye inqilabı və bilik iqtisadiyyatı şəraitində Azərbaycanda modernizasiya çağırışları, perspektivləri və real siyasəti haqqında fundamental tədqiqat əsəridir. Azərbaycan iqtisadiyyatının sənaye-aqrar-xidmət sacayağı üzərində modernləşmə istiqamətləri müəyyən olunan monoqrafiya qərar qəbul edən şəxslər, tədqiqatçılar və tələbələr üçün faydalı vəsaitdir.*

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| **Ön söz** | | 8 |
| **Müqəddimə** | | 12 |
| **Xüsusi təşəkkürlər** | | 14 |
| **Giriş** | | 20 |
| **Fəsil I** | **Azərbaycan iqtisadiyyatına ümumi baxış** | 29 |
| 1.1. | Azərbaycanda iqtisadi konyuktura | 30 |
| 1.2. | Azərbaycanda makroiqtisadi siyasət | 34 |
| 1.3. | Azərbaycanın iqtisadiyyatı beynəlxalq müstəvidə | 38 |
| 1.4. | Azərbaycan iqtisadiyyatının strukturu | 48 |
| 1.5. | Azərbaycanın xarici iqtisadi siyasəti | 53 |
| 1.6. | Azərbaycan iqtisadiyyatının gələcək inkişaf perspektivləri | 56 |
| **Fəsil II** | **Yeni sənaye inqilabı və Azərbaycan** | 61 |
| **Fəsil III** | **Modernizasiyaya nəzəri-konseptual baxış** | 79 |
| 3.1. | Modernləşdirilmənin nəzəri-metodoloji əsasları | 80 |
| 3.2. | Aqrar sahənin modernləşdirilməsi nəzəriyyələrinin təkamülü | 98 |
| 3.3. | Azərbaycanda modernizasiya siyasətinin əsas xüsusiyyətləri | 106 |
| 3.4. | Azərbaycanda aqrar sahənin modernləşdirilməsinin xüsusiyyətləri | 116 |
| **Fəsil lV** | **İstehsalın modernləşdirilməsində əmək qüvvəsinin rolu** | 123 |
| 4.1. | Əmək məhsuldarlığının iqtisadi artıma və modernizasiyaya təsiri | 124 |
| 4.2. | Aqrar sahənin moderləşdirilməsində əmək resurslarının rolu | 138 |
| 4.3. | Modernləşdirilmə və dövlətin urbanizasiya siyasəti arasında dialektik vəhdət | 148 |

| | | |
|---|---|---|
| **Fəsil V** | **Aqrar sahədə modernləşdirmə dünya investisiya trendləri perspektivində** | 163 |
| 5.1. | Aqrar sahənin modernləşdirilməsi sahəsində dövlət siyasəti | 164 |
| 5.2. | Azərbaycanda dünya investisiya trendlərinin kəsişməsi | 190 |
| 5.3. | Aqrar sahəninin modernləşdirilməsində vençur kapitalın rolu | 199 |
| **Fəsil VI** | **Aqrar sahədə modernləşdirmənin davamlı iqtisadi inkişafda rolu** | 209 |
| 6.1. | Aqrar sahədə modernləşmə və ixrac potensialının artırılması | 210 |
| 6.2. | Aqrar sahədə modernləşdirmə və ərzaq təhlükəsizliyi | 217 |
| 6.3. | Aqrar sahənin inkişafında İKT-nin rolu | 224 |
| 6.4. | Kənd təsərrüfatının modernləşdirilməsinin davamlı enerji təminatına təsiri | 235 |
| **Fəsil VII** | **Aqrar sahədə modernləşdirmə siyasətinin təkmilləşdirilməsi yolları** | 247 |
| 7.1. | Aqrar sahədə Ümumi Amil Məhsuldarlığının artırılması yolları | 248 |
| 7.2. | Aqrar sahədə investisiya qoyuluşunun modernizasiya prosesində rolu | 259 |
| 7.3. | Modernləşdirmənin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri | 274 |
| 7.4. | Kənd təsərrüfatının modernləşdirilməsində tədqiqat və işləmələrin (R&D) rolu | 287 |
| | **Nəticə** | 296 |
| | **İstifadə edilmiş ədəbiyyat siyahısı** | 298 |

**“Biz modern cəmiyyət qururuq”**

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

# ÖN SÖZ

*"Ölkəmizin qarşısında duran başlıca vəzifə – iqtisadiyyatın bundan sonra da sürətli inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi, ölkənin modernləşdirilməsidir."*

**İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti**

Müasir siyasi, elmi və gündəlik həyatda "modernizasiya" anlayışı çox geniş istifadə edilir. "Modernizasiya" hərfi mənada müasir tələblərə cavab verən dəyişiklik, təkmilləşdirilmə deməkdir. İqtisadi modernizasiya ilk növbədə, mütərəqqi dünya təcrübəsinə əsaslanaraq ölkədə iqtisadi və texnoloji geriliyin aradan qaldırılması istiqamətində tədbirləri özündə əks etdirir. Ədəbiyyatlarda, kütləvi informasiya vasitələrində modernizasiyanın siyasi, sosial, dini, iqtisadi, texnoloji, inzibati və digər növlərini ayırırlar. Modernizasiyanın əsas ümumi məqsədi isə müasir cəmiyyətin qurulmasıdır.

İqtisadi modernləşdirmə əmək bölgüsünün dərinləşməsi, istehsalın maddi-texniki bazasının müasirləşdirilməsi, elmi-texniki tərəqqinin məhsuldar qüvvəyə çevrilməsi və istehsalın idarəetmə sisteminin səmərəliliyinin yüksəldilməsi sayəsində təkrar istehsal prosesinin intensivləşdirilməsini nəzərdə tutur.

İqtisadiyyatın modernizasiyası, onun məqsəd və vəzifələrinin səmərəli həyata keçirilməsi məqsədilə ölkədə dövlət başçısının 2012-ci il 29 dekabr tarixli fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasıtəsdiq edilmişdir. Konsepsiyada ixracyönümlü iqtisadi model əsas götürülmüş, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neftixracının artımı və s. nəzərdə tutulmuşdur.

Əlbəttə ki, ümumi məqsədə, qeyri-neft ixracının artımına nail olmaqdan ötrü iqtisadiyyatın potensial müqayisəli üstünlüyə malik olan sahələri, resurslar və digər amillər nəzərə alınmaqla strategiyalar hazırlanmalıdır. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2014-cü il "Sənaye ili" elan edilmişdir. Sərəncamda qeyd edilir ki, hazırkı mərhələdə sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədi ilə mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi imkanlarının formalaşdırılması zəruridir.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri və tanınmış iqtisadçı alim Vüsal Qasımlı tərəfindən hazırlanmış "İqtisadi modernizasiya" kitabı modernizasiya prosesinə dair yuxarıda qeyd etdiyimiz cəhətləri özündə əks etdirir. Bu kitabda, Azərbaycanda iqtisadi konyuktura, ölkə iqtisadiyyatının beynəlxalq müstəvidə rolu, ölkənin gələcək inkişaf perspektivləri, yeni sənaye inqilabı məsələləri, modernləşdirmənin nəzəri-metodoloji əsasları, xüsusilə də, aqrar sahənin modernləşdirilməsi nəzəriyyələrinin təkamülü, Azərbaycanda aqrar sahənin modernləşdirilməsi xüsusiyyətləri öyrənilmiş, istehsalın modernləşdirilməsində əmək qüvvəsinin və aqrar sahədə modernləşdirmənin davamlı iqtisadi inkişafda rolu, bu sahədə modernləşdirmə siyasətinin təkmilləşdirilməsi tədqiq olunmuşdur.

Monoqrafiyanın unikallığı ondadır ki, əsər iqtisadiyyatın mikro, makro, mezo və qlobal səviyyələrində modernizasiyanı axıcı ardıcıllıqla əhatə edir və sənaye-aqrar-xidmət üçbucağını induksiya-deduksiya metodu ilə araşdırır. Müəllifin arsenalında olan güclü ekonometrik "silah" hətta ən dolaşıq iqtisadi düyünləri sadə dillə açır və çıxış yollarını göstərir. Riyazi məntiqin və iqtisadi fəlsəfənin qovuşmasın-

da V.Qasımlı Azərbaycan iqtisad elmində yenilik sayılacaq yanaşma tərzini bu kitabda ortaya qoymuşdur. Amma güclü nəzəri hazırlıq heç də V.Qasımlını praktik təkliflər verməkdən məhrum etməmişdir. Əksinə müəllif bacarıqlı alim kimi nəzəri ümumiləşdirmələri çox asanlıqla praktik təcrübə müstəvisinə proyeksiya edə bilmiş və kitabın yetkin bir elmi əsər olmasını təmin etmişdir. V.Qasımlı sənayeləşməni klassik anlamında deyil, məhz "yeni sənaye inqilabı" kontekstində təqdim etməklə Azərbaycanın iqtisadi inkişaf strategiyası üçün elmi novatorluğa imza atmışdır. Aqrobiznesin və xidmət sektorunun yeni sənaye inqilabı dalğasında keyfiyyət dəyişikliyinə qədəm qoyması ilə iqtisadi münasibətlərin daha da inkişafı təhlil edilmişdir. V.Qasımlı modernizasiyanı, iqtisadi nəzəriyyənin öhdəsindən gələ bilmədiyi bir suala cavab tapmaqda vasitə kimi istifadə etmişdir. Başda ABŞ olmaqla inkişaf etmiş dünya ölkələrinin fiskal və monetar genişlənmə (QE) hesabına təmin etdikləri hazırkı iqtisadi inkişaf çox kövrəkdir. V.Qasımlı modernizasiyanı postböhran dövründə (məsələn, ABŞ Federal Ehtiyat Sistemi QE siyasətindən əl çəkəndən sonra) iqtisadi inkişafın əsas vasitəsi olaraq təklif edir ki, bu da monetar və fiskal alətlərin təsir gücü zəifləyəndə daha aktual olacaqdır.

V.Qasımlının "İqtisadi modernizasiya" kitabı bundan bir il əvvəl müəllifin Almaniyada ingilis dilində nəşr edilən "Resursla zəngin ölkələr: Modernizasiya və diversifikasiya" adlanan monoqrafiyasının elmi varisidir. "Resursla zəngin ölkələr: Modernizasiya və diversifikasiya" adlanan monoqrafiyada müəllif Azərbaycan təcrübəsindən çıxış edərək resursla zəngin ölkələrin innovasiyaya əsaslanan və ixracyönümlü inkişafını təhlil edir. Nəşrdə Azərbaycanın yoxsulluq və orta gəlir tələsindən yan keçərək iqtisadi inkişafı ölkə Prezidenti İlham Əliyevin sistemli iqtisadi siyasətinin uğuru kimi qiymətləndirilir. Xüsusilə, diversifikasiya çağırışlarını təhlil edən V.Qasımlı institutsional, ixrac, regional və məhsul və xidmət istehsalı üzrə şaxələndirmə siyasəti sahəsində nəzəri-praktik təkliflərini verir. Azərbaycan və Cənubi Koreyanın iqti-

sadi inkişaf yollarının müqayisəli təhlilini verən kitab təkcə Azərbaycan deyil, Çili, Malayziya, Hindistan və başqa sürətlə inkişaf etməkdə olan ölkələrin iqtisadi siyasətinə töhfə ola bilər.

V.Qasımılının yazı texnikası və Azərbaycan dilinin incəliklərindən istifadə etmək bacarığı imkan vermişdir ki, müəllif ən qəliz iqtisadi paradiqmaları və ekonometrik hesablamaların nəticələrini geniş oxucu kütləsinin başa düşəcəyi səviyyədə çatdıra bilsin.

Azərbaycanın iqtisadçı alimi kimi V.Qasımlının dünya çapında müzakirələrə qoşulması, planetin nüfuzlu universitetlərində mühazirələr oxuması və əsərlərinin mötəbər mənbələrdə nəşr edilməsi yeni bir iqtisadçı nəslinin yetişməsini göstərir. Əslində bu da modernizasiyanın bir təzahürüdür. Möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı modernizasiya siyasəti - xüsusilə də, "qara qızılın insan kapitalına çevrilməsi" ideyası - öz bəhrəsini verir: bütün sahələrdə olduğu kimi Azərbaycanın iqtisad elmində də dünya səviyyəsində rəqabət apara bilən yeni nəsil formalaşır. İrihəcmli "İqtisadi modernizasiya" əsəri ilə V.Qasımlı bir daha sübut etmişdir ki, o, məhz qeyd olunan yeni nəsil iqtisadiyyat məktəbinin ən görkəmli nümayəndələrindəndir.

V.Qasımlının yeni elmi əsəri Azərbaycanda sənayeləşmə və elektronlaşma siyasətinə öz töhfəsini verəcəkdir. Kitab iqtisadi modernizasiya siyasətini yürüdən qərar qəbul edən şəxslər, ali məktəb müəllimləri, doktorantlar, tələbələr və iqtisadi mövzularda maraqlı olan geniş oxucu kütləsi üçün zəruri bir bilik mənbəyidir.

***Vilayət Vəliyev, i.e.d., professor,***
***İqtisadiyyat və Sənaye Nazirliyinin***
***İqtisadi İslahatlar Elmi-Tədqiqat***
***İnstitutunun direktoru***

# Müqəddimə

İqtisadiyyat elmi 1980-ci illərdə Yaponiyanın inkişafında yaranan durğunluqla çətin bir sual ilə üz-üzə qaldı: bazar modeli nə dərəcədə səmərəlidir? Ötən əsrin 80-ci illərinə qədər beynəlxalq ictimaiyyət "Yapon iqtisadi möcüzəsinin" dünyanı fəth edəcəyini və iqtisadi marafonda çələngi ABŞ-dan alacağını düşünürdü. Amma "yapon möcüzəsi"nin mühərriki çəkmədi və iqtisad elmi bu suala cavab deyil, ad tapdı: "yapon tələsi" (Japanese-Style Stagnation Trap). 2008-ci ildə qlobal iqtisadi böhran baş verəndə isə ən yüksək inkişaf səviyyəsinə çatmış ABŞ və Avropa iqtisadiyyatları "yapon tələsi"nə düşdülər. Beləliklə, dünya iqtisadçıları əvvəllər dumanlı şəkildə konturlarını cızdıqları iqtisadi inkişaf üçün yeni konseptual yanaşmanın vacibliyində, belə demək mümkündürsə, ümumi rəyə gəldilər. Yeni inkişaf konsepsiyası - biliklərə əsaslanan və ekoloji tarazalığı saxlayan, həmçinin sosial və iqtisadi inkişafın çuğlaşmasında qərarlaşan bir sistemdir. Təbii resursların istismarının son həddə çatdığı və cəmiyyəti ekoloji təhlükə ilə üz-üzə qoyduğu indiki halda, innovasiya və onun tətbiqini ehtiva edən modernizasiya iqtisadi inkişafın əsas amilinə çevrilmişdir. İnnovativ inkişaf bir tərəfdən resursların səmərəli istifadəsi üçün şərait yaratdığı halda, digər tərəfdən inklüzivliyi təmin edir.

İnnovativ inkişaf təkcə ümumi iqtisadi paradiqmanı deyil, həm də onun ayrı-ayrı elementlərinin xarakterini müəyyənləşdirir. İnnovativ inkişafın təsiri altında (məsələn, 3D printerləri vasitəsilə istehsalı nəzərdə tutan) yeni sənaye inqilabı dövrümüzdə baş verir. Yeni sənaye inqilabı xidmət və kənd təsərrüfatına da sirayət edib keyfiyyətcə növbəti inkişaf mərhələsinin əsasını qoyur. Orta əsrlərdə iqtisadiyyatın hərəkətverici qüvvəsi rolunu kənd təsərrüfatından alan sənaye 20-ci əsrdə xidmət sektorunun yüksəlişi ilə öz mövqelərini qismən itirdi. Ən yüksək inkişaf səviyyəsinə çatan iqtisadiyyatlarda xidmət sektorunun xüsusi çəkisi daha üstündür, ölkələrin orta inkişaf səviyyəsi sənaye, aşağı inkişaf səviyyəsi isə kənd təsərrüfatı ilə assosiasiya olunur. Hazırda

sənayeləşmənin əhəmiyyəti o qədər artıb ki, təkcə şirkətlər deyil, hətta bəzi dövlətlər də "sənaye casusluğu" (industrial espionage) edərək rəqiblərini sənaye sahəsində üstələmək istəyirlər.

Azərbaycan 20-ci əsrin ikinci yarısından başlayaraq kənd təsərrüfatı ölkəsindən aqrar-sənaye dövlətinə çevrildi və 21-ci əsrdə neft bumunun təsiri altında yeni sənayeləşmə perioduna qədəm qoydu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ili "sənaye ili" elan etməsi sənayenin resurslara deyil, səmərəliliyə əsaslanan inkişaf xəttinin seçilməsinin göstəricisidir. Azərbaycanın okeanlara birbaşa çıxışının olmaması xidmət sektorunun (İKT, turizm, nəqliyyat, logistika və s.) inkişafını zəruri etdi. Hətta İKT sektoru "üç ildə iki dəfə böyümə" statistikası ilə seçildi. Sənayeləşmə və xidmət sektorunun yüksəlişi Azərbaycanın kənd təsərrüfatında səmərəliliyin artmasına və resursların (xüsusilə, insan resurslarının) qənaətinə zəmin yaradır. Beləliklə, kənd təsərrüfatı yeni bir çağırışla üz-üzədir: modernizasiya. Aqrobiznesin modernizasiyası - sənayeləşməsi və elektronlaşması - yaradılan əlavə dəyəri artıra bilər. İnkişaf etmiş ölkələr 1 ton kənd təsərrüfatı məhsulunu emal edərək 200 ABŞ dolları, inkişaf etməkdə olan ölkələr isə 50 ABŞ dolları, yəni 4 dəfə az əlavə dəyər yaradırlar. Çünki birincilər kənd təsərrüfatı məhsulunun 98 faizini, sonuncular isə cəmi 30 faizini emal edirlər. Deməli, Azərbaycan kimi ölkələr aqrar sektorun sənayeləşməsi nəticəsində dəyər zəncirini uzatmaqla daha böyük əlavə dəyər yaratmaq imkanındadır. Buna görə də Azərbaycanda kənd təsərrüfatının modernizasiyası aktual bir mövzudur.

Bu kitab iqtisadiyyatın sacayağı sayılan sənaye, xidmət və kənd təsərrüfatı arasında yeni inkişaf konsepsiyasının əsasında qurulacaq münasibətlərin istiqamətlərini - ağırlığı aqrobiznesə verməklə - müəyyənləşdirir. Kitabda sənaye-xidmət-aqrar üçbucağı vahid bir sistem olaraq nəzərdən keçirilməklə kənd təsərrüfatının modernizasiyası əsas təhlil obyekti seçilib. Müdrik bir məsəl var: Kitabsız öyrənmək və tilovsuz balıq tutmaq eyni dərəcədə boş zəhmətdir. Bu kitabda əsas məqsəd geniş oxucu kütləsinin diqqətini iqtisadiyyatın modernizasiya və innovativ inkişaf məsələlərinə yönəltməkdir.

## Xüsusi təşəkkürlər

Kitabın bir hissəsi 2013-cü ildə Koreya Beynəlxalq İqtisadi Siyasət İnstitutunda (KİEP) qonaq alim qismində apardığım araşdırmalar zamanı yazılmışdır. KİEP-in direktoru Vuk Çae və koreyalı alim dostum Co Yanq Kvanın bu işdə əməyini minnətdarlıq hissi ilə qeyd edirəm. Kitabın yazılması prosesində görüşdüyüm Braziliyanın Getulio Vargas Fondunun prezidenti Karlos İvan Simonsen Leal və Brazliyanın Strateji Məsələlər Nazirinin müavini Rikardo Paes de Barrosla müzakirələrimiz əhəmiyyətli olmuşdur. ABŞ-ın Peterson İnstitutunun baş elmi işçisi Anders Aslandla transformasiya dövrünü yaşayan ölkələrin təcrübəsini geniş təhlil etməyimiz Azərbaycanda modernizasiya prosesinə xüsusi yanaşmanın ortaya qoyulmasında mənə istiqamət vermişdir. ABŞ səfəri zamanı İrs Fondunda Ariel Koen və Jim Robertslə, Stratfor beyin mərkəzində Corc Fridmanla və Hyuston Universitetinin Ceyms Beyker adına İctimai Siyasət İnstitutunda Ted Loç-Temzelideslə müzakirələrimiz innovativ inkişafa daha geniş rakursdan baxmaq üçün əsaslar yaratmışdır.

BMT-nin Sənaye İnkişafı Təşkilatının “Yeni sənaye inqilabı və davamlı inkişaf üzrə əməkdaşlıq” mövzusunda olan 15-ci sessiyasında Perunun istehsal naziri Gladis Triveno Çan, Malayziyalı ekspert Fadzilah Əhməd Din, Norveçin Kristian Miçelson İnstitutunun alimi Arne Viig, İslandiya Universitetinin professoru Thorvaldur Gilfason və Microsoftun Latın Amerikası üzrə vitse-prezidenti Barry Ridgway eyni paneldə resursla zəngin ölkələrin diversifikasiya təcrübəsini geniş müzakirə etməyimiz bu kitab üçün bir sıra ideyaların yaranmasına rəvac vermişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmlar Mərkəzinin direktoru Fərhad Məmmədovla birgə urbanizasiya prosesi haqqında yazdığımız məqalə sonra bu kitabın bölmələrindən biri üçün əsas oldu.

Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru Sadıq Salahov mövzunun üzərində işlədiyim müddətdə dəyərli məsləhətləri ilə yanımda olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmlar Mərkəzinin ekspertləri Zaur Vəliyev və Ramiz Rəhmanov kitabın ərsəyə gəlməsində təkcə ideyaları deyil, həm də praktik işlərilə yardım etmişlər.

Kitabı yazarkən əməyi keçmiş hamıya məmnuniyyətlə öz hörmət və ehtiramımı bildirirəm. Məni anlayışla qarşılayan, hətta yay istirahətlərini də mənə görə təxirə salan ailə üzvlərimə bütün işlərimdə olduğu kimi, bu kitabın yazılmasında da mənəvi dayaq olduqları üçün minnətdaram.

# Cədvəllər


| | |
|---|---|
| Cədvəl 1.1. | Azərbaycanın xaricdə sərmayə yatırımı |
| Cədvəl 1.2. | İstehlak qiymətləri indeksi (Əvvəlki ilə nisbətən - faizlə) |
| Cədvəl 1.3. | Azərbaycanda ümumi daxili məhsul |
| Cədvəl 1.4. | Azərbaycanda nigahların sayı |
| Cədvəl 1.5. | Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı |
| Cədvəl 1.6. | Azərbaycanda orta aylıq nominal əmək haqqının dinamikası, manat |
| Cədvəl 1.7. | Azərbaycanda açılmış iş yerlərinin sayı |
| Cədvəl 1.8. | Azərbaycanda təyin olunmuş aylıq pensiyaların orta məbləği (manatla) |
| Cədvəl 1.9. | Azərbaycanda ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı |
| Cədvəl 1.10. | Azərbaycanda insanların orta sinfə düşmə ehitmalını göstərən Logit analizin nəticəsi |
| Cədvəl 1.11. | Azərbaycanda sənaye məhsulunun həcmi |
| Cədvəl 1.12. | Azərbaycanda nəqliyyat sektorunun əsas göstəriciləri |
| Cədvəl 1.13. | Xarici ticarət dövriyyəsi (milyon ABŞ dolları) |
| Cədvəl 1.14. | Azərbaycanın qeyri-neft ixracı |
| Cədvəl 1.15. | 2011-2017-ci illər üzrə makroiqtisadi göstəricilərin istiqamətləri |
| Cədvəl 2.1. | Sənayedə əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manat |
| Cədvəl 2.2. | Sənaye müəssisələrində innovasiyalara mane olan amillər |
| Cədvəl 3.1. | Elmdə Rejim-1 və Rejim-2 |
| Cədvəl 3.2. | Azərbaycanda iqtisadi modernləşmənin şərtləri |
| Cədvəl 3.3. | İnkişaf funksiyasının əsas amilləri |
| Cədvəl 4.1. | İstehsal və əmək məhsuldarlığı dəyişənləri üçün vahid köklər testi |
| Cədvəl 4. 2. | Əmək məhsuldarlığı (lp) və istehsal (p) arasında Qreyncer səbəbiyyət əlaqəsi (Granger Causality) |

Cədvəl 4.3. Səhv korreksiya modeli (Error Correction Model)
Cədvəl 5.1. Azərbaycanda mövcud olan elevatorların reyestri
Cədvəl 5.2. Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə bölgələrdə tikilən elevatorlar
Cədvəl 5.3. Vahid kök testləri, Sıfır fərziyyəsi: Dəyişilənin vahid kökü var (ehtimal qiymətləri)
Cədvəl 5.4. VAR modelin laqların optimal sayı
Cədvəl 5.5. VAR modelin şərtli sabitliyin yoxlanması
Cədvəl 5.6. VAR qalıq seriyalı korrelyasiya LM Testi, Sıfır fərziyyəsi: N-ci laqda heç bir seriyalı korrelyasiya yoxdur
Cədvəl 5.7. Grancer təsir testi, Sıfır fərziyyəsi: Ekzogen parametrin dəyişməsi endogen parametrin dəyişməsinə təsir etmir (ehtimal qiymətləri)
Cədvəl 6.1. Azərbaycan Respublikasında ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi
Cədvəl 6.2. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” üzrə hədəf göstəricilərinə əməl edilməsi üçün tələb olunan modernizasiya tədbirləri
Cədvəl 7.1. 1995-2010-cu illərdə kənd təsərrüfatında əlavə dəyər, kapital və əmək üzrə illik məlumatların əsasında Kob-Duqlas istehsal funksiyasının hesablanması
Cədvəl 7.2. Vold testi
Cədvəl 7.3. 1995-2010-cu illərdə kənd təsərrüfatında əlavə dəyər, kapital və əmək üzrə illik məlumatların əsasında Əvəzetmənin Sabit Elastikliyi istehsal funksiyasının hesablanması
Cədvəl 7.4. 2012-ci ildə “Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda müəyyən edilən hədəflərin reallaşdırılma nisbəti
Cədvəl 7.5. Keçmiş SSRİ ölkələri üzrə hər min hektara düşən traktor və kombaynların sayı

## Şəkillər

Şəkil 1.1. Əmək qabiliyyətli yaşda əhali (ilin sonuna, min nəfər)
Şəkil 1.2. 2012-ci ildə Azərbaycanda əhali artımının Lixtenşteyn, Monako və San-Marinonun cəmi əhalisi ilə müqayisəsi (min nəfər)
Şəkil 3.1. Modernləşməyə dövlət dəstəyi üçün sahələrin seçilmə meyarları
Şəkil 3.2. İnfrastrukturun inkişafında dövlətin rolu
Şəkil 3.3. İnnovativ proseslərə dövlətin təsiretmə istiqamətləri
Şəkil 3.4. İnfrastruktur sferasında proses
Şəkil 4.1. 2011-ci ildə elmin sahələri üzrə tədqiqatçıların sayı (ilin sonuna)
Şəkil 4.2. İmpuls cavab funksiyası (Impulse Response Function)
Şəkil 4.3. 2012-ci ildə İnsan İnkişafı İndeksi
Şəkil 5. 1. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığa qoyulan daxili və xarici investisiyaların illər üzrə həcmi, milyon manatla
Şəkil 5.2. Dövlət büdcəsindən kənd təsərrüfatına birbaşa ayrılan vəsaitlər, milyon manatla
Şəkil 5.3. Aqrar sektorun dövlət büdcəsi vasitəsilə maliyyələşmə mexanizmləri
Şəkil 5.4. SKMF vasitəsilə kənd təsərrüfatı sektoruna verilən kreditlər, milyon manatla
Şəkil 5.5. Kənd təsərrüfatına yararlı torpaqların hər hektarına düşən büdcə xərcləri (ABŞ dolları ilə)
Şəkil 5.6. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində əsas fondlara yönəldilən xarici sərmayə
Şəkil 6.1. Kənd təsərrüfatı, meşəçilik və balıqçılıqda elektrik enerjisi istehlakı (milyon kVt/saat)
Şəkil 6.2. Azərbaycanda kənd təsərrüfatı, meşəçilik və balıqçılıqda ümumi enerji intensivliyi (kilovatt/saat/manat)

Şəkil 6.3. Enerji istehlakı tne/ÜDM AQP dollar - ölkələrin müqayisəsi
Şəkil 6.4. Azərbaycanda dən üçün qarğıdalının məhsuldarlığı (sentner/hektar)
Şəkil 7.1. MDB ölkələrində kənd təsərrüfatı ilə məşğul olan əmək qüvvəsinin xüsusi çəkisi (faizlə)
Şəkil 7.2. Kənd təsərrüfatı məhsullarına dəyərin əlavə edilməsi yolları
Şəkil 7.3. Aqrar oriyentasiya indeksinin müqayisəsi
Şəkil 7.4. Kənd təsərrüfatı müəssisələrində əsas istehsal fondlarının strukturu, %-lə
Şəkil 7.5. Kənd təsərrüfatında əkinlərə mineral gübrələrin verilməsi, min ton
Şəkil 7.6. Universitet klasterinin təklif etdiyi xidmətlərin istiqamətləri
Şəkil 7.7. Kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə (R&D) çəkilən daxili xərclər

## Giriş

İqtisadi modernizasiya düşüncə və davranış tərzi, institusional mühit və texnoloji səviyyənin təkmilləşmə prosesidir. Son 300 il ərzində iqtisadi modernizasiya daim sənaye inqilabları ilə sıx dialektik vəhdətdə olmuşdur. XVIII əsrin ikinci yarısından buxar maşınlarının tətbiqi ilə başlayan birinci sənaye inqilabı, 1870-1945-ci illərdə elektrikləşmə, daxiliyanma mühərikinin tətbiqi və ticarətin inkişafı ilə ikinci sənaye inqilabına keçdi. İkinci sənaye inqilabının təsiri altında eramızdan 3500 il əvvəl başlamış kənd təsərrüfatının dominantlığına son qoyuldu (deargiculturalization). Azərbaycan bu dövrdə iki dəfə neft bumu yaşamaqla əsasən hasiledici sənayeni inkişaf etdirsə də, aqrar sektorun ÜDM-də və məşğulluqda payı yüksək olaraq qalırdı. 1946-1970-ci illərdə avtomatlaşdırma və kompüterləşmənin təsiri altında üçüncü sənaye inqilabı baş verdi. 1970-ci illərdən başlayaraq informasiyalaşma, yaşıllaşma və bilik effektinin təsirilə dördüncü dalğa - bilik inqilabı başlayıb. Bu dövrdə Azərbaycan əvvəlcə Sovet İttifaqının tərkibində öz aqrar-sənaye statusunu təsdiqləsə də, müstəqilliyin ilk illərində iqtisadi böhranla üzləşdi. Yalnız neft gəlirlərinin hesabına ötən əsrin sonlarından başlayaraq iqtisadi dirçəliş və hasiledici sənayenin sürətli inkişafı baş vermişdir. Gələcəkdə nanotexnologiyalar və həyat mühəndisliyi iqtisadi inkişafı növbəti mərhələyə çıxaracaq. Azərbaycan iqtisadi modernizasiya siyasətini yürüdərkən qlobal metamarfozaları və çağırışları nəzərə almalıdır. Frans Kafkanın "Çevrilmə" hekayəsində absurd və mənasız həyat qarşısında özünü günahkar hiss edən Qreqor Zamzanın taleyini yaşamamaq üçün bütün dövlətlər qlobal çağırışlara vaxtında cavab verməyi bacarmalıdırlar.

İqtisadi modernizasiya iki vacib makroiqtisadi məsələnin fonunda nəzərdən keçirilməlidir. Bir tərəfdən yığım və istehlak arasında olan optimal nisbətin tapılması, digər tərəfdən isə sərmayələrin innovativ xarakteri əsas şərtdir.

İqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi, ərzaq təhlükəsizliyi, regionların inkişafı və qeyri-karbohidrogen ixracının artırılması kimi məqsədlər aqrar sahənin də modernləşdirilməsini zəruri edir. Effektiv aqrar sektor az resurslar sərf etməklə daha yüksək kənd təsərrüfatı məhsulları istehsalına nail olmağı nəzərdə tutur. Bu mənada beynəlxalq təcrübədə oxşar imkanlara malik olan müxtəlif ölkələrdə kənd təsərrüfatı istehsalının məhsuldarlığının fərqlənməsi həm də aqrar sahənin nə dərəcədə modernləşdirilməsini göstərir.

FAO-nun hesablamalarına görə 2030-cu ildə yaxşı qidalanan əhali gündəlik 3050 kilokalori ərzaq istehlak edəcək ki, bu da indiki 2800 kilokalorilik göstəricidən 8,9 faiz çoxdur. Eyni yanaşmanı Azərbaycana tətbiq etsək ölkəmizdə ərzağa olan daxili tələb 2030-cu ildə 26,5 faiz artacaqdır. Ərzağa olan tələbin artımını kənd təsərrüffatının məhdud resursları (xüsusilə, torpaq və su) hesabına qarşılamaq üçün modernləşdirilmə yeganə yol sayılır. Modernizasiya imkan verir ki, kənd təsərrüffatının istehsal amillərinin məhsuldarlığı daha da yüksəlsin və nəinki ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, həm də ərzaq ixracının genişləndirilməsi üçün imkanlar yaransın. Nobel mükafatı laureatı Pol Kruqman bildirmişdir ki, "məhsuldarlıq hər şey demək deyil, amma uzunmüddətli dönəmdə hər şey deməkdir."

Qlobal iqtisadi böhranın davam etdiyi bir şəraitdə aqrar sahədə modernizasiya prosesinin nəzəri və metodoloji əsaslarının yenidən işlənilməsi və konseptual bir yanaşmanın formalaşmasına ehtiyac yaranmışdır.

Bilik iqtisadiyyatı dövründə iqtisadi modernizasiya məsələlərinin elmi təhlili son dünya iqtisadi böhranından sonra yeni mərhələyə qədəm qoymuşdur. Kitabda tarixən modernizasiya nəzəriyyələrinin təkamülü və müasir çağırışlar fonunda yeni paradiqmalar barədə ədəbiyyatlar ciddi şəkildə təhlil edilmişdir. Dünya alimlərindən Gray A., Boehlje M., Amanor-Boadu V. , Fulton J., Karlisle F. R., Juma C., Pascal L. G., Hartley F. W., Bergek A., Jakobsson S., Hekkert M., Smit

K., Tokgoz S., Şulenbayeva F.A., Plotnikov V.N., Restuccia D., Dennis T Y., Xiaodong Z., Adamopoulous T., Restukkia D., Laqakos D., Mayk V., Zuboviç J., Domazet I., Stoşik I., Djomo J.M.N., Vilenski A., Qlazyev S., Qoliçenko O., Azərbaycan alimlərindən Səmədzadə Z., Əmiraslanov A., Salahov S., Alıyev İ., Eminov N.O., Allahverdiyev Q.S., Mustafayev A. və başqaları öz elmi araşdırmalarında bu məsələyə önəm verərək iqtisadi sahədə modernləşdirilməni kompleks təhlil etmiş və müvafiq praktik təkliflərlə çıxış etmişdilər.

Bilik iqtisadiyyatına keçid modernləşdirilmənin fəlsəfəsini dəyişmiş və bu istiqamətdə elmi-tədqiqatlar üçün yeni çağırışları müəyyənləşdirmişdi. Son qlobal iqtisadi böhranın yaratdığı yeni konyuktura və davamlı inkişaf konsepsiyasına əsasən müəyyənləşən gələcək hədəflər iqtisadi, sosial və ekoloji aspektlər nəzərə alınmaqla modernizasiyaya yeni yanaşma tələb edir. Modernizasiya prosesi nəticəsində istehsal amillərinin daha da rasional istifadəsi, qənaət edilmiş resursların düzgün istiqamətlənməsi və iqtisadiyyatın informasiya cəmiyyətində statusu yetərincə təhlil edilməmişdir.

Tədqiqatda məqsəd iqtisadiyyatın rəqabət qabiliyyətinin təşkilati-iqtisadi mexanizmlər əsasında gücləndirilməsi üçün modernizasiyanın nəzəri-metodoloji əsaslarını hazırlamaq və praktik təkliflər verməkdən ibarətdir. Tədqiqatın obyekti iqtisadiyyatda modernizasiya prosesi və onun əhatə etdiyi təşkilati-hüquqi strukturlar olmuşdur.

Kitabın əsas müddəaları haqqında respublikada keçirilən beş elmi konfransda məruzə edilmişdir. Həmçinin tədqiqatın nəticələri 2011-ci ilin noyabr ayında Afinada "Enerji sahəsində əməkdaşlıq və Qara Dəniz hövzəsində ətraf mühitin qorunması" adlanan konfransda, 2011-ci ilin dekabr ayında Varşavada "Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" proqramı və Azərbaycan: çağırışlar və perspektivlər" mövzusunda konfransda, 2012-ci ilin sentyabr ayında Seulda "Koreya Respublikası və Mərkəzi Asiya" adlanan lV Beynəlxalq seminarda, 2012-ci il iyun ayında Varşava Universitetində "Polşa-Azərbaycan münasibətlərinin tarixi və bu günü"

adlı beynəlxalq konfransda, 2012-ci ilin noyabr ayında "The Financial Times" dərgisinin İstanbulda təşkil etdiyi "Avropanın yeni BRİC ölkələrinə investisiya qoymaq" adlanan konfransda, 2012-ci il fevral ayında Vaşinqton Universitetində (St.Luisdəki) Yeni İnstitutsional Sosial Elmlər Mərkəzinin Yaz Seminarları Seriyasında "Azərbaycanda orta sinfin sosial-iqtisadi və siyasi parametrləri" mövzusunda seminarda, 2013-cü ilin yanvar ayında Koreya Beynəlxalq İqtisadi Siyasət İnstitutunda təşkil olunmuş "Resursla zəngin ölkələr: Modernizasiya iqtisadi diversifikasiyanın əsasıdır" mövzusunda seminarda, 2013-cü ilin mart ayında Qahirədə İslam Konfransı Təşkilatının beyin mərkəzlərinin "İslam Konfransı Təşkilatı öləkələrinin iqtisadi inteqrasiyası: Perspektivlər və çağırışlar" adlanan 4-cü forumunda, 2013-cü ilin mayın 15-də Qahirə Amerika Universitetində təşkil olunan "Azərbaycanın siyasi və iqtisadi inkişaf modeli" adlanan seminarda, 2013-cü ilin may ayında ABŞ-ın Ceymstaun Fondunda keçirilmiş "Azərbaycan-Gürcüstan-Türkiyə: Paradokslar və Çağırışlar" mövzusunda konfransda, 2013-cü ilin may ayında ABŞ-ın Stratfor beyin mərkəzində "Azərbaycan: Regionun iqtisadi, enerji və nəqliyyat mərkəzi" mövzusunda seminarda, 2013-cü ilin may ayında Los-Ancelesdə Kalifoniya universitetində müəllif tərəfindən edilmiş ictimai məruzədə, 2013-cü ilin oktyabr ayında Rio-de-Janeyroda "Müxtəlif qavrayışlar: Çin, ABŞ, Avropa İttifaqı, Braziliya və inkişaf edən dünya" adlanan beynəlxalq seminarda, 2013-cü ilin noyabr ayında Vyana Beynəlxalq İqtisadi Tədqiqatlar İnstitutunda ictimai mühazirədə, 2013-cü ilin dekabr ayında Limada BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO) "Yeni sənaye inqilabı və davamlı inkişaf üzrə əməkdaşlıq" mövzusunda olan 15-ci sessiyasında məruzə edilmişdir.

Kitab 7 fəsildən ibarətdir. I fəsildə qeyd olunur ki, neft gəlirlərilə güclənmiş Azərbaycan iqtisadiyyatı yeni keyfiyyət dəyişmələri ərəfəsindədir. 2004-2006-ci illərdə ÜDM iki dəfə artandan sonra iqtisadi inkişaf tempi sabitləşməyə başlayıb və hətta qlobal iqtisadi böh-

ranın ən kəskin illəri - 2009-2010-cu illərdə müvafiq olaraq 9,3 faiz və 5 faiz təşkil edib. Bir tərəfdən qlobal iqtisadi böhranın təsirilə yaşanan xarici iqtisadi şok, digər tərəfdən isə neft hasilatının sabitləşməsi fonunda Azərbaycanda iqtisadi inkişaf yeni çağırışları ortaya qoyub.

"Yeni sənaye inqilabı və Azərbaycan" adlanan II fəsildə qeyd edilir ki, Azərbaycanda sənayenin iqtisadiyyatdakı xüsusi çəkisi dünya üzrə orta göstəricini - 30,5 faizi - təxminən iki dəfəyə yaxın üstələyir. BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının məlumatına əsasən Azərbaycan Avropada sənayenin ÜDM-dəki payına görə 2010-cu ildə 1-ci yerdə olub. Hazırda Azərbaycanda kimya, əczaçılıq, rezin və plastmas məmulatları, neft məhsulları, tikinti materialları, metallurgiya, hazır metal məmulatları, kompüter və digər elektron avadanlıqlar, elektrik avadanlıqları, maşın və avadanlıqların istehsalı, elektrik enerjisi (o cümlədən alternativ mənbələr hesabına), qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı, həmçinin kosmik sənaye kimi sahələrin inkişaf potensialı var.

Kitabın III fəslində əldə edilən nəzəri ümumiləşdirmələr sonrakı fəsillərdə praktik həllini tapır və eyni uğurla VII fəsildə təkmilləşdirilmək üçün yeni təklifləflərlə davam edir.

Kitabın III fəsli "Modernizasiyaya nəzəri-konseptual baxış" mövzusuna həsr olunmuşdur. Luhmann, Smelser, Habermas və Schluchter kimi alimlərin əsərləri təhlil edəilərək belə bir qənaətə gəlinir ki, klassik modernləşdirilmə nəzəriyyələri əsasən fərqləndirmə (differentiation) and rasionallaşıdma (rationalization) meyarları üzərində qurulub. Beləliklə, bu iki əks proses bəzi tədqiqatçılar tərəfindən modernizasiyanın tərkib hissəsi kimi qəbul edilir. Hətta bu fəsildə Lipsetin modernizasiya nəzəriyyəsini mübahisələndirərək yeniləşmənin hər bir ölkədə özünəməxsus şəkildə baş verməsi mülahizəsi irəli sürülür. Bu fəslidə aqrar modernizasiyanın mahiyyəti və strukturu öyrənilmiş və nəzəri ümumiləşdirmələr təklif edilmişdir. Məsələyə münasibətdə müxtəlif məktəblərin yanaşmalarının sərf-nəzər edilməsi modernizasiyanın

mahiyyətinin kompleks təhlilinə imkan vermişdir.

IV fəsildə "İstehsalın modernləşdirilməsində əmək qüvvəsinin rolu"nun kompleks təhlili verilib. Əmək məhsuldarlığının iqtisadi artıma və modernizasiyaya təsirini qiymətləndirmək üçün Verdon-Kaldor qanunu tətbiq edilib. Azərbaycanda sürətli iqtisadi artım və əmək məhsuldarlığı arasında güclü səbəb-nəticə (causality) əlaqəsinin mövcudluğunu Verdon-Kaldor qanunun əsasında sübut etmək modernizasiya prosesinə təsir göstərən iki amil - istehsalın yenilənməsi və əmək qüvvəsinin keyfiyyət və kəmiyyət dəyişikliyi baxımından əhəmiyyətlidir. Bu fəsildə həmçinin aqrar sahənin moderləşdirilməsində əmək resurslarının rolu geniş təhlil edilmiş, aqrar sahənin modernləşdirilməsi və dövlətin urbanizasiya siyasəti arasında dialektik vəhdətin olması aşkarlanmışdır.

IV fəsildə Azərbaycanda aqrar sahənin modernləşdirilməsi urbanizasiya prosesinə təsirini qiymətləndirilmişdir. Aqrar istehsalın davamı olaraq yaranan və kənd təsərrüfatının lokomotivi sayılan ərzaq sənayesi şəhərlərin, xüsusilə də əyalət şəhərlərinin inkişafına təkan verir, habelə aqrar istehsalın dounstrim (downstream) və apstrim (upstream) sferalarının inkişafı bilavasitə şəhərlərlə bağlıdır. Beləliklə, aqrar modernləşmənin kənar effektlərindən biri kimi urbanizasiyanın təhlili imkan vermişdir ki, aqrar sahədə modernləşmə zamanı qənaət edilən resursların, xüsusilə də, əmək resurslarının şəhərlərə istiqamətlənməsi prosesi düzgün təşkil olunsun.

IV fəsildə aqrar modernizasiya sahəsində ölkədə həyata keçirilən siyasətin əsas istiqamətləri müəyyənləşdirilərkən kitabın lll fəslində ümumiləşdirilən nəzəri nəticələr əsas götürülmüş və beləliklə, nəzəriyyə ilə praktik siyasətin vəhdətini göstərmək mümkün olmuşdur.

Kitabın V fəslində aqrar sahədə modernləşdirmə dünya investisiya trendləri perspektivində təhlil edilir. İlk növbədə aqrar sahənin modernləşdirilməsi sahəsində dövlət siyasəti təhlil edilir. Son 12 ildə aqrar sektora yatırılan investisiyaların həcmi qeyri-proporsional

bölüşdürülmüşdür: dominantlıq təşkil edən daxili investisiyaların əsas maliyyə mənbəyi dövlət büdcəsi olmuşdur. Kitabın III fəslində dövlətin tənzimlənmə siyasətinin əsas alətləri olaraq dövlət sahibkarlığı və sifarişinin nəzəri-metodoloji aspektləri təhlil edilmişdir. III fəsildə formalaşdırılan nəzəri-metodoloji baza üzərində dövlətin modernizasiya tədbirləri nəticəsində ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm bir infrastrukturun yaradılması təhlil olunur.

V fəsildə Azərbaycanda qeyri-neft sektorunda birbaşa xarici investisiyaların qeyri-neft sektorunun artımına təsir etməsini yoxlamaq üçün iki dəyişəndən ibarət vektor avtoreqressiya modeli (VAR) qiymətləndirilmişdir.

V fəsildə qlobal iqtisadi böhran şəraitində vençur kapitalın daha riskli, eyni zamanda perspektivli sahə olan kənd təsərrüfatına istiqamətlənməsi imkanları təhlil edilərək vençur kapital qoyuluşunun modernizasiya prosesini sürətləndirməsi qənaətinə gəlinmişdir. Azərbaycanda aqrar sahədə intellektual məhsul bazarının strukturunun təkmilləşdirilməsi üçün elmi tədqiqatların nəticələrinin tətbiqi uzrə vasitəçi fəaliyyət şəbəkəsi olaraq Aqrar Elmin Kommersiyalaşdırılması Dövlət Fondunun təsis edilməsi təşəbbüsü irəli sürülmüşdür. Aqrar sahədə vençur maliyyələşdirilməni iri şirkətlər əsasən özləri həyata keçirə bilsələr də, kiçik və orta sahibkarların vençur sərmayə yatırımına cəlb olunması yalnız dövlətin və müvafiq təsisatların köməyilə mümkündür.

VI fəsildə aqrar sahədə modernləşdirilmənin davamlı iqtisadi inkişafda rolu analiz edilmişdir. Bunun üçün aqrar sahədə modernləşmənin ixrac potensialının artırılmasına təsiri qiymətləndirilmişdir. Modernizasiya siyasətinin əsas məqsədi odur ki, ixrac məhsulunun istehsalının dəyər zəncirində (value chain) mümkün qədər daha çox həlqələrin əhatə edilməsinə nail olunsun: xammal və yarımfabrikat ixracından daha çox hazır məhsul istehsalına keçid təmin edilməlidir. Dəyər zəncirini aşağı (upstream) və yuxarı (downstream) istiqamətlərdə

genişləndirmək ixtisaslaşmanın artması, resursların səmərəli istifadəsi və müsbət reputasiya yaranması baxımıdan mühümdür. Beləliklə, ixrac məhsullarının rəqabətədavamlılığı arta bilər. Burada biznes modelinin aşağıdakı növlərindən birinin seçilməsi vacib şərtdir: ixrac klasteri, kooperasiya və ya "bir kənd bir məhsul".

Əslində ərzaq təhlükəsizliyi və rəqabət üstünlüyünə malik sahələrin inkişafı bir medalın iki üzüdür. Əgər ərzaq təhlükəsizliyi milli səviyyədə bütün ərzaq məhsulları ilə 100 faizlik təminatı əsas götürürsə, rəqabət üstünlüyü nəzəriyyəsi ölkənin yalnız rəqabət üstünlüyünə malik olduğu sahələrin inkişafını zəruri hesab edir. Buna görə də, modernizasiya kənd təsərrüfatı sahəsinin istehsal, bölgü, mübadilə və istehlak sferalarını əhatə etməklə ərzaq təhlükəsizliyinin həllində mühüm rol oynayır. Bu fəsildə elektron kənd təsərrüfatı ideyası da uğurla təqdim olunmuşdur.

Kitabda yaşıl iqtisadiyyat perspektivindən yanaşılaraq aqrar modernizasiya və "yaşıl inkişaf" arasında əlaqə təhlil edilmişdir. Azərbaycan biokütlə enerjisinin alınması sahəsində uğur əldə edərsə, daxili tələbata yönəldilən karbohidrogen mənşəli enerjinin ixracı imkanı genişlənər və ölkə daha çox ixrac gəliri əldə edə bilər.

Kitabın VII fəsli aqrar sahədə modernləşdirmə siyasətinin təkmilləşdirilməsi yollarına həsr edilib. Aqrar sahədə Məcmu Amil Məhsuldarlığının artırılması yolları təhlil edilərkən istehsal funksiyasının bir neçə modifikasiyası tətbiq olunur. Ekonometrik hesablamalardan alınan nəticələr aqrar modernizasiyanın daha düzgün istiqamətə yönəldilməsini təmin edə bilər.

# FƏSİL I

## Azərbaycan iqtisadiyyatına ümumi baxış

## 1.1. Azərbaycanda iqtisadi konyuktura

Neft gəlirlərilə güclənmiş Azərbaycan iqtisadiyyatı yeni keyfiyyət dəyişmələri ərəfəsindədir. 2004-2006-ci illərdə ÜDM iki dəfə artandan sonra iqtisadi inkişaf tempi sabitləşməyə başladı və hətta qlobal iqtisadi böhranın ən kəskin illəri - 2009-2010-cu illərdə müvafiq olaraq 9,3 faiz və 5 faiz təşkil etdi. Bir tərəfdən qlobal iqtisadi böhranın təsirilə yaşanan xarici iqtisadi şok, digər tərəfdən isə neft hasilatının sabitləşməsi fonunda Azərbaycanda iqtisadi inkişaf yeni çağırışları ortaya qoyub. Azərbaycanın regional və qlobal miqyasda geoiqtisadi rolunu gücləndirmək, Dünya Ticarət Təşkilatına qəbul, Avropa İttifaqı ilə Azad Ticarət Sazişi və Gömrük İttifaqı arasında rasional seçim, daxili iqtisadi inkişaf vektorlarını dünya iqtisadi təmayüllərinə uyğunlaşdırmaq, makroiqtisadi sabitliyi qorumaqla davamlı inkişafı təmin etmək, iqtisadiyyatın diversifikasiyasını və regional tarazlaşmanı düzgün tənzimləmək və orta təbəqəyə dayalı sosial siyasət əsas çağırışlar olaraq müəyyənləşdirilib. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf




**Prezident İlham Əliyev Göygölə içməli suyun verilməsi mərasimində iştirak edir (21 yanvar 2014-cü il)**

konsepsiyası ölkə iqtisadiyyatının ölçülə bilən hədəflərini və inkişaf istiqamətlərini ortamüddətli dönəmdə müəyyənləşdirib.

Azərbaycan iqtisadi inkişafını dünyada iki ümumiləşdirilmiş göstərici daha yaxşı ifadə edə bilər: 1. Azərbaycan MDB, Şərqi Avropa və Türk respublikaları arasında ən rəqabətədavamlı iqtisadiyyat qurmaqla Davos İqtisadi Frorumunun "Dünya rəqabətqabiliyyətlilik 2013-2014" hesabatında dünyada 39-cu yerdə gedir. 2. Azərbaycan hər 100 nəfərə düşən qaçqın və məcburi köçkün sayına görə dünyanın ən "qabaqcıl" ölkələrindən sayılır. Beləliklə, Ermənistan işğalının ağır nəticələrinə baxmayaraq Azərbaycan dünyanın ilk ən rəqabətədavamlı iqtisadiyyatlarından birini qurmağa nail olmuşdur. Son 10 il ərzində qaçqın və məcburi köçkünlər üçün bütün sosial-texniki infrastruktura malik, ümumi sahəsi 1,5 milyon kvadratmetr olan, 110 min nəfərin məskunlaşdırıldığı 23,5 min evdən ibarət 57 müasir qəsəbə və məhəllə salınmışdır. 2003-2012-ci illərdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 5 milyard ABŞ dollarına yaxın vəsait sərf olunmuşdur ki, bu da Gürcüstan və Ermənistanın birgə götürülmüş dövlət büdcəsinin həcminə bərabərdir. Hər il Azərbaycan dövləti 20 min nəfərdən çox qaçqın və məcburi köçkün əhalini mənzillə təmin edir ki, bu da hər il əhalisi Fransanın Orli (Orly) şəhərinin əhalisinə bərabər olan yeni bir şəhərin salınması deməkdir.

Azərbaycan iqtisadiyyatı 2012-cü ildə ilk dəfə olaraq Davos İqtisadi Forumun metodologiyasına əsasən satın alma yeteneği paritetinə görə bir trilyonun 1/10-i qədər ÜDM istehsal etmişdir. Ölkənin cari hesablar balansında olan müsbət saldo imkan vermişdir ki, 2013-cü ildə 50 milyard ABŞ dolları həcmində "təhlükəsizlik yastığı" - strateji valyuta ehtiyatları yaradılsın. Eyni zamanda Azərbaycanın xalis beynəlxalq investisiya mövqeyi yaxşılaşmış və Azərbaycan mənşəli səmayələr Avropa, Afrika və Cənub-Şərqi Asiya ölkələrinə yatırılmış, xüsusilə, Türkiyə Gürcüstanda aparıcı mövqeyə malik olmuşdur. 2003-2012-ci illərdə Azərbaycan xaricdə 7,4 milyard ABŞ dolları sərmayə yatırıb.

Müstəqilliyinin ilk dövründə əcnəbi sərmayələrdən və kreditlərdən asılı vəziyyətdə olan Azərbaycan hazırda izafi kapital resurslarını yerləşdirmək üçün müvafiq bazar, maliyyə alətləri və biznes layihələrini nəzərdən keçirir.

Cədvəl 1.1.

Azərbaycanın xaricdə sərmayə yatırımı

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xaricdə sərmayə yatırımı (milyon ABŞ dolları) | 933,2 | 1205 | 1221 | 705,5 | 520,6 | 555,8 | 326,1 | 235,7 | 554 | 1129 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Buna baxmayaraq Azərbaycanın xarici ticarət dövriyyəsinin və icmal büdcəsinin qeyri-neft kəsiri yüksək olaraq qalır və hökumətin ciddi nəzarəti altındadır. Neftin yüksək qiymətlərindən asılılığı azaltmaq üçün Azərbaycan hökuməti ixracın və icmal büdcənin, bütünlükdə iqtisadiyyatın diversifikasiyası istiqamətində kompleks və sistemli siyasət yürüdür. 2011-ci ildən Azərbaycanda neft hasilatı azalsa da, neft qiymətlərinin yüksək olması karbohidrogen gəlirlərini kəskin azalmağa qoymamışdır. Artıq 2013-cü ilin ortalarında etibarən BP və Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) birgə səyləri nəticəsində neft hasilatı yenidən artmağa başlamışdır və bu tendensiya neft hasilatının sabitləşməsinə imkan verəcək. 2019-cu ildən "Şahdəniz" qaz-kondensat yatağının ikinci mərhələsindən Azərbaycan qazının Avropaya tədarükü haqqında imzalanmış müqavilələr üzrə gəlirlərin həcmi təqribən 200 milyard dollar təşkil edəcək. Bundan başqa Azərbaycan həmçinin "Azəri-Çıraq-Günəşli" yatağının dərin qatlarındakı qaza, "Abşeron" yatağına, "Şəfəq-Asiman" perspektiv strukturlarında gözlənilən ehtiyatlara da malikdir ki, bu da Avropa "mavi yanacaq" bazarından əlavə gəlir götürməyə imkan verəcəkdir.

21-ci əsrin ikinci onilliyinin ortalarından başlayaraq Azərbaycanın enerji gəlirlərinin strukturunda iki istiqamətdə dəyişiklik baş verəcək:

1) Tədricən təbii qaz satışından gəlirlər artacağı halda neft gəlirləri azalacaqdır; 2) SOCAR-ın dowstream və upstream (xüsusilə, Türkiyədə) istiqamətində olan biznes layihələri üzrə gəlirlər artacaq. Beləliklə, 21-ci əsrin üçüncü onilliyində Azərbaycan azalması proqnozlaşdırılan neft gəlirlərini artan təbii qaz və neft-kimya məhsularının satışı ilə kompensasiya etməyi strateji bir hədəf olaraq seçmişdir.

Azərbaycan 21-ci əsrin 30-cu illərinə qədər enerji gəlirlərinin təmin olunması sahəsində əməli tədbirlər görməsinə baxmayaraq hökumət 2011-c ildən başlayaraq qeyri-neft sektorunun illik 10 faiz sürətlə artmasını xüsusi qeyd edir. Baxmayaraq ki, İMF bu artımın əsasən dövlət xərcləmələrindən qaynaqlanan tikinti və xidmət sektorunun hesabına baş verdiyini sübut etməyə çalışır, qeyri-neft ixracının ikirəqəmli artımı İMF-in iradı üçün əksarqument ola bilər.

## 1.2. Azərbaycanda makroiqtisadi siyasət

Qeyri-neft sektorunun sürətli inkişafı, strateji valyuta ehtiyatlarının ÜDM-in 3/4-ə yaxınlaşması və xarici borcun isə ÜDM-in cəmi 7-8 faizini təşkil etməsi Azərbaycan hökümətinin fiskal və monetar siyasətinin əsas cizgilərini müəyyənləşdirir. Azərbaycan hökumətinin apardığı fiskal genişlənmə siyasəti iqtisadi inkişafın stimullaşdırılmasında əhəmiyyətli rol oynayıb. Son 10 ildə dövlət büdcəsinin 19 dəfə böyüməsi nəticəsində aşağıdakı hədəflərə nail olunub: 1) Ölkədə tələb stimullaşdırılıb - xüsusilə də əhalinin gəlirləri 7 dəfədən çox artıb; 2) Təklif genişləndirilib - dövlət xidmətlərinin həcmi böyüyüb; 3) İnfrastruktur təkmilləşdirilib - iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün əsas kapitala 106 milyard ABŞ dolları vəsait yönəldilib ki, onunda 49%-ni dövlət investisiyaları təşkil edib; 3) Ölkənin müdafiəsi daha yaxşı təşkil edilib və ixracyönümlü və idxalı əvəz edən hərbi-sənaye kompleksi yaradılıb; 4) Dövlət sifarişi hesabına özəl sektor daha da güclənib.

Azərbaycan hökuməti planlaşdırır ki, gələcəkdə büdcə vəsaitlərinin formalaşması və istifadəsi sahəsində fiskal intizamın təmin edilməsinə, vəsaitlərin düzgün bölüşdürülməsinə və xərclərin səmərəliliyinin artırılmasına xüsusi diqqət yetirilsin. Müxtəlif büdcə riskləri (xarici, maliyyə,kənarlaşma, əməliyyat riskləri və s.) üzrə qiymətləndirmə aparılarsa, Azərbaycanın ortamüddətli dönəmdə fiskal dayanıqlığı təmin etməsi gözlənilir. Məsələn, 2014-cü ilin büdcəsi son illərdə neftdən ən az asılı olan və müstəqillik dövrünün ən böyük həcmli dövlət büdcəsi olub. Vergilər Nazirliyinin xəttilə qeyri-neft sektorundan dövlət büdcəsinə daxilolmalar 2014-cü ildə əvvəlki illə müqayisədə 14,4 faiz artdığı halda, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin həcmi 2,5 milyard dollar, başqa sözlə, 18 faiz azalıb. Beləliklə, dövlət büdcəsində ilbəil neftdən asılılığın artması tendensiyası ilk dəfə olaraq 2014-cü ildə dayanır. Qeyri-neft sektoru 2014-cü ildə dövlət büdcəsinə təxminən 8 milyard ABŞ dollarına qədər gəlir təmin edəcək ki, bu da,

yaxın gələcəkdə qeyri-neft sektorunun dövlət büdcəsinin cari xərclərini maliyyələşdirmək imkanına malik olacağını göstərir. Orta müddətli dönəmdə əsas fiskal hədəf bu olmalıdır ki, qeyri-neft gəlirləri dövlət büdcəsinin cari xərclərini qarşılasın, əsaslı vəsait qoyuluşuna gedən xərclər isə Dövlət Neft Fondu tərəfindən verilən transfertlərin hesabına maliyyələşdirilə bilər.

Azərbaycan Dünya Bankı (DB), Beynəlxalq Maliyyə Korporasiyası (BMK) və "PricewaterhouseCoopers" auditor şirkətinin hazırladığı "Paying Taxes 2012" (Vergilərin ödənilməsi - 2012) rənkinqində 183 ölkə arasında 77-ci yeri tutub. Ölkə vergi ödənişlərinin sadəliyi üzrə vəziyyətini 26 mövqe yaxşılaşdırıb. Orta müddətli dönəmdə iqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədi ilə tədricən passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid təmin ediləcək, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit yaradılmasına kömək edəcəkdir.

Azərbaycanda fiskal siyasət dominant olsa da, monetar siyasət üçün aşağıdakı mühüm vəzifələr vardır: inflyasiyanın aşağı birrəqəmli səviyyədə saxlanması, manatın məzənnəsinin sabitliyi, maliyyə sabitliyinin möhkəmləndirilməsi və maliyyə vasitəçiliyinin inkişafı. Azərbaycanda 2012-ci ildə 1,1 faizə endirilən inflryasiya orta müddətli dönəmdə 5 faizi aşmayacaq.

Azərbaycanda qiymətlərin artımı 2012-ci ildə son 14 ildə ən minimum səviyyəyə endirilmiş və milli valyutanın sabitliyi hətta qlobal böhran şəraitində belə qorunmuşdur. 2012-ci ildə əhalinin istehlak səbətində əhəmiyyətli yer tutan ərzaq qiymətləri cəmi 0,8 faiz bahalaşmışdı. Qlobal böhran zamanı Rusiyada rubl, Qazaxıstanda təngə, Ermənistanda dram, Ukraynada qrivna və Belorusda rubl sürətlə dəyərdən düşdüyü halda Azərbaycan Prezidenti İlham Əliyevin istiqamət verdiyi monetar siyasətin nəticəsində manat sabitliyini qorudu və əhali və biznes itkilərdən sığortalandı.

Cədvəl 1.2.

İstehlak qiymətləri indeksi (Əvvəlki ilə nisbətən - faizlə)

| İllər | İnflyasiya |
|---|---|
| **2003** | 102,2 |
| **2004** | 106,7 |
| **2005** | 109,6 |
| **2006** | 108,3 |
| **2007** | 116,7 |
| **2008** | 120,8 |
| **2009** | 101,5 |
| **2010** | 105,7 |
| **2011** | 107,9 |
| **2012** | 101,1 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

2012-ci ildə bir tərəfdən cari əməliyyatlar balansının profisitinin ÜDM-ə nisbəti göstəricisinin 15 faiz olması (Azərbaycan bu göstəriciyə görə dünyada top 10-luqdadır), digər tərəfdən isə xaricdən pul baratlarının (qeyri-rəsmi hesablamalara görə, təxminən 2 milyard dollar) və kapital axınlarının (4,2 milyard dolları) müsbət dinamikası ölkədə xarici valyuta təklifini təmin edir. Beləliklə, ölkədə həm dövlət, həm özəl sektor, həm də əhalinin yığımı artır. 2013-cü ilin sonuna Azərbaycanın strateji valyuta ehtiyatları 50 milyard dolları aşır, əhalinin əmanətləri isə bir ildə 1,5 dəfə artaraq 9 milyard dollara çatır. Manatın məzənnəsinin əhəmiyyətli möhkəmlənməsinin qarşısını almaq və bununla da qeyri-neft sektorunun rəqabət qabiliyyətinə neqativ təsirləri neytrallaşdırmaq üçün Mərkəzi Bank tərəfindən 2012-ci il ərzində 1,6 milyard ABŞ dolları həcmində valyuta sterilizasiyası həyata keçirilmişdir.

Azərbaycanda əhalinin etimadını qazanan bank sistemi formalaşıb. 2003-2012-ci illərdə əhalinin əmanətləri 20,3 dəfə artdı. Prezident İlham Əliyevin fərmanı ilə təxminən 2 milyon 400 min şəxsi əmanət

hesablarının sahiblərinə sovet dövründə batmış əmanətləri qaytarmaq üçün 1 milyard manata yaxın vəsait xərclənəcək. Postsovet məkanında sovet əmanətlərini ən yaxşı şərtlərlə qaytaran Azərbaycan dövləti insanların banklara olan etimadını gücləndirdi. Azərbaycanın MDB məkanında ən qabaqcıl əmanətlərin sığortalanması sistemini tətbiq etməsi də əhalinin güvənini artırdı. Əhalinin əmanətlərinin artmasının ən əsas səbəbi isə hər nəfərə düşən gəlirlərin 2003-cü ildə 700,7 manatdan 2012-ci ildə 3784,3 manata çatması, başqa sözlə, 5,4 dəfə yüksəlməsi ilə bağlıdır.

### 1.3. Azərbaycanın iqtisadiyyatı beynəlxalq müstəvidə

Azərbaycan Cənubi Qafqazın əhalisinin 55 faizini, ərazisinin 47 faizini, strateji valyuta ehtiyatlarının 91 faizini, ÜDM-in 73 faizini və ixracın 86 faizini əhatə edir. Azərbaycan Dünya İqtisadi Forumunun hazırladığı "Qlobal Rəqabətlilik 2013-2014 hesabatında" 4,51 balla 39-cu yerə yüksəlib. Artıq ardıcıl 4-cü ildir ki, Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyi artır. 2010-2011-ci illərdə rəqabətqabiliyyətliliyi reytinqində Azərbaycanın mövqeyi 57-ci yer olduğu halda, 2011-2012-ci illərdə 55-ci yerdə, 2012-2013-cü illərdə 46-cı yerdə və 2013-2014-cü illərdə 39-cu yerdə qərarlaşıb.

Məlumata əsasən Azərbaycan makroiqtisadi mühit göstəricisinə görə 148 ölkə arasında 8-ci, əmək bazarının effektivliyi göstəricinə görə 30-cu, texnoloji hazırlıq səviyyəsinə görə 50-ci və innovasiyalara görə 50-ci yerdə qərar tutub. Xüsusilə makroiqtisadi sabitliyin ayrı-ay-




**Davosda keçirilən "Avrasiya – yeni sərhədlər" mövzusunda sessiyada regionun ən rəqabətqabiliyyətli iqtisadiyyatının arxitektoru, Prezident İlham Əliyev iştirak etmişdir (24 yanvar 2014-cü il)**

rı komponentləri üzrə Azərbaycanın mövqeləri "Qlobal Rəqabətlilik 2013-2014 hesabatında" daha güclüdür. Məsələn, Azərbaycan inflyasiya dərəcəsinin aşağı səviyyəsinə görə dünyada 148 ölkə arasında 1-ci yerdədir, habelə ümumi yığımın ÜDM-dəki payına əsasən 10-cu, dövlət borcunun ÜDM-dəki xüsusi çəkisinə görə 13-cü və icmal büdcənin balansının ÜDM-ə faiz nisbətinə görə 15-ci yerdədir.

Azərbaycan hesabatda Çin istisna olmaqla bütün BRİCS (ən sürətlə inkişaf edən beş iqtisadiyyat - Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) ölkələrini geridə qoyub. MDB-də ən rəqabətqabiliyyətli iqtisadiyyat qurmuş Azərbaycan bu coğrafiyada ən yaxın rəqibi Qazaxıstanı 11 pillə qabaqlayır. MDB ölkələrindən Qırğızıstanla Azərbaycanın reytinqdəki mövqeləri arasında 82 ölkə və siyahının 55 faizindən çoxu yerləşir. Şərqi Avropanın istisnasız olaraq bütün dövlətləri Azərbaycana "Qlobal Rəqabətlilik 2013-2014 hesabatında" uduzurlar. Azərbaycan hətta Avropanın aparıcı iqtisadiyyatlarına malik ölkələrdən olan İtaliyanı da rəqabətqabiliyyətlilitinə görə geridə qoyub.

Bundan əvvəl "Fitch", "Standard & Poor's", "Moody's" kimi əsas kredit reytinqi təşkilatları Azərbaycanın kredit reytinqini yaxşılaşdırıblar.

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artması qeyri-neft sektorunun genişlənməsini, bununla da neft gəlirlərinin insan kapitalına çevrilməsi prosesinin sürətləndirir. Rəqabət qabiliyyətinin artması ölkənin müstəqil iqtisadi siyasət aparmasının, diversifikasiya siyasətinin ölkəyə əlavə iqtisadi-siyasi dividentlər qazandırmasının bariz göstəricisidir.

Azərbaycanın müasir iqtisadi mənzərəsini müəyyənləşdirən ölkəyə yatırılan investisiyalar olmuşdur. 2003-2012-ci illərdə Azərbaycana 131,9 milyard ABŞ dolları sərmayə yatırılmışdı ki, bunun da 64,1 milyard dolları xarici sərmayələr olmuşdur. Azərbaycan müstəqilliyinin ilk dövründə iqtisadiyyatı inkişaf etdirmək üçün xarici investisyalardan və kreditlərdən asılı vəziyyətdə olduğu halda, İlham Əliyevin prezidentliyi dönəmində daxili sərmayələr ilk dəfə olaraq həcmcə xarici sərmayələri

üstələdi. 2012-ci ildə hər nəfərə düşən ümumi investisiya həcmi 4,6 dəfə artaraq 2003-ci ildəki 528,3 ABŞ dollarından 2809,3 ABŞ dollarına çatmışdır. Azərbaycan adambaşına düşən xarici sərmayə həcminə görə postsovet məkanı və Şərqi Avropada öncül mövqelərə malikdir.

Cəb edilmiş investisiyalar öz bəhrəsini verir: 2003-2012-ci illərdə Ümumi daxili məhsul 3 dəfə artmışdır. 2010-2013-cü illərdə qeyri-neft ümumi daxili məhsulu təxminən illik 10 faiz artmışdır ki, bu da Azərvaycan iqtisadiyyatının ağırlıq mərkəzinin qeyri-resurs sektoruna keçidini təmin edir. Beynəlxalq Valyuta Fondu Azərbaycanı son 10 ildə dünyada ən sürətlə inkişaf edən ölkələrdən biri kimi qiymətləndirib. Dünya Bankının hesablamalarına görə Azərbaycan 15 postsovet respublikası arasında ÜDM-in həcminə görə 4-cü yerdədir. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə Azərbaycanda ÜDM həcmi 2017-ci ildə Orta Asiyanın (Özbəkistan, Türkmənistan, Qırğızstan və Tacikistan) birlikdə götürülmüş eyniadlı göstəricisi ilə müqayisə edilən həddə olacaq.

Cədvəl 1.3.

Azərbaycanda ümumi daxili məhsul

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul, mlyn. manat | 7146,5 | 8530,2 | 12522,5 | 18746,2 | 28360,5 | 40137,2 | 35601,5 | 42465,0 | 52082,0 | 53995,0 |
| Qeyri-neft ÜDM, mlyn. manat | 4447,6 | 5242,5 | 6055,1 | 7630,0 | 10576,1 | 15197,3 | 16726,0 | 21363,9 | 25431,5 | 28474,9 |
| Hər nəfərə düşən ÜDM, manat | 872,7 | 1030,4 | 1494,3 | 2208,2 | 3296,6 | 4603,7 | 4033,2 | 4753,0 | 5752,9 | 5884,5 |
| Hər nəfərə düşən qeyri-neft ÜDM, manat | 543,1 | 633,3 | 722,5 | 898,8 | 1229,4 | 1743,1 | 1894,8 | 2391,2 | 2809,1 | 3103,3 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycan Prezidenti İlham Əliyev dövlət siyasətin fövqündə insan amilinin dayanmasını bəyan etmişdir. Əhali həm doğulanların sayının artması, həm də insan ömrünün uzanması hesabına çoxalır. 2003-ci ildə 113 min nəfər uşaq doğulubsa, 2012-ci ildə bu göstərici 54 faiz artaraq 174 min nəfərə çatıb. Hər il Azərbaycanda doğulan uşaqların sayı münaqişədən əvvəlki dövrdə Dağlıq Qarabağın əhalisinin sayına bərabərdi. Doğulanda gözlənilən ömür üzunluğu isə 72,3-dən 73,9-a çatıb. Beləliklə, Azərbaycan uzunömürlülərin diyarı kimi qədim şöhrətini özünə qaytarır.

Şəkil 1.1.

Əmək qabiliyyətli yaşda əhali *(ilin sonuna, min nəfər)*




**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycanda hər il əhali Lixtenşteyn, Monako və San-Marino kimi ölkələrin sakinlərinin cəmi sayı qədər artır. Demək olar ki, respublikada illik əhali artımı Hacıqabul kimi rayonun sakinlərinin sayının iki mislinə bərabədi. Azərbaycanda əhalinin hər min nəfərinə düşən təbii artım 13,5-dir. Bu göstəriciyə görə Azərbaycan Braziliya, Rusiya, Cənubi Afrika Respublikası və Çin kimi gələcəyin ölkələri hesab edilən BRICS beşliyinə daxil olan 5 dövlətdən dördünü arxada qoya bilmişdir.

Şəkil 1.2.

2012-ci ildə Azərbaycanda əhali artımının Lixtenşteyn, Monako və San-Marinonun cəmi əhalisi ilə müqayisəsi (min nəfər)




**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi və BMT**

Azərbaycanda 2003-2012-ci illərdə əmək qabiliyyətli yaşda əhalinin 20,9 faiz artması insan kapitalının inkişafı üçün əsaslı zəmin yaradıb. 100 faizə yaxın savadlılıq səviyyəsi və son 10 ildə dövlət büdcəsindən elmin inkişafına sərf olunan xərclərin 2,1 dəfə, təhsilə yönəldilən xərclərin 6,9 dəfə artması insan kapitalının inkişaf səviyyəsini göstərir. Son 10 ildə 408,2 min şagird yerlik 1099 ümumtəhsil məktəbi, 9780 yerlik 104 məktəbəqədər təhsil müəssisəsi tikilmiş, məktəblərin 87,2%-i kompyuter və digər İKT avadanlığı ilə təmin olunmuşdur. Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan vətəndaşlarının sayının son 10 il ərzində 2,8 dəfə artması neft gəlirlərinin insan kapitalına çevrilməsinin bariz nümunəsidir.

Cədvəl 1.4.

Azərbaycanda nigahların sayı

| İllər | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Say** | **56091** | **62177** | **71643** | **79443** | **81758** | **79964** | **78072** | **79172** | **88145** | **79065** |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

2003-2012-ci illərdə Azərbaycanda nigahların sayı hətta əhalinin artım sürətini də üstələyərək 56 mindən 79 minə çataraq 41,2 faiz artmışdır. Müqayisə üçün deyək ki, əhali bu dövrdə 12,1 faiz artmışdır. Nigahların artım dinamikası Azərbaycan dövlətinin siyasətində ailənin nə dərəcədə əhəmiyyətli rol oynadığını göstərir.

Cədvəl 1.5.

Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı (tədris ilinin əvvəlinə, nəfər) | 804 | 1 018 | 1 182 | 1 225 | 1 256 | 1 625 | 2 041 | 2 055 | 2 096 | 2 270 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin məlumatına görə ölkə məktəbliləri üç beynəlxalq qiymətləndirmə proqramında iştirak edib. Azərbaycanın 2006-cı ildən iştirak etdiyi PISA (Programme for International Student Assessment - Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramı) müxtəlif ölkələrin şagirdlərinin oxu, riyaziyyat və təbiət elmləri üzrə bacarıqlarının, eyni zamanda müxtəlif tipli problemləri həlletmə qabiliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə aparılır. Azərbaycanın qoşulduğu TIMSS və PIRLS beynəlxalq qiymətləndirmə proqramları isə şagirdləri yaşına görə deyil, kurikuluma görə qiymətləndirir. Hər üç qiymətləndirmə proqramında Azərbaycanın mövqelərinin yaxşılaşdırılması üçün dövlət siyasəti daha da gücləndirilməlidir.

Azərbaycanda işçi qüvvəsinin artımı ilə yanaşı, həm də orta aylıq real əmək haqqı da yüksəlir.

Cədvəl 1.6.

Azərbaycanda orta aylıq nominal əmək haqqının dinamikası, manat

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Orta aylıq nominal əmək haqqı, manat | 77.4 | 99.4 | 123.6 | 149.0 | 215.8 | 274.4 | 298.0 | 331.5 | 364.2 | 398.4 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti illərində 1,2 milyon iş yeri yaradılmış və orta aylıq nominal əmək haqqı 5,1 dəfə yüksələrək 2003-cü ildə 77,4 manatdan 2012-ci ildə 398,4 manata çatmışdır. Əmək haqqı səviyyəsinə görə Azərbaycan Rusiya və Qazaxıstanla birlikdə MDB-nin ilk üçlüyündədir.

Cədvəl 1.7.

Azərbaycanda açılmış iş yerlərinin sayı

| | 2003-2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Açılmış iş yerlərinin sayı, cəmi | 153 584 | 169 013 | 173 886 | 146 870 | 122 924 | 73 613 | 73 009 | 94 111 | 120 355 |
| ondan daimi iş yerləri: | 114 743 | 109 802 | 127 860 | 105 611 | 89 557 | 54 515 | 52 721 | 72 353 | 95 685 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Dövlət Sosial Müdafiə Fondunun məlumatına görə, 2003-2013-ci illər ərzində əmək pensiyalarının orta aylıq məbləği 9,2 dəfə arta-

raq 18,4 manatdan 170 manata qədər artıb. Nəticədə orta pensiya orta əmək haqqının 40 faizini təşkil edir ki, bu da Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsi ilə eynidir. Həyata keçirilən davamlı sosial müdafiə tədbirləri nəticəsində pensiyaçıların 97 faizinin pensiya məbləği yoxsulluq həddinin üzərinə çıxıb. Qeydiyyata alınmış sığortaolunanların sayı təqribən 2 dəfə artaraq 1 milyon 303 min nəfərdən 2 milyon 581 min nəfərə çatıb. Bu dövrdə Dövlət Sosial Müdafiə Fondunun büdcəsində sosial sığorta haqları üzrə daxilolmalar 7 dəfə artaraq 223 milyon manatdan 1 milyard 550 milyon manata yüksəlib. Hazırda 1 pensiyaçıya orta hesabla 2,1 nəfər sığortaolunan düşür. Gələcəkdə sığorta-pensiya sisteminin maliyyə dayanıqlığının təmin olunması üçün bu nisbətin daha da artırılması planlaşdırılır.

Cədvəl 1.8.

Azərbaycanda təyin olunmuş aylıq pensiyaların orta məbləği (manatla)

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təyin olunmuş aylıq pensiyaların orta məbləği | 23,8 | 24,0 | 28,5 | 41,1 | 62,9 | 95,8 | 100,4 | 112,9 | 145,1 | 152,0 | 170 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı son 7 ildə 2,7 dəfə artmışdır ki, bu da ölkədə aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə ciddi töhfə vermişdir. Ünvanlı yardımların təyinatlarında ünvanlılıq prinsipinə 90%-ə qədər əməl olunduğu müəyyən edilib və bu göstərici ünvanlı sosial yardım tətbiq edən ölkələr arasında ən yaxşı nəticələrdən biri kimi qiymətləndirilib. Ünvanlı sosial yardımla yanaşı Azərbaycanda 2011-2012-ci illəri əhatə edən "Aztəminatlı ailələrin sosial reabilitasiyası haqqında" yeni dövlət proqramı da qəbul olunub. Proqramın həyata keçirilməsi nəticəsində ölkədə aztəminatlı ailələrin sayının daha da azalacağı gözlənilir.

Cədvəl 1.9.

Azərbaycanda ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı

| | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|
| Ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı | 48 705 | 78 092 | 163 409 | 144 844 | 122 781 | 120 478 | 133 613 |
| Ünvanlı dövlət sosial yardımı alan ailə üzvlərinin sayı, nəfər | 218 673 | 364 059 | 749 965 | 657 317 | 552 514 | 541 989 | 589 922 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Dövlətin sosial siyasəti nəticəsində yoxsulluğun səviyyəsi 2011-ci ildə 49%-dən 2013-cü ildə 6%-ə enmişdir. Azərbaycanda yoxsulluğun azalması ilə paralel orta təbəqə də genişlənmişdir. Nəticədə Azərbaycanda romb-şəkilli cəmiyyət qurulmuşdur: rombun yuxarı və aşağısında müvafiq olaraq varlılar və kasıblar, ortasında isə orta sinif dayanır. 2006-2011-ci illərdə Azərbaycan iqtisadiyyatının sürətli inkişafı və orta təbəqənin güclənməsi arasında müsbət korelyasiya olduğu müşahidə edilir. Təsadüfi deyil ki, orta təbəqədən olan insanların 19,7 faizi ölkədəki iqtisadi durumu "çox yaxşı", 28,8 faizi yaxşı və 41,8 faizi "orta" qiymətləndirib. Apardığımız logit analizin nəticələrinə görə ev təsərrüfatlarının ölçüsünün böyüməsi həmin ev təsərrüfatının orta təbəqəyə düşmə ehtimalını azaldır. Əksinə logit modelə görə insanların yaşının artması onların orta sinfə düşmə ehtimalına statistik əhəmiyyətli təsir göstərmir. Azərbaycanda kişilərin orta sinfə düşmə ehitmalı daha böyükdür. Logit model düzgün olaraq təsdiqləyir ki, ev təsərrüfatının orta sinfə düşməsinə ən çox təsir göstərən amil adambaşına gəlirin ölçüsüdür.

Cədvəl 1.10.

Azərbaycanda insanların orta sinfə düşmə ehitmalını göstərən Logit analizin nəticəsi

| | B | Std.səhv | Vald | ст.св. | Eht. | Exp(B) |
|---|---|---|---|---|---|---|
| Ev təsər.-n ölçüsü | -,262 | ,038 | 46,571 | 1 | ,000 | ,770 |
| Respondentin cinsi | ,318 | ,123 | 6,720 | 1 | ,010 | 1,375 |
| Respondentin yaşı | ,003 | ,004 | ,505 | 1 | ,477 | 1,003 |
| Hər nəfərə gəlir | ,014 | ,001 | 128,978 | 1 | ,000 | 1,014 |
| Konstant | -1,147 | ,378 | 9,233 | 1 | ,002 | ,318 |

**Mənbə: Müəllifin hesablamaları**

Azərbaycan dövləti sosial bazar iqtisadiyyatı qurur. Sosial bazar iqtisadiyyatının əsas prinsipləri - bazarın qiymət mexanizmi, açıq bazar, şəxsi mülkiyyətin üstünlüyü, müqavilə azadlığı və iqtisadi siyasətin davamlılığı - Azərbaycan dövlətinin iqtisadi siyasətində öz əksini tapır.

Nəzərə almaq lazımdır ki, Azərbaycanda sosial balans və azadlıq arasında tarazlıq qorunur. Azərbaycan dövləti çox ağır şəraitdə bir tərəfdən 1 milyon nəfər qaçqın və məcburi köçkün, digər tərəfdən isə təcavüz üzündən yüksək səviyyədə saxlanılan hərbi xərclər nəzərə alınmaqla öz siyasətini sosial rifah halının yaxşılaşdırılması və bazar münasibətlərinin inkişaf etdirilməsinə yönəldir. "Azərbaycan-2020: Gələcəyə baxış" konsepsiyası da Azərbaycan dövlətinin sosial bazar fəlsəfəsinə sadiq qalacağını və sərt bazar qanunları ilə sosial rifah arasında tarazlığı qoruyacağına əminlik yaradır. Azərbaycan keçid dövrünü başa vuraraq bazar münasibətlərini tam bərqərar etmişdir. Lakin qlobal miqyasda baş verən kataklizmlər dövlətin sosial rifahı halının yüksəldilməsi məsələsini daim diqqət mərkəzində saxlamasını zəruri edir. Hətta son qlobal böhran da tam bazar iqtisadiyyatı qurmuş Azərbaycanda sosial rifah halının pisləşməsinə səbəb ola bilmədi. Hansı ki, sosial yönümlü bazar iqtisadiyyatı qurmuş bəzi ölkələrdə böhran əhalinin sosial rifah halına mənfi təsirini buraxmaqdadır. Azərbaycanda isə sosial bazar münasibətləri qurulduğundan və rasional iqtisadi siyasət aparıldığından əhalinin sosial vəziyyəti qlobal böhran zamanı nəinki pisləşmir, hətta yaxşılaşmaqda davam edir.

## 1.4. Azərbaycan iqtisadiyyatının strukturu

Azərbaycan iqtisadiyyatının sahələr üzrə inkişafını müəyyənləşdirən əsas amillər bunlardı: Hər bir sahənin rəqabət üstünlüyü potensialı; İxracyönümlülük və idxalı əvəzetmə; İş yerlərinin yaradılması; Regional tarazlıq; Bilik iqtisadiyyatı.

Davamlı iqtisadi inkişafın əsası kimi Azərbaycan sənayeləşmə (qeyri-neft sektorunda) siyasətinə xüsusi əhəmiyyət verir. Azərbaycanda son 10 il ərzində sənaye məhsulunun həcmi 6,9 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 3,3 dəfə artmışdır. Bu rəqəm ölkədə güclü sənayeləşmə prosesinin getməsindən xəbər verir. 2012-ci ildə neft hasilatının həcmi 2003-cü illə müqayisədə 2,8 dəfə, qaz hasilatının həcmi isə 5,3 dəfə artmışdır. Bunun nəticəsi olaraq Azərbaycan öz enerji təhlükəsizliyini təmin etməklə yanaşı, həm də region ölkərininin etibarlı enerji təminatçısına çevrilmişdir.



**Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi ilə tanış olurlar (10 oktyabr 2013-cü il)**

İstifadəyə verilən sənaye müəssisələrinin istehsal gücünü artırması və yeni rəqabətədavamlı məhsulların istehsalı qeyri-neft sənayesinin ümumi daxili məhsulda xüsusi çəkisinin artmasına səbəb olub. 2010-cu ildə qeyri-neft sənayesi üzrə 6,2 faiz real artım qeydə alındığı halda, 2011-ci ildə daha yüksək artm fiksə olunmuşdur - 11,7 faiz. 2012-ci ildə isə qeyri-neft sənayesində 8 faizlik artım baş verdi. 2013-cü ilə olan proqnozlara görə, qeyri-neft sənayesində rekord səviyyədə -18,1 faiz artım gözlənilir. Sonrakı illərdə isə artım ildə, orta hesabla, 11,2 faiz təşkil edəcək. Ötən illərdə əsası qoyulan, xarici investisiyaların cəlb olunması üçün əlverişli imkanlara malik sənaye parklarının yeni texnologiyalar əsasında tam gücü ilə fəaliyyətə başlaması yaxın perspektivlərdə ölkənin qeyri-neft sənayesi gücünü daha da artıracaq.

Cədvəl 1.11.

Azərbaycanda sənaye məhsulunun həcmi

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sənaye məhsulunun həcmi, mlyn. manat | 4982 | 5961 | 9309 | 15544 | 22496 | 29773 | 22564 | 27978 | 35027 | 34565 |
| neft sektoru | 2970 | 3654 | 6486 | 12359 | 18482 | 24981 | 18262 | 22901 | 29221 | 27849 |
| qeyri-neft sektoru | 2012 | 2307 | 2823 | 3185 | 4014 | 2792 | 4302 | 5077 | 5806 | 6716 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Sumqayıtda neft-kimya məhsullarının emalı, Balaxanıda məişət tullantılarının emalı və Gəncədə metal (alüminium) məmulatların istehsalı üzrə sənaye şəhərcikləri və digər texnoparkların yaradılması Azərbaycanın sənayeləşmə siyasətinə öz təhfəsini verəcəkdir.

2003-2012-ci illərdə nəqliyyat sektorunda yük daşınmasının 2 dəfəyə, sərnişin daşınmasının isə 18 dəfəyə yaxın artımı Azərbaycanın

Avrasiya coğrafiyasının mərkəzində mühüm strateji haba çevrilməsini şərtləndirmişdi.

Cədvəl 1.12.

Azərbaycanda nəqliyyat sektorunun əsas göstəriciləri

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 110001 | 117314 | 128328 | 145596 | 167533 | 183093 | 190372 | 196452 | 203586 | 210862 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin | 920988 | 954079 | 1000278 | 1063347 | 1148328 | 1242161 | 1328073 | 1387308 | 1491905 | 1617339 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycan bilik iqtisadiyyatına doğru istiqamət götürdüyündən postneft dövrü üçün prioritet istiqamət İKT sahəsidir. Bu sahənin inkişafına qarşıdakı 10 ildə 3,5 milyard ABŞ dolları dövlət investisiyası, elə bir o qədər də özəl sərmayə cəlb olunacaq. Dünya İqtisadi Forumunun (DİF) "Qlobal informasiya texnologiyaları 2013" hesabatında Azərbaycan "Şəbəkələşmə hazırlığı indeksi"nə görə əvvəlki mövqeyindən 5 pillə irəliləyərək, dünyanın 144 ölkəsi arasında 56-cı yerə yüksəlib. Hesabata əsasən, Azərbaycan internet istifadəçilərinin sayına görə MDB ölkələri arasında lider olmaqla, 144 ölkə arasında "İKT-yə dəstəkdə hökumətin uğurları" indeksi üzrə 8-ci, "Hökumətin gələcək baxışlarında İKT-nin əhəmiyyətliliyi" indeksi üzrə 9-cu, internetin əlçatanlığı göstəricisinə görə isə 20-ci yerdə qərarlaşıb.

İKT sektorunda son illər orta illik artım tempi təxminən 10 faiz təşkil edib. BMT Baş Assambleyasının son qətnamələri ilə dünya birliyi tərəfindən dəstəklənən, Azərbaycan hökumətinin təşəbbüsü ilə yaradılan "Avrasiya Rabitə Alyansı" ("Eurasian Connectivity Alliance"-EuraCA) və "Transmilli Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihələri Azərbaycanın İKT sahəsində ixracyönümlü siyasətini

göstərir. İKT-nin inkişafı həm də iqtisadiyyatın digər sahələrində səmərəliliyin yüksəldilməsinə xidmət edir. "E-hökumət", "Elektron imza", ümumilikdə elektron xidmətlərin həcminin artırılması, genişzolaqlı internet xidmətlərinin ölkənin bütün ərazisində tətbiqi ilə bağlı tədbirlərin davam etdirilməsi iqtisadi inkişafı sürətləndirən amillər sırasındadır.

Azərbaycanın ərzaq təhlükəsizliyi, regionların inkişafı, məşğulluq və yoxsulluğun ixtisarı nöqteyi-nəzərindən əhəmiyyət kəsb edən aqrar sektorun inkişafı dövlətin diqqət mərkəzindədir. Dövlət tərəfindən verilən güzəştli kreditlər, subsidiyalar, meliorasiya və irriqasiya işləri və regional infrastrukturun təkmilləşdirilməsi kənd təsərrüfatının inkişafını sürətləndirmişdir. 2012-ci il 2003-cü ilə nisbətən kənd təsərrüfatında ümumi məhsul 42,9 faiz artmışdır, beləliklə, hər nəfərə düşən kənd təsərrüfatının ümumi məhsulu 177 manatdan 528 manata çatdırılmışdır. Azərbaycan vətəndaşı əsas ərzaq məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir. 2003-2012-ci illər ərzində taxıl istehsalı 36,2 faiz, kartof 25,9 faiz, tərəvəz 16,2 faiz, ərzaqlıq bostan bitkiləri 20 faiz, meyvə və giləmeyvə 41,6 faiz, ət (kəsilmiş çəkidə) 53,9 faiz, süd 47,3 faiz və yumurta 79,9 faiz artmışdır. Beləliklə, İlham Əliyevin iqtisadi siyasəti nəticəsində Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi ən yüksək səviyyədə təmin edilmişdir. Əgər müstəqilliyin ilk illərində Azərbaycan humanitar yardım formasında xaricdən ərzaq alırdısa, hazırda respublikamız donor ölkə statusu qazanıb.

Ölkədə ərzaq məhsulları ilə özünü təmin etmə səviyyəsi son 6 ildə əhəmiyyətli şəkildə artaraq 10 əsas məhsul qrupundan 6-sı üzrə ən azı 92% təşkil etmiş, o cümlədən 2 məhsul qrupu üzrə 100%-i ötmüşdür. Beləliklə, İlham Əliyevin prezidentliyi dönəmində Azərbaycan dövləti özünün ərzaq təhlükəsizliyini əhəmiyyətli şəkildə təmin etmişdir.

Azərbaycan dövlətinin apardığı diversifikasiya siyasətinin əsas istiqamətlərindən biri də, ölkə daxilində regional balansın yaradılması və coğrafi tarazlığın qorunmasıdır. Müstəqilliyin ilk illərində hələ so-

vet dövründə formalaşmış regional disbalans daha da dərinləşmişdir. Ermənistanın təcavüzü isə respublikanın qərb hissəsində əhalinin deportasiyasını sürətləndirmiş, infrastrukturu zəiflətmiş və iqtisadiyyatı gerilətmişdir. Yalnız Azərbaycanda siyasi sabitliyin bərpası ilə regional tarazlı inkişaf xəttini götürmək mümkün olmuşdur. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafını nəzərdə tutan 2004-2008-ci və 2009-2013-cü illər dövlət proqramları icrası regional inkişafın sistemli və kompleks xarakterini müəyyənləşdirmişdir. Dövlət Proqramlarının qəbul edilməsi və həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisindən başqa bütün vergilərinin ödənilməsindən azad edilmiş, əkin sahələrinin hər hektarına 40 manat, buğda və çəltik səpininə isə 80 manat yardım verilmiş, suvarma suyu istehsalçılara aşağı qiymətlə satılmış, gübrə və damazlıq heyvanlar mülkiyyətçilərə 50 faiz güzəştlə satılmış, 1-ci və 2-ci reproduksiyalı toxumların satışına görə dövlət büdcəsindən istehsalçılara subsidiya ödənilmiş, "Aqrolizinq" ASC tərəfindən kənd təsərrüfatı texnikaları 10 il müddətinə istehsalçılara lizinqə verilmiş, Sahibkarlığa Kömək Milli Fonddan və Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən məhsul istehsalçılarına və emalçılara güzəştli kreditlər verilmişdir. Son 10 ildə regionlarda 5 beynəlxalq hava limanı və 4 avtovağzal kompleksi istifadəyə verilmişdir. 2003-2012-ci illər ərzində tikilmiş 14 elektrik stansiyasının əksəriyyəti regionların payına düşür ki, bunun da hesabına ölkədə elektrik stansiyalarının gücü 21% artmışdır. Son 10 il ərzində əksəriyyəti regionlarda olmaqla 27 otel, 11 dövlət təbiət qoruğu, 9 milli park və 24 dövlət təbiət yasaqlığı yaradılmışdır. Nəticədə ölkəkəyə gələn turistlərin sayı 4,6 dəfə artmış və bu xüsusda regionların payı yüksək olmuşdur.

2014-cü ildən Sumqayıt şəhəri, Şirvan şəhəri və Abşeron rayonundan sonra, Mingəçevir şəhəri və İmişli rayonunun da yerli gəlirləri xərclərini tam ödəyəcəkdir. Azərbaycan dövləti tədricən kiçik və orta şəhərlərin maliyyə müstəqilliyinə çatmasını dəstəkləyir.

## 1.5. Azərbaycanın xarici iqtisadi siyasəti

2003-2012-ci illərdə Azərbaycanda xarici ticarət dövriyyəsini 6,4 dəfə, ixrac 9,2 dəfə və idxal 3,7 dəfə artmışdır. Xarici ticarət balansının saldosu isə bu illər ərzində mənfi 35,8 milyon ABŞ dollarından 14,3 milyard ABŞ dollarına qədər yüksəlmişdir. İxracın həcmi 2008-ci ildə pik həddə - 47,8 milyard ABŞ dollarına çatmışdır ki, bu da həmin ilin neftin qiymətlərinin hər barel üçün 148 ABŞ dollarına qədər bahalaşması hesabına baş vermişdir. Hətta 2008-ci ildə Azərbaycan neftini dünya bazarına çatdıran Bakı-Ceyhan neft kəmərində müvəqqəti dayanma da ixrac gəlirinin tarixi rekord həddinə çatmasına mane ola bilməmişdir.

Cədvəl 1.13.

Xarici ticarət dövriyyəsi (milyon ABŞ dolları)

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi dövriyyə | 5216,6 | 7131,4 | 8558,4 | 11638,9 | 11771,7 | 54926,0 | 20824,5 | 27960,8 | 36326,9 | 33560,9 |
| | | | | | | | | | | |
| İdxal | 2626,2 | 3515,9 | 4211,2 | 5266,7 | 5713,5 | 7170,0 | 6123,1 | 6600,6 | 9756,0 | 9652,9 |
| İxrac | 2590,4 | 3615,5 | 4347,2 | 6372,2 | 6058,2 | 47756,0 | 14701,4 | 21360,2 | 26570,9 | 23908,0 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2013-cü ildə ən çox ixrac olunan mallar neft, qaz və neft məhsulları ilə yanaşı kimya məhsulları, pambıq lifi, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, meyvə-tərəvəz, çay, bitki və heyvan yağları, şəkər, alkoqollu və alkoqolsuz içkilər olmuşdur. 2012-ci ildə qeyri-neft ixracının 10 faiz artmasında paytaxt şəhəri Bakı ilə yanaşı, regionların payı əhəmiyyətli olmuş-

dur. Bu onu göstərir ki, Azərbaycanda iqtisadi diversifikasiya həm də bölgələr üzrə olmaqla coğrafi xarakter də daşıyır.

Azərbaycanda regionların payı qeyri-neft ÜDM-da təxminən 35 faizə çatır. Qeyri-neft ixracında (pambıq lifi, meyvə-tərəvəz, bitki və heyvan yağları, alkoqollu və alkoqolsuz içkilər) regionların payı da təqribən eyni həddədir. Əgər müstəqillik illərində Bakı ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynadısa, regionlar da ərzaq təhlükəsizliyini təmin etdilər. Regionların hesabına 2003-2012-ci illər ərzində ərzaq təhlükəsizliyinin gücləndirilməsində xeyli uğurlar əldə edilmişdir. 2012-ci ildə 2003-cü ilə nisbətən taxıl istehsalı 36,2 faiz, o cümlədən buğda istehsalı 19,4 faiz, kartof 25,9 faiz, tərəvəz 16,2 faiz, bostan məhsulları 20,0 faiz, meyvə 41,6 faiz, üzüm 2,3 dəfə, ət (kəsilmiş çəkidə) 53,8 faiz, süd 47,2 faiz, yumurta 79,9 faiz, yun 36,3 faiz artmışdır. Regionlarda ərzaq istehsalının tam bir dəyər zənciri yaradılıb ki, bu da təkcə daxili tələbatı deyil, həm də ixracın artırılmasına öz töhfəsini verir. Məsələn, Qafqazın ən böyük şəkər emalı zavodu olan - İmişli şəkər zavodunun fəaliyyəti nəticəsində 2013-cü ildə ilk dəfə olaraq şəkər Azərbaycanın ən çox ixrac olunan məhsulları sırasına daxil olub. 2013-cü ilin ilk 6 ayı ərzində şəkər Azərbaycanın ən çox ixrac olunan qeyri-neft məhsulu olub. Şəkərin ixrac həcmi 123 milyon ABŞ dolları təşkil edib.

2003-2012-ci illərdə Azərbaycanın qeyri-neft ixracı 4,5 dəfə artmışdır. Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2013-cü ildə ən çox idxal olunan məhsullar bunlar olmuşdur: yeyinti məhsulları,tütün və tütün məmulatları, sement,maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri, nəqliyyat vasitələri və onların hissələri,qara metallar və onlardan hazırlanan məmulatlar,oduncaq və ondan hazırlanan məmulatlar,mebel və onun hissələri və əçzacılıq məhsulları. İdxalın tərkibində investisiya məhsullarının (maşın, mexanizm, avadanlıqlar və s.) üstünlük təşkil etməsi ölkədə aparılan tikinti-quruculuq işləri ilə bağlıdır.

Cədvəl 1.14.

Azərbaycanın qeyri-neft ixracı

| İllər | Cəmi ixrac (min ABŞ dolları) |
|---|---|
| 2003 | 373932,4 |
| 2004 | 647710,8 |
| 2005 | 1030873,2 |
| 2006 | 1000852,6 |
| 2007 | 1136678,5 |
| 2008 | 1420528,7 |
| 2009 | 1089829,0 |
| 2010 | 1265275,7 |
| 2011 | 1521683,4 |
| 2012 | 1673542,0 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

2013-cü ildə bir sıra yeyinti məhsullarının idxalında azalmanın qeydə alınması daxili istehsalın genişlənməsinin göstəricisidir. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən Azərbaycanın ixracını təşkil edən məhsulların qiymətləri idxalı təşkil edən məhsulların qiymətləri ilə müqayisədə daha sürətlə artır. Bu, daha az ixrac hesabına daha çox mal və xidmət idxal etmək imkanlarının artdığını, başqa sözlə ticarət şəraitinin yaxşılaşdığını göstərir.

Azərbaycan xarici ticarətinin konturlarını müəyyənləşdirərkən Avropa İttifaqı ilə azad ticarət zonası və rəsmi Moskvanın dəstəklədiyi Gömrük İttifaqı kimi xarici faktorlar nəzərə alınmalıdır. Brüssel və Moskva keçmiş sovet respublikalarını öz yaratdıqları iqtisadi məkana daxil etmək üçün kəskin mübarizə aparırlar. Azərbaycanın həm Rusiya, həm də Avropa İttifaqından asılılığının az olması imkan verir ki, rəsmi Bakı iqtisadi diplomatiyasında daha sərbəst olsun.

## 1.6. Azərbaycan iqtisadiyyatının gələcək inkişaf perspektivləri

"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasına əsasən Azərbaycan əhalinin gəlirlərinin yüksək, işsizlik səviyyəsinin minimum həddə olduğu, inkişaf etmiş insan kapitalına, mühafizə edilən, sağlam ətraf mühitə və hər bir vətəndaşı üçün geniş imkanlara malik məkan olacaqdır. Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində dövrün sonuna ölkədə adambaşına düşən ÜDM-in həcmi iki dəfə artaraq 13000 ABŞ dollarına çatacaqdır. 2020-ci ilədək Azərbaycanın Dünya Bankının adambaşına düşən Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli ölkələr" arasında tamhüquqlu ölkə olması və hazırda bu qrup ölkələr sırasında yer almanın əsas səbəbi olan karbohidrogen ixracından asılılığın aradan qaldırılması, habelə BMT-nin İnkişaf Proqramının İnsan İnkişafı ilə bağlı təsnifatına əsasən "yüksək insan inkişafı" ölkələri qrupunda yuxarı sıralara yüksəlməsi hədəflənir.

Azərbaycan Respublikasının iqtisadi inkişaf baxımından regionun lider dövlətindən beynəlxalq iqtisadi münasibətlər sistemində yüksək rəqabətqabiliyyətli iştirakçı statusuna yüksəlməsi reallaşdırılacaqdır. Bu məqsədlə ölkənin əlverişli coğrafi mövqeyi, geniş potensialı nəzərə alınaraq, ölkənin regionun ticarət mərkəzinə çevrilməsi, qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 ABŞ dollarına çatdırılması planlaşdırılır. Azərbaycan ixracyönümlü iqtisadiyyat qurmaq istədiyindən gələcəkdə Avropa İttifaqı və Gömrük İttifaqı ölkələrinin bazarlarını hədəf kimi götürə bilər.

Azərbaycanın okeana birbaşa çıxışının olmaması ölkəni bir sıra xidmət növləri üzrə ixracı genişləndirməyə vadar edir. Bu mənada Azərbaycanın nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün geniş layihələr həyata keçirilir. Bakı-Tbilisi-Qars dəmiryolu xətti və Ələt beynəlxalq dəniz limanı başda olmaqla nəqliyyat infrastrukturunun modernləşdirilməsi Azərbaycanı Avropa və Asiya qitələri arasında əlverişli bir nəqliyyat habına çevirir.  Azərbaycan TRACECA xəttinin

(4,577 km) üzərində yerləşir ki, bu da Avropa ilə Asiyanı birləşdirən Şimal-Cənub (6,978km), Transsib (9,200km) və Cənub dəhlizi (11,700km) ilə müqayisədə daha qısadır. Üstəlik Türkiyədə Bosfor boğazından keçən Mərmərə layihəsi imkan verəcək ki, Azərbaycan-Gürcüstan-Türkiyə üzərindən yüklər və sərnişin Avropa və Asiya arasında vaxt və məsafə baxımından sərfəli şərtlərlə daşınsın.

Azərbaycanın Avropa və Asiya arasındakı əlverişli coğrafi mövqeyi və bilik iqtisadiyyatının strateji hədəf olaraq seçilməsi ölkənin həm də İKT sahəsində haba çevrilməsini şərtləndirir. Trans Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsi vacib regional təşəbbüsdür və onun məqsədi əsasən Qərbi Avropadan Şərqi Asiyaya qədər Avrasiya ölkələrinin əhatə edən transmilli fiber-optik xəttin çəkilməsidir. Layihə Frankfurtdan Honq Konqa istiqamətlənən əsas tranzit xəttinin qurulmasını nəzərdə tutur. Bu xətt Avropanın və Asiyanın ən böyük informasiya mübadiləsi mərkəzlərini birləşdirəcəkdir. Tranzit xətti Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyədə keçərək Almaniyaya gedəcəkdir. BMT Baş Assambleyası Avrasiya Super İnformasiya Magistralı layihəsini dəstəkləyən bir sıra qətnamələr qəbul etmiş və TASİM-in əlaqələndirilməsində Azərbaycanın rolunu yüksək qiymətləndirmişdir. Azərbaycanın öndərlik etdiyi layihə geniş Avrasiya regionunda "rəqəmsal uçurum"un aradan qaldırılmasında əhəmiyyət daşıyır.

Azərbaycanın orbitə buraxdığı "Azerspace-1" telekommunikasiya peyki 2013-cü ilin sonuna qədər 10 milyon ABŞ dolları həcmində resurs ixrac edəcək. Orbitə buraxılması planlaşdırılan daha iki süni peykin vasitəsilə Azərbaycan dünyanın kosmik bazarlarında da öz yerini möhkəmləndirməyə çalışır.

2014-cü ildən başlayaraq 2017-ci ilə qədər Azərbaycanda neft hasilatı "W-şəkilli" dinamikaya malik olacaq və təxminən 40 milyon tonluq hasilat həcmi ətrafında rəqs edəcək. Bu müddət ərzində mötəbər analitik mərkəzlər neftin hər barelinin ortalama 100 ABŞ dolları ol-

ması barədə proqnozlar verirlər. Beləliklə, Azərbaycan ortamüddətli dönəmdə neft gəlirlərini sabitləşdirəcək, 2019-cu ildən başlayaraq "Şahdəniz 2" fazasından təbii qaz ixracını genişləndirməklə isə azalan neft gəlirlərini kompensasiya edəcəkdir. Sabit neft-qaz gəlirləri Azərbaycanda qeyri-karbohidrogen sektorunun rahat inkişafı ümün zəmin yaradır. Məsələn, 2011-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 48,8 faizdən 2017-ci ildə 72,4 faizə çatacaq. 2014-2017-ci illərdə qeyri-neft sektoru 40 faizə qədər artacaq və 8,6 faiz həddində orta illik artım tempinə malik olacaq. Qeyri-neft sektorunun sürətlə artan sahələri - tikinti, turizm, İKT, ərzaq istehsalı və bəzi qeyri-neft sənaye sahələri olacaq.

2014-2017-ci illərdə ÜDM-in orta illik artım tempi 5 faizdən çox olacaq ki, bu da ölkənin "orta gəlir tələsindən" (middle income trap) sürətlə uzaqlaşmasını təmin edəcək. Çünki "yuxarı orta gəlirli" ölkələrin orta gəlir tələsindən qurtarması üçün illik ən azı 3,5 faiz artıma nail olması tələb olunur.

Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı təkcə bu ölkə üçün deyil, bütünlükdə region üçün problem sayılır. Azərbaycan təhlükəsizliyini təmin etmək və məcburi köçkün və qaçqınların rifahının yaxşılaşdırmaq üçün ağır bir maliyyə yükünün altındadır. Əgər Azərbaycan əraziləri işğaldan azad olunsa, rəsmi Bakı qənaət etdiyi vəsaiti təkcə işğaldan azad olan ərazilərinin deyil, bütünlükdə regionun inkişafına sərf edə bilər. Azərbaycanın regional və qlobal müstəvidə fəal aktora çevrilməsi siyasi, iqtisadi və humanitar istiqamətlərdə fəallığının artması ilə səciyyələnir. Müstəqil dövlət kimi yaşadığı iki onillik ərzində BMT Təşlükəsizlik Şurasının üzvü olmuş və dünyanın 40 ən güclü iqtisadiyyatından birini qurmuş Azərbaycan gələcək 10 il ərzində Avrasiya materikinin mərkəzində mühüm hab və Avropanın enerji təhlükəsizliyində əsas rol oynaycaq inkişaf etmiş bir dövlətə çevrilməyi hədəfləyir.

Cədvəl 1.15.

2011-2017-ci illər üzrə makroiqtisadi göstəricilərin istiqamətləri

| Göstəricilər | Ölçü vahidi | Hesabat | | Gözlənilən | Proqnoz | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| 1.ÜDM bazar qiymətləri ilə | Mln man. | 52082,2 | 53995,0 | 54740,8 | 58568,9 | 59380,4 | 63057,6 | 67317,2 |
| *Real artım tempi* | % | 0,1 | 2,2 | 4,5 | 5,2 | 5,8 | 4,8 | 6,0 |
| *Deflyator* | % | 22,5 | 1,5 | -3,0 | 1,7 | -4,2 | 1,3 | 0,8 |
| **2. Özəl sektorun ÜDM-də payı** | **ÜDM-də payı %** | **82,5** | **81,5** | **82,3** | **83,2** | **82,1** | **81,8** | **81,8** |
| **3. Neft sektoru, ÜDM, bazar qiymətləri ilə** | **Mln man.** | **26650,5** | **25520,1** | **22798,3** | **22541,1** | **19024,5** | **18305,2** | **18606,9** |
| *Real artım tempi* | % | -9,3 | -5,0 | -1,2 | -1,5 | 2,1 | -3,2 | 1,5 |
| *Defyator* | % | 40,6 | 0,8 | -9,6 | 0,4 | -17,4 | -0,6 | 0,2 |
| *ÜDM-də payı* | % | 51,2 | 47,3 | 41,6 | 38,5 | 32,0 | 29,0 | 27,6 |
| **4. Qeyri neft sektoru, ÜDM, bazar qiymətləri ilə** | **Mln man.** | **25431,5** | **28474,9** | **31942,6** | **36027,8** | **40355,9** | **44752,4** | **48710,3** |
| *Real artım tempi* | % | 9,4 | 9,7 | 9,7 | 10,0 | 8,1 | 8,6 | 7,8 |
| *Deflyator* | % | 8,0 | 2,1 | 2,3 | 2,6 | 3,7 | 2,1 | 1,0 |
| *ÜDM-də payı* | % | 48,8 | 52,7 | 58,4 | 61,5 | 68,0 | 71,0 | 72,4 |
| **5.Əhalinin gəlirləri** | **Mln man.** | **30524,6** | **34723,9** | **38388,9** | **42276,8** | **47165,1** | **51576,6** | **55943,6** |
| *Real artım tempi* | İllik % | 10,5 | 12,5 | 7,0 | 6,4 | 7,5 | 5,2 | 4,2 |
| **6.Əhalinin xərcləri** | **Mln man.** | **22184,0** | **24534,2** | **26735,0** | **29243,8** | **32430,3** | **35262,5** | **38136,1** |
| *Real artım tempi* | İllik % | 6,8 | 9,4 | 5,5 | 5,7 | 6,8 | 4,7 | 3,9 |
| **7.Orta aylıq əmək haqqı** | **Man.** | **364,2** | **398,4** | **439,3** | **479,4** | **520,1** | **566,0** | **618,1** |
| *Real artım tempi* | % | 1,8 | 8,2 | 6,7 | 5,4 | 4,5 | 4,7 | 4,9 |
| **8.İnflyasiya** | % | **7,9** | **1,1** | **3,3** | **3,5** | **3,8** | **3,9** | **4,1** |

**Mənbə: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**

# FƏSİL II

## Yeni sənaye inqilabı və Azərbaycan

Azərbaycanda sənayenin iqtisadiyyatdakı xüsusi çəkisi dünya üzrə orta göstəricini - 30,5 faizi - təxminən iki dəfəyə yaxın üstələyir. BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının məlumatına əsasən Azərbaycan Avropada sənayenin ÜDM-dəki payına görə 2010-cu ildə 1-ci yerdə olub. Həmin ili Azərbaycanda sənayenin ÜDM-dəki xüsusi çəkisi 55,4 faiz olub ki, bu da ən yaxın avropalı rəqib Norveçin eyni göstəricisindən - 35,1 faizdən 20,3 punkt yüksəkdir. Azərbaycanın MDB-dəki ənənəvi rəqibləri Qazaxıstan və Rusiya da iqtisadiyyatın sənayeləşmə səviyyəsinə görə müvafiq olaraq 34 faiz və 28,2 faizlik göstəricilərlə ölkəmizdən xeyli geridə qalırlar. Avropanın ən çox sənayeləşmiş ölkəsi olan Azərbaycanda sənayenin strukturunda mədənçıxarmanın payı 2012-ci ildə 78,8 faiz təşkil etmişdir. Mədənçıxarma sənayesində əsas ağırlıq xam neft və təbii qaz hasilatının üzərinə düşür: 76,2 faiz. Metal filizlərinin, daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi



**Prezident İlham Əliyev Bakı gəmiqayırma zavodunun açılış mərasimində iştirak edir (20 sentyabr 2013-cü il)**

məhsullarının, həmçinin mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi cəmi 2,6 faiz paya malikdir. Emal sənayesi 2012-ci ildə sənayenin strukturunda 15,3 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı 5,3 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı isə 0,6 faiz paya malik olmuşdur. Müstəqillik illərində Azərbaycanda baş vermiş neft bumu sənayenin strukturunu kardinal şəkildə dəyişmişdir. Məsələn, müstəqillikdən əvvəl - 1990-cı ildə sənayedə mədənçıxarma sənayesinin payı cəmi 5,3 faiz olduğu halda, emal sənayesi 90,1 faizlik xüsusi çəkiyə malik idi. Emal sənayesində xüsusilə, qida, geyim, neft məhsullarının, maşın və avadanlıqların istehsalı, metallurgiya aparıcı mövqelərə malik idi.

Hazırda Azərbaycanda kimya, əczaçılıq, rezin və plastmas məmulatları, neft məhsulları, tikinti materialları, metallurgiya, hazır metal məmulatları, kompüter və digər elektron avadanlıqlar, elektrik avadanlıqları, maşın və avadanlıqların istehsalı, elektrik enerjisi (o cümlədən alternativ mənbələr hesabına), qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı, həmçinin kosmik sənaye kimi sahələrin inkişaf potensialı var.

Azərbaycanda sənayenin resurslara əsaslanan inkişafı öz bəhrəsini vermişdir: ölkənin sosial-iqtisadi infrastrukuturu yenidən qurulmuş, iqtisadiyyatın digər sahələri dirçəlmiş və əhalinin sosial rifah halı yaxşılaşmışdır. Hazırda Azərbaycan qlobal çapda baş verən sənaye inqilabının çağırışlarına uyğun olaraq sənaye siyasətini keyfiyyətcə yeni müstəvidə qurmaq istəyir. Əgər sənaye yüksəlişinin birinci mərhələsi karbohidrogen resurslarına əsaslanırdısa, indiki mərhələdə inkişaf iqtisadi səmərəliliyin üzərində qurulmalıdır.

Azərbaycanda sənayeləşmə prosesinə təkan vermək üçün sənaye parkları yaradılır. innovativ sənayenin inkişaf etdirilməsi üçün bir sıra sənaye parkları yaradılmışdır. Bu məqsədlə "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən, ölkədə innovativ sahibkarlığın inkişaf etdirilməsi, yeni fəaliyyət növlərinin və məhsullarının təşviqi

üçün əlverişli mühitin yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlər gücləndirilir. Azərbaycanda elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılır.

2011-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında" və "Bakı şəhərində Balaxanı Sənaye Parkının fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamlar imzalanmışdır. Bu parkın yaradılmasında başlıca hədəf təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şərait yaratmaq olacaq. Park ərazisində mexaniki emal və istehsal qurğuları üçün bütün şəraitlər və lazımi dəstək hökumət tərəfindən təmin ediləcək. Sənaye Parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, o cümlədən əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji təchizatı və əldə edilmiş xam material və ya istehsal edilmiş məhsulun asanlıqla satış bazarına çıxmasına əlverişli imkan yaratmış olacaq.

Yaşıl biznesin, əsasən də tullantıların təkrar emalı sənayesinə marağı artırmaq məqsədi ilə potensial sahibkar və investorlar üçün Parkın xarici və daxili infrastrukturunun qurulması planlaşdırılır. Belə ki, xarici infrastruktur kimi yol salınacaq, əraziyə elektrik, qaz, su, kanalizasiya və rabitə xətləri çəkiləcək. Park girişində qeydiyyat məntəqəsi və tərəzilər qurulacaq, ərazidə ofis və əməliyyat binası tikiləcək və bütün lazımi ilkin infrastruktur yaradılacaqdır. Parkda aşağıdakı sənaye növlərinin inkişaf etdirilməsi planlaşdırılır: Plastikin təkrar emalı, şin/rezinin təkrar istehsalı, elektrik və elektron cihaz tullantılarının təkrar emalı, akkumulyatorların təkrar emalı, əlvan metal və kabellərin təkrar emalı, təhlükəli məişət tullantılarının təkrar emalı (batareya, lampalar, civə tərkibli əşyalar və s.) və yaşıl (təkrar emal olunmuş) məhsulların istehsalı

Balaxanı Sənaye Parkında sahibkarlar qeydiyyata alındıqdan sonra 7 il muddətində mənfəət vergisindən (fərdi sahibkarlar isə gəlir



**Balaxanı Sənaye Parkı**

vergisindən), torpaq vergisindən, əmlak vergisindən, həmçinin sənaye parkında istehsal sahəsinin qurulması və istehsal məqsədi ilə idxal edilən texnika, texnoloji avadanlıq və qurgulara görə ƏDV-dən azad edilib.

Sumqayıt Kimya Sənaye Parkı (SKSP) Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli 548 saylı Fərmanı ilə yaradılmışdır. Sumqayıt Kimya Sənaye Parkının yaradılmasında məqsəd:

- ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq;
- bu sahədə sahibkarlığı dəstəkləmək;
- qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək;
- əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır.

Nəhəng infrastruktura malik Sumqayıt Kimya Sənaye Parkının ərazisi 167,66 hektar (ha) təşkil edir. SKSP-nin Baş Planına əsasən Parkın Sənaye Zonası 114 ha təşkil edəcək. Burada aqro və tibb kimyası, məişət kimyası, tikinti sənayesi kimyası, elektronika və avtomobil sənayesi kimyası, polimerlər və sənaye avadanlıqlarının istehsalı üçün nəzərdə tutulmuş ərazilər yerləşəcək. Müasir üslubda dizayn edilmiş

və 21 ha təşkil edəcək Sosial zonada Parkın rezidentləri üçün böyük imkanlar yaradılacaq. Burada 16 və 20 mərtəbəli inzibati binalar, Sərgi-Konfrans Kompleksi, Peşə Təhsil Mərkəzi, Laboratoriya binası, emalatxanalar, Uşaq Baxım Mərkəzi, açıq və qapalı idman meydançaları, Sağlamlıq Mərkəzi, Yataqxana Kompleksi, həmçinin rezidentlər və işçilərə xidmət edəcək digər obyektlər fəaliyyət göstərəcək.

Əgər sovet dövründə kimya sənayesinin inkişafı Sumqayıtı "ölü şəhərə" çevirmişdisə, müstəqillik illərində yaradılan Kimya Sənaye Parkı yüksək texnologiyalara əsaslanaraq "yaşıl istehsal" qurmaqla ətraf mühitə təsirləri minimuma endirəcək.



**ABŞ səfiri Sumqayıt Texnologiyalar Parkında (2011-ci il)**

Sumqayıt Texnologiyalar Parkının birinci mərhələsi 22 dekabr 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işə salınmışdır. Parkın ərazisi 45 hektardır. Parkdakı zavod korpuslarının ərazisi isə 140 min kvadratmetrdir.

Postsovet məkanında bənzəri olmayan bu texnoparkın istismara verilməsi ölkəmizdə elektroenergetikanın inkişafına, onun mövcud potensialının daha da möhkəmləndirilməsinə, enerji müəssisələrinin yenidən qurulmasına və müasirləşdirilməsinə geniş imkanlar açır. Bu iqtisadi kompleksin işə düşməsi ilə respublikamızın energetika qurğu-

ları yerli texniki avadanlıq və məhsullarla təchiz olunur. Bölgələrdəki təbii ehtiyatlardan istifadə etməklə ucuz və keyfiyyətli məhsul istehsalı qaydaya salınır. Daşıma xərclərinin və müddətinin azalması hesabına nəzərdə tutulan layihələr daha qısa müddətdə reallaşır və məhsulların maya dəyəri aşağı düşür. Bütün bunlar kompleksdə rəqabətə davamlı məhsulların ixracına geniş imkanlar açır.

Sumqayıt Texnoparkında elektroenergetika sənayesi üçün məhsullar hazırlanır, zavodlar, sexlər və istehsal xətləri yaradılır. Texnoparkın birinci mərhələsi çərçivəsində müəssisələrin tikinti-quraşdırma işlərində 2300 nəfərdən çox işçi çalışıb. Müəssisə tam işə düşdükdən sonra burada 3 min nəfər, o cümlədən yüksək ixtisaslı mühəndislər daimi işlə təmin ediləcək.

"Sumqayıt-3" qapalı tipli yarımstansiyası Cənubi Qafqazda istifadəyə verilən ilk belə obyektdir. Yarımstansiya az yer tutduğundan şəhər tipli yarımstansiyaların tikintisində istifadə oluna bilər. Yarımstansiya yüksək səviyyədə avtomatlaşdırılıb və daxili mikro nəzarət sisteminə malikdir. Təmirə ehtiyacı olmayan bu qurğunun birbaşa mərkəzi dispetçer məntəqəsindən idarə edilməsi mümkündür. Yarımstansiyanın gücü 200 meqavoltamperdir. Yarımstansiya respublika enerji sisteminə qoşulub və buradan Sumqayıtın əsas sənaye obyektlərinə enerji ötürüləcək. Zavodda 800 millimetrə qədər diametrli plastik borular istehsal olunur. 16 atmosfer təzyiqə davam gətirəcək belə boruların MDB məkanında ilk dəfə istehsalına başlanılıb və bunlardan kabellərin çəkilməsində, kiçik su elektrik stansiyalarının tikintisində, həmçinin qaz, su və kanalizasiya sistemlərinin quraşdırılmasında istifadə ediləcək. Bu müəssisənin illik istehsal gücü 20 min tondur. Gələcək illərdə istehsal korpusunun 2 dəfə genişləndirilməsi və məhsulun çeşidinin də 2 dəfə artırılması nəzərdə tutulur.

Mis və alüminium elektrotexniki çubuqların istehsalı zavodunun sahəsi 3 min kvadrametrdir. Burada ən müasir avadanlıq quraşdırılıb və sınaq-sazlama işləri başa çatdırılıb. Zavodda elektroenergetika

sənayesində kəskin ehtiyac duyulan mis və alüminium çubuqlar istehsal olunur. Müəssisənin illik istehsal gücü 30 min tondur. Hazır mis və alüminium külçələr istehsal prosesinə verilir və yüksək keyfiyyətli bu xammaldan ən müasir standartlara cavab verən mis və alüminium çubuqlar hazırlanır.

110 kilovolta qədər gərginlik kabelləri istehsal edəcək zavod MDB məkanında ən qabaqcıl texnologiyalara əsaslanan yeganə müəssisədir. Burada ən son elmi-texniki yeniliklərə uyğun avadanlıq quraşdırılıb. Müəssisədə müxtəlif en kəsikli 1, 6, 10, 35 və 110 kV gərginlik kabelləri, 800 kvadratmillimetr en kəsiyində alüminium və mis məftillər, dənizdə istifadəsi nəzərdə tutulan qurğuşun örtüklü nəzarət kabelləri istehsal edilir. Bu zavodda ildə 30 min ton alüminium və bir o qədər mis kabel istehsalı mümkündür. İstehsal edilən kabellər alüminium, polad və qurğuşun zirehlidir. Bundan başqa, burada beynəlxalq bazara ixrac edilmək üçün məhsullar da hazırlanacaq. 132 və 154 kV gərginliyə davamlı həmin kabellərin ixracı ilə bağlı artıq müəssisəyə xarici ölkələrdən sifarişlər daxil olub.500 kV qədər gərginlik kabelləri istehsal edəcək zavodun MDB məkanında analoqu demək olar ki yoxdur. Hazırda dünyada cəmi 7 belə müəssisə fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin bazasında Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Nazirlik müdafiə sənayesi sahəsində vahid dövlət siyasətini yürüdür, həm də dövlət sifarişi əsasında hərbi texnika, silah, mühəndis texnikası, ehtiyat hissələri, döyüş sursatları və digər müdafiə təyinatlı məhsulların istehsalını təmin edir. Müdafiə Sənayesi Nazirliyinin altı əsas istehsal fəaliyyəti istiqamətləri bunlardı: aviasiya; neft sənayesi; cihazqayırma; naviqasiya; rabitə vasitələri və radioelektronika; maşınqayırma və elektrotexnika.

Müdafiə Sənayesi Nazirliyi həm idxalın əvəzlənməsi, həm də ixrac yönümlü fəaliyyət göstərməklə tədiyyə balansına müsbət təsir göstərir. Dünya Silah Ticarəti Analizi Mərkəzinin (SAMTO) yaydığı məlumata




**Prezident İlham Əliyev yenidən qurulan Hacıqabul-Bəhrəmtəpə avtomobil yolunun Hacıqabul-Sabirabad hissəsinin açılışında iştirak edir (29 avqust 2013-cü il)**

əsasən, Azərbaycan silah idxalına görə dünya ölkələri arasında 15-ci yeri tutur. Təşkilatın ilkin məlumatlar əsasında hazırladığı analizə görə, Azərbaycan 2013-cü ildə silah və hərbi texnika idxalına 1 milyard 257 milyon ABŞ dolları vəsait sərf edib. Ölkənin ərzasinin 20 faizə qədərinin işğal altında olması hərbi xərclərin yüksək səviyyə saxlanmasını və silah-sursat idxalını zəruri edir. Bu baxımdan Azərbaycanda hərbi-sənaye kompleksinin inkişafı idxalın əvəzlənməsi və dəyərin ölkədə qalması üçün vacibdir. Digər tərəfdən Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan məhsullar Türkiyə, İordaniya və başqa ölkələrə ixrac edilir. Məsələn, 2011-ci ildə Azərbaycanın hərbi sənaye kompleksinə aid olan müəssisələr 18 milyon ABŞ dolları, 2012-ci və 2013-cü illərdə isə illik 22 milyon ABŞ dolları həcmində məhsul ixrac edib. Müdafiə Sənayesi Nazirliyinin 2009-cu ildən beynəlxalq sərgilərdə iştirak etməsi Azərbaycan silahının marketinqi nöqteyi-nəzərindən çox əhəmiyyətlidir. 2013-cü ildə dünya ölkələri silah alışına ən azı 65 milyard

982 milyon dollar xərcləyib ki, bu da "soyuq müharibə" dövründən sonra ən yüksək göstəricidir. Dünya silah bazarının inkişaf trendi Azərbaycan məhsullarının ixrac perspektivləri üçün yaxşı zəmindir.

2014-cü ilin dövlət büdcəsində müdafiə sənayesinin inkişafı ilə bağlı aşağıdakı xərc maddələri var: Müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar - 2,8 milyon manat, digər kateqoriyalara aid edilməyən xərclər - 2,9 milyon manat və müdafiə sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi ilə bağlı xərclər - 76,5 milyon manat. Göründüyü kimi dövlət müdafiə sənayesinin inkişafı üçün 2014-cü ildə 82,2 milyon manat vəsait ayırmağı planlaşdırmışdır.

Azərbaycanda metallurgiyanın inkişafı müdafiə sənayesi üçün xammal bazasını gücləndirə bilər. Tarixən bürünc və dəmirin əldə olunması Hun imperiyasında hərbi sursatın daha da təkmilləşməsinə rəvac vermişdir ki, bu da, hələ qədim dövrdən metallurgiyanın hərbi sənayenin inkişafı üçün əhəmiyyətini göstərir. 2013-cü ildə Gəncə şəhərinin və Daşkəsən rayonunun ərazilərində dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edən polad istehsalı kompleksinin layihələndirilməsini, tikintisini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirən, səhmləri dövlətə məxsus olan Azərbaycan Polad İstehsalı Kompleksi yaradılıb. Səhmləri dövlətə məxsus olan "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilib.

Azərbaycanda dəmir, alüminium, xromit, qızıl, gümüş, mis, qurğuşun, sink kobalt, molibden, mərgümüş, boksit və s. kimi filiz yataqlarının, habelə daşduz, gips, anhidrit, gəc, bentonit gilləri, tikinti materialları, pirit, barit, yarımqiymətli və rəngli daşlar, dolomit, İslandiya şpatı və s. kimi qeyri-filiz yataqlarının olması metallurgiyanın inkişafı üçün zəmin yaradır.

2005-2012-ci illərdə sənayedə əsas kapitala yönəldilən investisiyala-

rın faktiki qiymətlərlə həcmi 36,2 milyard manat olmuşdur. Bu məbləğin 53 faizi - 19,2 milyard manatı çoxu xarici investisiyaların, 47 faizi - 17 milyard manatı isə daxili investisiyaların payına düşmüşdür. Müqayisə aparılan illərdə mədənçıxarma sənayesi 25,6 milyard manat, emal sənayesi 3,5 milyard manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı 4,3 milyard manat, su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesi 2,6 milyard manat sərmayə cəlb etmişdir. Emal sənayesi və su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesi getdikcə daha böyük həcmdə sərmayə cəlb edir. Məsələn, 2005-ci ildə emal sənayesində əsas kapitala cəmi 115,8 milyon manat sərmayə yatırıldığı halda, 2012-ci ildə bundan 7,4 dəfə çox - 861,2 milyon manat investisiya qoyulmuşdur. 2005-ci ildə su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesi əsas kapitala cəmi 30 milyon manat investisiya cəlb etmişdirsə, 2012-ci ildə bu göstərici 755,7 milyon manata çatmışdır, başqa sözlə 25,2 dəfə artmışdır. Sənayedə əsas kapitala yatırılan sərmayənin strukturunu təhlil edərkən aydın olur ki, qeyri-neft yaşıl emal sənayesi inkişaf edir. Əsas fondların modernləşdirilməsi sənayedə məhsuldarlığın artması və rəqabət qabiliyyətinin güclənməsi ilə nəticələnə bilər. İkinci dünya müharibəsindən sonra Yaponiya və Almaniyanın ən çox dağıntıya məruz qalan ölkə olmasına baxmayaraq daha sürətlə inkişaf etməsi bu ölkələrin yeni texnologiyanı tətbiq etməsi ilə bağlıdır. Hansı ki, ABŞ və Böyük Britaniya kimi ölkələr müharibənin dağıntısına məruz qalmadıqları halda, əsasən mövcud texnologiyalarından istifadəni davam etdirdikləri üçün iqtisadi inkişaf sürətinə görə Almaniya və Yaponiyaya uduzdular. Azərbaycanda əsas sənaye-istehsal fondlarının sürətlə yenilənməsi 2005-2012-ci illərin statistikasında özünü aydın göstərir: Bu dövrdə əsas sənaye-istehsal fondlarının həcmi 18,2 milyard manatdan 46,8 milyard manata çatmışdır və ya 2,6 dəfə yüksəlmişdir. 2005-2012-ci illərdə emal sənayesində əsas fondlar 1,8 dəfə, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 4 dəfə və su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesində 2,1 dəfə artmışdır.

Cədvəl 2.1.

Sənayedə əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manat

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 4,176 | 4,297 | 4,591 | 4,249 | 3,225 | 4 276 | 5,370 | 6,040 |
| xarici investisiyalar | 3,350 | 3,045 | 2,676 | 2,011 | 1,403 | 1 917 | 2 125 | 2,668.0 |
| daxili investisiyalar | 826 | 1,252 | 1,915 | 2,238 | 1,822 | 2 359 | 3 245 | 3,372.0 |
| Mədənçıxarma sənayesi | 3,730 | 3,386 | 3,498 | 2,883 | 2,088 | 2 952 | 3,244 | 3,857 |
| xarici investisiyalar | 3,210 | 2,787 | 2,577 | 1,908 | 1,272 | 1 883 | 1,894 | 2,493 |
| daxili investisiyalar | 520.6 | 598.6 | 920.6 | 974.6 | 816.8 | 1 069 | 1,350 | 1,364 |
| Xam neft və təbii qaz hasilatı | 3,606 | 3,255 | 3,470 | 2,825 | 1,960 | 2 933 | 3,022 | 3,822 |
| xarici investisiyalar | 3 210 | 2 787 | 2 573 | 1 908 | 1 215 | 1 881 | 1,894 | 2,493 |
| daxili investisiyalar | 396.0 | 467.9 | 897.1 | 916.9 | 744.6 | 1 052 | 1,128 | 1,329 |
| Metal filizlərinin hasilatı | - | - | 3.5 | - | 56.0 | - | - | - |
| xarici investisiyalar | - | - | 3.5 | - | 55.2 | - | - | - |
| daxili investisiyalar | - | - | - | - | 0.8 | - | - | - |
| Daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı | 0.9 | 0.7 | 6.1 | 4.0 | 7.6 | 18.8 | 222.7 | 35.2 |
| xarici investisiyalar | - | - | - | - | 0.9 | 1.9 | - | |
| daxili investisiyalar | 0.9 | 0.7 | 6.1 | 4.0 | 6.8 | 16.9 | 222.7 | 35.2 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 123.6 | 130.1 | 17.5 | 53.7 | 64.6 | - | - | - |
| daxili investisiyalar | 123.7 | 130.2 | 17.6 | 53.8 | 64.7 | - | - | - |
| Emal sənayesi | 115.8 | 112.3 | 299.9 | 395.2 | 354.2 | 510.2 | 847.9 | 861.2 |
| xarici investisiyalar | 35.9 | 17.7 | 2.0 | 43.1 | 21.4 | 1.1 | 0.2 | 0.1 |
| daxili investisiyalar | 79.9 | 94.6 | 297.8 | 352.1 | 332.8 | 509.1 | 847.7 | 861.1 |
| Qida məhsullarının istehsalı | 28.0 | 31.3 | 33.2 | 29.0 | 33.6 | 27.1 | 46.5 | 75.3 |
| xarici investisiyalar | 8.9 | 14.8 | 0.7 | 1.0 | 2.1 | 1.1 | - | - |
| daxili investisiyalar | 19.0 | 16.5 | 32.5 | 28.0 | 31.5 | 26.0 | 46.5 | 75.3 |
| İçki istehsalı | 3.2 | 18.2 | 18.2 | 42.1 | 31.3 | 12.1 | 41.5 | 12.2 |
| daxili investisiyalar | 3.2 | 18.2 | 18.2 | 42.1 | 31.3 | 12.1 | 41.5 | 12.2 |
| Tütün məmulatlarının istehsalı | 8.1 | - | 12.5 | 6.2 | 4.3 | 32.5 | - | 75.4 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **daxili investisiyalar** | 8.1 | - | 12.5 | 6.2 | 4.3 | 32.5 | - | 75.4 |
| **Toxuculuq sənayesi** | 2.1 | 4.9 | 16.3 | 2.6 | 1.5 | 9.8 | 0.2 | 5.7 |
| **daxili investisiyalar** | 2.1 | 4.9 | 16.3 | 2.6 | 1.5 | 9.8 | 0.2 | 5.7 |
| **Geyim istehsalı** | 0.6 | 6.7 | - | - | 0.7 | 13.6 | 14.0 | - |
| **daxili investisiyalar** | 0.6 | 6.7 | - | - | 0.7 | 13.6 | 14.0 | - |
| **Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı** | 0.7 | 0.3 | 0.03 | 1.1 | 1.0 | 1.1 | 1.6 | - |
| **daxili investisiyalar** | 0.7 | 0.3 | 0.03 | 1.1 | 1.0 | 1.1 | 1.6 | - |
| **Ağac emalı və ağacdan məmulatların istehsalı** | 0.1 | 1.4 | 0.9 | 0.5 | 0.5 | 0.2 | 98.3 | 30.1 |
| **daxili investisiyalar** | 0.1 | 1.4 | 0.9 | 0.5 | 0.5 | 0.2 | 98.3 | 30.1 |
| **Kağız və karton istehsalı** | - | 0.6 | 2.2 | 0.5 | 0.8 | - | 18.5 | 4.4 |
| **daxili investisiyalar** | - | 0.6 | 2.2 | 0.5 | 0.8 | - | 18.5 | 4.4 |
| **Poliqrafiya fəaliyyəti** | - | 0.018 | 0.01 | 0.02 | - | 0.5 | - | - |
| **daxili investisiyalar** | - | 0.018 | 0.01 | 0.02 | - | 0.5 | - | - |
| **Neft məhsullarının istehsalı** | 26.8 | 23.5 | 41.8 | 43.8 | 33.6 | 25.4 | 48.4 | 32.5 |
| **daxili investisiyalar** | 26.8 | 23.5 | 41.8 | 43.8 | 33.6 | 25.4 | 48.4 | 32.5 |
| **Kimya sənayesi** | 5.6 | 3.2 | 8.9 | 6.6 | 3.6 | 1.3 | 1.5 | 1.5 |
| **xarici investisiyalar** | 0.3 | 0.07 | 0.4 | 0.04 | - | - | - | - |
| **daxili investisiyalar** | 5.3 | 3.1 | 8.4 | 6.5 | 3.6 | 1.3 | 1.5 | 1.5 |
| **Əczaçılıq məhsullarının istehsalı** | - | - | - | - | 5.0 | - | - | - |
| **daxili investisiyalar** | - | - | - | - | 5.0 | - | - | - |
| **Rezin və plastmas məmulatların istehsalı** | 1.8 | 0.6 | 14.2 | 6.4 | 2.0 | 0.0 | 27.8 | 35.3 |
| **xarici investisiyalar** | 1.4 | 0.6 | 0.2 | - | - | - | - | - |
| **daxili investisiyalar** | 0.4 | 0.04 | 13.9 | 6.4 | 2.0 | 0.0 | 27.8 | 35.3 |
| **Tikinti materiallarının istehsalı** | 9.5 | 6.1 | 29.6 | 89.3 | 35.3 | 195.2 | 139.7 | 26.7 |
| **daxili investisiyalar** | 9.5 | 6.1 | 29.6 | 89.3 | 35.3 | 195.2 | 139.7 | 26.7 |
| **Metallurgiya sənayesi** | 4.5 | 3.5 | 54.1 | 30.4 | 19.7 | 21.5 | 100.0 | 54.4 |
| **xarici investisiyalar** | 4.5 | 1.1 | 0.5 | 2.5 | 19.0 | - | - | - |
| **daxili investisiyalar** | 0.02 | 2.4 | 53.5 | 27.8 | 0.6 | 21.5 | 100.0 | 54.4 |
| **Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı** | 2.9 | 0.8 | 62.4 | 84.2 | 154.9 | 149.0 | 294.3 | 259.1 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| xarici investisiyalar | 1.4 | 0.7 | 0.1 | - | - | - | - | - |
| daxili investisiyalar | 1.4 | 0.1 | 62.3 | 84.2 | 154.9 | 149.0 | 294.3 | 259.1 |
| Kompüter vədigər elektron avadanlıqların istehsalı | 1.0 | 3.8 | 0.02 | - | - | 1.1 | 0.0 | 0.0 |
| daxili investisiyalar | 1.0 | 3.8 | 0.02 | - | - | 1.1 | 0.0 | 0.0 |
| Elektrik avadanlıqlarının istehsalı | 8.8 | 0.8 | 0.09 | 41.2 | 20.2 | 17.9 | 0.0 | 17.3 |
| xarici investisiyalar | 8.5 | 0.3 | - | 38.8 | - | - | - | - |
| daxili investisiyalar | 0.2 | 0.4 | 0.09 | 2.4 | 20.2 | 17.9 | 0.0 | 17.3 |
| Maşın və avadanlıqların istehsalı | 3.1 | 0.5 | 0.8 | 9.4 | 0.3 | 0.2 | 0.1 | - |
| xarici investisiyalar | 2.8 | - | - | - | - | - | - | - |
| daxili investisiyalar | 0.3 | 0.5 | 0.8 | 9.4 | 0.3 | 0.2 | 0.1 | - |
| Avtomobil və qoşquların istehsalı | 7.8 | 0.08 | 2.0 | 0.01 | 2.3 | 1.1 | - | - |
| xarici investisiyalar | 7.8 | - | - | - | - | - | - | - |
| daxili investisiyalar | 0.07 | 0.08 | 2.0 | 0.01 | 2.3 | 1.1 | - | - |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 0.2 | 0.2 | 0.7 | 0.6 | 0.2 | - | - | 173.7 |
| xarici investisiyalar | - | 0.004 | - | 0.5 | 0.2 | - | - | - |
| daxili investisiyalar | 0.2 | 0.2 | 0.7 | 0.1 | - | - | - | 173.7 |
| Mebellərin istehsalı | 0.08 | 5.1 | 1.1 | 0.3 | 2.6 | - | 14.7 | 23.3 |
| daxili investisiyalar | 0.08 | 5.1 | 1.1 | 0.3 | 2.6 | - | 14.7 | 23.3 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | - | - | - | - | - | 0.5 | 0.8 | 34.3 |
| xarici investisiyalar | - | - | - | - | - | 0.001 | 0.2 | 0.1 |
| daxili investisiyalar | - | - | - | - | - | 0.5 | 0.6 | 34.2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 299.8 | 648.3 | 538.1 | 608.0 | 450.3 | 422.6 | 768.9 | 565.8 |
| xarici investisiyalar | 98.4 | 229.2 | 88.3 | 47.5 | 69.6 | 23.0 | 188.2 | 91.2 |
| daxili investisiyalar | 201.4 | 419.0 | 449.8 | 560.4 | 380.6 | 399.6 | 580.7 | 474.6 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 30.0 | 150.3 | 255.5 | 363.4 | 331.9 | 391.5 | 508.5 | 755.7 |
| xarici investisiyalar | 5.8 | 10.8 | 8.6 | 12.3 | 40.7 | 10.3 | 42.0 | 83.9 |
| daxili investisiyalar | 24.1 | 139.4 | 246.8 | 351.0 | 291.2 | 381.2 | 466.5 | 671.8 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Sənayenin innovativ inkişafı əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul istehsalında özünü göstərir. Məsələn, emal sənayesi bu sahədə liderlik edir. 2012-ci ildə emal sənayesində əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsul həcmi 22,656 milyon manat qeydə alınmışdır ki, bu da bütün sənaye üzrə olan eyni göstəricinin 98,3 faizini təşkil etmişdir. Bu mənada xüsusən içki istehsalı, kimya sənayesi, kompüter və digər elektron avadanlıqların istehsalı, maşın və avadanlıqların istehsalı və maşın və avadanlıqların quraşdırılması və təmiri sahələri fərqlənmişdir. Emal sənayesində təkmilləşdirilmiş məhsul istehsalı 2012-ci ildə 809,6 min manat təşkil etmişdir ki, bu da sənaye üzrə müvafiq göstəricinin 80 faizindən artıqdır. Təhlil göstərir ki, emal sənayesində innovativ inkişaf daha sürətlə gedir.

2005-2012-ci illərdə emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclər 116,211 milyon olmuşdur ki, bu da ümumi sənaye üzrə müvafiq göstəricinin 55,7 faizini təşkil edir. Emal sənayesində həm məhsul, həm də proses üzrə innovasiyalara xərc çəkilmişdir. 2007-ci ilə qədər texnoloji innovasiyalara çəkilən xərclərdə dövlət büdcəsi əsas rol oynayırdısa, sonralar müəssisələrin bu cür xərcləri öz vəsaiti hesabına həyata keçirməyə başladılar.

Sənayedə texnoloji innovasiyalara çəkilən xərcləri fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə belə qruplaşdırmaq olar: yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi; texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması; yeni texnologiyaların alınması; proqram vəsaitlərinin alınması; yeni məhsulların buraxılışı üçün istehsalın layihələndirilməsi; digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi; innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı; marketinq tədqiqatları; texnoloji innovasiyalar; elmi-tədqiqat və işləmələr; kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər; texnoloji innovasiyalara çəkilən digər xərclər.

Cədvəl 2.2.

Sənaye müəssisələrində innovasiyalara mane olan amillər

| | İnnovasiyalara mane olan amilləri aşağıdakı kimi dəyərləndirən müəssisələrin sayı | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | əsas və ya həlledici | | | | | əhəmiyyətli | | | | | az əhəmiyyətli | | | | |
| | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
| İqtisadi amillər | | | | | | | | | | | | | | | |
| öz pul vəsaitinin kifayət qədər olmaması | 24 | 35 | 27 | 30 | 22 | 14 | 11 | 24 | 41 | 47 | 32 | 35 | 51 | 32 | 23 |
| dövlət tərəfindən maliyyədövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmaması | 25 | 19 | 18 | 17 | 9 | 11 | 13 | 16 | 26 | 18 | 19 | 19 | 18 | 21 | 20 |
| təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması | 6 | 38 | 5 | 3 | 3 | 16 | 7 | 22 | 19 | 24 | 37 | 38 | 35 | 30 | 16 |
| yeniliklərin dəyərinin yüksək olması | 8 | 45 | 9 | 13 | 13 | 23 | 9 | 25 | 22 | 29 | 40 | 45 | 34 | 21 | 14 |
| yüksək iqtisadi risk | 3 | 34 | 7 | 5 | 9 | 15 | 9 | 18 | 18 | 21 | 40 | 34 | 32 | 20 | 21 |
| təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətlərinin uzun olması | 7 | 47 | 3 | 9 | 7 | 12 | 10 | 16 | 17 | 16 | 42 | 47 | 38 | 19 | 21 |
| İstehsal amilləri | | | | | | | | | | | | | | | |
| müəssisənin inno-vasiya potensialının aşağı olması | 8 | 18 | 19 | 7 | 5 | 17 | 18 | 19 | 33 | 43 | 27 | 18 | 24 | 39 | 21 |
| ixtisaslı işçilərin çatışmaması | 3 | 27 | 2 | 7 | 2 | 9 | 9 | 10 | 9 | 26 | 38 | 27 | 26 | 30 | 21 |
| yeni texnologi-yalar haqqında informasiyanın çatışmaması | 8 | 24 | 2 | 4 | 3 | 19 | 15 | 15 | 15 | 27 | 26 | 24 | 19 | 25 | 15 |
| müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi | 4 | 29 | 10 | 5 | 5 | 10 | 10 | 12 | 12 | 13 | 36 | 29 | 23 | 20 | 18 |

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| satış bazarları haqqında informasiyanın çatışmaması | 5 | 28 | 3 | 4 | 3 | 13 | 9 | 6 | 9 | 14 | 39 | 28 | 25 | 19 | 17 |
| digər müəssisələr və digər elmi təşkilatlar ilə kooperasiya üçün imkanların olmaması | 1 | 28 | 1 | 2 | 3 | 16 | 9 | 13 | 12 | 9 | 35 | 28 | 22 | 17 | 23 |
| Digər səbəblər | | | | | | | | | | | | | | | |
| daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması | 2 | 35 | 3 | 6 | 2 | 3 | 4 | 9 | 8 | 16 | 47 | 35 | 45 | 22 | 14 |
| innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ- hüquqi sənədlərin olmaması | 7 | 25 | 4 | 2 | 1 | 14 | 10 | 13 | 20 | 30 | 26 | 25 | 22 | 18 | 17 |
| innovasiya prosesi müddətinin qeyri-müəyyən olması | 4 | 29 | 3 | 2 | 2 | 9 | 8 | 9 | 7 | 12 | 35 | 29 | 24 | 22 | 15 |
| innovasiya infrastrukturunun (vasitəçilik, informasiya, hüquq, bank və s.xidmətlərinin) inkişaf etməməsi | 7 | 23 | 6 | 4 | 2 | 14 | 12 | 12 | 24 | 27 | 35 | 23 | 20 | 21 | 17 |
| texnologiyalar bazarının inkişaf etməməsi | 5 | 24 | 5 | 5 | 6 | 16 | 12 | 10 | 17 | 29 | 36 | 24 | 30 | 32 | 15 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycanda sənaye fəaliyyəti nəticəsində atmosferə atılan çirkləndirici maddələrin həcmi 2006-cı ildə 320,2 min ton olduğu halda, 2012-ci ildə bu göstərici 169,7 min tona düşmüşdür. Deməli, sənayenin həcminin artmasına baxmayaraq, ətraf mühitə təsir minimuma endirilmişdir. Ətraf mühitə atılan çirkləndirici maddələrin həcminin azalması daha çox sənayenin modernləşdirilməsinin nəticəsidir.

Azərbaycan yeni sənayeləşmə dövrünə qədəm qoymuşdur. Bu mərhələnin əsas xüsusiyyətləri sənayenin regionlarda inkişafı, innovativlik və ətraf mühitə təsirlərin azaldılması, həmçinin iqtisadiyyatın

rəqabət qabiliyyətinin və sənaye ixracının artırılması və yeni iş yerlərinin açılmasıdır. Bunun üçün münasib istitutsional mühit və makroiqtisadi şərait, habelə dünya iqtisadiyyatında inkişaf təmayüllərinin saxlanılması vacibdir.

# FƏSİL III

## Modernizasiyaya nəzəri-konseptual baxış

### 3.1. Modernləşdirilmənin nəzəri-metodoloji əsasları

Modernizasiya (ingiliscə modern - yenilənmiş, müasir) inkişafı sürətləndirmək məqsədilə obyektin yeni tələb və normalara, texniki şərtlərə və keyfiyyət göstəricilərinə uyğunlaşdırılmasıdır. Kitabın mövzusuna uyğun olaraq biz yalnız iqtisadi modernizasiyanı tədqiqat obyekti olaraq qəbul etsək də, modernizasiya həm siyasi və sosial, həm də mədəniyyət sahəsini əhatə etməklə ümumi ictimai xarakter daşıyır.

Modernləşdirilmə nəzəriyyəsinin yaradıcılarından biri sayılan alman mütəfəkkiri Veber ilk dəfə modern kapitalist cəmiyyəti üçün rasionallaşdırma konsepsiyasını hazırlamışdı [154].

Öz nəzəriyyəsində modernizm (modernism), modernləşdirilmə (modernization) və çağdaşlıq (modernity) paradiqmalarını fərqləndirən alman mütəfəkkiri Bermana görə heç nə daimi deyil, hər bir mövcudiyyət "ərimәlidir" ki, yenilər yaransın [59, s.5]. Berman hesab edirdi ki, modernləşdirilmə davamlı bir proses olaraq sosial həyatı əbədi olaraq dəyişir [59, s.16].

Klassik modernləşdirilmə nəzəriyyələri əsasən fərqləndirmə (differentiation) and rasionallaşıdma (rationalization) meyarları üzərində qurulub. Klassik nəzəriyyəni tənqid edən Luhmann, Smelser, Habermas və Schluchter kimi alimlər bildirirdilər ki, fəqləndirməyə əks olan (dedifferentiation) və rasionallaşıdmaya əks olan (derationalization) proseslər də modern cəmiyyətlər üçün xarakterikdir [115, 143, s. 113-130, 88, 138]. Beləliklə, bu iki əks proses də bəzi tədqiqatçılar tərəfindən modernizasiyanın tərkib hissəsi kimi qəbul edilir.

Yarım əsrdən çoxdur ki, Lipsetin modernizasiya nəzəriyyəsi müxtəlif elmi mübahisələr doğurmaqdadır. Bu nəzəriyyəyə görə modernizasiya - sənayeləşmə və iqtisadi inkişaf pozitiv sosial və siyasi dəyişikliklərə aparır [114, s. 69-105]. Lakin müasir dövrdə Çində modernləşmə heç də siyasi islahatlarla müşayət olunmur və ya 19-cu əsrdə Argentina ən yüksək iqtisadi inkişaf səviyyəsinə çatsa da, siyasi həyatda ən yadda-

qalan dövlət çevrilişləri oldu, nəinki siyasi islahatlar. Beləliklə, modernizasiyanın hər bir ölkədə özünəməxsus şəkildə baş verməsi Lipsetin modernizasiya nəzəriyyəsini mübahisələndirməyə imkan verir.

Lipsetin modernizasiya nəzəriyyəsini ilk tənqid atəşinə tutanlardan biri Huntington oldu. O modernizasiya nəzəriyyəsinin tərəfdarları ilə razılaşırdı ki, istisadi inkişaf dərin sosial dəyişikliklərə gətirib çıxarır, amma bu dəyişikliklərin heç də həmişə proqressiv və ziyansız olmadığını düşünürdü [94].

Frank, Cardoso və Enzo kimi alimlər isə modernizasiya nəzəriyyəsinin sosial tərəflərini deyil, iqtisadi inkişafla bağlı hissəsinə etiraz edirlər. Onlar belə bir arqument gətirirlər ki, qeyri-Qərb ölkələri beynəlxalq iqtisadi müstəvidə asılı vəziyyətdədirlər və inkişafdan qalıblar [79, 62].

Przeworski bildirmişdi ki, modernizasiya nəzəriyyəsində demokratiya və davamlılıq anlayışlarını düzgün müəyyənləşdirilməyib. Onun fikrincə, iqtisadi inkişaf davamlılığın təmin olunmasında həlledici olsa da, demokratiyanın inkişafına töhfə verə bilməyib [127, s. 155-183].

İllərlə müxtəlif həmkarları ilə tədqiqat aparan İnglehart dünya dəyərlər sorğusunun (World Values Survey) böyük sayda göstəricilərini emal edərək belə bir qənaətə gəlmişdi ki, müxtəlif mədəni və davranış dəyişiklikləri iqtisadi inkişaf və siyasi nəticələrə təsir baxımından əhəmiyyətlidir [95]. Bunun əksinə olaraq Rueschemeyer, Stephens E. və Stephens J. fikirləşirdilər ki, əsas amil cəmiyyətdəki siniflərin güc balansının dəyişməsidir [134].

Rostounun modernizasiya nəzəriyyəsi iqtisadi inkişafı mərhələlərlə izah edir [133]. **Birinci mərhələdə (traditional society - ənənəvi cəmiyyət)** - ənənəvi cəmiyyətdə istehsal tamamilə istehlak olunduğunudan ticarət barter yolu ilə aparılır və texnologiya istifadəsi məhduddur. Rostounun modernizasiya nəzəriyyəsinə görə **ikinci mərhələdə (preconditions for takeoff - qalxınma üçün zəmin)** ixtisaslaşma ticarət üçün izafi məhsul yaradır, güclü mərkəzi hakimiyyət

özəl sektoru dəstəkləyir. Üçüncü mərhələdə (**takeoff - qalxınma**) sənayeləşmə nəticəsində əmək qüvvəsi aqrar sahədən sənayeyə keçir, inkişaf bir neçə region və istehsal sahəsi üzərində konsentrasiya olur. **Dördüncü mərhələdə (drive to maturity - kamilliyə doğru)** iqtisadiyyat şaxələnir, innovasiyalar yeni investisiya imkanları yaradır və urbanizasiya güclənir. Beşinci mərhələdə (**high mass consumption - yüksək kütləvi istehlak**) kütləvi istehlak genişlənir, iqtisadi aktivlik artır, servis sektoru aparıcı olur və sosial rifah yaxşılaşır.

Modernizasiya paradiqması tarixi inkişaf prosesində özü də dəyişikliyə məruz qalır. Məsələn, XX əsrin 60-cı illərində modernizasiya postindustrial cəmiyyətə keçid kimi qiymətləndirilirdisə [75], hazırda modernizasiyanın bilik iqtisadiyyatına keçidi sürətləndirən bir paradiqma kimi qəbul edirlər.

Modernizasiyanın iki növünü fərqləndirmək mümkündür: üzvü və qeyri-üzvü. Üzvü modernizasiya o ölkələrdə baş verdi ki, onlar yenilikləri özləri icad və tətbiq etdilər, mədəniyyət, mentallıq və dünyagörüşü sahəsində irəlilədilər. Modernizasiya belə cəmiyyətlərdə mərkəzləşdirilmiş dövlət, burju münasibətləri, sənayeləşmə, demokratiya və s. üçün zəmin oldu.

Qeyri-üzvi modernizasiya isə xarici çağırışlara cavab kimi meydana çıxdı və o cəmiyyətlərdə baş verdi ki, onlar başqalarının yaratdığı elmi-texniki tərəqqi nəticələrini tətbiq etdilər. Eisenstadt S. N. bu cür modernləşməni "gecikmiş" adlandırır və göstərir ki, belə ölkələrdə modernizasiyanın uğuru cəmiyyətdə baş verən keyfiyyət dəyişikliyi ilə bağlıdır [76]. Modernizasiya inkişaf etmiş ölkələrdə yerli xüsusiyyətlərə və ənənələrə "uyğunlaşır". Məsələn, Brazliyida San-Paulu və ya Rio-de-Janyero sanki modernizasiyanın yaratdığı anklavdır və ətraf bölgələrdən öz inkişaf səviyyəsinə görə kəskin fərqlənir.

Bilik iqtisadiyyatına keçidlə informasiya və bilik resursa çevrildikcə, elmi işləmələr iqtisadiyyatın hərəkətverici qüvvəsi olduqca, daha çox işçinin təhsilinin keyfiyyət səviyyəsi, peşəkarlığı və kreativliyi qiymətləndirildikcə

modernizasiya prosesi qlobal və yerli səviyyələrdə müşahidə edilən disproporsiyaların yumşaldılmasında faydalı olacaq. Bunun üçün insanların, kapitalın, malların və xidmətlərin azad hərəkəti təmin edilməlidir ki, modernizasiyanın eyni zamanda və hər yerdə baş tutması üçün bərabər imkanlar yaransın. Əlbəttə, bu mülahizəni irəli sürməklə, biz qətiyyən o fikirdə deyilik ki, bilik iqtisadiyyatı şəraitində bütün dünyada modernləşmə səviyyəsi eyni olacaq. Bütün hallarda yerli institutların inkişaf səviyyəsi, mentalitet və s. yerli xüsusiyyətlər modernizasiya prosesinin sürətinə təsir göstərəcəkdir. Lakin bərabər imkanlar modernizasiyanın sürətinin bütün dünyada sinxrolaşdırılması istiqamətində əhəmiyyətli addım sayılmaqla konvergensiyaya xidmət edə bilər.

Modernizasiya prosesini innovativ inkişaf olmadan təsəvvür etmək mümkün deyil. Çünki modernləşmə özlüyündə yeniliklərin - innovasiyaların tətbiqini ehtiva edir. Avstriya iqtisadçısı Şumpeter innovasiyanın beş tipini müəyyənləşdirmişdi:

- *yeni məhsul;*
- *yeni istehsal üsulu;*
- *təklifin yeni mənbəyi;*
- *yeni bazarlar;*
- *biznesi təşkilin yeni yolları.*

İqtisadiyyatda əsas fokus ilk iki innovasiya tipinin üstündədir. Şumpeter sahibkarların rolu, yaradıcı destruktivizm (creative destruction) və biznes tsiklinə əsaslanaraq bildirirdi ki, innovasiyalar iqtisadiyyatı tarazlıq halından çıxarır.

Şumpeterin elmi məktəbinin ciddi təsiri altında olan Maklaurin texnoloji yeniliyə aparan beş addımı belə müəyyənləşdirib:

- *elm;*
- *kəşf;*
- *innovasiya;*
- *maliyyə;*
- *qəbul etmə (diffuziya).*

Hazırda dünyada bəzi firmalar innovasiyaları yaradır, digərləri isə onu imitasiya edir. Beləliklə, R&D-nin elementləri tədqiqat (R) və inkişaf (D) arasında mübarizə gedir. Dinamik ümumi modelə əsaslanan hesablamalar göstərir ki, sosial rifah yalnız innovativ təşəbbüslərin davamlı intensivliyi kritik həddi keçəndə yüksəlir [141]. R&D paradiqmasına yanaşmada iki model var: 1. R&D-nin ilkin funksiyası yeni məhsul yaratmaqdır; 2. R&D-nin ikinci funksiyası yeni bilik yaratmaqla yeni, məhsul, proses və xidmətə dəstək verməkdir. İnvestisiyanın gəlirliliyi (return on investment (ROI)) prinsipinə zidd olaraq R&D müəssisənin fəaliyyətində mənfəət və yeniliklər arasında qızıl ortanın tapılması məqsədinə bir o qədər də xidmət etmir.

İnnovasiyaların tətbiqi müxtəlif təşkilati resursların aktiv və mütəşəkkil istifadəsini tələb edir [104, s.243].

Məsələn, Edmondson, Bohmer və Pisanonun həyata keçiridiyi 16 cərrah komandasının yeni cərrahiyə texnikasının tətbiqi üzrə sorğunun [74, s.685-716], Klein, Conn və Sorranın [106, s. 811-824] həyata keçiridiyi kompüterləşdirilmiş istehsal texnologiyasının tətbiqi üzrə 39 müəssisə arasında sorğunun, Holahan, Aronson, Jurkat və Schoormanın [92, s.31-50] həyata keçiridiyi 69 məktəbdə kompüter texnolgiyasının tətbiqinə dair sorğunun nəticələrini ümumiləşdirsək innovasiyaların tətbiqi üzrə əsas maneələri və səmərəli tövsiyyələri aşağıdakı kimi qruplaşdıra bilərik.

**a. Maneələr:** 1.Əvvəla, innovasiyalar qeyri-təkmil dizayn olunduğundan onların ilk dəfə istifadəsi çətinlik yaradır; 2. Əksər innovasiyalar ilk istifadəçilərin müəyyən yeni texniki bilik və bacarıqlara malik olmasını tələb edir; 3. İnnovasiyaların tətbiqini adətən hədəf istifadəçilər deyil, iyerarxiyada daha yuxarıda olan menecerlər qəbul etdiklərindən müəyyən çətinliklər yaranır; 4. İnnovasiyalar fərdlərin rollarının, bəzi normaların və qaydaların dəyişdirilməsini tələb edir. Fərdlərin buna hazırlığı həmişə arzuolunan səviyyədə qeydə alınmır; 5. İnnovasiyaların tətbiqi vaxt və pul tələb edən çətin işdir; 6. Təşkilati

ətalətlilik innovasiyaların tətbiqini çətinləşdirir.

Bu səbəblərə görədir ki, Morgan Stanley-nin 2002-ci il hesabatına görə, şirkətin hər il texnologiyalara xərclədiyi 2,7 trilyon ABŞ dollarının 500 milyon dolları innovasiyaların tətbiqindəki çətinliklərə görə "havaya sovrulur" [104, s.243].

**b. Tövsiyyələr:** 1. İnnovasiyaların tətbiqi üçün paket qərarlar (işçilərin innovasiyalardan istifadə edə bilməsi üçün treyninqlər, innovasiyaları istifadə edən işçilərə ehtiyac yarananda texniki dəstək verilməsi, təşviqedici tədbirlər və s.) hazırlanmlaı və həyata keçirilməlidir [107, s. 31-79]. 2. Komandanın innovasiyanı qavrama və qəbuletmə mühiti yaradılmalıdır; 3. İnnovasiyaların tətbiqi üçün sərmayə qoyulmalıdır; 4. İnnovasiya tətbiqinə hazırlaşan komanda öyrənməyə meylli olmalıdır; 5. Menecerlər innovasiyaları tətbiq edərkən qısamüddətli uğursuzluqlara görə ruhdan düşməməli, uzunmüddətli hədəflərə istiqamətlənməlidirlər. Beləliklə, menecerlərin "səbrliliyi" vacib şərtdir.

Azərbaycan alimi Eminov təklif edir ki, Azərbaycanda kiçik sahibkarlığa kömək infrastrukturunun yaradılması və inkişafı məqsədilə ölkənin strateji innovasiya inkişafı modelini, eləcə də innovasiya sahibkarlığının inkişafı üzrə təçkilatı-iqtisadi mexanizmi işləyib hazırlamaq olar. Bu mexanizm kiçik innovasiya müəssisələrinin inkişafının stimullaşdırılması üçün metod, üsul və alətlərin məcmusu kimi təkcə bütövlükdə ölkə üzrə deyil, həm də onun ayrı-ayrı iqtisadı rayonları üzrə tətbiq oluna bilər [15, s.111-112].

Cənubi Koreyanın iqtisadi möcüzəsinin əsasında aşağı əmək haqqına əsaslanan ixracyönümlü sənayeləşmə kursundan innovativ və sahibkalıq təşəbbüsünə söykənən bazar modelinə keçid həlledici rol oynadı [60].

Bergek və başqa alimlərin fikricə innovasiya sistemlərinin 7 funksiyası vardır: [58]

1. Biliklərin inkişafı və yayılması;
2. Axtarışın istiqamətinə təsir və imkanların müəyyənləşdirilməsi;
3. Sahibkarlıq sınaqlarının həyata keçirilməsi və risk və qeyri-

müəyyənliklərin idarəsi;
4. Bazarın formalaşması;
5. Resurs səfərbərliyi;
6. Qanuniləşdirmə;
7. Müsbət kənar effektlərin inkişafı.

Azərbaycanda aqrar innovasiya sistemi qurmaq üçün onun missiyası və funksiyaları, habelə əsas iştirakçıları (kənd təsərrüfatı istehsalçıları, univeristetlər, beyin mərkəzləri, sahibkarlar və s.) müəyyənləşdirilməli və işlək mexanizmlər qurulmalıdır ki, innovasiyaların işlənməsi və tətbiqi üçün şərait yaradılsın.

Uğurlu innovasiya sistemləri öz xüsusi rəqabət qabiliyyətli elmi, təhsil, texnoloji profillərini və güclərini olduqca ləng – onilliklər, hətta əsrlər boyunca inkişaf etdirirlər və dəyişikliklər, adətən, özünü gec büruzə verir. Bu özəllik Azərbaycanda Aqrar Bilik və İnnovasiya Sisteminin yaradılması zamanı nəzərə alınmalıdır. Hazırda dünyada aparıcı innovasiya sistemləri elm və texnologiya, sənaye institutları və siyasi sistem arasında mövcud olan yüksək səviyyəli qarşılıqlı münasibətlərə əsaslanırlar. İnnovasiya sistemləri prosesə aktiv surətdə cəlb olunmuş iştirakçıların rollarını müəyyənləşdirir, sistemə xas müxtəlifliklər spektrinin formalaşmasına imkan yaradır, onların öz müzakirə sahələrini inkişaf etdirir və qarşılıqlı davranış gözləntilərini stabilləşdirirlər [144]. Eyni zamanda innovasiya sistemləri öz iştirakçıları arasında danışıqları asanlaşdıran xüsusi vasitəçi forum və orqanlar rolunu daşıyırlar.

Buna klassik nümunə Kris Friman tərəfindən araşdırılan birinci və ikinci sənaye inqilabında Britaniya və Alman innovasiya sistemləri ola bilər. O, birinci sənaye inqilabı dövründə Britaniyada elmi, siyasi, mədəni və sənaye alt-sistemləri arasındakı mükəmməl əlaqəni göstərmişdir. İkinci sənaye inqilabı dövründə elm və digər üç alt-komponent arasındakı uçurumun genişlənməsi səbəbindən bu sistem dağıldı. Bu vaxt Almaniya sənaye tədqiqatları, istehsal və siyasi və mədəni alt-sistemlər arasında körpülər quraraq inkişaf etdi [144, s.3].

İnnovasiya geniş konsepsiyadır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) innovasiyaya yeni yaxud əhəmiyyətli dərəcədə inkişaf etdirilmiş məhsul (əmtəə və ya xidmət) və ya prosesin tətbiqi, yeni marketinq metodu, yaxud biznes təcrübəsi, iş yerinin təşkili və ya xarici əlaqələrdə yeni təşkilati metod kimi tərif verir. Bu o deməkdir ki, innovasiya fəaliyyətlərinin hamısı əslində innovasiyanın tətbiqinə gətirib çıxaran və ya bunu nəzərdə tutan elmi, texnoloji, təşkilati, maliyyə və ticari addımlardır. II Dünya Müharibəsindən sonra fundamental ("elm üçün elm") və tətbiqi tədqiqatlar ("innovasiya üçün elm") arasındakı fərq getdikcə öz əhəmiyyətini artırmağa başladı. Fundamental tədqiqatlar elmi tədqiqat və ya "təmiz" tədqiqatlarla sıx əlaqələndirilməyə başlandı. İƏİT bu ikili yanaşmanı - dixotomiyanı özünün 1963-cü il nizamnaməsində tətbiq etdi. Amerikanın torpaq-qrant (land-grant) universitetləri istisna olmaqla, universitetlər (həmçinin, Almaniyadakı Max Planck və Fransadakı CNRS kimi elmi institutlar) fundamental tədqiqatı əsas vəzifələri olaraq görməyə davam edirdilər. Əməyin belə bölgüsü əsas bilikdən innovasiyaya aparan xətti modellə bağlı idi. Bu xətti model iki istiqaməti əhatə edir: elm tərəfindən təkan verilən (science-push) və tələb tərəfindən yaradılan (demand-pull). Bu görüntü, əlbəttə, həddən artıq sadələşdirilmiş idi, lakin sosial elmlər tərəfindən müdafiə olunurdu.

Bununla belə, bu baxış bu gün rədd edilir. Hazırda innovasiya təcrübəsi, innovasiya siyasəti və hətta, innovasiya nəzəriyyəsi arasındakı əlaqə çoxlu maraqlı tərəflərin birgə inkişafı və ya biliklərin mənimsənilməsi prizmasından nəzərdən keçirilir [144, s.7]. Müasir nəzəriyyələrdə biliyin formalaşması yuxarıdan aşağıya doğru xətti proses deyil, çoxlu təkrarlamaları olan kompleks proses kimi nəzərdən keçirilir. Gibbons (1994) bunu elmin Rejim 1-dən Rejim 2-yə keçidi kimi adlandırmışdır [82]. Leydesdorff və başqaları bunu üçqat spiral yanaşması adlanırdırırlar: Yanaşmaya görə üç müstəqil institusional struktur (dövlət, biznes və elm) öz inkişafı ilə daha çox müstəqil idarə

olunaraq zaman-zaman bir-biri ilə əlaqə yaradır [113]. Analiz üçün bu şəbəkə biliyin "harada" və "necə" yaradılmasından daha çox şəbəkələrin dinamikası və institutlar arasındakı ittifaqların vacibliyini vurğulayır.

Cədvəl 3.1.
Elmdə Rejim-1 və Rejim-2

| Rejim 1 | Rejim 2 |
|---|---|
| Elmi | Tətbiqə istiqamətlənmiş |
| Bir sahəyə istiqamətlənmiş | Sahələr üstü (Transdisciplinary) |
| Homogen | Heterogen |
| Xətti və stabil | Qeyri-xətti və dəyişkən |
| Keyfiyyətə elmi nəzarət | Daha geniş meyar əsasında keyfiyyətə nəzarət |
| Analoqlarına qarşı məsuliyyət daşıyan | Cəmiyyətə qarşı məsuliyyətli |

**Mənbə: Gibbonsun mülahizələri [82] əsasında müəllif tərəfindən tərtib edilmişdir**

Beləliklə, elmi ədəbiyyatda innovasiyaya sosial-iqtisadi və texnoloji proses kimi sistematik baxış o dərəcədə inkişaf etmişdir ki, artıq innovasiya prosesi anlayışı yaranmışdır. Bu proseslər çoxlu sayda uğursuzluqların baş verməsi ilə xarakterizə olunur. İnnovasiya menecmenti sistematik kontekstdə kollektiv fəaliyyətin olduqca mürəkkəb, qeyri-müəyyən və ehtimali proseslərinin uyğunlaşdırılması kimi qəbul olunmalıdır.

İnnovasiyaya sistemli baxış nəzərdə tutur ki, firmanın davranışı, sadəcə firma səviyyəsində müstəqil qərar vermə şərtləri daxilində başa düşülə bilməz. İnnovasiya, daha çox, firma və onun ətraf mühiti arasında iki müxtəlif səviyyədə kompleks qarşılıqlı əlaqələri əhatə edir. İqtisadi nəzəriyyədə firma istehsal qərarlarının qəbul olunduğu, təşəbbüslərin həyata keçirildiyi və ixtiraların mənfəət əldə etmək üçün satılan real məhsullara çevrildiyi yerdir.

İlk olaraq Karl Marks kapitalistlərin "istehsal güclərinin inkişafının" arxasında duran hərəkətverici qüvvə olduğunu göstərmişdir. Avstriya

iqtisadiyyat məktəbinin nümayəndəsi Şumpeterin doktorluq dissertasiyası (1911) innovasiya sahəsində ilk əhəmiyyətli iş kimi qəbul edilir. Onun fikrincə iqtisadiyyat heç də müvazinətlik haqqında elm deyil, o hər şeydən öncə, "yeni kombinasiyalar" yaradan və bununla da müvazinətin pozulmasına ("yaradıcı dağıtma") səbəb olan sahibkarların fəaliyyətlərini ehtiva edir. XX əsrin korporativ laboratoriyalarında belə sahibkarlıq fəaliyyəti "innovasiyanın tənzimlənməsi" kimi formalaşdırıldı.

Biznes tsiklləri haqqında elmi işində Şumpeter, həmçinin, innovasiyalar arasındakı fasiləni uzunmüddətli Kondratyev dalğaları ilə əlaqələndirirdi. Yetkinləşən dördüncü sənaye dalğasının kütləvi istehsalı və beşinci sənaye dalğası kimi İKT-nin inkişafı ilə birlikdə [124], biznes 1980-ci illərdə tədqiqat və işlətmə (R&D) fondlarını qeyri-mərkəzləşdirməyə başladı. Miqyas effektləri elastikliyi inkişaf etdirdi ki, bu da öz növbəsində strateji tədqiqatlardan istehlakçıya istiqamətlənmiş innovasiyalara keçidi zəruri etdi. Eyni zamanda tədqiqat və işlətmələrin dövlət maliyyələşdirilməsi artdı. Bunun nəticəsində innovasiya idarəçiliyində yeni məsələlər meydana çıxdı: absorbasiya qabiliyyəti, aralıq institutlar və universitet tədqiqatlarının kommersiyalaşdırılması (məsələn, start-up layihələri və bunun üçün riskli və vençur kapitalının mövcudluğu). İnnovasiya menecmenti getdikcə daha çox təşkilatların sərhədləri arasındakı prosesləri əhatə etməklə şəbəkələşməyə şərait yaratdı.

F. Aqiyonun [39] tədqiqatı ilə razılaşaraq deyə bilərik ki, uğurlu modernləşmə şaquli inteqrasiya olunmuş irihəcmli strukturların hesabına həyata keçirilir, lakin innovasiya üçün rəqabət mühiti və iri olmayan şirkətlər daha vacibdir. Təkcə Azərbaycanda deyil, bütün postsovet məkanında rəqabət mühitinin inkişafı üçün çağırışların qaldığını nəzərə alsaq, əsasən innovasiyanın deyil, iri bizneslərin iştirakı ilə modernləşmənin zəruriliyi haqda danışa bilərik. Kiçik və orta biznes üçün rəqabət mühitinin inkişafına nail olmaq modernləşmə

üçün əsas çağırşdır. Uğurlu innovativ inkişaf üçün zəruri, yəni innovativ məhsulların yaradılması üçün mümkün olan mühit inkişaf etdirilməlidir.

Azərbaycanın rəqabət mövqelərinin güclü olduğu sahələrdə məqsədyönlü şəkildə fundamental tədqiqatlara əsaslanan və tətbiqi xarakterə malik innovativ inkişafa, həmçinin yeni fəaliyyətlərə hədəflənmək mümkündür. Bunun üçün lazımi infrastrukturun inkişafı vacibdir. Texnoloji geriliyin aradan qaldırılması innovasiyanın təqdim edilməsini asanlaşdırır, çünki innovativ inkişaf ilk növbədə modernləşmə mərhələsinin keçilməsini tələb edir. Yaxın illərdə texnoloji geriliyin aradan qaldırılması iqtisadiyyatda qlobal keçid prosesləri ilə bağlı olan mürəkkəb iqtisadi proseslər şəraitində, V.Maunun tərifi üzrə desək "turbulent onillik"də [42], baş verəcəkdir.

İnnovativ iqtisadiyyat ləngidiyi zaman məhz bu şərtlər modernləşmə sıçrayışını stimullaşdıra bilər. S.Qlaziyevanin fikrincə, texnoloji cəhətdən geridə qalmış ölkələr artıq zəhmət çəkmədən inkişaf etmiş ölkələrin innnovativ-texnoloji təcrübəsindən faydalana bilərlər ki, bu da onlara təşkil olunacaq texnoloji zəncirlərin [37] tərkibinin optimallaşdırılmasına imkan verəcək.

Fikrimizcə, iqtisadiyyatın modernləşdirilməsi üçün prioritet kimi, kiçik və orta sahibkarlıqla yanaşı, iri biznesin dəstəklənməsi zəruridir. Belə ki, bu, həmin istiqamətdə investisiya layihələrinin, bir tərəfdən daha az riskli (onların reallaşdırılma mümkünlüyü yüksəkdir), digər tərəfdən isə yüksək sosial və iqtisadi əhəmiyyət malik olması ilə bağlıdır. İri müəssisələrin aktivlərindən kredit resurslarının cəlb edilməsi üçün təminat kimi istifadə edilə bilər; iri biznes professional idarəetmə komandasına və layihədə tələb olunan mütəxəssis bankına malikdir; iri biznes sistem formalaşdırıcı rol oynayır və klasterlərin yaranmsı üçün əsas verir.

Dövlət dəstəyi üçün sahələrin seçilmə meyarı kimi onların kumulyativ potensialına baxmaq zəruridir.

Şəkil 3.1.

Modernləşməyə dövlət dəstəyi üçün sahələrin seçilmə meyarları




Azərbaycan Avropa İttifaqının təcrübəsindən istifadə edərək sahibkarların R&D fəaliyyətinə dövlət dəstəyi verə bilər. *Dövlət dəstəyinin prinsipləri* əsasında iri müəssisələrin modernləşməsi üçün aşağıdakıları fərqləndirmək olar:

- Üstünlüyü öz sosial cavabdehliyini sübut etmiş, inkişafda maraqlı, yüksək istehsal göstəricilərinə malik *effektiv müəssisələrə* vermək;
- Xarici investorlarla müqayisədə daha riskli vəziyyətdə olan Azərbaycan *investorlarını* dəstəkləmək;
- Dövlətin regional siyasətinin hədəflərilə uyğun olan layihələri seçmək (indiki zamanda aşağı investisiya aktivliyinə malik regionlarda). İqtisadi fəaliyyətin desentralizasiya olunması üçün regionların investisiya aktivliyinin artırılması lazımdır;
- Yüksək hazırlıq səviyyəsinə və reallaşdırma dərəcəsinə malik layihələri seçmək;
- Dövlət dəstəyinin qeyri-maliyyə üsullarından (infrastruktur, təşkilati-administrativ və s.) istifadə etmək;

- Ümumən qəbul olunmuş beynəlxalq qaydalara, o cümlədən, ÜTT şərtlərinə uyğunlaşmaq.

Modernləşməyə dövlət dəstəyinin əsasında öncə institusional inkişaf [36] dayanmalıdır. Modernləşmə prosesinə özəl investisiyaların cəlb edilməsi üçün risklərin qiymətləndirilməsi, investisiya dövründə məhdudlaşma və gəlirlilik səviyyəsinin müəyyənləşdirilməsi, həmçinin sərmayənin özünüödəmə müddətinin aydınlaşdırılması tələb olunur. Bazarın dövlət tənzimləməsi üsulları ilə institusional inkişafın stimullaşdırlması üçün məqsədyönlü şəkildə dövlət tələbini istifadə etmək və infrastruktur təminatını yaxşılaşdırmaq lazımdır.

*Dövlət tələbi* iqtisadiyyatın tənzimləyicisi kimi sonuncu qlobal iqtisadi böhran zamanı böyük rol oynamağa başladı. Daxili tələbin dəstəklənməsi (bunu bir çox ölkələr, o cümlədən Azərbaycan da fəal şəkildə istifadə edir) əsas hədəf kimi seçilib. Dövlət tələbi mexanizmindən istifadə etməklə ABŞ adminstrasiyası yeni iş yerlərinin açılması və milli infarstrukturun modernləşdirlməsi siyasətini yürüdür; dövlət sifarişi həmçinin fəal tikinti işlərinin getdiyi Çin iqtisadiyyatı üçün vacibdir.

Dövlətin iqtisadi rolu həm də infrastrukturun yaxşılaşdırılması ilə müəyyən olunur. Azərbaycanda dövlət istehsal və sosial infrastrukturun inkişafında ənənəvi rola malikdir. 2000-ci illərdən başlayaraq BRİCS ölkələrindən Çin infrastruktura ÜDM-in 8-10%, Hindistan 4-6% və Rusiya Federasiyası isə 1-2% [40] həcmində investisiya qoyduğu halda, Azərbaycanda bu göstərici 10-15% olub. Bir tərəfdən fiskal dayanıqlığı əsas gətirən Beynəlxalq Valyuta Fondu Azərbaycana fiskal konsolidasiya tövsiyyə etsə də, ölkədə infrastrukturun yenilənməsinə olan tələbat bunun əksini tələb edir. Azərbaycan kapital intensivliyi (əsas fondların işçi qüvvəsinə nisbəti) göstəricisinə görə inkişaf etmiş ölkələrdən geri qaldığı təqdirdə dövlətin infrastrukturu yeniləmək istiqamətində siyasəti rasional sayıla bilər.

Cədvəl 3.2.
Azərbaycanda iqtisadi modernləşmənin şərtləri

| **Şərtlər** | **Xüsusiyyət** |
|---|---|
| İqtisadiyyatın inkişafının davamlılığı | • "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası cəmiyyətin iqtisadi və siyasi həyatının inkişaf istiqamətlərini müəyyənləşdirir.<br>• Vergi və kredit siyasətinin əsas istiqamətləri qısamüddətli dönəmdə olduğu kimi, orta və uzunmüddətli dövrdə də proqnozlaşdırılmalıdır.<br>• Fəaliyyət üçün hüquqi bazanın mövcudluğu əsas xüsusiyyətlərdəndir. Qəbulu gözlənilən Rəqabət Məcəlləsi Azərbaycanda hansı modelin seçilməsinə cavab verəcək və bazar iştirakçıları üçün bərabər imkanlar yaradacaq. Həmçinin qanunvericilik dövlət tənzimləmə üsulları, xüsusilə, dövlət sifarişi ilə dəstəklənmənin şəffaf meyarlarını müəyyənləşdirir. Elektron Azərbaycan proqramına uyğun olaraq dövlət orqanlarının əlaçatarlığı və hesabatlılığı təmin olunur. |
| İqtisadiyyatın inkişafı üçün məhdudlaşmaların aradan qaldırılması | • İnfrastrukturun inkişafı üçün lazımi şərait yaradılır. Administrativ-təşkilati çağırışlar aradan qaldırılır. |
| Modernləşmə üçün texniki imkanlar | • Texnologiyalar və onları təchiz edən istehsal müəssisələri mövcuddur, həmçinin texnologiya idxalı stimullaşdırılır.<br>• Modernizasiyanın tələblərinə uyğun kadr hazırlığı sistemi mövcuddur. Dünya Bankının Bilik İqtisadiyyatı İndeksinin 2012-ci il sıralamasına görə Azərbaycan 2000-ci il ilə müqayisədə postsovet məkanında ən yüksək sürətlə - 15 pillə irəliləyib. Xüsusən İKT sahəsində 26 pillə irəliləyiş insan kapitalının necə sürətlə inkişaf etdiyini göstərir. |
| Modernləşmədə investisiyaların iqtisadi effektivliyi | • Modernizasiya istiqamətində sərmayə yatıran şirkətlər kompleks şəkildə stimullaşdırılmalıdır. |
| Əlverişli sosial psixoloji mühit | • Ölkənin intellektual potensialı modernizasiya prosesinə cəlb edilməlidir;<br>• Modernləşmə prosesslərinin gedişində hökumət, biznes və cəmiyyətin qarşılıqlı əlaqəsinin təmin olunmalıdır. |

İnfrastruktura yönəldilən investisiya iqtisadi inkişafı stimullaşdırır, tələb və məşğulluğu dəstəkləyir və binzes xərclərinin (nəqliyyat, kommunikasiya, enerji, su təminatı və s.) azaldılmasında rol oynayır. Azərbaycanda, başqa postsovet ölkələrində olduğu kimi infrastrukturun inkişaf etmiş ölkələrin səviyyəsində iqtisadi modernləşmə

prosesində əsas çağırışlardan biri olaraq qalır. Azərbaycanda infrastruktura yatırılan sərmayə avtomobil və dəmir yollarının sıxlığının artılması, hava və dəniz limanlarının, avtovağzalların sayının çoxalması, mühəndislik və kommunal infrastrukturun yenilənməsi ilə nəticələnir. İnfrastruktura olan tələb həm fiziki, həm də mənəvi köhnəlmə ilə yanaşı, iqtisadiyyatın və əhalinin artan tələbatı ilə də korelyasiya edir.

Şəkil 3.2.
İnfrastrukturun inkişafında dövlətin rolu




Xarici təcrübənin ümumiləşdirilməsi onu göstərir ki, dövlət bazar iqtisadiyyatı şəraitində innovativ fəaliyyətin təşkilində (prioritet istiqamətlərin müəyyən edilməsində, zəruri hüquqi çərçivənin yaradılmasında, innovativ proseslərin təşkilati-iqtisadi tənzimlənməsində) birbaşa iştirak edir.

Dövlətin innovativ fəaliyyəti və modernləşdirmə prosesini tənzimləməsinin iki istiqaməti var: birbaşa və dolayı. Birbaşa təsir üsulu kimi dövlət innovativ ikişafı maliyyələşdirir (məqsədli, predmet və problem istiqamətləri üzrə), kreditləşdirir, lizinq xidməti göstərir, fond əməliyyatları aparır. İnnovativ inkişafın planlaşdırılması və proqramlaşdırılması, həmçinin dövlətin sahibkarlıq fəaliyyətini də birbaşa tənzimləmə siyasətinin arsenalına aid etmək mümkündür. Dolayı yolla

tənzimlənməyə gəlincə dövlət innovativ prosesi sürətləndirmək üçün münbit makro şəraiti yaradır və stimullaşdırma (vergi, gömrük və s.) siyasəti həyata keçirir.

İnfrastruktur sahəsinin tənzimləmələrində heç də az əhəmiyyətə malik olmayan element bu sferada "oyun qaydaları"nın hazırlanmasıdır. İnfrastruktur obyektlərinin çoxu ya dövlət ya da təbii monopoliyaların mülkiyyətindədir, bu da faktiki olaraq rəqabətin məhdudlaşması ilə nəticələnir. Buna görə də infrastruktur xidmətlərinin çatdırılması və ödənişlərin dəqiqliklə reqlamentləşdirilməsi zəruridir.

Şəkil 3.3.
İnnovativ proseslərə dövlətin təsiretmə istiqamətləri



Yeni qurulan və modernləşən istehsal müəssisələr üçün enerji və mühəndislik şəbəkələrinə qoşulmaqda olan problemlər aradan qaldırılmalıdır. Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının hazırladığı "Doing Business" hesabatında **"Tikintiyə icazə"** meyarı üzrə Azərbaycanın reytinqinin yaxşılaşdırılması üçün "bir pəncərə" qaydasının tətbiqi daha düzgün olardı. Bu yolla tikintiyə icazə prosedurlarının sayı, tələb olunan vaxt və maliyyə resursunu əhəmiyyətli dərəcədə azaltmaq mümkündür. Kanada təcrübəsindən istifadə edərək bu zaman tikintiyə icazə prosesinin müxtəlif mərhələlərində vaxt limitinin müəyyənləşməsi, həmçinin icazə sisteminin avtomatlaşdırılması nəticə etibarı ilə ölkə reytinqinin yüksəlməsinə gətirib çıxara bilər.

Şəkil 3.4.
İnfrastruktur sferasında proses




Modernləşdirilmənin qarşısında duran nəzəri-metodoloji çağırışları belə qruplaşdırmaq mümkündür:

- *Nəzəri olaraq modernləşdirmənin əsas meyarlarının müəyyənləşdirilməsində çağırışlar qalmaqdadır;*
- İqtisadi modernizasiyanın həmişə pozitiv demokratik islahatlarla müşayiət olunması açıq müzakirə mövzusudur;
- *Bilik iqtisadiyyatına keçid modernizasiya paradiqmasına yeni baxış bucağı tələb edir;*
- *Modernləşdirilmə və innovativ inkişaf arasında dialektik vəhdətin nəzəri-metodoloji əsasları hazırlanmalıdır;*
- *Modernizasiya zamanı qlobal, regional, milli və lokal səviyyədə bərabərsizliklərin yaranması problemi qloballaşmanın tələblərinə uyğun şəkildə təhlil edilməli və çıxış yolları göstərilməlidir* və s.

Modernləşdirilmənin əsas xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- *Modernləşdirilmə bir proses olaraq daimi xarakter daşıyır;*
- *Modernləşdirilmə cəmiyyətin siyasi, iqtisadi, sosial, mədəni və dini həyatını əhatə edir;*
- *Modernləşdirilmə tarixin inkişaf mərhələlərinə uyğun olaraq formasını dəyişir;*
- *Modernləşdirilmə qlobal, regional, milli və lokal səviyyələrdə qeyri-bərabər paylanılıb;*
- *Modernləşdirilmə bir proses olaraq cəmiyyətin institutlarının harmoniyasına çalışır;*
- *Modernləşdirilmə əmək qüvvəsinin kəmiyyət və keyfiyyət dəyişikliklərinə yol açır;*
- İqtisadi modernləşdirilmə iqtisadiyyatın əsas çağırışı olan minimum resurslarla maksimum nəticə əldə etməyə, başqa sözlə iqtisadi səmərəliliyi artırmağa xidmət edir və s.

### 3.2. Aqrar sahənin modernləşdirilməsi nəzəriyyələrinin təkamülü

Kənd təsərrüfatının inkişafında modernləşdirmə xüsusi əhəmiyyət kəsb etmişdir. Modernləşdirmə əsasən yeni aqrotexnologiyaların tətbiqi, məhsuldar toxum və cins mal-qara, habelə kimyəvi gübrələr və pestisidlərdən istifadə, aqrotexniki xidmət sahəsində təkmilləşdirilməni əhatə edir. ABŞ-da Teodor W. Schultz ilk dəfə olaraq modernləşdirməni kənd təsərrüfatı üçün ənənəvilikdən texnologiyaya əsaslanan istehsala bir keçid imkanı kimi xarakterizə etmişdir. Amerika Birləşmiş Ştatlarında aqrar sahədə tədqiqat və işləmə (R&D) üçün hüquqi, siyasi, elmi və iqtisadi əsaslar yaradılmışdır. Hindistanın ötən əsrin 60-cı illərində tətbiq etdiyi "Yaşıl İnqilab" böyük miqyasda müasir elm-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi nəticəsində baş tutmuşdur.

Kənd təsərrüfatının modernləşdirilməsi bir proses olaraq geniş təkrar istehsalın həm ekstensiv, həm də intensiv yollarla inkişafını əhatə edir. Əgər kənd təsərrüfatı sahəsində istehsalın artımı əsas fondların böyüməsi (bina, avadanlıq, qurğular və s.) hesabına aparılarsa geniş təkrar istehsalın bu forması ekstensiv inkişaf yolu adlanır. Əgər istehsalın inkişafına məhsuldarlığın yüksəldilməsilə nail olunursa, məhsul istehsalının belə artım istiqaməti intensiv inkişaf yolu adlanır. Modernizasiya kənd təsərrüfatının inkişafını intensivləşdirir: vahid torpaq sahəsi hesabı ilə daha modern fondlara və daha ixtisaslı əmək sərfinə investisiya qoyuluşunun daim artması kənd təsərrüfatı məhsullarının da artımını təmin edir [24, s.26]. Modernləşmə siyasəti kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaqla yanaşı, həm də kompleksliik, alternativlik və mümkün risklərdən sığortlanma kimi baza prinsiplərinin üzərində dayanmalıdır.

Pascal L. G. və Hartley F. W. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 21 ölkəsində 1990-2003-cü illər ərzində innovasiyaların ilkin kənd təsərrüfatı məhsulu və ərzaq ixracına təsirini qiymətləndirmək üçün təhlil apararaq belə nəticəyə gəlmişdilər ki,

tədqiqat və işləmələr (R&D) ilkin aqrar məhsulların ixracının artmasına səbəb olmuşdur [123, s.448]. ABŞ-ın kənd təsərrüfatının ikinci dünya müharibəsindən sonrakı yüksəlişində də tədqiqat və işləmələrin (R&D) mühüm rolu olmuşdur [148, s.212]. Tədqiqat və işləmələr (R&D) ilk növbədə kənd təsərrüfatı məhsulu və ərzağın rəqabətqabiliyyətini artımaqla ixrac imkanlarını genişləndirir. Modernizasiya tədqiqat və işləmə (R&D) fəaliyyətinin bilavasitə istehsal prosesində təcəssümünü ehtiva etməklə ixrac potensialının artmasına xidmət edir. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə tədqiqat və işləmə (R&D) üçün lazım olan miqdarda resurs (kapital, insan resursu, infrastruktur və s.) məhdudluğundan bu sahədə çağırışlar qalmaqdadır. Juma C. qeyd edir ki, inkişaf etməkdə olan ölkələrdə elmi-texniki tərəqqinin tərəfdarları nanotexnologiya, biotexnologiya, informasiya və komunikasiya texnologiyaları və coğrafi informasiya sistemi sahəsində çempionlar tapıblar. Bu texnologiya platformaları üzərindən inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələrə çatmaq (catching-up model) deyil, həm də özləri töhfələr verməklə ənənəvi labirintdən çıxa bilərlər [99, p.18].

Səmədzadə Z. Çində kənd təsərrüfatının inkişafını həm də bu ölkədə aqrar modernizasiya ilə əlaqələndirərək qeyd etmişdir ki, "...aqrar sektora xərclər bu sahədə elm və texnika nailiyyətlərinin genişləndirilməsinə yönəlmişdir..." [32, s.85].

Azərbaycan alimi Salahov S. kənd təsərrüfatının modernləşdirilməsi zamanı xüsusilə infrastrukturun təkmilləşdirilməsinə diqqət yetirmiş və bu yolla kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılmasının mümkün olduğunu bildirmişdir [46, s.9].

Pragnell M. qeyd edir ki, transmilli korporasiyalarla kiçik və orta sahibkarlar arasında səmərəli əməkdaşlığın qurulması inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı sektorunun irəli aparılması üçün mühüm əhəmiyyət kəsb edə bilər [96, s.289]. Transmilli korporasiyalarla əməkdaşlıq kənd təsərrüfatının modernləşdirilməsi, ixrac potensialı-

nın gücləndirilməsi və dəyər zəncirinin effektiv şəkildə uzanması üçün şərait yaratmağa qadirdir.

Kənd təsərrüfatı sahəsində uğurlu innovasiya üçün bazar təhlilinin nəticəsi olaraq dörd komponent müəyyənləşdirilir: istehlakçılar, rəqiblər, davamlı rəqabət üstünlüyü və daxili imkanlar [86, s.1322]. İnnovasiyanın uğuru üçün şərt onun nadir və uzunmüddətli olması, əvəzləyicisinin olmaması, həmçinin imitasiya edilmək imkanlarının məhdudluğudur. Belə yüksək tələblərə cavab vermək üçün innovasiyanın yaradılması da daha çox resurs tələb edir. Buna görə də innovasiyanın təkrarolunmazlığı (həm də faydalılığı) ilə onun yaradılmasına sərf edilən resursların dəyəri arasında qızıl olrtanın tapılması vacibdir. İnnovasiyaların kəşfinin belə çox resurs tələb etməsi gətirib ona çıxarır ki, innovasiyalar əsasən inkişaf etmiş ölkələrdə yaradılır. İnkişaf etməkdə olan ölkələr üçün isə daha çox innovasiya idxalı və onların tətbiqi, başqa sözlə, modernizasiya daha uyğundur.

Aqrar sahənin modernləşdirilməsini sürətləndirə biləcək innovasiya sahibkarlığını bir proses kimi dörd əsas fazaya ayırmaq olar [15, s.110]:

- *yeni ideyaların axtarışı və onların işlənib hazırlanması;*
- *işlənmiş ideya üzrə müfəssəl planın tərtibi;*
- *zəruri resursların axtarışı;*
- *idarəetmə və nəzarət proseslərinin həyata keçirilməsi.*

Yerli innovasiya sisteminin gücləndirilməsi və səmərəli klasterlərin inkişafı emal edilməmiş məhsula əlavə dəyər gətirər və bağçılıq, ərzaq istehsalı və qablaşdırılması, ərzağın saxlanılması və daşınması, qida təhlükəsizliyi, satış şəbəkələri və ixrac potensialı üzrə dəyər zəncirini inkişaf etdirə bilər [99, s.18].

Karlisle F. R. öz məqaləsində məcburi innovasiya hipotezini (induced innovation hypothesis) təhlil edərək göstərir ki, texnologiyaların ətraf mühitin keyfiyyət dəyişmələrinə təsiri var [63, s.249]. Hipotezda bildirilir ki, texnologiya çoxluq təşkil edən istehsal amilini defisit olan

istehsal amili ilə əvəzləyir, məsələn, irriqasiya texnologiyaları yeraltı suların keyfiyyətinə mənfi təsir edə bilər. BMT-nin Rio de Janeyro-92 konfransında iqtisadi, sosial və ekoloji aspektləri əhatə edən "davamlı inkişaf" ideyası qəbul edilmişdir. Bu konsepsiyaya görə iqtisadiyyatın davamlı inkişafı ekoloji sistemin tarazlığnı pozmamalı, resurslar təkcə insan nəsilləri arasında deyil, həm də bioloji növlər arasında ədalətli bölünməlidir. Kənd təsərrüfatının spesifik xüsusiyyətlərindən biri onun təbiətlə daha sıx bağlı olmasıdır. Beləliklə, aqrar modernizasiya davamlı inkişaf çərçivəsini aşmamalı, əksinə ekoloji tarazlığı qorumaqla sosial və istisadi inkişafda davamlılığa nail olmalıdır.

Qazax alimi Şulenbayeva F.A. "innovasiyalı modernizasiya" ideyasını irəli sürərək modernləşmə yolu ilə tarazlığı pozmadan iqtisadi inkişafa nail olmaq imkanlarını təhlil etmişdir [49, s.5]. Şulenbayeva F.A. aqrar-sənaye kompleksində modernizasiyanın əsas prinsipləri kimi bunları irəli sürür: rasionallıq, iqtisadi planlaşdırma, bərabərlik və ictimiai institutlar və insanların şüurunda dəyişikliklər.

Rus alimlərindən Plotnikov V.N. modernləşməni postindustrial dövrdə fermer təsərrüfatı prizmasından qiymətləndirərək prosesin mikro səviyyədə funksional imkanlarını açmışdır [45].

Modernizasiya prosesi innovasiyaların kənd təsərrüfatı istehsalına tətbiqini göstərilən mərhələlərlə ehtiva edir: elm - texnologiya - istehsal - istehlak. Modernizasiyaya regional, sahəvi, funksional, texnoloji və təşkilati xüsusiyyətlər təsir göstərir. Kənd təsərrüfatı istehsalına modernizasiyaya təsir göstərən şərt və amilləri iki qrupa ayırmaq olar:

1. Neqativ (ərzaq məhsullarına tələbatın azalması, dövlətin xüsusilə modernizasiya istiqamətində həyata keçirdiyi dəstək siyasətinin məhdudlaşması, innovasiya infrastrukturunun zəifliyi, maliyyə vəsaitlərinə əlçatarlığın azalması, innovativ menecerlərin çatışmazlığı və s.)
2. Pozitiv amillər (dövlətin vergi, kredit, qiymət və s. siyasət üsulları ilə modernizasiyanı dəstəkləməsi, xarici investisiya axınlarının

güclənməsi, innovativ menecmentin inkişafı və s.)

Şulenbayeva F.A. kənd təsərrüfatı istehsalında innovasiyanın 4 tipini müəyyənləşdirmişdir: seleksiya-genetik; texniki-texnoloji və istehsalat; təşkilati-idarəetmə və iqtisadi; sosial və ekoloji.

Aqrar sahədə modernizasiyanın sürətini müəyyənləşdirən əsas amillər bunlardı:

1. İnnovativ potensial (intellektual, təşkilati, material-texniki, əmək və informasiya resursları);
2. *Biznes mühitin innovasiyaları qəbul etmə qabiliyyəti;*
3. İnteqrasiya səviyyəsi (innovativ infrastruktur müəssisələrinin sayı, onların qarşılıqlı əlaqəsi və s.)

Azərbaycanda aqrar sahənin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması üçün təhsil, tədqiqat və innovasiyadan ibarət bilik üçbucağının inkişaf etdirilməsi zəruridir. Bilik üçbucağının sahibkalıq fəaliyyəti ilə inteqrasiyası bilavasitə kənd təsərrüfatının modernizasiya prosesini sürətləndirə bilər. Avropa İttifaqında fəaliyyət göstərən Aqrar Bilik və İnnovasiya Sistemi (Agricultural Knowledge and Innovation System (AKIS)) Azərbaycanda innovativ kənd təsərrüfatının inkişafı üçün əhəmiyyətli təcrübə sayıla bilər. Aqrar Bilik və İnnovasiya Sistemi təhsil, təlim və tədqiqatları əhatə etməklə mühüm bir struktura çevrilmişdir. Bundan başqa Aqrar Bilik və İnnovasiya Sistemi ərzaq zəncirinin digər həlqələrini (ərzaq istehsalçısı, dövriyyə və əsas vəsaitlərin təchizatçılar, kənd təsərrüfatı istehsalına xidmət göstərən institutlar və .) də əhatə etməklə innovasiyaların işlənməsi və tətbiqi üçün imkanlar açır.

Texnoloji dəyişiklik və innovasiya təşkilatlanmanın yeni yollarını meydana gətirdi. Bu fikir firma daxilində, eyni zamnda da bütünlükdə cəmiyyət üçün doğrudur. "Sosial innovasiya" konsepsiyası 1980-ci illərdə, "uzunmüddətli texnologiya dalğalarının" əhəmiyyətli institusional dəyişikliklərə gətirib çıxardığını göstərmək üçün irəli sürüldü.

Əslində innovativ aqrar sahə milli və qlobal innovasiya sisteminin

tərkib hissəsi kimi çıxış etməlidir. İnnovasiya infrakstrukturu innovasiya inkişafının bütün fazalarının təkamülünü və köməyini təmin edən dövlət və xüsusi strukturların məcmusu kimi xarakterizə olunur [48, s. 242]. Milli innovasiya sisteminin qurulması zamanı hökumət innovasiya sferasının inkişafının müəyyən şərtlərini formalaşdırır, iqtisadiyyatın innovasiya inkişafının strategiyasını müəyyən edir, elmi işləmələrin inkişafında iştirak edir [16, s.27]. Bu isə öz növbəsində innovasiya fəaliyyətinin hüquqi tənzimlənməsini, müvafiq infrakstrukturun formalaşmasını, innovasiya fəallığını təmin edən iqtisadi-maliyyə xarakterli dövlət tədbirlərinin həyata keçirilməsini tə-ləb edir [18, s. 862]. Yerli innovasiya sisteminin gücləndirilməsi və səmərəli klasterlərin inkişafı emal edilməmiş məhsula əlavə dəyər gətirər və bağçılıq, ərzaq istehsalı və qablaşdırılması, ərzağın saxlanılması və daşınması, qida təhlükəsizliyi, satış şəbəkələri və ixrac potensialı üzrə dəyər zəncirini inkişaf etdirə bilər [99, s.18].

Milli innovasiya sisteminin (MİS) elementləri sırasına aşağıdakılar daxildir [48, s.242]:

- dövlət(idarəetmə funksiyası və koordinasiya);
- innovasiya fəaliyyətinin normativ-hüquqi bazası;
- MİS-in infrakstrukturu;
- Innovasiya fəaliyyətinin subyektləri, elmtutumlu məhsulun satış bazarı.

Müstəqilliyin ilk mərhələsində Azərbaycan iqtisadiyyatının istehsal gücünün artırılması və infrastrukturun yenilənməsi dərin modernləşmə tələb edirdi. Beləliklə, iqtisadi modernləşmənin əsas strateji istiqamətləri müəyyənləşdi. Ümumilikdə modernləşmənin hansı şəkildə reallaşdırılması haqqında aktiv müzakirələr gedir. İnnovasiya hər şeydən əvvəl yeni (qlobal iqtisadiyyat nöqteyi-nəzərdən) texnologiyaların yaradılmasını, modernləşmə isə mövcud olanlar arasından ən müasirinin təqdim olunmasıdır. İnnovasiya yeni texnologiyaların ixracına, onların qlobal proseslərlə inteqrasiya olunmasına yönəlir.

İnnovasiya və modernizasiyanın inkişafının əsasında elm kapitalı dayanır. Azərbaycanda xüsusən aqrar elm sahəsində son illər müəyyən uğurlar əldə edilmişdir. Kənd Təsərrüfatı Nazirliyi sistemində Azərbaycan Dövlət Aqrar Universiteti və Aqrar Elm Mərkəzinin tərkibində 13 elmi tədqiqat institutu fəaliyyət göstərir. Qeyd olunan elmi-tədqiqat institutlarında yerinə yetirilən elmi tədqiqat mövzularının böyük əksəriyyəti praktiki əhəmiyyət daşıyaraq bitkiçilikdə və heyvandarlıqda yeni sort və cinslərin yaradılmasına, becərilmə texnologiyalarının təkmilləşdirilməsinə, səmərəli mühafizə üsullarının işlənməsi məsələlərinə həsr edilmişdir.

2012-ci ildə elmi nəticə kimi 16 sort (3 yumşaq buğda, 1 qarğıdalı, 1 tut, 3 pambıq, 1 yonca, 2 feyxoa, 1 alma), 2 tut ipəkqurdu hibridi yaradılmış , 8 ixtiraya patentin sənədi hazırlanıb aidiyyəti üzrə təqdim edilmişdir. Bitki genetik ehtiyatların tədqiqi üzrə 21 496 bitki nümunəsi toplanmış və öyrənilmişdir. Elmi-tədqiqat işlərinin nəticələrinə dair 4 monoqrafiya, 16 kitab, 532 məqalə və tezis dərc edilmişdir.

34 yeni dərman preparatlarının sınağı aparılmış, 100 vaksin qeydiyyatdan keçirilmişdir. Elmi nəticələrin (yeni sortlar, texnologiyalar və s.) nümayiş və fermer təsərrüfatlarında yayımı məqsədi ilə 8 regional aqrar elm mərkəzlərində 100-ə yaxın təcrübələr qoyulmuş, 70-dən çox elmi-praktiki seminar və tarla günləri keçirilmişdir. Aqrar elmi tədqiqatlara 2012-ci ildə 10 milyon manatdan artıq vəsait ayrılmışdır.

Araşdırmalarımız göstərir ki, Qərb ölkələrində təhsil sistemi dar ixtisaslaşma əsasında, amma böyük holdinqlərdə inkişaf edir. Bu yolla kənd təsərrüfatı sahəsində müxtəlif ixtisaslar bir yerdə təmərküzləşir və eyni infrastrukturu paylaşır. Hətta MDB ölkələrində də bu tendensiya hiss olunur: məsələn, 2007-ci ildən etibarən "KazAqroİnnovasiya" Səhmdar Cəmiyyəti yaradılaraq elm, təhsil və istehsalatın inteqrasiyasına, kommersiyalaşdırılmasına və aqrar elm sahəsinə sərmayə cəlbinə çalışır.

Elmi-tədqiqat institutlarının fəaliyyəti və şirkətlərin tədqiqat və inkişaf işlərinə (R&D) ayırdığı vəsait artırılmalı, habelə universitetlər

və biznesin bu sahədə əməkdaşlıqları gücləndirilməlidir. "Universitet klaster"lərinin yaradılması bu sahədə böyük uğur olardı. Adambaşına düşən patentlərin sayı artırılmalıdır. Həm yeni ixtiralar stimullaşdırılmalı, həm də mövcud ixtiraların qeydiyyata alınması sürətləndirilməlidir.

Modernizasiya həm də logistik infrastrukturu da əhatə edir. Logistik sistemin inkişafının ərzaq təsərrüfatında rəqabət qabiliyyətinin yüksəldilməsi ilə qarşılıqlı əlaqəsi, informasiya axınlarının rasional idarəedilməsinə imkan verən metod və vasitələrin səmərəli məcmusunun tətbiqi şəraitində daha əyani şəkildə şərh edilə bilər. Ekoloji marketinq və logistikanın birbaşa əlaqələrinin xarakterini nəzərə alaraq, insan, cəmiyyət və təbiətin mənafelərinin qovuşdurulması üçün gorülən tədbirlər logistik sistemlərin inkişafına, qarşıya çıxan problemlərin komponent həllinə diqqəti artırır. Belə ki, müxtəlif səviyyələrdə bazara çıxarılan hazır qida məhsulunun istehsalı üçün zəruri olan xammal-materiallara və maliyyə vəsaitlərinə tələbatın real və potensial səviyyəsinin əsaslandırılması zamanı ən son metodiki, alqoritmik və informasiya yanaşmaları hesabına iqtisadi və ekoloji tələblərin kompromis intervalı nəzərə alınmısışdır [25, s.210].

Azərbaycanda artan daxili tələb və investorların modernizasiyaya meylli olması, habelə beynəlxalq konyuktura modernləşməni zəruri edir. Minimum məqsəd administrativ və bürokratik baryerlərin aradan qaldırılması və modernləşdirmənin stimullaşdırılması olmalıdır. Maksimum məqsəd modernləşmə fazasını keçdikdən sonra innovativ inkişafın başladılmasıdır. Əslində modernləşmə və innovativ inkişaf eyni zamanda cərəyan etməlidir: sadəcə birinci fazada modernləşmə, ikinci fazada isə innovativ inkişaf dominant olacaq.

### 3.3. Azərbaycanda modernizasiya siyasətinin əsas xüsusiyyətləri

Azərbaycanın iqtisadi inkişaf paradiqmasının özəlliyi ondadır ki, bu yüksəliş ilk dövrdə əsasən renta patalogiyası yaradan karbohidrogen resurslarının üzərində qurulub. Əslində, təbii sərvətləri kreativ və innovativ inkişafa əsas yaratmaq prinisipi ilə fərqləndirmək lazımdır. Məsələn, neft və qaz kreativ inkişafı deyil, əsasən sabitliyi və durğunluğu tələb edən təbii sərvətlərdir. Turizm potensialı isə tam fərqli - kreativ yanaşmanı tələb edir. Məsələn, Türkiyənin təbii və coğrafi üstünlüyü turizm və nəqliyyat-logistika kimi sahələrin inkişafı üçün yararlıdır. Türkiyənin turizmdən gəlirləri illik 25 milyard ABŞ dollarını ötür ki, bu da dünyada təbii qaz ehtiyatlarına görə ikinci olan İranın "mavi yanacaq" ixracından əldə etdiyi gəlirdən daha çoxdur. Neft-qaz qısa müddətli dönəmdə iqtisadi inkişafı sürətləndirir, amma uzunmüddtəli intervalda (iqtisadi diversifikasiya olmazsa) iqtisadi tənəzzül vəd edir. Kreativ və innovativ inkişafa əsas yaradan sərvətlər isə qısamüddətli deyil, uzunmüddətli dönəmdə iqtisadi yüksəlişi təmin edir. Beləliklə, "resursların lənəti" olduğu kimi, "resursların mükafatı" (ingiliscə: " resource's premium") da var.

Resurslar yalnız onlardan rasional istifadə etməyi bacaranda öz faydalılıqlarını göstərirlər. Ona görə də biz belə faydalılığı "yatmış faydalılıq" (ingilscə: "latent utility ") adlandırırıq.

Sübut olunmuş daha bir elmi mülahizə ondan ibarətdir ki, iqtisadi inkişafın əsas amili insan kapitalıdır. Məsələn, dünyanın karbohidrogen ehtiyatları ilə ən zəngin ölkəsi Səudiyyə Ərəbistanında hər nəfərə düşən ÜDM istehsalı Avropanın periferiyası sayılan və ciddi iqtisadi böhranla üzləmiş İspaniyanın eyni adlı göstəricisi ilə müqayisədə geridə qalır. Təbii sərvətlərin zənginliyinə rəğmən belə bir iqtisadi fərqi yaradan əsas səbəb insan amili və institutsional inkişafdır. Buna görə

də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “qara qızılın insan kapitalına çevrilməsini” iqtisadi inkişaf xəttinin əsas düsturu olaraq müəyyənləşdirmişdir.

Cədvəl 3.3.
İnkişaf funksiyasının əsas amilləri

| **Amillər** | | **Əsas məziyyəti** | **İnkişaf perspektivi** | **Tipik nümunə ölkə** |
|---|---|---|---|---|
| Təbii sərvətlər | Yerin təkindəki sərvətlər (karbohidrogen, filiz və s.) | Təbii sərvətlərin istismarı və realizasiyası kreativliyi ciddi tələb etmir | Təbii sərvətlərin istismarı və iqtisadi inkişaf tempi arasında pozitiv korelyasiya olur | Nigeriya |
| | Əlverişli coğrafi mövqe | Modernizasiya tələb olunur | Modern nəqliyyat-logistika infrastrukturu digər sahələrin də inkişafına zəmin yaradır | Türkiyə |
| | Turizm potensialı | Kreativ yanaşma tələb edir | Davamlı inkişaf təmin olunmaqla yanaşı xarici şoklara həssasdır | Malayziya |
| | Xarici dəstək | İnkişaf etmiş bazarlara çıxış və modern texnologiyaların tətbiqi ilə səciyyələnir | Davamlı inkişaf təmin olunmaqla yanaşı siyasi müstəqilliklə bağlı çağırışlar qalır | Sinqapur |
| İnsan amili | | Təhsil və səhiyyə əsas olmaqla sosial infrastrukturun yüksək səviyyədə inkişafı tələb olunur | Coğrafi amillər aradan qalxır, əsasən uzunmüddətli dönəmdə innovativ inkişaf təmin olunur | Yaponiya |
| İnstitutsional mühit | | İnsana özünüifadə azadlığı verilir | İnkişaf insan amili və institutsional mühitin üzərində davamlı və dönməz xarakter alır | ABŞ |

Əslində inkişafın amillərinə sistemli yeni bir elmi baxışın ortaya qoyulması vaxtı çatmışdır. Çünki istehsal funksiyaları (Kobb-Duqlas, əvəzetmə elastikliyi və s.) hazırkı iqtisadi inkişafı izah edə bilmir. Əmək

və kapitalın məhsul istehsalına təsirini ölçməklə kifayətlənən istehsal funksiyalarının modifikasiya olunmuş və genişləndirilmiş formalarının inkişaf etdirilməsi labüddür. Məsələn, yeni istehsal funksiyasında sərbəst dəyişənlərin sırasına institutsional mühiti, təbii sərvətlərin müxtəlif növlərini, biliyi və s.-i əlavə etmək mümkündür. Əslində yeni dəyişənlər istehsal funksiyasının yeni paradiqmaya çevrilməsini təmin edəcəkdir: inkişaf funksiyası. Burada iqtisadi-tarixi bir zərurətin olduğunu mütləq qeyd etmək lazımdır. İstehsal funksiyalarının irəli sürülməsi tarixi sənayeləşmə dövrünə təsadüf edir. 1927–1947-ci illərdə Çarlz Kobb and Paul Duqlas istehsal funksiyasını formalaşdırmışdılar. Müasir dövrdə isə artıq sənayeləşmə öz dominantlığını xidmət sektoruna güzəştə getməklə bilik iqtisadiyyatı paradiqmasının kölgəsinə düşür. Bir sözlə, iqtisadiyyatın təkcə strukturu deyil, bütövlükdə fəlsəfəsinin dəyişməsi istehsal funksiyasından inkişaf funksiyasına keçidi zəruri edir. Çünki astanasında olduğumuz xidmət erası - bilik iqtisadiyyatında (əhəmiyyətliliyinə görə) əsas amillər innovasiya, insan kapitalı və institutsional mühitdir, nəinki torpaq və ya fiziki kapital. Fikrimizcə, iqtisadi nəzəriyyədə inkişaf funksiyası yaradılmalı və əsas müzakirələr (xüsusilə, postböhran dövründə iqtisadi arxitektura üzrə olan diskussiyalar) bu funksiyanın üzərindən aparılmalıdır:

$$D = f\,(K, C, L, \text{İ və s.})$$

***Burada: D - inkişaf, K - bilik, C - kapital, L - əmək,***
***İ - institutsional mühit***

Tarixi olaraq sənaye istehaslı coğrafi yerdəyişmə edərək Birləşmiş Krallıqdan kontinental Avropaya, Amerikaya və daha sonra Yaponiyaya doğru istiqamətlənmişdir. Bu gün modern sənayeləşmə Cənubi Koreya Respublikası və Çin daxil olmaqla Şərqi Asiyaya doğru hərəkət etməkdərdir. Ancaq məşğulluq inkişaf etməkdə olan və ənənəvi sənaye gücləri (power-house) arasında qeyri-bərabər paylanmışdır. İqtisadi



**Prezident İlham Əliyev iqtisadi modernizasiyanı hökumətin başlıca vəzifəsi elan etmişdir**

inkişaf kənd təsərrüfatının dominantlığının sənayenin aparıcı mövqeyi ilə əvəzlənməsinə gətirib çıxardı. Sənayeləşmə daha çox şəhər aqlomerasiyaları ilə assosiasiya olunur. Müasir mərhələdə isə xidmət sektoru sənaye sahəsini üstələyir və suburbanizasiya (suburbanizing) prosesi başlayır.

İstehsal sektorunun texnoloji səviyyəsindən asılı olaraq məşğulluq və investisiya qoyuluşuna münasibət də dəyişir. Aşağı texnologiyalı sənayelər geniş məşğulluq imkanı yaratsa da, kapital qoyuluşuna yüksək tələb olmur. Orta və yüksək texnologiyalı sənaye sahələrində isə kapital qoyuluşu daha çox tələb olunduğu halda, sahə geniş məşğulluq yaratmır. Yüksək texnologiyalı sənaye sahələri innovativ inkişafı, bilik və bacarıqların artırılmasını təmin edir və struktur dəyişikliyi tsiklini yenidən başladır. Belə inkişaf kapitalın yığımı və innovasiya ilə yanaşı xidmət fəaliyyətlərində əmək bölgüsünü dərinləşdirir və məşğulluq imkanlarını artırır.

İnkişaf etmiş ölkələrdə istehsal (manufacture) davamlı inkişafın əsas maliyyə və bilik resusrları mənbəyi kimi çıxış edir. Sənayeləmə sonradan xidmət sektorunun da inkişafını tələb edir və yeni iş yerləri yaradır. Empirik hesablamalara əsasən demək olar ki, sənayeləşmə aqrar

cəmiyyətlərin iqtisadi strukturunun transformasiyasında sürətləndirici rol oynayır. Faktiki olaraq iqtisadi inkişafın bu konsepsiyası əslində ölkələrin zənginləşməsi ilə həyata keçən dəyişikliklərlə əlaqəlidir.

İqtisadi inkişafın mahiyyətində modernizasiya yolu ilə məhsuldarlığın artırılması, dəyər zəncirinin genişləndirilməsi və daha yüksək əlavə dəyərin əldə edilməsi dayanır. 1950-ci ildə 68 İEOÖ-in ÜDM-nin 40%-i kənd təsərrüfatı və sadəcə 12%-i sənayədən ibarət olmuşdur. 55 il sonra kənd təsərrüfatının ÜDM-də payı 16%-ə düşmüşdür, bu müddətdə emal sənayesinin ÜDM-də payı (1980-ci illərin əvvəllərində 17%-ə yüksəlmişdir) artmış daha sonra isə yenidən enmişdir. Bu illər ərzində İEOÖ-də xidmət sektoru artmış və ÜDM-in 10%-dən daha çox paya sahib olmuşdur. Əksinə 1950-ci ildə 21 İEÖ iqtisadiyyatları artıq sənaye əsasına malik olmuş (ÜDM-in 30%-dən çox), kənd təsərrüfatı isə çox az hissəylə (16%) təmsil edilmişdir. Həmçinin bu ölkələrdə də xidmət istiqamətində yüksəlmə olmuş, lakin sənayeləşmədə kəskin enmə qeydə alınmış və 2005-ci ildən etibarən sənayenin ÜDM-də xüsusi çəkisi İEÖ və İEOÖ-də bərabərləşmişdir.

Əslində İEOÖ-in iqtisadi inkişaf modelləri də bir-birindən fərqlənmişdir. XX əsrin ortasında məsələn, Çində, İndoneziyada, Koreya Respublikasında, Malayziyada və Taylandda kənd təsərrüfatı ÜDM-in ən az 40%-nə bərabər idi, 55 il sonra isə kənd təsərrüfatı ÜDM-in 3-13%-ni, sənaye isə 25%-dən çoxunu təşkil edirdi. Lakin digər İEOÖ-də fərqli keçid yaşanıb: Latın Amerikası ölkələri - Argentina, Brazilya və Meksikada iqtisadiyyatın strukturunda dominantlıq kənd təsərrüfatından xidmətə (qismən isə qeyri-emal sənayesinə) keçib.

Aşağı gəlirli ölkələrdə kənd təsərrüfatının ÜDM-də xüsusi çəkisi (hətta emal və qeyri-emal (hasilat, inşaat və komunal) sənayesinin birgə payından daha çox olmaqla) yüksəkdir. İqtisadiyyatın strukturu gəlirlər artdıqca sənayenin xeyrinə dəyişir: hesablamalara görə hər nəfərə düşən ÜDM 14 min ABŞ dollarına çatanda sənayenin payı ÜDM-in 20%-ə

bərabər olur. Başqa sözlə, iqtisadi inkişaf kənd təsərrüfatının payının kəskin azalması hesabına emaledici sənayenin yüksəlməsi ilə əlaqəlidir. İqtisadi inkişaf paradiqmasının paradoksallığı ondadır ki, sənaye sektoru inkişafının pik nöqtəsinə çatandan sonra enməyə başlayır. İnkişafın ilk pilləsində xidmət sektorunun payı artır, kənd təsərrüfatının çəkisi isə əksinə enməkdə davam edir. Qeyri-emal sənayeləri aşağı gəlirli ölkələrdə kəskin şəkildə artaraq adambaşına 4 min ABŞ dolları istehsal səviyyəsinə yüksəldikdən sonra sabit səviyyədə qərarlaşmışdır.

Azərbaycanda sovet dövründə aqrar-sənaye respubikası kimi tanınırdı, amma müstəqillik dövründə uğurlu neft strtategiyası hasiledici sənayenin sürətlə inkişafına təkan verdi. 2005-2010-cu illərdə neft hasilatı daha sürətlə artmağa başladı və ölkə öz tarixində üçüncü neft bumunu yaşadı. 2011-ci ildən başlayaraq Azərbaycanda xidmət sektoru və tikintinin lokomotiv rolu oynadığı qeyri-neft sektoru iqtisadi inkişafın əsas drayverinə çevrilib. ÜDM-də 5 faizlik paya malik olan kənd təsərrüfatı isə öz növbəsində ərzaq təhlükəsizliyinin təmin olunması, regional inkişaf, məşğulluq və sənayenin (xüsusilə yeyinti və yüngül sənayenin) xammalla təchiz edilməsində əhəmiyyətini saxlayır. Azərbaycanda iqtisadi inkişafın qlobal trendlərə uyğunlaşdırılması emal sənayesi və xidmət sektorunun daha sürətli artımının təmin edilməsi qarşıya qoyulan əsas vəzifələrdi. Bunun üçün neft bumundan istifadə edərək modernizasiya və diversifikasiya siyasəti uğurla davam etdirilməlidir.

Azərbaycanın təsdiqlənmiş neft ehtiyatları hasilatı indiki səviyyədə 25 ilə yaxın saxlamağa imkan verə bilər ki, bu da resusrla zəngin ölkələrlə müqayisədə kiçik göstəricidir: məsələn, Qazaxıstaının neft ehtiyatları indiki səviyyədə hasilatı saxlamaqla 40 il, Səudiyyə Ərəbistanında 60 il və Birləşmiş Ərəb Əmirliklərində 90 ildən artıq kifayət edər. Müqayisə göstərir ki, Azərbaycanın neft ehtiyatları digər karbohidrogen resursları ilə zəngin ölkələrlə müqayisə etdikdə azdır. Resursların məhdudluğu Azərbaycanın iqtisadi inkişaf modelinə digər ölkələrdən fərqli bir ya-

naşma tərzi ortaya qoymağı tələb edir. Əgər Norveç və ya Səudiyyə Ərəbistanı "dəyişməz gəlirlər hipotezini" (Permanent Income Hypothesis (PIH)) tətbiq etməkdə çətinlik çəkmirlərsə, əsas fondların çatışmazlığı ilə seçilən Azərbaycanda bunu etmək problem yaradır. Beləliklə, Azərbaycan infrastrukturun modernləşdirilməsi, İKT-nin inkişafı, industrilizasiya və aqrar sənayeləşmə məqsədilə neft gəlirlərini indiki halda daha səmərəli, şəffaf və hesabatlı şəkildə istifadə etməlidir. Modernizasiya köhnəlmiş əsas fondların yenilənməsi və yeni infrastrukturun yaradılmasını əhatə etməklə iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və insanların sosial rifah halının yaxşılaşmasına xidmət edir. Azərbaycan dövlətinin modernizasiya siyasətinin bir sıra aşağıdakı xarakterik xüsusiyyətləri var:

1. Azərbaycan dövlətinin modernizasiya siyasəti qeyri-resurs iqtisadiyyatının inkişafını təmin etməklə yanaşı, həm də neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin inşası, yenidən qurulması və modernləşdirilməsi nəzərdə tutur. Belə yanaşma uzunmüddətli dönəmdə iqtisadiyyatın enerji daşıyıcıları ilə davamlı təminatı deməkdir.
2. Azərbaycan dövlətinin modernizasiya siyasətinin digər bir xüsusiyyəti onun regional, bəzi hallarda isə qlobal xarakter daşımasındadır. Məsələn, yaxın illərdə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi tamamlanacaq, hava limanlarının infrastrukturu genişləndiriləcək, dəniz donanması yeniləşdiriləcək, nəqliyyat-logistika mərkəzləri yaradılacaq, Bakı-Böyük Kəsik, Bakı-Astara və Bakı-Yalama dəmir yolu xətləri yenidən qurulacaq və modernləşdiriləcək, dəmir yolu şəbəkəsinin diversifikasiyası siyasətinə uyğun olaraq Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə veriləcəkdir. Beləliklə, nəqliyyat infrastrukturunun modernizasiyası Azərbaycanı Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin kəsişməsində mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsini sürətləndirir.
3. Modernizasiya siyasəti Azərbaycan rezidentlərinə aid xarici ölkələrdəki aktivləri də əhatə edir. Buna nümunə olaraq ARDNŞ

tərəfindən özəlləşdirilən "Petkim Petrokimya Holdinq" A.Ş.-nin modernizasiyası nəticəsində "Petkim" "İstanbul Sənaye Palatası"nın "İlk 500 böyük sənaye qurumu" sıralamasında 12-ci və Egey bölgəsi Sənaye Palatası tərəfindən açıqlanan "Egeyin ən böyük 100 sənaye qurumu" və "Ən çox ixrac edən şirkətlər" sıralamasında isə 3-cü yerdə qərar tutmuşdur. Xaricdəki rəqabətədavamlı və modern aktivlər imkan verir ki, uzunmüddətli dönəmdə sabit gəlirlər təmin olunsun. Beləliklə, modernizasiya həm də gəlir mənbələrinin diversifikasiyasına imkan yaradır.

4. Modernizasiya siyasəti sosial infrastrukturun yaxşılaşdırılmasını təmin etməklə insan inkişafı indeksinin yüksəlməsinə şərait yaradır. Təhsil və səhiyyə, habelə komunal infrastrukturun təkmilləşdirilməsi, elektrikləşdirmə, qazlaşdırma və yolların çəkilişi modernizasiyanın sosial xarakterinin göstəricisidir.
5. Modernizasiya həm də klasterial xarakter daşıyır. Dövlət sənaye parklarında vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər, sənaye parkının infrastrukturla təmin edilməsi, torpaq sahəsinin icarə haqqının aşağı həddində müəyyən edilməsi, güzəştli kreditlərin verilməsi və inzibati proseduraların sadələşdirilməsi yolu ilə sənayeləşmə siyasətini həyata keçirir. Bundan başqa, sənaye parklarında sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili, istilik və elektrik enerjisinin, suyun və qazın satışına, tullantı sularının axıdılmasına və məişət tullantılarının yığılmasına görə güzəştli tariflərin tətbiqi də mümkündür. Bu həm də dövlət-özəl sektor əməkdaşlığına (Public Private Partnership) bir nümunədir.

Hazırda Azərbaycanda Sumqayıt kimya sənayesi parkı, Balaxanı sənaye parkı və Yüksək texnologiyalar parkı fəaliyyət göstərirlər.

6. Modernizasiya İKT sektorunun inkişafı və onun iqtisadiyyatın digər sahələrinə daha dərindən sirayət etməsini də ehtiva edir. İKT -nin tətbiqi yeni infrastrukturun və yeni iqtisadi mühitin yaranma-

sına səbəb olmuşdur ki, bu zaman iqtisadiyyat özü də yeni forma və məzmun kəsb etmişdir. Beləliklə, iqtisadiyyatın elektronlaşdırılması da modernizasiyanın bir növü kimi səmərəliliyin artırılmasını təmin edir. Öz növbəsində iqtisadi inkişaf İKT-nin qarşısında yeni tələblər qoyur.

7. Modernizasiyanın bilik iqtisadiyyatının formalaşdırılmasında rolu mühümdür. Qlobal informasiya cəmiyyətində biliyin əmtəəyə çevrildiyi bir şəraitdə Prinston Universitetinin professoru F.Maxlupun təbirincə desək "biliklərin istehsalı və yayılması sferası" iqtisadiyyatın bir seqmenti kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" proqramı təhsil–tədqiqat–innovasiya üçbucağının yaranmasını nəzərdə tutur. Məsələyə belə sistemli yanaşma bilik iqtisadiyyatının qurulmasını daha da sürətləndirə bilər. İnkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.
8. Modernizasiya infrastrukturun yaxşılaşdırılması ilə Azərbaycanda istehsal olunan əmtəə və xidmətlərin maya dəyərini aşağı salır və beləliklə, iqtisadiyyatın rəqabətqabiliyyətini gücləndirir. Dövlətin modernizasiya siyasətinə dəstək verməsi, iqtisadiyyatı birbaşa subsidiyalaşdırmaqdan daha səmərəli yoldur. Azərbaycanda bəzi təbii inhisar sahələrində (elektrik enerjisi, metroda gediş haqqları, neftdən emal olunan əsas məhsullar, təbii qaz, su və s.) qiymətlər iqtisadi cəhətdən əsaslandırılmış deyildir. "Azərenerji" ASC, "Azərsu" ASC, Bakı Metropoliteni, Dövlət Neft Şirkəti və s. təbii inhisarlar tərəfindən təklif edilən qiymətlər məhsul və xidmətlərin maya dəyəri

ilə müqayisədə əlverişli səviyyədə olmadığından, lazımi rentabelliyi və deməli, pespektiv inkişafı təmin edə bilmir. Qiymət disproporsiyası resursların qeyri-rasional bölgüsünə rəvac verir və iqtisadiyyatın səmərəli fəaliyyətinə problem yaradır. Bəzi tənzimlənən qiymətlər aşağı olduğundan dövlət büdcəsindən təbii inhisarlara böyük məbləğdə subsidiyalar verilir ki, bu da büdcənin sosial yönümlü olmasına problemlər yaradır. Digər tərəfdən isə əgər tənzimlənən qiymətlər optimallaşmasa gələcəkdə dövlət büdcəsi təbii inhisarları subsidiyalaşdıra bilməyəcək və beləliklə, xarici borclanma təhlükəsi genişlənə bilər. Əslində Azərbaycanda tənzimlənən qiymətlərin (sosial rifah halı nəzərə alınmaqla) tədrici optimallaşdırılması resursların səmərəli istifadəsi və modernizasiya üçün imkan yaradır.

### 3.4. Azərbaycanda aqrar sahənin modernləşdirilməsinin xüsusiyyətləri

Kənd təsərrüfatının modernləşdirilməsi bu sahədə ümumi amil məhsuldarlığının artmasına gətirib çıxarır. Əgər ümumi amil məhsuldarlığının artımı istehsal amillərinin azalma tempini kompensasiya edir və hətta üstələyirsə onda aqrar istehsalın artımı müşahidə ediləcəkdir. Azərbaycanda aqrar sahənin inkişafı üçün əmək və torpaq kimi istehsal amillərindən istifadə imkanları tükəndikcə ümumi amil məhsuldarlığının artması xüsusi əhəmiyyət kəsb edir.

Xüsusən modernləşdirilmənin ilk mərhələsində daha böyük investisiya həcmlərinə ehtiyac yaranır. Modernləşdirmə təkcə məhsuldarlığın artması deyil, həm də aqrar sahənin iqlim şoklarına daha davamlı olmasını təmin edir.

Aqrar sahənin modernləşdirilməsi ölkənin tədiyyə balansına təsir göstərir. Belə ki, idxalda aqrar sahə üçün lazım olan əsas və dövriyyə vəsaitlərinin (aqrar texnika, toxum, gübrə, pestisidlər və s.) xüsusi çəkisi artdığı halda, ixracda modernləşdirmə nəticəsində rəqabət qabiliyyəti artmış kənd təsərrüfatı məhsullarının çəkisi yüksəlir. Digər tərəfdən Hindistan təcrübəsi göstərir ki, aqrar sahənin modernləşdirilməsi idxal ərzaqdan asılılığı azaldır və idxalın əvəzlənməsi prosesini sürətləndirir.

Aqrar modernizasiyanın əsas xüsusiyyətlərindən biri də onun klasterial xarakteri ilə bağlıdır. Porterin təbirincə desək, əsas o deyil ki, ölkə və ya region nə istehsal edir, əsas necə daha yaxşısını istehsal etmək sualına cavab tapmaqdır. Regional inkişaf siyasəti sahəsində Porterin populyarlığı onun iti zəkasından doğur. O, sübut edir ki, əvvəlki inkişaf siyasəti düzgün aparılmayıb. Hazırda Cənubi Karolinadan Sinqapura qədər bütün siyasət müəyyənləşdirən şəxslər rəqabət qabiliyyətinin güclənməsinə xidmət edən iqtisadi strategiyanın nəticə etibarı ilə innovativ klastelərin yaranmasından keçdiyini etiraf edirlər. Porter çılğın bir şəkildə regionların artıq mövcud olan klasterləri inkişaf etdirməsini tövsiyə edir, nəinki tamamilə yenisinin yaranmasını [158].

Azərbaycanda aqrar-sənaye klasterlərinin inkişafı zamanı dünya təcrübəsi diqqətlə öyrənilməli və ən uyğun variantlar seçilməlidir. Məsələn, Rusiyanın və Qazaxıstanın timsalında görmək olur ki, dövlət klasterlərin təşəkkül tapmasında və inkişafında dominant mövqeyə malikdir. Hər iki ölkədə klasterlərin inkişaf etdirilməsi üçün dövlət proqramları qəbul edilib. Belə ki, klasterial inkişaf daha çox regional balanslaşma və iqtisadiyyatın diversifikasiyasına xidmət edir. Belə bir motivasiya isə daha çox dövlət siyasətinə uyğun gəlir.

Beynəlxalq təcrübədən çıxış etsək Azərbaycanda aqrar-sənaye klasterial inkişafı üçün dövlətin elm mərkəzləri, biznes və təcrübəli donorlarla əməkdaşlıq çərçivəsində müvafiq proqram qəbul edərək həyata keçirməsi mümkündür. Aqrar-sənaye sahəsində klasterial inkişaf üzrə dövlət proqramının vəzifəsi rəqabət üstünlüyünə malik aqrar-sənaye sahələrində klasterial inkişafın əsaslarını və istiqamətlərini müəyyənləşdirilməkdir. Beləliklə, elmi yenilik dövlət siyasəti vasitəsi ilə praktik nəticəyə transfer olunacaq. "Aqrar-sənaye klasterial inkişaf dövlət proqramı"nın istiqamətlərini aşağıdakı kimi təsnifləşdirmək olar:

1. *Müxtəlif elmi yanaşmalardan istifadə etməklə aqrar-sənaye sahəsində rəqabət üstünlüyününə malik sahələrin seçilməsi.*
2. *Rəqabət üstünlüyünə malik sahələrdən klasterial inkişaf üçün daha əhəmiyyətli olanlarının müəyyənləşməsi.*
3. *Klasterin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə təhsil siyasətinin qurulması.*
4. *Elmi-texniki siyasətin reallaşdırılması mexanizminin təkmilləşdirilməsi.*
5. İqtisadiyyatın klasterial inkişafını istiqamətində informasiya siyasətinin təkmilləşdirilməsi.
6. *Klasterin son məhsulunun bazarlara çıxışını təmin etmək üçün marketinq strategiyasının qurulması.*
7. *Klasterial inkişafın təmin edilməsi üçün normativ hüquqi bazanın hazırlanması üzrə istiqmətlərin verilməsi.*

8. *Aqrar klaterlərdə investisiya siyasətinin əsaslarının hazırlanması.*
9. *Aqrar-sənaye klaterlərinin inkişafı üzrə fəaliyyət planının konseptual əsaslarının yaradılması.*

Klasterin nüvə məhsulu müəyyənləşəndən sonra həmin məhsulun istehsal zəncirinin bütün pillələrində səmərəliliyi artırmaq üçün iqtisadi, təşkilati və institutsional istiqamətlərdə inkişaf getməlidir. İlk növbədə kənd təsərrüfatı məhsulunun (nüvə məhsulu) istehsalına xidmət göstərən sahələr (gübrə, toxum, texnika, pestisid və s.) inkişaf etdirilməlidir. Eləcə də kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaq üçün torpağın şumlanması, səpin, yığım və s. mərhələlərdə nüvə məhsulun istehsalına dəstək verəcək servislər təşkil olunmalıdır. Məhsul hazır olduqdan sonra qablaşdırma, konservləşdrimə, qurudulma və s. texnoloji prosesləri həyata keçirən industriya qurulmalıdır. Nüvə məhsulun saxlanması, daşınması və logistikası, habelə marketinq və satış klaster yanaşmasının ayrılmaz bir parçasıdır. Klasterdə dəstəkləyici infrastruktur: təhsil, tədqiqat, ticarət təşkilatları və assosiasiyaların mövcudluğu da mühüm şərtdir.

Modernizasiya aqrar sahənin texniki-texnolji yenilənməsini ehtiva edir. Son illər Azərbaycnda kənd təsərrüfatı texnikasının kəmiyyət artımı müsbət tərəflərdən biridir. Azərbaycanda kənd təsərrüfatının texnika ilə təchizatında əsas xüsusiyyətlərdən biri - orta hesabla bir texnikaya düşən at gücünün artılımasına diqqət yetirilməsidir. Hazırda Azərbaycanda bir texnikaya 100 at gücü düşür ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə 2-3 dəfə azdır. Son illər dünyada aqrar sektorun texniki təchizatının məhsuldarlığın artımına təsirini yüksətmək üçün yeni yanaşma formalaşıb. Bu yanaşmaya görə, yüksək məhsuldarlıq, məhslunu itkisiz becərilməsi üçün texnikanın gücünün artırılmalıdır. Artıq ABŞ-da mühərriki minimum 300 at gücünə malik traktorlar əkin üçün, 400 at gücünə malik kombaynlar isə taxıl biçini üçün məqbul hesab olunur.

Azərbaycanda aqrar sahənin modernləşdirilməsi aşağıdakı xüsusiyyətləri ehtiva edir:

1. *Modernləşmə nəticəsində aqrar sferada kapitalın məhsuldarlığı artır;*
2. *Modernləşmə daha yüksək ixtisaslı əmək qüvvəsinə tələbat yaradır;*
3. *Modernləşən aqrar istehsal*ın rəqabətqabiliyyətini yüksəldir;
4. *Modernləşmə aqrar sferada yeni təşkilati və idarəetmə mexanizminin yaradılmasına təkan verir;*
5. *Modernləşmə Azərbaycanda elmin müəyyən sahələrinə praktik tələbat yaradır və elmin kommersiyalaşdırılmasına töhfə verir;*
6. *Modernləşmə təhsil sahəsində daha praktik əhəmiyyətli ixtisaslar üzrə kadrların yetişdirlməsi üçün əsaslar yaradır və təhsil-biznes əlaqələrinin kompleks xarakter almasına stimul verir;*
7. *Modernləşmə zəncirvari reaksiya şəklində aqrar sahəyə xidmət edəcək iqtisadiyyatın sektorlarının inkişafını təmin edir;*
8. *Modernləşmə aqrar sahənin ixrac imkanlarını genişləndirir;*
9. *Aqrar sahənin modernləşməsi regionların sosial-iqtisadi inkişafını sürətləndirir;*
10. *Modernləşmə xarici investisiyaların aqrar sahəyə axını üçün zəmin yaradır;*
11. *Modernləşmə aqrar sahədə işçi qüvvəsinə olan tələbatı azaldır və beləliklə, urbanizasiya üçün şərait yaradır.*

Biliklərə əsaslanan iqtisadiyyatın inkişafı şəraitində aqrar sahənin modernləşdirilməsi aşağıdakı infrastrukturun inkişafını zəruri edir:

1. İnnovasiyaların *transferi mərkəzləri (Qazaxıstan təcrübəsində sınaqdan keçirilib) və biznes inkubatorların yaradılması (Rusiyanın müxtəlif regionlarında yaradılıb) və inkişafı;*
2. *Aqrar innovasiyaların transferi şəbəkəsinin inkişafı və milli və qlobal səviyyədə inteqrasiyası;*
3. *ABŞ təcrübəsindən istifadə edərək aqrar sahədə vençur fondların yaradılması və inkişaf etdirilməsi;*
4. *Aqrar-innovativ klasterlərin yaradılması üçün apstrim (upstream) və dounstrim (downstream) istiqamətlərin kompleks inkişafı;*

5. *Aqrar innovasiyalara dövlət dəstəyi mexanizminin formalaşması və vahid informasiya sisteminin yaradılması;*
6. *Elektron kənd təsərrüfatı infrastrukturunun yaradılması və inkişaf etdirilməsi.*

Aqrar sahədə innovativ fəaliyyətin effektiv inkişafını təmin edən kompleks tədbirlər (elmi tədqiqatların aparılmasından başlayaraq, elmi nəticələrin təcrübi yoxlanmasından istehsala tətbiqinə və səmərəli ölçülməsinə qədər) həyata keçirilməlidir. Belə yanaşma innovativ fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə müxtəlif sahibkarlıq formalarının inkişafını təmin edə bilər. Qloballaşma prosesinin genişlənməsində elmi-texniki inqilabın nailiyyətlərindən sahibkarlığın formalaşması və inkişafında istifadə etmək üçün əlverişli şərait yaranmışdır [27, s.261].

Aqrar iqtisadiyyatın inkişafı üçün elmi tədqiqatların aşağıdakı istiqamətləri zəruridir:

- *Kənd təsərrüfatı sahəsinin rəqabət qabiliyyətinin yüksəldilməsi;*
- *Istehsal amillərinin məhsuldarlığının artırılması üçün yolların araşdırılması;*
- *Kənddə sosial rifah halının yaxşılaşdırılması və urbanizasiya prosesinin ölkənin ümumi sosial-iqtisadi inkişaf maraqlarına uyğunlaşdırılması və s.*

Bitkiçilikdə elmi tədqiqatların aşağıdakı istiqamətləri mühüm əhəmiyyət daşıyır:

- *Gen və hüceyrə mühəndisliyi və biotexnologiyaya əsaslanmaqla məhsuldar sortların hazırlanması;*
- *Ekoloji tarazlığı qorumaqla torpağın məhsuldarlığının arıtırılması üçün üsulların inkişaf etdirilməsi;*
- *Kənd təsərrüfatı məhsullarının minimum maddi, enerji və əmək sərfi ilə becərilməsi texnologiyasının hazırlanması;*
- *Seleksiya materialı kimi bitki genlərinin və mikroorqanizmlərin istifadəyə yararlı gövdələrinin bankının formalaşdırılması və s.*

Heyvandarlıq və baytarlıqda elmi-tədqiqat fəaliyyəti aşağıdakı istiqamətlərə yönəldilməlidir:
- *Məhsuldar cinslərin (tiplərin) yaradılması;*
- *Effektiv texnologiyaların (yemləmə, saxlama və s.) qurulması;*
- *Yem bazasının inkişafı;*
- *Xəstəliklərlə mübarizəninin səmərəli yollarının tapılması və s.*

Kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi sahəsində elmi-tədqiqatların aşağıdakı istiqamətləri vacibdir:
- *kəndli təsərrüfatlarında və təsərrüfatın müxtəlif formalarında istifadəyə uyğunlaşdırılmış çoxfunksiyalı maşın-traktor aqreqatlarının hazırlanması;*
- *ekoloji təmiz məhsul istehsalı üçün resursa (xüsusən də elektrik enerjisinə) qənaət edən texnologiyaların tətbiqi üçün texniki vasitələrin hazırlanması və s.*

Məhsulların hazırlanması və saxlanmasında elmi-tədqiqatların ehtiyac duyulduğu istiqamətlər aşağıdakılardı:
- *müəssisələr üçün qaz vasitələri, aşağıtemperaturlu donma, vakuum və başqa müasir metodların tətbiqi ilə kənd təsərrüfatı məhsullarının hazırlanması və saxlanması üçün avadanlığın hazırlanması;*
- *fiziki-kimyəvi və bioloji proseslərin tətbiqi ilə geniş növ məhsul istehsalında tullantısız texnologyanın yaradılması;*
- *müasir tələblərə cavab verən qablaşdırma üsullarının inkişaf etdirilməsi və s.*

Modernləşdirmə inkişafın əsas istiqaməti kimi aqrar sahənin təkcə tərkib elementlərinin deyil, həmçinin onun daxili harmoniyasının müasirləşməsinə də xidmət etməlidir. Çünki iqtisadiyyatın digər sahələrinə nisbətən aqrar sektor daha çox sosial-iqtisadi yanaşmanı zəruri edir. Ona görə də modernləşdirmə sosial-iqtisadi əsaslarla həyata keçirilməlidir. Hazırkı dövrdə aqrar sahənin modernləşdirilməsində başlıca vəzifələrdən biri onun strukturlaşmasının daha da təkmilləşdirilməsidir. Burada əsas məqam, heç şübhəsiz ki, istehsal-kommersiya istiqamətli strukturlaşmanın genişlənməsidir. Belə ki,

kənd təsərrüfatı məhsulları istehsal edən təsərrüfat subyektləri kommersiya fəaliyyətini həyata keçirmək üçün iqtisadi cəhətdən sərbəst olmalıdır. Həmçinin bu prosesin tam reallaşması üçün bazar infrastrukturu da kifayət qədər inkişaf etdirilməlidir. Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı çoxfunksiyalı konsepsiyaya əsasən inkişaf etməlidir. Bu konsepsiyanın əsas məğzi ondan ibarətdir ki, kənd təsərrüfatı nəinki ərzaq məhsulları istehsal etməli və sənaye üçün xammal verməlidir, həmçinin ümumən ictimai əhəmiyyətli nemətlər də yaratmalıdır. Aqrar sahənin əsas istiqamətlərinə bunları aid etmək olar: ölkənin ərzaq təhlükəsizliyinin daxili potensial hesabına maksimum ödənilməsi; daim ekoloji mühitin qorunması və tarazlığın təmin edilməsi; aqrolandşaftın qorunması və bərpası; iri, orta və kiçik təsərrüfat tiplərinin xas olduğu bazar mühitinin yaradılması; yararlı torpaqlardan səmərəli istifadənin təmin edilməsinə nəzarətin gücləndirilməsi; sığorta sisteminin kənd təsərrüfatında genişləndirilməsi və bunun modernləşdirməyə xidmət etməsi [12, s.4].

# FƏSİL IV

## İstehsalın modernləşdirilməsində əmək qüvvəsinin rolu

## 4.1.Əmək məhsuldarlığının iqtisadi artıma və modernizasiyaya təsiri

Azərbaycanda sürətli iqtisadi artım və əmək məhsuldarlığı arasında güclü səbəb-nəticə (causality) əlaqəsinin mövcudluğunu Verdon-Kaldor qanunun əsasında sübut etmək modernizasiya prosesinə təsir göstərən iki amil - istehsalın yenilənməsi və əmək qüvvəsinin keyfiyyət və kəmiyyət dəyişikliyi baxımından əhəmiyyətlidir. İqtisadi nəzəriyyəyə görə əmək məhsuldarlığının artması biznesə imkan verir ki, işçi əlavə etmədən inkişafa nail olsun. Zandveq V. qeyd edir ki, 1990-91 və 2001-ci ilin resessiyalarından sonra əmək məhsuldarlığının sürətli artımı iqtisadiyyatın "işsiz bərpasına" (jobless recoveries) gətirdi [159, 12].

Son illər Azərbaycan dünyada əmək məhsuldarlığı ən sürətlə artan ölkələrdəndir. (Mənbə: Conference Board Total Economy Database Output and Beynəlxalq Əmək Təşkilatı). Beynəlxalq Əmək Təşkilatının məlumatına görə Azərbaycanda 2000-2010-cu illərdə əmək məhsuldarlığı illik orta hesabla 13,6 faiz artıb. Hansı ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında 2004-2009-cu illərdə əmək məhsuldarlığı azalıb. Azərbaycanda əmək məhsuldarlığı əlavə işçi saatlarının deyil, hər nəfərə düşən məhsul istehsalının böyüməsi hesabına artıb. 2000-2010-cu illərdə əmək məhsuldarlığının yüksək artımı, 2011-ci ildə neft hasilatının azalması ilə enişlə əvəzlənib. Əmək məhsuldarlığının azalmasının digər bir səbəbi yüksək ixtisasa meylli texniki dəyişikliklərlə (skill-biased technical change) bağlı ola bilər. İnformasiya-komunikasiya texnologiyalarının iqtisadiyyata sürətlə tətbiqi əmək qüvvəsini dəyişilə bilən və həssas edir. Gordon qeyd edir ki, İKT inqilabı əmək bazarının elastikliyini artırıb müəssisələri yeni texnologiya ilə təchiz edir ki, nəticədə işçilər ixtisar olunur. 2012-ci ildə əmək məhsuldarlığının dinamikası sabitləşib. Bu da qeyri-neft sektorunda artım tempinin yüksək olması hesabına təmin

edilib. Əgər 2000-2010-cu illərdə əmək məhsuldarlığı daha çox neft sektorunun inkişafı hesabına artırdısa, 2011-2013-cü illərdə orta hesabla illik 10 faiz yüksələn qeyri-neft sektoru (o cümlədən, kənd təsərrüfatı) əmək məhsuldarlığının artımını təmin edir. Məsələn, 2011-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində bir nəfər işçiyə 1 651 manat ÜDM həcmi düşmüşdür ki, bu da əvvəlki illə müqayisədə eyni göstəricidən nominal ifadədə 16,5 faiz çoxdur.

Dünya Bankının Bilik iqtisadiyyatı indeksi (Knowledge Economy Index) hesabatında Azərbaycanın postsovet məkanında 2000-2012-ci illərdə bilik iqtisadiyyatı üzrə ən sürətli irəliləyiş əldə etməsi əmək qüvvəsinin keyfiyyətcə təkmilləşməsinə və əmək məhsuldarlığının artmasına təsir göstərib. Cənubi Koreyanın təcrübəsi göstərir ki, təhsilə yatırılan investisiya Azərbaycanı gələcəkdə bilik iqtisadiyyatı mərkəzinə çevirə bilər. Kosta Rikanın təcrübəsi göstərir ki, ölkədə əhalinin savadlılığı müəyyən həddə çatanda iqtisadiyyat modernizasiyaya hazır olur, çünki innovasiyaları yalnız ixtisaslı əmək qüvvəsi tətbiq edə və işlədə bilər. 100 faizə yaxın savadlılıq səviyyəsi olan Azərbaycanda modernizasiya prosesinə töhfə verə biləcək əmək qüvvəsinin formalaşdırılması üçün mütəxəssislərin yetişdirilməsinə xüsusi diqqət yetirilir. 2000-2011-ci illər arasında əhalinin hər 10000 nəfərinə orta ixtisas təhsili müəssisələri tərəfindən buraxılan mütəxəssislərin sayı 14-dən 16-a, əhalinin hər 10000 nəfərinə ali təhsil müəssisələri tərəfindən buraxılan mütəxəssislərin sayı 30-dan 34-ə və fəlsəfə doktorlarının hazırlanması proqramını bitirənlərin sayı 321-dən 396-a yüksəlmişdir.

Respublika üzrə ixtisaslı mütəxəssislərin sayı orta hesabla artsa da, ayrı-ayrı ixtisaslar üzrə vəziyyət fərqlidir. Məsələn, dövlət və qeyri-dövlət ali təhsil müəssisələrini bakalavr səviyyəsində bitirən aqrar və balıq təsərrüfatı ixtisası üzrə mütəxəssislərin sayı 2000-ci ildə 498-dən 2011-ci ildə 274-ə, magistr səviyyəsində bitirənlərin sayı isə müvafiq olaraq 35-dən 18-ə enmişdir. Qeyri-dövlət ali təhsil müəssisələrində

aqrar və balıq təsərrüfatı ixtisasına maraq çox aşağı səviyyədədir. Buna görə də aqrar və balıq təsərrüfatı ixtisası üzrə mütəxəssislərin əksəriyyəti dövlət ali təhsil müəssisələrində hazırlanır. Məsələn, 2011-ci ildə ali təhsil müəssisələrini bakalavr səviyyəsində bitirən aqrar və balıq təsərrüfatı ixtisası üzrə mütəxəssislərin yalnız 1,8 faizi qeyri-dövlət ali təhsil müəssisələrin payına düşmüşdür. Qeyri-dövlət ali təhsil müəssisələri demək olar ki, aqrar və balıq təsərrüfatı ixtisası üzrə mütəxəssis hazırlamırlar.

Paradoksal haldır ki, ali təhsil müəssisələrində bakalavr və magistr səviyyəsində aqrar və balıq təsərrüfatı ixtisası üzrə təhsil alanların sayı 2000-2011-ci illər ərzində 45,2 faiz azalsa da, fəlsəfə doktorlarının hazırlanması proqramı üzrə kənd təsərrüfatı ixtisasında təhsil alanların sayı 2000-ci ildə 26-dan 2011-ci ildə 35-ə yüksəlmiş, başqa sözlə 34,6 faiz artmışdır. Bunun əsas səbəbi o olmuşdur ki, 2011-ci ilin göstəricilərinə əsasən Kənd Təsərrüfatı Nazirliyi fəlsəfə doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisələrin sayına görə Təhsil və Səhiyyə nazirliklərindən sonra üçüncü yerdə qərarlaşmışdır. Həmin ili Kənd Təsərrüfatı Nazirliyi fəlsəfə doktorlarının hazırlanması proqramı üzrə təhsil alanların (51 nəfər) və elmlər doktorlarının hazırlanması proqramı üzrə təhsil alanların sayına (35 nəfər) görə isə ikinci olmuşdur. Nazirlik və idarələrin bölgüsündə elmlər doktorlarının hazırlanması proqramı üzrə buraxılış göstəricisinə əsasən Kənd Təsərrüfatı Nazirliyi 2011-ci ildə hətta ilk yeri tutmuşdur.

2011-ci ildə kənd təsərrüfatı sahəsində tədqiqatçıların sayı 1002 nəfər olmuşdur ki, bu da respublika üzrə ümumi göstəricinin 8,4 faizi deməkdir, başqa sözlə, kənd təsərrüfatının ÜDM-dəki payından 1,7 dəfə çoxdur. Kənd təsərrüfatı sahəsində tədqiqatçıların sayı 2000-ci illə müqayisədə 2011-ci ildə 30,1 faiz yüksəlmişdir. 2005-2011-ci illərdə kənd təsərrüfatı ixtisası üzrə hazırlanmış 205 fəlsəfə doktorunun 91,7 faizi və ya 188 nəfəri elm müssisələrinin payına düşür.

**Şəkil** 4.1.
2011-ci ildə elmin sahələri üzrə tədqiqatçıların sayı (ilin sonuna)




**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir**

Azərbaycanda aqrar sahədə hazırlanan mütəxəssislərin sayı bu sahəninin iqtisadiyyatda oynadığı rola proporsional deyil. Məsələn, 2011-ci ildə f**əlsəfə doktorlarının hazırlanması proqramı üzrə kənd təsərrüfatı ixtisasında** təhsil alanların sayı respublika üzrə ümumi göstəricinin 3,9 faizi, d**övlət və qeyri-dövlət ali təhsil müəssisələrini** bakalavr səviyyəsində bitirən aqrar və balıq təsərrüfatı ixtisası üzrə mütəxəssislərin sayı respublika üzrə ümumi göstəricinin 1 faizi, d**övlət və qeyri-dövlət ali təhsil müəssisələrini** magistr səviyyəsində bitirən aqrar və balıq təsərrüfatı ixtisası üzrə mütəxəssislərin sayı respublika üzrə ümumi göstəricinin 0,5 faizini təşkil etdiyi halda respublikada ÜDM-in 5 faizi kənd və meşə təsərrüfatı sahəsində istehsal olunub.

Göründüyü kimi, kənd təsərrüfatı sahəsində fəlsəfə və elmlər doktorlarının sayı və inkişaf dinamikası bakalavr və magistr səviyyəsi ilə müqayisədə daha üstündür. Buna görə də, gələcəkdə təhsilin və elmin davamlılığını təmin etmək üçün bakalavr və magistr yetişdirilməsinə daha çox diqqət yetirilməlidir ki, fəlsəfə və elmlər doktorlarının hazırlanması işində dinamika daha da güclənsin. Kənd təsərrüfatı sahəsində fəlsəfə və elmlər doktorlarının, dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində bakalavr və magistr ixtisası üzrə mütəxəssislərin hazırlanması işinin təkmilləşdirilməsi və genişləndirilməsi aqrar sahədə əmək məhsuldarlığının artırılmasına töhfə verməklə, modernizasiya prosesini sürətləndirə bilər.

Aqrar sektorda doktorantura təhsili sahəsində qanunvericiliyin formalaşdırılması və təkmilləşdirilməsi üzərində ciddi iş aparılmalı, o cümlədən doktorantura təhsilinin təşkili və məzmununu müəyyənləşdirən normativ hüquqi sənədlərin hazırlanmalı, fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə təhsil proqramlarının hazırlanması və təsdiqi, doktorantura səviyyəsində təhsilin Boloniya prosesinə uyğunlaşdırılması, adambaşına maliyyələşmənin tətbiqi, elmlər doktoru proqramı üzrə əyani təhsil alan doktorantların təqaüdlə təmin edilməsi və s. çağırışlar öz həllini tapmalıdır.

2004-cü ildə Avropa İttifaqının Yeni Qonşuluq Siyasətinə dair qəbul etdiyi Strategiya Sənədində bu qurumun təhsil proqramlarında "yeni qonşular", o cümlədən Azərbaycanın iştirakı da nəzərdə tutulub. Bu proqram çərçivəsində kənd təsərrüfatı sektoru ilə bağlı ixtisaslar üzrə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığı genişləndirməyə ehtiyac var. Bolonya prosesi çərçivəsində aqrar elmlər üzrə ali təhsil sahəsində islahatların davam etdirilməsi və ixtisasları müəyyən edərkən əmək bazarının tələblərinin nəzərə alınması vacibdir.

Dünya İqtisadi Forumunun "Qlobal rəqabətlilik 2012-2013" hesabatında Azərbaycan "əmək bazarının səmərəliliyi" göstəricisinə əsasən 144 ölkə arasında 26-cı yeri tutur. "Qlobal rəqabətlilik 2012-2013" he-

sabatında 144 ölkə arasında Azərbaycan əmək haqqının təyin olunmasında elastiklik göstəricisi üzrə 29-cu, işə qəbul və işdən azad etmə üzrə 4-cü, əmək qüvvəsində qadınların iştirak səviyyəsinə görə 21-ci yerdə qərarlaşıb.

Azərbaycanda əmək məhsuldarlığı sahələr üzrə qeyri-bərabər paylanılıb. Məsələn, 2011-ci ildə kənd və meşə təsərrüfatında hər nəfər işçiyə düşən ÜDM həcmi cəmi 1 651 manat olduğu halda, sənayedə bu göstərici 91 202 manat və tikintidə isə 13 685 manat qeydə alınıb.

Bu fəsildə Azərbaycanda istehsal sahəsində (o cümlədən, kənd təsərrüfatı sektorunda) artımla əmək məhsuldarlığının arasında olan qarşılıqlı əlaqələr təhlil olunur. Təhlilin nəzəri əsası kimi Verdon və Kaldor kimi tədqiqatçların məhsul istehsalı və əmək məhsuldarlığının arasında olan münasibətləri təsvir edən elmi əsərləri götürülmüşdür [150, 100, s.289]. Verdoorn qeyd edirdi ki, məhsul istehsalının artması əməyin bölgüsünə təsir göstərir. Buna görə də istehsalın genişlənməsi rasionallaşdırmanın daha da artması ilə nəticələnir. Verdon heç zaman ifadə etməsə də, onun yaratdığı qanuna əsaslanıb Rouson belə bir xətti asılılığı göstərən düsturu təklif etdi:

$$p = \frac{\mu}{1+\rho} + \frac{\rho}{1+\rho}q$$

Burada p sənaye məhsulunun artım tempi, q istehsalın artımı, μ və ρ isə sabitdirlər. Verdon p və q arasında nisbəti istehsalın məhsuldarlığının "elastikliyi" adlandırmışdı. Yuxarıda bəhs etdiyimiz məqalədə Verdon bir sıra ölkələrin göstəricilərindən istifadə edərək hesablamışdır ki, istehsalın 10 faiz artımı əmək məhsuldarlığını 5,73 faiz yüksəldir.

Öz növbəsində Kembricin məşhur alimlərindən olan Kaldorun da Verdon qanununa xüsusi yanaşması olmuşdur.

Kaldor qeyd edirdi ki, effektiv tələbin artımı istehsalı, innovasiyaların yaranmasını və beləliklə də, əmək məhsuldarlığını motivasiya edir.

O, miqyasa görə artımın (increasing returns to scale) dinamik təbiətinə əsaslnaraq bildirirdi ki, iqtisadiyyatın miqyası sənayenin strukturundan asılıdır. Bu ideya Kaldorun 1966-cı ildə çap etdirdiyi "Birləşmiş Krallıqda iqtisadi artımın aşağı sürətinin səbəbləri" (Causes of the Slow Rate of Economic Growth of the United Kingdom) məqaləsində əhatə olunmuşdur. Kastilione bildirir ki, Kaldorun bu məqaləsindən sonra istehsalın artımı və əmək məhsuldarlığı arasında olan əlaqə Verdon–Kaldor qanununu adlandırılmağa başlanıldı [65, s.160]. Beləliklə, Verdon-Kaldor qanununu sadə şəkildə belə ifadə edə bilərik: istehsalın arıtımı həmin sahədə əmək məhsuldarlığını genişləndirir.

Lakin heç də bütün tədqiqatçılar Verdon-Kaldor qanununu rahatlıqla qəbul etmirlər. Məsələn, Verdon–Kaldor qanununu təhlil edən Mamqeyn belə qənaətə gəlir ki, Sinqapur, İndoneziya, Tayland və Mavrikidə istehsalda yüksək artım tempi heç də əmək məhsuldarlığını artırmır, lakin Cənubi Koreya timsalında Verdon–Kaldor qanununu özünü doğruldur [119, s.295]. Mamqeynin fikrincə, yeni sənaye dövlətlərinin təcrübəsi Verdon–Kaldor qanununu mübahisələndirməyə imkan verir.

Nell isə hesab edir ki, Verdon–Kaldor qanununu 1990-cı illərdə tətbiqə yaralıdır [108, s.71]. Öz məqaləsində Nell 1990-cı illərdə Verdon–Kaldor qanununu Avropa İttifaqı (Aİ), ABŞ və Yaponiya, həmçinin o zaman Aİ üzvü olmağa müraciət etmiş 7 Şərqi Avropa dövlətinə tətbiq etməklə statisitik əhəmiyyətli nəticələr əldə edir. Öz sırasında Hamalainen və Pehkonen kimi alimlər də Verdon–Kaldor qanununun Danimarka, Finlandiya, Norveç və İsveç iqtisadiyyatı üçün özünü doğrultduğunu sübut etmişdir [89, s.175-186].

Romerin yanaşması Verdon-Kaldor qanununa yaxındır [131, s.2]. Romer hesab edir ki, insan kapitalı məhsul istehsalının və investisiyaların artımını izah etməkdə əsas ola bilər.

Kaldorun 1966-cı ildə çap olunan və haqqında yuxarıda bəhs etdiyimiz məqaləsini təhlil edən Tirlvol Kaldora haqq qazandırır ki, həqiqətən də məhsul istehsalı iqtisadi artımın mühərrikidir [147,

s.345-358]. Lakin sonralar xidmət sektorunun inkişafı bu məsələyə yeni baxışın ortaya qoyulmasını tələb edir.

Kitabda Verdon-Kaldor qanununu Azərbaycan iqtisadiyyatı üçün tətbiq edilərək məhsul istehsalı və əmək məsuldarlığının qarşılıqlı əlaqəsi təhlil olunmuşdur. Kastilione Verdon-Kaldor qanununu kointeqrasiya (cointegration) və Qreyncer səbəbiyyatı (Granger causality) ifadəsində formalaşdırır [65, s.160]. Kitabda Qreyncer səbəbiyyat testi metodologiyasından və səhv-korreksiya modelindən (error-correction model) istifadə etməklə bir zaman sırasının (time series) başqasına olan təsiri qiymətləndirilir. Modeli qurmaq üçün Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında 1993–2011-ci illərdə məhsul istehsalı (sənaye, tikinti və kənd təsərrüfatı) bir zaman sırası kimi tərtib olunub. İkinci zaman sırası isə bu sahələrdə olan əmək məhsuldarlığı əsasında qurulub. 1993-cü il baza ili kimi qəbul edilib.

Təhlilin ilk addımı istehsal və əmək məhsuldarlığı zaman sıralarının vahid kökünün (unit root) olmasını yoxlamaqdan ibarətdir. Çünki qurulacaq model stasionar (stationary) dəyişənlərin olmasını tələb edir. Əgər dəyişənin vahid kökü varsa, həmin dəyişən modeldə istifadə oluna bilməz. Beləliklə, bizim ilk məqsdimiz belə dəyişəni stasionar hala gətirməkdən ibarətdir. Əgər dəyişən qeyri-stasionar (non-stationary) olsa, onda uyğun şəkildə birinci və ya ikinci fərq (first or second differences) testi ediləcək.

Modeldə laqların sayı Şvartsın informasiya meyarı (Schwarz information criterion) əsasında seçilib.

İlk tətbiq etdiyimiz test Diki Fullerin Genişləndirilmiş testidir (Augmented Dickey Fuller (ADF)). Diki Fuller avtokorelyasiya problemini həll etmək üçün 3 formada test təqdim edir: 1) yalnız əmsalla (intercept) olan tənlik; 2) təmayül (trend) və əmsalla (intercept) olan tənlik; 3) nə təmayül (trend), nə də əmsalı (intercept) olan tənlik. Bu şəraitdə sıfır hipotezi (Null Hypothesis) ondan ibarətdir ki, dəyişən stasionar deyil və ya vahid kökü yoxdur.

Təhlildə avtoreqressiya modelinin (autoregressive model) meyl əmsalını (slope coefficient) hesablamaq üçün adi ən kiçik kvadratlar üsulundan (ordinary least squares) istifadə edilib. Çünki əgər stoxastik proses (stochastic process) qeyri-stasionardısa, adi ən kiçik kvadratlar üsulundan istifadə etibarsız nəticələr (invalid estimates) verə bilər. Qreyncer və başqaları belə hesablamaları heç bir iqtisadi mənası olmayan saxta reqressiya (spurious regression) adlandırırdılar [84, s.111-120].

Alternativ hipotez ondan ibarətdir ki, dəyişən stasionardı. Əgər p-dəyər (p-value) 5 faizdən azdırsa, biz sıfır hipotezini rədd edirik və bu onu göstərir ki, dəyişən stasionardı. Əgər p-dəyər 5 faizdən çoxdursa, onda biz sıfır hipotezini qəbul edirik və bildiririk ki, dəyişən stasionar deyil və onun vahid kökü var.

Laq uzunluğunu (lag length) müəyyənləşdirmək üçün genişləndirilmiş Diki Fuler testi zamanı "EViews 6" proqramının avtomatik seçiminə üstünlük verilib. Yuxarıda qeyd etdiyimiz kimi, modelləşmə üçün Şvartsın informasiya meyarı seçilib. Bu meyarın əsasında maksimum laq uzunluğu 5-dir. Birinci səviyyədə (first level) p-dəyər 5 faizdən çox oldu. Digər tərəfdən birinci səviyyə genişləndirilmiş Diki Fuller test statistikası (ADF test statistic) 1%, 5% və 10% səviyyələrində kritik dəyərdən (critical value) aşağı oldu. Əgər genişləndirilmiş Diki Fuller test statistikası kritik dəyərdən aşağı aşağıdırsa, onda sıfır hipotezi qəbul olunur. Genişləndirilmiş Diki Fuller testi tənliyini qəbul etmək üçün dəyişənin əmsalı mənfi olmalıdır.

Genişləndirilmiş Diki Fuller testinin birinci səviyyədə hər üç forması (yalnız əmsalla (intercept) olan tənlik; təmayül (trend) və əmsalla (intercept) olan tənlik; nə təmayül (trend), nə də əmsalı (intercept) olan tənlik) tətbiq edilib və dəyişənin qeyri-stasionarlığı, başqa sözlə, dəyişənin vahid kökünün olması müəyyənləşib. Dəyişəni stasionar etmək üçün birinci fərq (first difference) tətbiq edilib və nəticə eyni olub: birinci fərqdə dəyişənin vahid kökü var. Yalnız ikinci fərq (se-

cond difference) tətbiq olunanda p-dəyər, genişləndirilmiş Diki Fuller testi və əmsal sübut edir ki, dəyişənin vahid kökü yoxdur və o stasionardır. Beləliklə, belə qənaətə gəlmək olur ki, hər iki dəyişən ikinci tərtibdə (order 2) inteqrasiya olunublar (integrated).

Cədvəl 4.1.
İstehsal və əmək məhsuldarlığı dəyişənləri üçün vahid köklər testi

| **Dəyişənlər** | **Dəyişənlərin səviyyəsi** | | | **Dəyişənlər 1-ci fərqdə** | | | **Dəyişənlər 2-ci fərqdə** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | ADF | Kritik dəyər | p-dəyər | ADF | Kritik dəyər | p-dəyər | ADF | Kritik dəyər | p-dəyər |
| İstehsal | 1.49 | -2.71 (1%) | 0.96 | -1.09 | -2.71 (1%) | 0.24 | -3.44 | -2.71 (1%) | 0.002 |
| | | -1.96 (5%) | | | -1.96 (5%) | | | -1.96 (5%) | |
| Əmək məhsuldarlığı | 0.98 | -2.71 (1%) | 0.91 | -2.03 | -2.71 (1%) | 0.43 | -4.01 | -2.71 (1%) | 0.005 |
| | | -1.96 (5%) | | | -1.96 (5%) | | | -1.96 (5%) | |

Kointeqrasiyanı təhlil etmək üçün qalıqlara Enql-Qreyncer stasionarlıq testi (Engle-Granger stationarity test) tətbiq olunmalıdır. Baxmayaraq ki, bu test bir sıra tədqiqatlarda tənqid edilir, Enql-Qreyncer testi kointeqrasiyanı təhlil etmək üçün sadə üsullardan biridir. Enql-Qreyncer metodologiyası qalıqların stasionarlığına əsaslanır. Əvvəlcə, istehsal və əmək məhsuldarlığı dəyişənlərinə adi ən kiçik kvadratlar üsulu tətbiq olunur. Sonra qalıqların sırası tərtib edilərək, onun stasionarlığı yoxlanılır. Beləliklə, qalıqların vahid kökünün olması test edilməlidir. Əgər qalıqların sırası stasionardısa, onda dəyişənlər kointeqrasiya olunublar. Hesablamalar göstərir ki, p-dəyər və t-statistika (t-statistics) sıfır hipotezini qəbul etməməyə əsas yaradır, başqa sözlə, qalıqlar stasionardı. (Burada t-stastika ilə Davidson and MacKinnonun kointeqrasiya testi üçün düzgün kritik dəyər (correct critical value) müqayisə edilə bilər. Bizim misalda t-statistika (-3.93) 1%, 5% və 10% səviyyəsində kointeqrasiya testi üçün asimptotik kritik dəyərdən (asymptotic critical value) aşağıdır. Buna görə də sıfır hipotezi asan-

lıqla rədd edilə bilər: hər iki göstərici uzunmüddətli dönəmdə eyni istiqamətdə inkişaf edir.)

Kastilionenin məntiqinə əsaslanaraq deyə bilərik ki, əgər dəyişənlər hər ikisi eyni tərtibdə inteqrasiya olubsa, istehsal və əmək məhsuldarlığı göstəricilərinin loqarifmləri arasında qısa və uzunmüddətli əlaqələri təhlil etmək mümkündür. Sjo da bildirir ki, əgər dəyişənlərin kointeqrasiya olunubsa, onlar eyni trendə və uzunmüddətli dönəmdə stasionar əlaqələrə malikdirlər [142, s.10].

Kastilione Qreyncerin 1986-cı ildə yazdığı "Kointeqrasiya olunmuş iqtisadi dəyişənlərin təhlili" məqaləsinə əsaslanaraq təklif edir ki, dəyişənlər arasında səbəbiyyət (causality) əlaqəsinin istiqaməti səhv-korreksiya modelindən (Error Correction Models (ECM)) istifadə edərək müəyyənləşə bilər [85, s.213-228]. Buna görə də istehsal və əmək məhsuldarlığı dəyişənləri arasında səbəbiyyət əlaqəsinin istiqamətini tapmaq üçün səhv-korreksiya modeli tətbiq olunub.

Cədvəl 4. 2.

Əmək məhsuldarlığı (lp) və istehsal (p) arasında Qreyncer səbəbiyyət əlaqəsi (Granger Causality)

| **Pairwise Granger Causality Tests** | | | |
|---|---|---|---|
| Date: 01/15/13 Time: 07:12 | | | |
| Sample: 1993 2011 | | | |
| Lags: 2 | | | |
| Null Hypothesis: | Obs | F-Statistic | Prob. |
| P does not Granger Cause LP | 17 | 4.90784 | 0.0277 |
| LP does not Granger Cause P | | 4.67597 | 0.0315 |

Bizim hesablamalarımız göstərir ki, səhv korreksiya əmsalı (error correction term) -0,33-dür və p-dəyər isə 0.0177-ə bərabərdi. Beləliklə, səhv korreksiya əmsalı mənfi göstəriciyə malik olduğundan və p-dəyərin

qiyməti 5 faizdən az olmasına görə Azərbaycanda istehsal və əmək məhsuldarlığı göstəriciləri uzunmüddətli tarazlıq əlaqələrinə malikdirlər. R-kvadrat (0,91) Darbin-Uotson statistikasından (1,33) olduğundan səhv korreksiya modeli bu halda saxta (spurious) deyil. Başqa sözlə, bi iki göstərici arasında birbaşa səbəb-nəticə əlaqəsi var. Bruiş-Qodfrey serial korrelyasiya testi (Breusch-Godfrey Serial Correlation Test) də 0,167 p-dəyərə malikdir ki, bu da 5 faizdən çoxdur. Bruiş-Qodfrey testinin nəticəsi göstərir ki, səhv korreksiya modeli dövri korelyasiya (serially correlated) etməyib. Digər tərəfdən isə qalıqlar bərabər paylanılıb.

Cədvəl 4.3.
Səhv korreksiya modeli (Error Correction Model)

| | **Əmsal** | **p-dəyər** |
|---|---|---|
| Beta | -0.33 | 0.0177 |

Qreyncer səbəbiyyəti əsasında hesablamalarımız göstərir ki, əmək məhsuldarlığının istehsala təsirinin olmaması haqqında sıfır hipotezini rədd edə bilərik. Eyni zamanda istehsalın əmək məhsuldarlığına təsirinin olmaması barədə sıfır hipotezini də qəbul etməmək mümkündür.

Təhlilin son mərhələsi impuls cavab funksiyası (impulse response function (IRF)) ilə istehsal və əmək məhsuldarlığının bir-birinə təsirini qiymətləndirməkdir. Əvvəlcə, məhdudlaşdırılmamış avtoreqressiya (unrestricted VAR) hesablanır və fərz edilir ki, hər iki dəyişən endogendir (endogenous). Müsbət standart yayınma şoku (positive standard deviation shock) verməklə dəyişənlərin bir-birinə təsirlərini qiymətləndirmək mümkündür. Hesablama göstərir ki, Azərbaycanda əmək məhsuldarlığı istehsala 4 il ərzində (2012-2015-ci illərdə) müsbət təsir edəcək, sonradan bu təsir neqativ hal alacaq. Lakin istehsalın əmək məhsuldarlığına təsiri qarşıdakı 10 ildə (2012-2021-ci illərdə) müsbət olacaqdır. Ekonometrik təhlil göstərir ki, istehsalın özünə olan təsiri qarşıdakı 10 ildə pozitiv, əmək məhsuldarlğının özünə təsiri isə ilk 4-5 ildə müsbət, daha sonra mənfi olacaq.

Şəkil 4.2.
İmpuls cavab funksiyası (Impulse Response Function)




*Buarada, p - istehsalı, lp - isə əmək məhsuldarlığını göstərir*

Təhlil göstərir ki, Verdon-Kaldor qanunu 1993-2011-ci illərdə Azərbaycanda tətbiqi mümkün olmuşdur. Bu qanundan çıxan və gələcək üçün əhəmiyyətli olan nəticə budur ki, əmək məhsuldarlığının özünə və istehsala olan təsiri 4-5 ildən sonra mənfiyə dəyişə bilər. Bu çağırışı nəzərə alaraq əmək qüvvəsinin kəmiyyət və keyfiyyət baxımından yenilənməsi və bilik iqtisadiyyatı dövrünün tələblərinə uyğulaşdırılması əsas şərtdir.

Müstəqillik illərində Azərbaycanda əmək məhsuldarlığının dövri dəyişmələri istehsal həcmindəki dinamika ilə bağlıdır. 2000-ci ilə qədər istehsalın artımı əmək məhsuldarlığının artım tempinin üstələyərdi, 2000-ci ildən sonrakı dövrdə isə əks proses başladı. 1993-1999-ci illərdə bu iki göstərici arasında korelyasiya əmsalı mənfi işarə ilə 0,77-ə bərabər olub. Çünki müstəqilliyin ilk illərində (özəlləşdirmədən sonra) ayaqda qalmağı bacaran müəssisələr ağır iqtisadi şəraitə uyğunlaşmaq üçün işçi qüvvəsini ixtisara salır və əmək haqlarını azaldır və gecikdirirdilər. 2000-2011-ci illərdə istehsal və əmək məhsuldarlığı arasında korelyasiya əmsalı 0.996 olub. Modernizasiya bir proses olaraq əmək məhsuldarlığı və istehsal arasında pozitiv korelyasiyanın yaranmasına və hər iki göstəricinin eyni zamanda yüksəlməsinə bir vəsilədir. Kidlənd və Prescott hesab edirdilər ki, məhsuldarlıqda baş verən flaktuasiyalar istehsalın artıb-azalması ilə nəticələnə bilər [110, 1345-1370]. Belə flaktuasiyalara səbəblərdən biri kimi modernizasiyadır. Məsələn, Zandveq hesab edirdi ki, texnoloji təkmilləşmə ilə hər nəfər işçiyə düşən məhsul artır və ümumilikdə istehsal yüksəlir [159, s.12]. Azərbaycanda daha yaxşı təmin olunan istehsal amillərinə əsaslanaraq rəqabətqabiliyyətli iqtisadiyyat qurulması üçün əmək qüvvəsinin kvalifikasiyasının artırılması əsas rol oynayır.

### 4.2. Aqrar sahənin moderləşdirilməsində əmək resurslarının rolu

"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası aqrar sahədə elmi təminat və kadr hazırlığının daha da yaxşılaşdırılması nəzərdə tutur. Kənd təsərrüfatı Azərbaycanda ÜDM-in təxminən 5 faizini təmin etsə də, məşğulluğun 38 faizini formalaşdırır. Öz növbəsində bu disproporsiya aqrar sahədə əmək məhsuldarlığı və insan kapitalının inkişaf səviyyəsi ilə bağlı vəziyyəti əks etdirir.

Kadr hazırlığının konseptual istiqamətləri bunlardı: Peşəkar-ixtisaslı kadrlara ümumi və əlavə tələbatın müəyyən edilməsi; peşəkar-ixtisaslı kadrların hazırlanması sistemlərinin gələcək inkişafının elmi-texniki tərəqqi və istehsal texnologiyası ilə əlaqələndirilməsi; ixtisaslı kadrların hazırlanmasının peşələr və ixtisaslar üzrə struktur proqnozunun təmin edilməsi və s [13, s. 196].

Modernizasiya prosesi əməyin intellektual yükünün artırılmasını zəruri edir. "Əməyin intellektuallaşdırılması" əqli əməyin fiziki əməyə nisbətən üstünlüyünün artırılması deməkdir. Bu anlayış insan kapitalı nəzəriyyəsi və bilik iqtisadiyyatı paradiqması ilə sıx bağlıdır. İnsan kapitalı nəzəriyyəsini elmə Teodor Şults [139, s.1-17] gətirmiş və onun davamçısı olan Qari Bekker tərəfindən inkişaf etdirilərək insan kapitalına sərmayə qoyuluşunun effektivliyi və insanın davranışına iqtisadi yanaşma formalaşdırılmışdı [55]. Qari Bekker elmə verdiyi bu töhfəsinə görə 1992-ci ildə Nobel mükafatı almışdır. Frits Maxlup isə bilik iqtisadiyyatı nəzəriyyəsinin yaradıcısı olaraq insan amilinin iqtisadiyyat və cəmiyyətdə rolunun köklü dəyişməsini göstərmişdi [118].

Modernizasiya prosesində aqrar mütəxəssislərin əməyinin mürəkkəbləşməsi işçi qüvvəsinin peşəkarlıq səviyyəsinin artımını zəruri edir. Hazırda kənd təsərrüfatı istehsal vahidlərinin əvvəllər tələb duymadıqları bir sıra mütəxəssislərə ehtiyacı var: zondlaşdırılmış torpaqdan alınan informasiyanı analiz etməklə müvafiq qərar verməyi bacaran aqranom-menecer, biotexnologiyanı bilən zootexnik, effektiv

qərarların verilməsini təmin edən proqram təminatı üzrə mühəndis-proqramçı və s. Modernizasiya prosesinə dəstək verməkdən ötrü qısa, orta və uzunmüddətli dönəmlərdə yüksək-ixtisaslı kadrların hazırlanması üçün proqramların işlənib həyata keçirilməsi zəruridir.

Azərbaycanda aqrar sahədə əmək bazarının kəmiyyət və keyfiyyət göstəriciləri yaxşılaşdırılmalıdır. Peşə təhsilinin və ali təhsilin, xüsusən də texniki istiqamətdə və menecment hazırlığında keyfiyyəti yüksəldilməlidir. İxtisaslı və ucuz əmək xarici investorların ən çox diqqətini çəkən məqamdır. Perspektivdə dünya ucuz işçi qüvvəsindən (cheap manpower) daha çox ucuz beyin qüvvəsinə (brainpower) ehtiyac duyacaq [81]. Azərbaycanda kənd təsərrüfatının ali və orta ixtisaslı mutəxəssislərlə təminat səviyyəsi dinamik olaraq aşağı düşmüşdür. Belə ki, 1990-cı ildən başlayaraq kənd təsərrüfatı üçün hazırlanmış ali təhsilli mütəxəssislərin sayı isə 1,2 min nəfərdən azalaraq 2009-cu ildə 0,5 min nəfər, otra ixtisas təhsilli mütəxəssislərinin sayı isə 5 min nəfərdən azalaraq 1,2 min nəfər olmuşdur [13, s.196]. Hazırda aqrar mütəxəssislərin yerli tədris müəssisələrində hazırlanmasına daha çox diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın 2013-cü ildə verdiyi sərəncam ilə 2013/2014-cü tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq üçün müəyyən edilən prioritet ixtisas istiqamətlərinə baytarlıq, biologiya, kənd təsərrüfatı və s. kimi aqrar sahədə tələb olunan peşələr daxil edilmişdir.

Azərbaycan xarici investisiyaları cəlb edərkən əməyin ucuzluğuna və kvalifikasiyasına o qədər də arxayın ola bilməz. Çünki orta əmək haqqına görə Azərbaycan MDB-də Rusiya və Qazaxıstanla birlikdə ilk üçlüyü qapayır. Bilik İqtisadiyyatı İndeksinə görə Azərbaycan 140 ölkə arasında 89-cu yeri tutaraq MDB-də yalnız Özbəkistan və Tacikstanı üstələyə bilmişdi [109]. Beləliklə, Azərbaycan əmək qüvvəsinin dəyəri və kvalifikasiyasını xarici investorlara sərfəli həddə gətirməklə, bu yolda daha bir baryeri aradan qaldırmış olar.

Prezident İlham Əliyev 2011-ci il mayın 3-də Azərbaycanda aqrar

sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin inkişaf etdirilməsi ilə bağlı sərəncam imzalamışdır. Sərəncamda Azərbaycanda aparılan aqrar islahatların davamı kimi bu sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin yenidən təşkili istiqamətində müvafiq tədqiqat institutlarının, eləcə də digər aidiyyəti qurumların fəaliyyətinin səmərəliliyinin artırılması zərurətinin yarandığı bildirilmişdir. Sərəncama əsasən Azərbaycanda aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmlərdə islahatların yeni mərhələsinin həyata keçirilməsi ilə bağlı xüsusi komissiya yaradılmışdır.

Sərəncam idarəçilik sistemindəki pərakəndəliyin ortadan qaldırılmasını nəzərdə tutmaqla kənd təsərrüfatının ən son texnologiyalar əsasında innovasiyalı inkişafını sürətləndirmək məqsədi daşıyır. Sərəncama əsasən aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilməyə başlanmışdır. Qeyd edə bilərik ki, artıq AMEA-da Aqrar Elmlər Bölməsi yaradılmışdır. Aqrar Elmlər Bölməsində geniş elmi potensiala malik üç elmi-tədqiqat institutu - AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu, AMEA Genetik Ehtiyatlar İnstitutu və Azərbaycan Elmi-Tədqiqat Eroziya və Suvarma İnstitutu fəaliyyət göstərir. Azərbaycanın aqrar elmi üzrə koordinasiyanın gücləndirilməsi, kadr hazırlığında beynəlxalq təşkilatların və xarici elm mərkəzlərinin köməyindən ardıcıl istifadə edilməsi, aqrar sahədə olan elmi-tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi və elmi işçilərin orta aylıq əmək haqqının artırılması perspektiv planlar sırasına daxil edilməlidir.

Azərbaycanda son illər ali təhsil müəssisələrinin nəzdində və strukturunda tədqiqat aparan yeni qurumlar yaradılmışdır: o cümlədən, iki elmi-tədqiqat institutu (BDU-nun nəzdində "Fizika problemləri" və ADİU-nun nəzdində "İqtisadi araşdırmalar"), bir elmi-tədqiqat mərkəzi (Azərbaycan Texniki Universitetinin nəzdində "Maşınşünaslıq"), müxtəlif ali təhsil müəssisələrinin strukturunda 27 elmi-tədqiqat laboratoriyası təşkil edilmişdir. Bu təşəbbüsün Azərbaycan Dövlət

Aqrar Universitetində geniş tətbiqi kənd təsərrüfatı sahəsində elm və təhsilin vahid platformada təşkili işinin sürətləndirilməsinə və insan kapitalının inkişafına öz töhfəsini verə bilər.

Aqrar sahənin kadr potensialı haqqında danışarkən bu sahə üzrə ciddi kadr çatışmazlığı olduğunu vurğulamaq bir o qədər də obyektiv olmaz. Respublikada aqrar sahə üzrə ali və orta ixtisas təhsili almış kifayət qədər mütəxəssislər mövcuddur. Lakin bu məsələ ilə əlaqədar problem ondadır ki, ixtisaslaşdırma metodologiyası və kadr potensialının idarəedilməsi sistemi müasir tələblərə uyğun deyildir. Kadr potensialı kadra olan tələbat əsasında formalaşmalıdır. Kənd təsərrüfatı istehsalının mövcud pərakəndəliyi bu sahədə də problemlər yaradır. Xırda təsərrüfatlarda ixtisaslı mütəxəssislərdən az istifadə olunduğuna, bir çox hallarda, ümumiyyətlə, mütəxəssislərə müraciətlər edilmədiyinə görə təsərrüfat subyektlərində onların ixtisaslarına aid işlərə cəlb edilməsində problemlər yaranır. Əgər mütəxəssisə tələbat yetərincə deyildirsə, təbii ki, bu ixtisas üzrə təhsil almaq marağında olanların sayı getdikcə azalacaqdır. Bu, zəncirvari bir proses xarakterini almaqla aqrar sahə üzrə müasir səviyyəli peşəkar kadrların hazırlanmasında və kadr potensialının formalaşdırılması yolunda ciddi əngəllər yarada bilər.

Aqrar sahə üzrə kadr hazırlığının müasirləşdirilməsi məsələsinə baxarkən iki aspekti diqqət mərkəzində saxlamaq gərəkdir. Bu məsələ bir tərəfdən təhsil sistemi ilə əlaqədardırsa, digər tərəfdən aqrar sektorda həyata keçirilən əsaslı islahatlarla — qloballaşmadan doğan yeni tələblərlə, dünya iqtisadi sisteminə inteqrasiya prosesləriIə və s. bağlıdır. Aqrar sektorda həyata keçirilən islahatlar bu sahəyə kadr tələbatını müəyyən etməli, müvafiq rəqabət mühiti formalaşdırmalı və kadrların hazırlanması prosesinə oz təsirini göstərməlidir. İstehsal münasibətlərinin modernləşdirilməsi, beynəlxalq bazara inteqrasiya, qanunvericilik və normativ-texniki bazanın beynəlxalq standartlara uyğunlaşdırılması istər-istəməz müasir biliklərə yiyələnmiş kadrlara tələbat yaradacaqdır.

Belə kadrların hazırlanması üçün mütləq istehsal və təhsil sistemləri tərəfindən birlikdə planlaşdırma və proqnozlaşdırma tədbirləri həyata keçirilməlidir ki, kadr hazırlığı prosesləri praktiki tələbatın əsasında qurulsun. Bununla belə, kadr hazırlığı məsələsi müzakirə edilərkən digər vacib bir amil - kəndin müasirləşdirilməsi mütləq nəzərə alınmalı, kadrların ancaq istehsal sahələrində ixtisasları üzrə işlə təminatı probleminin həlli deyil, eyni zamanda onların kəndi müasirləşdirmək kimi vəzifələri də diqqətdən qaçırılmamalıdır. Məhz bu kadrlar kəndin müasirləşdirilməsi, avanqardçılıq funksiyalarının yerinə yetirilməsi, yeniləşməli olan regionların və kəndlərin modernləşdirilməsi işlərini həyata keçirməyə qadir olmalıdırlar [23, s.6].

BMT-nin İnkişaf Proqramı tərəfindən nəşr edilən və uzun və sağlam ömür, təhsil səviyyəsi və layiqli yaşayış standartlarını əhatə edən İnsan İnkişafı İndeksinə görə Azərbaycan orta dünya göstəricisini 5,8 faiz üstələyir. BMT-nin İnkişaf Proqramının "İnsan İnkişafı Hesabatında" Azərbaycanda adambaşına düşən ümummilli gəlir səviyyəsinin insan inkişafı indeksindən irəlidə olması ölkəmizdə hətta indiki imkanlar daxilində insan inkişafı indeksini yüksəltməyin mümkün olduğunu göstərir. Azərbaycan 2000-2010-cu illər ərzində İnsan İnkişafı İndeksinin artım sürətinə görə orta dünya göstəricisini iki dəfə qabaqlayaraq planetin top-15-liyinə daxil olmuşdur. 2005-2010-cu illərdə İnsan İnkişafı İndeksində reytinq irəliləməsinə görə isə Azərbaycan dünya liderliyinə yüksəlmişdir. Tədqiqatlar göstərir ki, heç də iqtisadiyyatı sürətlə inkişaf edən ölkələrin hamısı Azərbaycan kimi insan inkişafı indeksini yaxşılaşdıra bilmir. İnsan İnkişafı Hesabatında Azərbaycan daha bir dünya rekordu vurmuşdur: 2000-2010-cu illərdə Gəlirlər üzrə Cini indeksi Azərbaycanda ən aşağı həddə - 16.8-ə bərabər olmuşdur ki, bu da ölkəmizdə gəlirlərin əhali qrupları arasında planetin digər dövlətləri ilə müqayisədə ən ədalətli bölgüsünü ehtiva edir. Nəticədə hesabata görə "qeyri-bərabər bölgü də nəzərə alınmaqla adambaşına düşən gəlir" səviyyəsinə görə Azərbaycan dünyanın 50 ən güclü

inkişaf etmiş ölkəsinin sırasına daxil olub. Bu mənada Azərbaycan sözügedən hesabatda qeyd olunduğu kimi "bərabəsizlik azaldıqca İnsan İnkişafı İndeksi də yüksəlir" tezisinin doğruluğunu sübut etmişdir. Azərbaycanın İnsan İnkişafı İndeksinin yüksəlməsi modernizasiya üçün əhəmiyyətli olan insan kapitalının inkişaf səviyyəsini göstərir. İnsan kapitalı insanların iqtisadi və sosial fayda verən fərdi biliyini, vərdişini və digər xususiyyətlərini təcəssum etdirir. Bilik, bacarıq, səriştə və vərdiş əsasən oyrənmə və əmək təcrubəsi vasitəsilə qazanılır, həm də təbii qabiliyyətlərlə də muəyyən olunur [17, s.74]. Becker G.S.qeyd edir ki, insan kapitalına yatırılan investisiya iqtisadiyyatın müəxtəlif sahələrinə şaxələndirilmiş şəkildə təsir göstərir [56, s.9]. Xüsusilə də, Azərbaycanda insan kapitalının aqrar sahənin inkişafında rolu mühümdür. İnsan İnkişafı İndeksinin əsas komponentlərindən birinin hər nəfərə düşən ÜDM həcmi olduğunu nəzərə alanda belə qənaətə gəlmək olur ki, əslində kənd təsərrüfatı sahəsində bu indeks elə də yüksək səviyyədə deyil. Çünki kənd təsərrüfatında hər nəfərə düşən ÜDM göstəricisi orta respublika səviyyəsindən geridə qalır. Buraya kənd yerlərində səhiyyə və təhsil xidmətlərinin orta respublika səviyyəsi ilə müqayisəsini də əlavə etsək daha aydın mənzərə yaranar. Əslində kənd təsərrüfatında səmərəliliyin iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha aşağı olması inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir [64, s.679-741, 130, s.234-250]. Fermer təsərrüfatında miqyas riski [50], aqrar və qeyri-aqrar sahələr arasında işçilərin və aralıq məhsulların hərəkətinə olan baryerlər [130, s.234-250], istehsal amillərinin fərqi [64, s.679-741], işçilərin iki sahə arasında seçilməsi [111] və ev təsərrüfatında istehsal belə bir fərqin yaranması üçün əsasdır.

Yüksək insan kapitalı, Adam Smitin təbiri ilə desək ixtisaslı və mürəkkəb əmək, ixtisassız və sadə əməklə müqayisədə vaxt vahidi ərzində daha çox dəyər yaradır. Beləliklə, modernləşən aqrotexnologiyalar yalnız ixtisaslı və mürəkkəb əməklə vəhdət halında daha səmərəli

fəaliyyət göstərə bilər. Kənd təsərrüfatında insan kapitalının inkişafı bu sahənin məhsuldarlığının artırılmasına gətirib çıxarır [160, s.451]. Buna görə də, kənd təsərrüfatı sahəsində insan kapitalına sərmayələr modernizasiya prosesinin sürətlənməsi üçün əsaslı zəmin yarada bilər. Elmi ədəbiyyatda sübut edilmişdir ki, əlavə təhsil illəri kənd təsərrüfatında qeyri-səmərəliliyin aradan qaldırılmasına töhfə verir [71, s.149]. İnsan kapitalının məhsuldarlığı nəzəriyyəsinə (productivity-adding human capital theory) əsaslanaraq Arrow K. qeyd edir ki, təhsil fərdin məhsuldarlığını artırmaqla onun əməyinin bazar dəyərini də yüksəldir [53, s.193].

Şəkil 4.3.

2012-ci ildə İnsan İnkişafı İndeksi




**Mənbə: BMT-nin İnkişaf Proqramı**

2012-ci il 4 iyun - 1 iyul tarixlərində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının keçirdiyi "Fermer ailələrinin sənaye yenilkləri sistemində tam iştirakı: Əsas məsələlər və Örnək çalışmalar" mövzusunda onlayn konfransda qeyd edilib ki, kənd təsərrüfatı istehsalçıları istehsal prosesində davamlı yeniliklər edir. Digər fermerlərin də çox yararlana biləcəyi bu yeniliklər nadir hallarda sənədləşdirilir. Fermerlər

özləri azad şəkildə yenilikləri sınaqdan keçirib innovasiyalar tətbiq etdiyi bir zamanda, müstəqil elmi işlərin təsdiqinə və elmi cəmiyyətlərə fermer yeniliklərindən öyrənməyə və bəhrələnməyə şərait yaratmaq üçün funksional əlaqələrin qurulmasına ehtiyac var.

Aqrar məsləhət xidməti (Agricultural Extension Systems) elmi tədqiqat və yeni biliyin kənd təsərrüfatı praktikasına fermerlərin təhsilini artırmaq (seminar, treyninq və s. metodlarla) yolu ilə tətbiqidir. Aqrar məsləhət xidməti müasir formasını son iki əsrdə almasına baxmayaraq, onun təkamülünün təxminən dörd min ilə yaxın yaşı var.

Dövlət, konsaltinq qurumları və QHT-lər kənd təsərrüfatı istehsalçılarının sorğularını cavablandırmaq üçün müəyyən proqramlar həyata keçirirlər. Aqrar məsləhət xidməti praktikasını Azərbaycanda tətbiq etməklə aşağıdakılara nail olmaq mümkündür:

1. *Fermer öz fəaliyyətini könüllü əsasla təkmilləşdirir;*
2. *Yeni bilik yaranır və yayılır;*
3. *Yeniliklərin qavraması motivasiya edilir;*
4. *Fikir formalaşdırmağa imkan yaranır və daha yaxşı qərar qəbul olunur;*
5. *Qarışılıqlı öyrənməyə imkanlar açılır;*
6. *Yeni aqrar texnologiyalar yaradılır və yayılır.*

Azərbaycanda aqrar məsləhət xidmətini inkişaf etdirmək üçün əsas şərt aqrar istehsalın praktikasından əldə edilən və sistemləşdirilən informasiyadır (bilikdir). Sonradan bu informasiya mütəxəssisləri öyrətmək üçün istifadə eililir. Üçüncü şərt biliklərin yayılmasını təmin edəcək inzibati və təşkilati strukturların olmasıdır. Dördüncüsü, aqrar məsləhət xidməti işinin arzu olunan səviyyəyə çatdırılmasına dəstək verən lobbinin (nüfuzlu tərəfdarların) mövcudluğudur.

Azərbaycanda Kənd Təsərrüfatı Nazirliyinin suvarmada mütərəqqi texnologiyaların tətbiqinin dəstəkləməsini aqrar məsləhət xidməti nümunəsi saymaq olar. Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytının verdiyi məlumata görə, suvarma üsulu barədə təsərrüfat sübyeкtlərinə məsləhətlər verilir. Görülən tədbirlər nəticəsində Türkiyə, Israil və

ABŞ damcılama suvarma texnologiyalarından istifadə olunmasına başlanılmış, Biləsuvar, Beyləqan, Yevlax, Salyan və Xaçmaz rayonlarında ABŞ-ın "Valey" yağışyağdırma sistemləri qurulmuş, suvarılması çətin olan torpaq sahələri əкin dövriyyəsinə daxil edilmişdir. 2012-ci ildə Quba rayonunda 200 hektar, Saatlı rayonunda 60 hektar, Kürdəmir rayonunda 112 hektar, Yevlax rayonunda 581 hektar, Goranboy rayonunda 285 hektar və digərlərində damcı suvarma sistemi istismara verilmişdir. Fermerlərin bu istiqamətdə biliklərinin artırılması damcı suvarma sisteminin səmərəliliyinin yüksəldilməsi üçün əsas olmuşdur. Beləliklə, kənd təsərrüfatının modernləşdirilməsi prosesində insan kapitalının inkişafına olan tələbin ödənilməsi üçün aqrar genişlənmə bir paradiqma olaraq əhəmiyyətlidir.

Müasir dünyada aqrar məsləhət xidməti İKT sektorunun inkişafı ilə yeni mərhələyə qədəm qoyur. İKT imkanlarından istifadə edərək kəndlərdə resurs mərkəzləri yaradıla bilər ki, burada aqrar istehsalçılara fərdi və ya qrup şəklində problemin diaqnozunu qoymaq, məlumatları emal edərək nəticələri sınaqdan keçirmək üçün biliklər aşınılması mümkündür [112].

Moris və Hayward kimi alimlər təklif edirlər ki, dövlətlə yanaşı digər strukturlar da (məsələn, özəl sektor və ya QHT-lər) fəal şəkildə aqrar məsləhət xidməti fəaliyyətinə dəstək verməlidirlər [90, s.115-134].

ABŞ-ın torpaq qrant universitetləri (land-grant university) federal hökumətin vəsaiti hesabına ştatlarda kənd təsərrüfatı istehsalçılarına elmi-texniki yenilikləri aşılamaq üçün təsis olunmuş elmi-tədris mərkəzləridir. ABŞ Kənd Təsərrüfatı Departamenti torpaq qrant fondlarını və onların milli səviyyədə fəaliyyətlərini koordinasiya edir. Torpaq qrant sisteminin digər bir komponenti 1914-cü ildə Smit-Lever Aktı ilə yaradılmış Korporativ Genişlənmə Xidmətidir. Qurumun məqsədi tədqiqatlardan əldə edilmiş məlumatları hər bir aqro təcrübə stansiyasında yaymaqdır. Əsası 1994-cü ildə qoyulmuş 29 Amerikan Qəbilə Kollecləri də daxil edilməklə ən azı ABŞ-ın hər bir ştatında və

ya bölgəsində biri olmaqla hazırda 105 torpaq qrant universiteti var.

Azərbaycanda bölgələrdə olan kolleclərin (məsələn, Qazax Dövlət Sosial-İqtisadi Kolleci, Tovuz Dövlət Sosial-İqtisadi Kolleci, Şamaxı Dövlət Sənaye-İqtisad Kolleci, Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci və s.) bazasında torpaq qrant universiteti modelini tətbiq etmək mümkündür. Onların missiyasını üç əsas istiqamətdə cəmləşdirmək olar: aqrar sahədə tədqiqat, tədris və konsaltinq xidməti. Torpaq-qrant qurumları bölgələrdə akademik və tədqiqat proqramlarını əlaqələndirə bilər. ABŞ-da olduğu kimi uğurlu torpaq-qrant modeli dövlət-universitet-özəl sektorun tərəfdaşlığı üçün yaxşı zəmin sayılmalıdır. Hazırda ABŞ-da torpaq-qrant universitetləri ilk yarananda etdikləri kimi texnologiya transferi ilə məşğuldurlar. Yeganə dəyişən xüsusiyyət isə texnologiya transferini etmək üçün motivasiya və istifadə olunan elm və texnologiya növləridir. Azərbaycanda aqrar modernizasiya siyasətinin tərkib hissəsi olaraq torpaq-qrant universiteti modelinin tətbiqi öz töhfəsini verə bilər.

## 4.3. Modernləşdirilmə və dövlətin urbanizasiya siyasəti arasında dialektik vəhdət

Azərbaycanda aqrar sahənin modernləşdirilməsi urbanizasiya prosesini sürətləndirir. İlk növbədə aqrar istehsalın davamı olaraq yaranan və kənd təsərrüfatının lokomotivi sayılan ərzaq sənayesi şəhərlərin, xüsusilə də əyalət şəhərlərinin inkişafına təkan verir. Digər tərəfdən isə aqrar istehsalın dounstrim (downstream) və apstrim (upstream) sferalarının inkişafı bilavasitə şəhərlərlə bağlıdır. Aqrar sahənin inkişafını təmin edən infrastruktur (elm və təhsil müəssisələri, maddi-texniki təchizat və s.) şəhər iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Aqrar sahədə modernləşmə həm də, qənaət edilən resursların, xüsusilə də, əmək resurslarının şəhərlərə istiqamətlənməsinə şərait yaradır. Azərbaycanda sürətlə böyüyən şəhərlərdə hündürmərtəbəli binaların fasadlarında "şaquli ferma"ların (vertical farm) yaradılması mümkündür. Məsələn, bu ideyanın yaradıcısı və Kolumbiya Universitetinin professoru Dickson Despommier bildirib ki, iqlim dəyişikliyi ənənəvi kənd təsərrüfatı məhsullarını bahalaşdırdıqca və modern texnologiyalar inkişaf etdikcə şaquli ferma ideyası daha da populyarlaşacaq.

Qədim şəhər mədəniyyətinə malik olan Azərbaycan postindustrializm dövründə urbanizasiya sahəsində yerli və qlobal çağırışlara cavab verərən siyasət yürüdür. Azərbaycan dövləti şəhərlərin coğrafi genişlənməsi, urbanizasiya, şəhər infrastrukturunun yaxşılaşdırılması və şəhər mədəniyyətinin inkişafı istiqamətində mühüm addımlar atır. Resursla zəngin müsəlman ölkəsi Malayziyanın təcrübəsi də göstərir ki, sürətli sosial-iqtisadi inkişaf urbanizasiya prosesini gücləndirir.

Son illər Azərbaycanda kiçik və orta şəhərlərin periferiyanı cəlb etməklə çoğrafi genişlənməsi həyata keçirilir. Azərbaycan Respublikasının Milli Məclisinin qəbul etdiyi qərar layihəsinə əsasən Qəbələ şəhərinə ətrafdakı 2095 hektar ərazi birləşdirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu qərarı 20 noyabr 2012-ci

ildə təsdiqlədi. 21 dekabr 2012-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi Gəncə şəhərinin ərazisinin Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarının sərhədlərində qismən dəyişikliklər edilməsi yolu ilə 2694 hektar genişləndirilərək 12,5 min hektara çatdırılması barədə qərar layihəsi qəbul edib. 5 mart 2013-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Masallı şəhərinin ərazisinin ətraf kəndlərin hesabına 353 hektardan 2540 hektara qədər, başqa sözlə təxminən 7 dəfə artırılması barədə qarar layihəsini qəbul edib. Yaxın perspektivdə Şahbuz şəhərinin ərazisinin 1821,6 hektar artırılaraq 2826,6 hektara və Ağdaş şəhərinin ərzasinin 1237 hektar artılaraq 2307 hektara çatdırılması planlaşdırılır.

Beləliklə, regional inkişafın nüvələri - əyalət şəhərlərinin miqyasları məhz kənd ərazilərinin, əhalisinin və başqa resurslarının hesabına artır. Bunun üçün Azərbaycanda kənd təsərrüfatının modernləşdirilməsi, xüsuilə də aqrar sahənin sənayeləşdirilməsi istiqamətində atılan addımlar öz töhfəsini verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial-itisadi siyasəti yeni dövrün çağırışlarına cavab verərək urbanizasiya məfhumuna yeni baxışı ortaya qoyur. Əgər əvvəllər Azərbaycanda urbanizasiya əyalətlərdən Bakıya olan daxili miqrasiyanı ehtiva edirdisə, hazırda miqrasiya vektorları əyalət şəhərlərinə istiqamətlənib və aqrar sahənin modernləşdirilməsinə əsaslanır. Yeni dövrdə urbanizasiya müstəqilliyin ilk illərində olduğu kimi Bakının geridə qalmış regionların fonunda sürətlə böyüməsinə xidmət etmir. Əksinə regional inkişafın lokomotivi ola biləcək əyalət şəhərləri sürətlə inkişaf etməklə urbanizasiyanın müsbət nəticələr verməsini göstərən lakmusa çevrilir.

"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında göstərilir ki, ölkənin bölgələrində infrastruktur təminatının yaxşılaşdırılması, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, turizm və rekreasiya zonalarının, iqtisadiyyatın prioritet sahələri üzrə ərazi-istehsal klasterlərinin, hər bir bölgənin rəqabət üstünlükləri

nəzərə alınmaqla, yeni regional inkişaf mərkəzlərinin yaradılması bölgələrin sosial-iqtisadi inkişafını sürətləndirəcəkdir. Regional inkişaf

mərkəzləri bölgələrdə tarazlı sosial-iqtisadi inkişafın təmin edilməsini stimullaşdıracaq, bu isə regional bərabərsizliyin azaldılmasına, əmtəə dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturunda kəskin fərqlərin aradan qalxmasına, iqtisadi resursların, əsasən, mərkəzi şəhərlərdə təmərküzləşməsinin səngiməsinə gətirib çıxaracaqdır.

Son illərdə Azərbaycanda şəhərlər coğrafi genişlənmə ilə yanaşı, həm də əhalinin sayında xüsusi çəkisinə görə öz mövqelərini gücləndirir. Müstəqilliyin ilk illərində Azərbaycanda şəhər əhalisinin xüsusi çəkisi azalmağa başladı və Dövlət Statistika Komitəsinin məlumatına görə 1999-cu ildə 51,1 faizə düşdü. 2002-ci ildən şəhər əhalisinin sayının artması prosesi baş verib. 2012-ci ildə 9 milyon 235 min nəfər əhalinin 52,9 faizi, başqa sözlə, 4 milyon 889 min nəfəri şəhərdə yaşayıb. Təkcə son 10 ildə Azərbaycanda şəhər əhalisinin sayı təxminən 700 min nəfər artıb. Özü də bu artımın yalnız 276 mini məhz paytaxt şəhəri Bakının hesabına baş verib. Beləliklə, əyalət şəhərlərində əhalinin artım sürəti Bakı ilə müqayisədə daha sürətlə gedir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2002-2012-ci illərdə Bakının əhalisi 14,9 faiz artdığı halda, Azərbaycanın digər şəhərlərində artım 17,9 faiz olmaqla, paytaxtı 3 faiz bəndi üstələmişdi. Şəhər əhalisinin artımında təkcə Bakı və digər şəhərlərin arasında deyil, həm də regionların daxilində də nisbət dəyişir. Məsələn, Azərbaycanın Naxçıvan Muxtar Respublikasında şəhər əhalisinin xüsusi çəkisi 2002-ci ildəki 26,7 faizdən 2012-ci ildə 29,1 faizə çatıb. Beləliklə, məntiqi olaraq Azərbaycanda əhalinin ən sürətlə artımı nə paytaxtda, nə də ki, kəndlərdə deyil, məhz region şəhərlərində baş verir.

Malayziyanın urbanizasiya təcrübəsi göstərir ki, kiçik və orta şəhərlərin inkişafı məhz dövlətin dəstəyi və özəl sektorun iştirakı ilə baş verməlidir. Son illər Azərbaycanın regionlarındakı şəhərlərdə infrastrukturun (xüsusilə, yol, elektrik, təbii qaz, kanalizasiya təminatı və

s.) yaxşılaşdırılması, abadlıq işləri və yeni iş yerlərinin yaradılması kiçik və orta şəhərlərin əhali və biznes üçün daha əlverişli olmasına gətirib çıxarıb. Hətta dövlət büdcəsi də şəhərlərin öndərlik etdiyi regional inkişafı hiss edir: 2012-ci Azərbaycan Respublikasında şəhər və rayonların yerli gəlirlərinə aid olan məbləğ 499,4 milyon manat və ya 2011-ci illə müqayisədə 11,7 faiz artmışdır. Beləliklə, urbanizasiya və aqrar sahənin modernləşdirilməsi yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitin azalmasına xidmət edir və mərkəzi hakimiyyətin yükünü azaldır. Azərbaycan dövləti şəhərlərin vergi potensialının artırılması üçün daha bir addım atmışdır: 2013-cü ildən başlayaraq şəhər və rayonlarda vergi ödəyiciləri (mənfəət vergisi istisna olmaqla) bütün vergi və ödənişləri yerli büdcəyə edəcəklər. Bunun nəticəsidir ki, 2013-cü ildən Sumqayıt şəhəri və Abşeron rayonundan sonra Şirvan şəhərinin də yerli gəlirləri xərclərini tam ödəycəkdir. Azərbaycan dövləti tədricən kiçik və orta şəhərlərin maliyyə müstəqilliyinə çatmasını dəstəkləyir.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə həyata keçirilən layihələrin əksəriyyəti (südlük və ətlik istiqamətli cins heyvandarlıq kompleksləri, quşçuluq təsərrüfatları, ət kəsimi və emalı müəssisələri, çörək istehsalı zavodları, üzüm emalı müəssisəsləri, meyvə-tərəvəz emalı müəssisələri və digər sənaye müəssisələri) region şəhərlərinin sənaye potensialının inkişafına və bu potensiala xidmət edəcək kənd təsərrüfatının modernləşdirilməsinə istiqamətlənib.

Maraqlıdır ki, Azərbaycanda şəhər əhalisinin xüsusi çəkisi - 52,9 faiz, Çindəki eyniadlı göstəricilə - 52,6 faizlə çox yaxındır. Çin qarşıdakı 10 il ərzində 40 trilyon yuan (6,4 trilyon ABŞ dolları) xərcləməklə daha 400 milyon insanı kəndlərdən şəhərə köçürmək istəyir. Məqsəd Çinin iqtisadi inkişafının mühərriki sayıla biləcək - varlı istehlakçı təbəqəsinin formalaşdırılmasıdır. Çin hökuməti daxili istehlakçı tələbinin nə qədər güclü bir qüvvə olmasının və Çin iqtisadiyyatına qlobal böhran şəraitində əlavə təkan verməsinin fərqindədir. Beləliklə,

urbanizasiya Çində orta təbəqənin mövqelərinin gücləndidirlməsinə xidmət edir. Elə bu səbəbdəndir ki, qlobal iqtisadi böhrana baxmayaraq Çin iqtisadiyyatı illik 7-8 faizlik artım tempini saxlayır. Orta təbəqənin kiçildiyi ABŞ və Avropa iqtisadiyyatı isə staqnasiyadan çıxa bilmirlər. Çin və Qərbin iqtisadi islahat fəlsəfəsində ən ciddi fərq ondadır ki, birinci daxili istehlakın artırılmasını, ikinci isə rəqabətqabiliyyətinin yüksəldilməsini hədəf olaraq seçib. Hələlik praktika Çinin daha düzgün yolda olmasını sübut edir. Çin hökümətinin stimullaşdırdığı urbanizasiya nəticə etibarı ilə orta təbəqənin güclənməsi - onun maddi rifah halının yaxşılaşdırılması, alıcılıq qabiliyyətinin yüksəlməsi, əmək məhsuldarlığının artması - yolu ilə iqtisadi inkişaf tempinin yüksək səviyyədə saxlanılmasına xidmət edir. Çində urbanizasiya imkanlar və resurslar nəzərə alınmaqla planlı şəkildə həyata keçirilir və məqsəd 2020-ci ildə 1,4 milyard nəfərlik əhalinin 60 faizinin şəhərlərdə yaşamasını təmin etməkdir. BRİCS ölkələrinin başqa bir üzvü Hindistan da şəhər əhalisinin 2030-cu ilə qədər 75 faiz həddinə çatdırılmasını hədəfləyib.

Türkiyənin aqrar ölkədən inkişaf etmiş sənayə dövlətinə çevrilməsində urbanizasiyanın böyük rolu olmuşdur. 1950-ci ildə Türkiyə əhalisinin cəmi 25 faizi şəhər əhalisi olmuşdursa, hazırda bu göstərici 70 faiz həddinə çatıb. Əgər əvvəllər Türkiyənin qərb sahilləri və Mərmərə bölgəsi daha sürətlə şəhərləşirdisə, hazırda "Anadolu pələngləri" adlanan ikinci dərəcəli şəhərlər daha yüksək templə inkişaf edir. Bu təmayül Azərbaycanda region şəhərlərinin paytaxta nisbətən daha sürətlə inkişaf etməsinə bənzəyir.

Braziliya təcrübəsi göstərir ki, aşırı sürətli urbanizasiya iri şəhərlərdə "sosial tıxaclar" yaradır. Məsələn, San-Paulu şəhərinin infrastrukturu və iqtisadi potensialı sürətli urbanizasiyanın tələblərinə cavab verə bilmədiyindən şəhərdə həddən artıq yüklənmə getmişdi. Bu təmayül Sovet İttifaqı dağılandan sonra bütün müttəfiq respublikalarda bu və ya digər dərəcədə təzahür etmişdir. Buna görə də urbanizasiya planlı

şəkildə tənzimlənməlidir. Əvvəlcə aqrar sahədə modernləşdirmə aparılmalı, şəhərlərdə infrastruktur və iş yerləri yaradılmalı və sonra urbanizasiya stimullaşdırılmalıdır. Azərbaycanda urbanizasiyanın keyfiyyət və kəmiyyət etibarı ilə yeni mərhələyə qədəm qoymasının əsasında ilk növbədə 2004-2008-ci və 2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramları dayanır. Bunun nəticəsidir ki, Azərbaycanın kiçik və orta şəhərləri urbanizasiyanın aşırı təzyiqi ilə üzləşmirlər, əksinə aqrar sahənin modernləşdirilməsi, urbanizasiya və şəhərlərin inkişaf tempi dialektik vəhdətdə olmaqla sinxronlaşdırılıb.

Azərbaycanda urbanizasiya prosesi kəndlərin tamamilə silinməsi anlamına gəlməməlidir. Əksinə kənd təsərrüfatının modernləşdirilməsi və məhsuldarlığın artırılması nəticə etibarı ilə rəqəbətqabiliyyətinin yüksəlməsinə gətirəcək. Kənd təsərrüfatı sahəsində qənaət edilən əmək resurları isə urbanizasiya prosesi çərçivəsində şəhərə transfer edəcək. Bu gün dünyada sürətlə genişlənən "rəqəmsal nəsil" Azərbaycanda da formalaşır və əmək resurlarının keyfiyyət və kəmiyyət etibarı ilə yeni mərhələyə qədəm qoyması prosesinə öz töhfəsini verir.

Kəndin təkcə istehsal deyil, həm də sosial infrastrukturunu təkmilləşdirmək lazımdır. **Azərbaycanda ipoteka kreditləşdirilməsinin təkmilləşdirilməsi kənd ərazilərində** əhalinin mənzillə təminat səviyyəsinin daha da yaxşılaşdırılması üçün imkanlar aça bilər. 2003-2012-ci illər ərzində ölkəmizdə **17 milyon 65 min kvadratmetr** yaşayış evləri və yaxud **154 min 900 ədəd mənzil** tikilib istifadəyə verilmişdir. Bu dövrdə 755 min 530 nigah qeydə alınmışdır, başqa sözlə, yeni yaranan ailələrin sayı istifadəyə verilmiş mənzillərin sayından 4,9 dəfə çox olmuşdur. Əhalinin hər 1000 nəfərinə düşən istifadəyə verilmiş mənzillərin sayı və əhali artımı arasında da disproporsiya müşahidə edilir. Məsələn, əhalinin hər 1000 nəfərinə düşən istifadəyə verilmiş mənzillərin sayı 2011-ci ildə 1,8 ədəd olduğu halda, hər 1000 nəfərə düşən əhali artımı 14 nəfər təşkil etmişdir. Azərbaycanda ev təsərrüfatında orta hesabla 4,5 nəfər olma-

sını nəzərə alsaq, onda aydınlaşar ki, yeni yaranan ev təsərrüfatlarının sayı istifadəyə verilən mənzillərin sayını təxminən 3 dəfə üstələyir. Belə bir tendensiya əhalinin, xüsusilə gənclərin mənzilə olan tələbatının getdikcə artmasını göstərir. Əlbəttə, bu tələbatın yalnız müəyyən bir hissəsi tədiyyə qabiliyyətlidir. Əhalinin gəlirlərinə təsir göstərmədən onun mənzil almaq üçün tədiyyə qabiliyyətini gücləndirmək məqsədilə ipoteka kreditləşməsi ən əlverişli yollardan biri sayılır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş **"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında qeyd edilmişdir ki,** tikinti-əmanət banklarının yaradılması dəstəklənəcək və ipoteka kreditləşdirilməsi mexanizmi təkmilləşdiriləcəkdir, eyni zamanda gənclərin və gənc ailələrin mənzil ehtiyaclarının ödənilməsi məqsədi ilə sosial ipotekanın şərtləri daha da təkmilləşdiriləcək. Qeyd edək ki, Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 2005-ci il tarixli Fərmanı olmuşdur. 2005-2013-cü illər ərzində dövlət büdcəsindən Azərbaycan İpoteka Fonduna **176 milyon manat** vəsait ayrılmışdır. Dövlət büdcəsindən və digər mənbələrdən ayrılan və daxil olan vəsaitlər də nəzərə alınmaqla İpoteka Fondunda 2013-cü ildə **136 milyon manat** vəsait ehtiyatının yaranması proqnozlaşdırılır. 2013-cü ili iyulun 1-ə qədər AİF tərəfindən yenidən maliyyələşdirilmiş ipoteka kreditlərinin həcmi **387 milyon manat** olmuşdur ki, bu da əhalinin mənzil şəraitinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərmişdir.

Dövlətin ipoteka kreditləşməsini genişləndirməsi bir tərəfdən əhalinin mənzillə təminatını yaxşılaşdıra bildiyi halda, digər tərəfdən mənzil bazarında qiymətlərin yüksəlməsi ilə nəticələnir. Çünki İpoteka Fondunun təklif etdiyi kredit həcmi psixoloji transmissiya gücünə malikdir və bazar belə siqnallara qiymətlərin bahalaşması ilə reaksiya verir. Buna görə də mənzil bazarında tədiyyə qabiliyyətli tələbin deyil, təklifin artırılması daha məqsədəuyğun olardı. (Məsələn, dövlətin

vətəndaşlar üçün tikdiyi mənzillər daşınmaz əmlak bazarında qiymət fluaktasiyalarına səbəb olmur. 2004-2013-cü illər ərzində Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılan 1 526,9 milyon manat vəsait hesabına 23,5 min ailə 120 min nəfərdən çox məcburi köçkün üçün **1,5 milyon kvadratmetr sahəsi olan 61 qəsəbə və məhəllə salınmışdır;** 2010-cu ildə Kür və Araz çaylarında daşqının vurduğu zərərin aradan qaldırılması üçün yaşayış sahəsi **431 min 152 kvadratmetr olan 4 226 ədəd fərdi yaşayış evi** tikilərək təhvil verilmişdir; 2012-ci ildə zəlzələ nəticəsində 5092 ədəd qəzalı evdən Zaqatalada **3388,** Qaxda **430,** Balakəndə **459,** cəmi **4277 fərdi yaşayış evinin** tikintisi başa çatdırılmış və 815 ədəd fərdi yaşayış evinin tikintisi hazırda davam etdirilir.)

Beləliklə, dövlətin ipoteka kreditləşdirilməsinin (tam və ya qismən) tələbin deyil, təklifin stimullaşdırılmasına yönəldilməsi daşınmaz əmlak bazarında qiymətlərin tarazlığını saxlamaqla əhalinin mənzilə olan tələbatının yaxşılaşdırılmasına gətirib çıxara bilər. Dövlət hesabına tikilən mənzillərin ipoteka krediti vasitəsilə əhaliyə verilməsi (eyni zamanda fərdi tikintiyə ipoteka kreditinin ayrılması) daşınmaz əmlak bazarında təklifi artırdığı üçün qiymətlərin artmasına deyil, əksinə azalmasına təsir göstərəcək.

Azərbaycanda mövcud olan ipoteka kreditləşməsi bir tərəfdən əhalinin mənzillə təminatının yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, digər tərəfdən mənzil bazarında tələbin yüksəlməsinə şərait yaratmaqla qiymətlərin bahalaşmasına və müəyyən mənada "ipoteka qabarcıqlarının" yaranmasına səbəb olur. Mənzil bazarında qiymətlərin bahalaşması isə sosial ipoteka proqramının fəlsəfəsinə ziddir, çünki bu zaman orta gəlirli və aztəminatlı təbəqələrin mənzilə əlçatarlığı daha da məhdudlaşır. İpoteka kreditlərinin tələbi deyil, təklifi stimullaşdırması tikinti şirkətlərinin onsuz da yüksək olan mənfəət normasının daha da artmasına deyil, əhalinin mənzilə əlçatarlığının yüksəldilməsinə xidmət edə bilər. Buna baxmayaraq, hazır mənzillərin alınmasına verilən sosial ipotekaların qalması da məqbuldur.

Azərbaycanda ipoteka kreditləşməsinin coğrafi paylanması dövrün tələbinə, xüsusilə kənd və şəhər arasında miqrasiya prosesinə uyğunlaşdırılmalıdır. Dünya təcrübəsini və Azərbaycanda mövcud şəraiti nəzərə almaqla ipoteka kreditləşməsi ilə əhalinin mənzillə təmin etmək üçün qısamüddətli dönəm üçün 4 ssenari təklif oluna bilər:

I. Türkiyə təcrübəsində **TOKİ modelinə** əsaslanaraq dövlət öz vəsaiti ilə tikdiyi mənzilləri sosial ipoteka krediti ilə əhaliyə verir;
II. Alman modelinə əsaslnaraq **tikinti-əmanət bankı** mexanizmi inkişaf etdirilir;
III. **Mənzil serifikatı** emissiyası ilə ipoteka kreditləri təqdim olunur;
IV. Azərbaycan İpoteka Fondu daha çox regionlardakı gənclərin mənzillə təminat səviyyəsini yaxşılaşdırmaq üçün mövcud təcrübə əsasında və daha güzəştli şərtlərlə ipoteka kreditlərinin verilməsi davam etdirilir.

Uzunmüddətli dönəmdə ipoteka kreditləşdirilməsinin bütün mümkün və uyğun alətlərinin Azərbaycanda inkişaf etdirilməsi nəticə etibarı ilə bazarın inkişafına və rəqabət mexanizminin təkmilləşməsinə xidmət etməklə yanaşı, həm də əhalinin mənzillə təminatına daha münbit şərait yaratmış olar.

**Fərdi mənzil tikintisinə verilən kredit.** Türkiyə təcrübəsinə əsaslanaraq koopertaiv kreditlərinin verilməsi mümkündür. Azərbaycanda mənzilə ehtiyacı olan gənc ailə fərdi ev tikintisi üçün əvvəlcə smetanın 10 faizini özü ödəməklə 15-25 il müddətinə kooperativ krediti ala bilər. Bu zaman mənzilin sahəsi (uyğun olaraq kredit məbləği) böyüdükcə verilən kooperativ kreditinin qaytarılma müddəti də kiçik olmalıdır ki, aylıq kredit ödənişləri gənc ailənin büdcəsinə lazım olandan artıq təzyiq göstərməsin. (Məsələn, Türkiyədə kreditlərin geri ödənmə vaxtı 100 kvadratmetrə qədər olan mənzillərdə 10 il, 100 kvadratmetrdən böyük mənzillər üçün isə 5 ildir)

Azərbaycanda kooperativ kreditin məbləği 50 min manatı aşmamaqla bölgələr üzrə hər kvadratmetr mənzil sahəsinin maya dəyəri üzrə

müəyyənləşmiş tariflərin əsasında təyin olunmalıdır.

Türkiyə təcrübəsində kreditin faizi ölkədə orta əmək haqqı artımı və ya inflyasiyanın tempi əsasında müəyyənləşdiyi halda, Azərbaycanda ilkin dövrdə fiksə edilmiş tarifə uyğun olması məqsədəmüvafiqdir. Bu halda kooperativ kreditinin Bakıda illik 3 faizlə, respublika tabeli şəhərlər və rayon mərkəzlərində 2 faizlə, kəndlərdə isə 1 faizlə verilməsi təklif olunur.

Kooperativ krediti fərdi mənzilin tikintisinə uyğun olaraq hissələrlə (tranşlarla) verilməlidir ki, kreditlərin səmərəli istifadəsi təmin olunsun. Kreditlərin geri ödənməsi tam məbləğ ailəyə verildikdən 3 ay sonra başlanılmalıdır. Fərdi ev tikintisinin inşaat müddəti mövsümi və digər amillər nəzərə alınmaqla normativ qaydada müəyyənləşdirilməlidir.

Koopertiv kreditinin geri qaytarılması zamanı vaxtından əvvəl ödəniş edilərsə borcun silinməsi formasında müəyyən güzəştlər nəzərdə tutulmalıdır. Fərdi mənzil tikintisinə kredit verilməsini nəzərdə tutan "Evin tikilsin!" adlı xüsusi bir proqram hazırlamaq və həyata keçirmək lazımdır.

**Dövlət mənzillərinə verilən kredit.** Azərbaycan dövləti sonradan ipoteka krediti ilə gənc ailələlərə verilmək üçün mənzil tikintisini həyata keçirir. Bu zaman Azərbaycan İpoteka Fondunun verə biləcəyi kredit imkanları nəzərə alınmaqla mənzillərin sayı rayon və şəhərlərin əhalisinin sayına uyğun olaraq proporsional bölünür. İqtisadi cəhətdən daha uyğun olardı ki, İpoteka Fondunun 50 milyon manat məbləğində kredit həcmi dövlət tərəfindən inşa edilən rayon və şəhər inzibati bölgüsü üzrə 1500 mənzilli iki və daha çox çoxmərtəbəli binalarda ev alınması üçün gənc ailələrə verilsin. Belə mənzillərə tələbin təklifdən dəfələrlə üstün olmasını nəzərə alaraq mənzil almaq meyarlarına cavab verən şəxslərin adları ipoteka kreditinin verilməsində ardıcıllığı təmin edən siyahılarda müraciət tarixi və ya püşkatma əsasında yerləşdirilməlidir.

Mənzillərin ölçüləri böyük olduqca mənzili ipoteka krediti ilə alan şəxsin ilkin ödənişi daha az, ödəmə müddəti isə daha uzun olmalıdır.

Ümumilikdə, kreditin dərəcəsi 1-2 faiz, qaytarılma müddəti 15-25 il və ilkin ödəniş 5-10 faiz olmalıdır.

Azərbaycan dövləti sonradan əhaliyə ipoteka krediti ilə təqdim olunmaq üçün xüsusilə kənd yerlərində bir və ya bir neçə ev təsərrüfatı üçün nəzərdə tutulan mənzil tikintisini həyata keçirə bilər. Xüsusilə, təyinatla kəndə göndərilmiş gənc müəllimlər və digər mütəxəssislər bu tip ipoteka kreditlərindən yararlana bilərlər. Kənd yerlərində ipoteka kreditlərini yalnız ipoteka götürən şəxsin vergi ödədiyi ərazidə mənzil sahibi olmaq üçün təqdim etməklə dövlət bonusunun tətbiqi mümkündür. Əgər fərd ipoteka aldığı zaman vergi ödədiyi ərazidə 15 il davamlı olaraq qeydiyyatda qalarsa, onda ipoteka məbləğinin 1/15-i bonus şəklində onun borcundan silinir. Belə yanaşma gənc mütəxəssislərin uzun müddət kənddə yaşaması üçün stimullaşdırıcı bir tədbir ola bilər.

Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında  Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 2005-ci il tarixli fərmanında "Yaşayış-tikinti əmanətləri haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanması tapşırılmışdı. Qanun layihəsi Mərkəzi Bank tərəfindən hazırlanmışdır. Bu qanunun qəbulundan sonra ipotekanın yeni bir modeli əsasında əhalinin yığımları və dövlətin müəyyən güzəştləri əsasında mənzil alınması üçün kredit veriləcəkdir.

Almaniya və Fransa təcrübəsində tikinti-əmanət mexanizmi əsas götürülməklə əhalinin bank hesabında əvvəlcə müəyyən məbləğ yığılandan sonra ipoteka krediti verilə bilər. Almaniyada bu məbləğ mənzilin dəyərinin 40-50 faizi həddinə çatanda, Fransada isə 100 min avro olduqda ipoteka krediti verilir. Azərbaycanda əhalinin alıcılıq qabiliyyətini və mənzil qiymətlərini nəzərə alaraq əmanətin 5 000 manat (təxminən bir illik orta əmək haqqı məbləğində) və ya mənzilin dəyərinin 10 faizi həddində olması kifayət etməlidir ki, ipoteka krediti verilsin. Bu yolla əhalinin nəqd saxladığı vəsaitləri kommersiya banklarının dövriyyəsinə cəlb etməklə, həm də onların likvidliyinə əlavə

stimul verilə, əhali isə girov qoymadan ipoteka krediti ala bilər. Bu zaman kreditin faiz dərəcəsi Bakıda 4 faiz, regionlarda isə 2 fazidən artıq olmamalıdır.

İpoteka krediti üçün tələb olunan sərt girov şərtlərinin yumşaldlması üçün "mənzil sertifikatı" emissiya edilə bilər. Mənzil sertifikatı tikinti şirkətləri tərəfindən buraxılan qiymətli kağızlardır. Sertifikat öz sahiblərinə tikilən binaların onların mülkiyyətinə verilməsi hüququnu təsbit edir. Əgər mənzil sertifikatları buraxılsa, bu yolla ipoteka kreditləşməsində girov mexanizmi sadələşəcək.

Azərbaycanda ipotekanın yuxarıda təklif olunan 3 modelindən əlavə, indiyədək işləyən ənənəvi mexanizmin də təkmilləşdirilərək fəaliyyətini davam etdirməsi məqsədəuyğundur. Hazırda Azərbaycan İpoteka Fondunun ipoteka kreditləri mexanizminin əhalinin mənzilə olan əlçatarlığını yaxşılaşdırması üçün aşağıdakı islahatların aparılmasına ehtiyac var:

- *Adi ipotekanın faiz dərəcəsinin Bakıda 4 faiz, regionlarda 3 faiz, sosial ipotekanın isə Bakıda 2 faiz, regionlarda isə 1 faiz dərəcəsinə endirilməsi məqbuldur;*
- *Adi və sosial ipoteka üçün ilkin ödənişin 10 faizə qədər azaldılması xüsusilə gənclərin ipotekaya əlçatarlığını artıra bilər;*
- *Regionlarda ipoteka verərkən girov şərtlərinin daha da yumşaldılması və regionda yerləşən daşınmaz əmlakın (ev, torpaq sahəsi və s.) girov kimi qəbul edilməsi vacibdir;*
- *Azərbaycanda ipoteka kreditlərinin verilməsinə sərf olunan zaman müddəti (müvafiq sənədlərin hazırlanması da daxil edilməklə) nominal olaraq 35-40 gün çəkir. Məsələn, Norveç təcrübəsində ipoteka kreditinin rəsmiləşdirilməsi üçün 1 gün tələb edilir. Azərbaycanda ilkin dövrdə bu müddətin 1 həftəyə qədər aşağı salınması məqsədəuyğundur;*
- *Norveç və İsrail təcrübəsini əsas götürərək iki (və daha çox) mənzilli evlərin alınmasına ipoteka kreditinin verilməsi bəzi ümumi xərcləri aşağı salmaqla əhali üçün daha əlverişli olar.*

- *İpoteka kreditinin alınması, ipotekanın rəsmiləşdirilməsi zamanı və sonra tələb olunan, habelə borcalan fərdi sahibkar və ya güzəştli kateqoriyaya aid olduqda əlavə təqdim olunmalı sənədlərin sayı üst-üstə 18-ə çatır. Hansı ki, bu sənədlərin sayının azalması ipoteka prosedurlarının sadələşməsi və insan amilinin minimuma enməsinə gətirib çıxara bilər. Almaniya təcrübəsindən istifadə edərək ipoteka kreditlərinin verilməsi üçün sənədlərin sayını 18-dən 3-ə (şəxsiyyət vəsiqəsi, bankın tələb etdiyi məlumatların cəmləndiyi sənəd forması və mülkiyyət hüququnun keçməsini göstərən müqavilə) endirmək mümkündür.*
- *İpoteka kreditlərinin alınması üçün elektron qaydada müraciət imkanı təmin edilməlidir;*
- *İpoteka kreditlərinin rəsmiləşdirilməsi üçün rüsumlar, sığorta və ipoteka predmetinin qiymətləndirilməsi xərcləri, habelə ipoteka kreditləri üçün tələb olunan sənədləri toplamaq üçün vəsait cəmi 600 manata çatır. Bu isə ipoteka krediti götürmək istəyən aztəminatlı insanlar üçün çətinlik yarada bilər. Sənədlərin sayı azaldılarsa tələb olunan vəsaitin həcmi də kiçilər.*

Azərbaycanda ipoteka kredit mexanizminin təkmilləşdirilməsi üçün aşağıdakı konseptual istiqamətlər əsas götürülməlidir:

- *İpoteka kreditləri mənzil bazarında birbaşa olaraq təkcə tələbin deyil, həm də təklifin artmasına yönəldilməlidir;*
- *İpoteka kreditlərinin verilməsində dövlətin rolu artırılmalıdır;*
- *Dövlətin və kommersiya banklarının verdiyi ipoteka kreditlərinin şərtləri (faiz, ilkin ödəniş və girov) yumşaldılmalıdır;*
- *İpotekanın maliyyə dəyəri və sərf olunan zaman resursu azaldılmalı, tələb olunan sənədlərin sayı minimuma endirilməlidir;*
- *İpoteka kreditləşdirilməsi tarazlı regional inkişafa xidmət etməlidir (ipoteka krediti aldıqdan sonra müəyyən müddət regionda yaşayıb işləyən gənclərə bonuslar təmin edilərsə gənclərin regionlardan miqrasiyasının qarşısı alına bilər);*
- *İpoteka kreditləşməsi gənclərin prioritet ixtisaslara yiyələnməsini sti-*

*mullaşdırmaqla, həm də əmək bazarının tənzimlənməsində bir alət olaraq istifadə edilməlidir;*

- *Gənc müəllim, gənc dövlət qulluqçusu, gənc həkim, gənc sahibkar, gənc intellektual, gənc idmançı və gənc alim kimi sosial qruplar üçün müvafiq xüsusiyyətlər nəzərə alınmaqla güzəştli ipoteka krediti verilməsini nəzərdə tutan xüsusi proqramlar hazırlanmalıdır;*
- *İpotekanın inkişafı üçün qiymətli kağızlar bazarı inkişaf etdirilməli, xüsusilə, beynəlxalq bazarlardan vəsaitin cəlb edilməsi və beynəlxalq əməkdaşlıq gücləndirilməlidir.*

"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında deyilir ki, indidən ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir. Şəhər mühiti insan kapitalının inkişafı və bilik iqtisadiyyatının qurulması üçün yaxşı zəmin hazırlayır.

Beləliklə, Azərbaycan dövləti urbanizasiya və aqrar sahənin modernləşdirilməsi siyasətini sinxronlaşdıraraq qısa, orta və uzunmüddətli dönəmdə sistemli olaraq nəticəyə hesablanmış bir siyasət olaraq həyata keçirir. Aqrar sahənin modernləşdirilməsi və urbanizasiya Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması, habelə onun dünyagörüşünün və həyat tərzinin qlobal çağırışlarla uzlaşdırılması məqsədlərinə xidmət edir.

# FƏSİL V

## Aqrar sahədə modernləşdirmə dünya investisiya trendləri perspektivində

### 5.1.Aqrar sahənin modernləşdirilməsi sahəsində dövlət siyasəti

Azərbaycan Respublikasında aqrar sahədə keçirilən islahatların nəticəsi olaraq bu sektorda əsaslı dəyişikliklər baş vermiş, mühüm proqramlar qəbul edilmişdir. Bununla yanaşı, aparılmış islahatların davamı kimi aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin yenidən təşkili istiqamətində müvafiq tədqiqat institutlarının, eləcə də digər aidiyyəti qurumların fəaliyyətinin səmərəliliyi və effektivliyinin artırılması zərurəti ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti tərəfindən 3 may 2011-ci il tarixdə ***"Azərbaycanda aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin inkişaf etdirilməsi ilə bağlı Xüsusi Komissiyanın yaradılması barədə"*** Sərəncam imzalanmışdır. Sərəncamda qoyulan məsələlərin icrası aqrar sahədə aparılan islahatların davamlılığının təmin edilməsini, bu əsada, kənd təsərrüfatı sektoruna investisiya qoyuluşu imkanlarının dəyərləndirilməsini şərtləndirir.

Şəkil 5. 1.

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığa qoyulan daxili və xarici investisiyaların illər üzrə həcmi, milyon manatla




**Mənbə:** www.azstat.org

Yuxarıdakı şəkildən göründüyü kimi son 12 ildə aqrar sektora yatırılan investisiyaların həcmi qeyri-proporsional bölüşdürülmüşdür. Bu halda, əsas artım daxili investisiyaların üzərinə düşmüşdür. 2010-cu ildə bu göstərici 431 milyon manat təşkil etdmişdir ki, bu məbləğin də 1,5 milyon manatı balıqçılığın payına düşür. Daxili investisiyalar üzrə əhəmiyyətli artım 2007-2010-cu illərə, xarici investisiyalar üzrə əsas artım 2007-ci ilə təsadüf edir. Daxili investisiyaların əsas maliyyə mənbəyi (80%-ə yaxın hissəsi) şübhəsiz ki, dövlət büdcəsinin vəsaitləridir. Daxili investisiyaların qalan 20%-ə yaxın hissəsi özəl sektorun payına düşür. İnvestisiyaların kiçik, orta və iri müəssisələr tərəfindən qoyulma nisbəti orta və iri müəssisələrin (431 milyon manat vəsaitin 2010-cu ildə 428,5 milyon manatı) xeyrinə dəyişir.

Şəkil 5.2.

Dövlət büdcəsindən kənd təsərrüfatına birbaşa ayrılan vəsaitlər, milyon manatla




**Mənbə: Dövlət büdcəsinin icrası haqqında Qanunlar əsasında tərtib edilmişdir.**

Dövlət büdcəsi vasitəsilə kənd təsərrüfatına ayrılan vəsaitlərin həcminin son illərdə artması ümumən ölkə səviyyəsində aqrar sektorun hökumət tərəfindən prioritet seçilməsi ilə bağlıdır. Bu halda, büdcə vasitəsilə maliyyələşmə dedikdə 3 formada funksional təsnifat üzrə "kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq" bölməsi üzrə kənd təsərrüfatına ayrılan xərclər, həmçinin, "sənaye, tikinti və faydalı qazıntılar" bölməsində yer alan əsaslı vəsait qoyuluşu paraqrafı üzrə aqrar sektora yönəldilən maliyyələşmə və "iqtisadi fəaliyyət" bölməsi üzrə Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə ayrılan kreditlər nəzərdə tutulur.

Şəkil 5.3. 3

Aqrar sektorun dövlət büdcəsi vasitəsilə maliyyələşmə mexanizmləri



**Kənd təsərrüfatına ayrılan xərclər** əsasən aşağıdakı istiqamətləri əhatə etmişdir:

- *kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın və motor yağının dəyərinin orta hesabla 50 faizinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsi;*
- *kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri mineral gübrənin dəyərinin orta hesabla 50 faizinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsi;*
- *kənd təsərrüfatı əmlakının sığortalanması üçün sığortahaqqının dövlət büdcəsi hesabına ödənilən hissəsi;*
- *"Aqrolizinq" ASC-nin maliyyələşdirilməsi.*

Dövlət İnvestisiya Proqramında 2012-ci ildə kənd təsərrüfatı sektoruna cəmi 32.1 mln.manat investisiya qoyulması nəzərdə tutulmuşdur ki, bu vəsaitlərin 12,2 milyon manatı büdcə, digər 19,9 milyon manatı isə xarici kreditlər hesabına maliyyələşdirilən layihələr hesabına təmin edilmişdir.

**Aqrar sektora** əsaslı vəsait qoyuluşu ilə bağlı əsas tövhələr 4 kompleks proqram çərçivəsində həyata keçirilmişdir. Bunlar "Regionların Sosial-İqtisadi İnkişaf Dövlət Proqramı (2004-2008-ci illər)", "Regionların Sosial-İqtisadi İnkişaf Dövlət Proqramı (2009-2013-cü illər)", "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)" və "Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf Dövlət Proqramı (2008-2015-ci illər)"dır.

"Regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramı (2009-2013-cü illər)" çərçivəsində kənd təsərrüfatı məhsullarının tədarükü üzrə infrastrukturun yaradılması, marketinq xidmətlərinin dəstəklənməsi, cins heyvandarlıq komplekslərinin inkişafı, "aqroferma"ların yaradılması, aqroemal müəssisələri şəbəkəsinin genişləndirilməsi və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətlərinin artırılması

məqsədilə mütərəqqi texnologiyaların tətbiqi sahəsində fəaliyyətlər həyata keçirilmişdir.

Sovet dövrü ilə müqayisədə ölkədə kənd təsərrüfatında özəl sektorun payının əhəmiyyətli şəkildə artması bu sahədə biznes imkanlarının genişlənməsi ilə nəticələndi. Lakin son nəticədə aqrar sektorun zəruri maddi-texniki baza ilə təmin edilməsi problemi yarandı. Məhz bu əsasda aqrar servis xidmətinin təkmilləşdirilməsi məqsədilə "Aqrolizinq" ASC təsis olundu. "Aqrolizinq" ASC-dən texnikanı maksimum 10 il müdətinə istifadəyə götürmək yaxud, dəyərinin 10 faizini əvvəlcədən, qalan hissəsini isə bir ildən sonra 9 il ərzində ödəmək şərtilə satın almaq olar. Azərbaycanda istehsalçıların 95%-i 1,5-2 hektar torpaq sahəsinə malik ailə təsərrüfatları olduğundan, bahalı texnika almaq onların imkanı xaricindədir. Buna görə də Aqrolizinq istixanaların, soyuducu kameraların, qarışıq yem istehsalı və emal xətləri üçün müasir texnoloji avadanlıqların, habelə toxum, gübrə və cins mal-qaranın alınmasını və istifadəyə verilməsini təmin edir.

"Yoxsulluğun Azaldılması və Davamlı İqtisadi İnkişaf Proqramı (2008-2015-ci illər)" çərçivəsində kəndlərdə sosial infrastrukturun inkişafı (yolun bərpası, bir sıra kəndlərdə tibb məntəqəsinin tikintisi, içməli su təminatı, kənd məktəblərində əlavə sinif otaqlarının tikintisi, yolların təmiri, məktəb tikintisi, elektrik sisteminin bərpası və s.) sahəsində modernləşdirilmə tədbirləri həyata keçirilmişdir.

Aqrar sektorda investisiya qoyuluşunun əsas mənbələrindən biri müəssisə və təşkilatların aldığı kreditlərdir. Son 10 ildə kənd təsərrüfatına Sahibkarlığa Kömək Milli Fondu (SKMF) vasitəsilə 350 milyon manat həcmində kredit verilmişdir. Bu kreditlər iki cür qruplaşdırılmışdır: kənd təsərrüfatı məhsullarının emalı (27,3%) və kənd təsərrüfatı məhsullarının istehsalı (72,7%).

Şəkil 5.4.
SKMF vasitəsilə kənd təsərrüfatı sektoruna verilən kreditlər, milyon manatla




**Mənbə:** www.anfes.gov.az

Kənd təsərrüfatı məhsullarının emalı üzrə verilmiş kreditlər əsasında qoyulan investisiya nəticəsində 741 şəxs işlə təmin edilmişdir [161]. Digər istiqamətlər üzrə götürdükdə südlük cins iribuynuzlu heyvandarlıq komplekslərinin tikilməsi üçün ayrılan maliyyələşmə 225, damazlıq yumurta və broyler təsərrüfatları üçün ayrılan maliyyələşmə 1090, taxıl anbarları komplekslərinin yaradılması üçün ayrılan maliyyələşmə 532, soyuducu anbar komplekslərinin tikilməsi üçün ayrılan maliyyələşmə nəticəsində 1240 sayda yeni iş yeri açılmışdır. Ümumiyyətlə, təkcə 2009-2011-ci illərdə aqrar sektorda kənd təsərrüfatı məhsullarının emalı üzrə 2119, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə 11893 nəfərlik yeni iş yerləri yaradılmışdır.

Aqrarkredit Səhmdar Kredit Təşkilatı 2001-2012-ci illərdə 5,7 milyon manat həcmində kənd təsərrüfatı subyektlərinə kredit vermişdir.

2003-2013-cü illərdə ölkəmizin kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən birbaşa dəstək, o cümlədən yanacaq və motor yağlarına, buğda və çəltik səpininə, mineral gübrələrə, toxum və tinglərə görə 585 milyon 170 min manat subsidiya, eləcə də "Aqrolizinq" ASC-yə onun fəaliyyət göstərməsi üçün kənd təsərrüfatı texnikalarının, texnoloji avadanlıqların, mineral gübrələrin, damazlıq heyvanların alınması və cəmiyyətin maddi-texniki bazasının yaxşılaşdırılması üzrə ayrılmış 427 milyon 100 min manat vəsait, güzəştli kreditlər və digər dövlət dəstəyi sayəsində 2012-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 4 milyard 844 milyon 600 min manat təşkil etmişdir.

Azərbaycan Respublikasında dövlət tərəfindən əsas fondların modernləşdirilməsi istiqamətində geniş işlər aparılır. 2003-2012-ci illər ərzində Kənd Təsərrüfatı Nazirliyinin xəttilə 19 obyekt, o cümlədən 8 baytarlıq məntəqəsi, 11 inzibati və laboratoriya binaları, Dövlət Baytarlıq Xidmətinin xəttilə 99 obyekt, o cümlədən, 41 rayon baytarlıq idarələri və dioqnostik kabinetlərinin binaları, 57 sahə baytarlıq məntəqəsi və Dövlət Baytarlıq Xidmətinin inzibati binasının tikintisi, Dövlət Fitosanitar Nəzarəti Xidmətinin xəttilə 10 obyekt, o cümlədən, 2 karantin məntəqəsi, 2 bioloji laboratoriya binası və 6 rayon və rayonlararası karantin məntəqələrinin binaları, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xəttilə 45 obyekt, o cümlədən, 6 loqistik baza, 34 aqroservis filiallarının inzibati bina və bazaları və 5 rayonlararası təchizat bazaları və aqroservis filialları tikilib istifadəyə verilmişdir.

Hazırda Kənd Təsərrüfatı Nazirliyinin xəttilə 9 obyektdə, o cümlədən 6 rayonda laboratoriya binalarının tikintisi, ET Üzümçülük və Şərabçılıq İnstitutunun inzibati binasının tikintisi, 2 dayaq məntəqəsinin tikintisi, Seleksiya Nailiyyətlərinin sınağı və mühafizəsi

üzrə Dövlət Komissiyasının inzibati binasının tikintisi həyata keçirilir.

Tikintisi Dövlət Baytarlıq Xidməti hazırda 4 rayonda 4 baytarlıq idarələrinin və dioqnostika kabinetlərinin və 12 sahə baytarlıq məntəqələrinin tikintisini aparır. Tikintisi Dövlət Fitosanotar Nəzarəti Xidmətinə həvalə edilmiş və davam edən obyektlər bunlardı: 2 rayonda regional referens-toksikologiya və karantin ekspertiza laboratoriyaları. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti isə hazırda 4 rayonda aqroservis filialları obyektlərində tikinti aparır.

Göründüyü kimi aqrar sahənin modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması, habelə sektorda işləyənlərin sosial rifah halının yaxşılaşdırılması üçün investisiya qoyuluşu daha çox dövlət tərəfindən həyata keçirilmişdir. Bu halda, əsas maliyyə mənbəyi kimi dövlət büdcəsinin vəsaitləri, həmçinin Sahibkarlığa Kömək Milli Fondunun kreditləri və dövlət investisiya proqramı çərçivəsində həyata keçirilən maliyyələşmə təşkil edir. Eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri Agentliyi və Aqrarkredit Səhmdar Kredit Təşkilatının da aqrar sektora investisiya qoyuluşunda payı vardır.

Beynəlxalq təcrübəyə uyğun olaraq kənd təsərrüfatında inkişafın davamlılığının təmin edilməsi üçün investisiyaların strukturunda özəl sektorun payının artırılması məqbul sayılır.

Dövlətin apardığı modernizasiya siyasəti istifadə olunmayan əkinə yararlı torpaqların əkin dövriyyəsinə cəlb edilməsinin stimullaşdırılmasını da əhatə etmişdir. Bu məqsədlə, istehsalçılara əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində sərf olunan yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına hər hektara 40 manat, habelə buğda və çəltik səpininə görə hər hektara əlavə olaraq 40 manat yardımın, I və II repdoduksiyalı toxumlara görə subsidiyanın və güzəştli şərtlərlə mineral gübrələrin verilməsi kəndlilərdə əkinçiliyə iqtisadi marağı artırmışdır. 2007-2012-ci illərdə bu məqsədlə cəmi 546,8 milyon manat subsidiya verilmişdir.

Modernizasiya həm də daha məhsuldar toxum, bitki və heyvan sortlarının tətbiqi ehiva edir. 2003-2012-ci illər ərzində Aqrar Elm Mərkəzi sistemində 10,8 min ton yüksək reproduksiyalı taxıl toxumları, o cümlədən 340 ton orijinal, 1684 ton super elit və 8703 ton elit toxum istehsal edilmişdir. Bununla yanaşı 26829 genofond öyrənilmiş, 52 bitki sortu, 2 heyvan cinsi, 9 ipəkqurdu cins və hibridi rayonlaşdırılmış və 82 ədəd patent alınmışdır.

2007-2010-cu illər ərzində Cənubi Qafqazda ilk dəfə Azərbaycanda Süni mayalama mərkəzi yaradılmış və 500 nəfər süni mayalama texniki hazırlanmışdır.

Subsidiyalaşdırmada istehsalçılar xüsusi mülkiyyətində olan pay torpaqlarından səmərəli istifadə etməklə yanaşı, dövlət və bələdiyyənin əkinə yararlı torpaq sahələrini də mövcud qanunvericiliyə uyğun icarəyə götürərək əkin dövriyyəsinə cəlb etmişlər. Bu səbəbdən əkin sahəsinin strukturu əhəmiyyətli dərəcədə dəyişmiş taxıl, yonca, şəkər çuğunduru, üzümün və digər bitkilərin əkin sahələri artmışdır. Əkin sahələrindən istifadə yaxşılaşmış və 2012-ci ildə 1647,0 min hektar olunmuşdur. Stimullaşdırma tədbirləri ilə əlaqədar əkin sahələrinin artması nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı əvvəlki illərlə müqayisədə xeyli artmışdır.

Rəsmi məlumatlara görə, hazırda Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqların təxminən 22-25 faizi bu və ya digər səviyyədə şoranlaşma və erroziyaya uğrayıb. Eroziyaya uğramış şorlaşmış və digər səbəblərdən deqradasiyaya uğramış torpaqların müəyyən edilməsi və xəritələşməsi Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən həyata кeçirilir. Kənd Təsərrüfatı Naziriliyinin məlumatına görə, hazırda istismar olunan 51,7 min kilometr suvarma кanallarının 15,5 min kilometrinin, 118 min müxtəlif hidrotexniкi qurğuların 42 min ədədinin, 7 119 subartezian quyusunun 2 100 ədədinin, 931 nasos stansiyasının 235-nin təmir və bərpa olunmasına və onların iş rejiminin yaxşılaşdırılmasına ehtiyac vardır. Aparılmış inventarlaşma nəticəsində

təsərrüfatdaxili suvarma коllекtor-drenaj şəbəkələrinin 24,9 min kilometrinin istismar üçün tam yararsız olduğu müəyyən edilmişdir.

Hətta 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikasının hökuməti də meliorasiya və irriqasiya məsələlərinə xüsusi diqqət yetirmişdir. 1919-cu ildə fevral ayının 24-də Azərbaycan Demokratik Respublikasının Nazirlər Şurasının iclasında müraciətlə əlaqədər müzakirələrdən sonra  Əkinçilik Nazirliyinin sərəncamına 200 min manatın verilməsi qərara alındı. Ayrılmış vəsait Muğanda və Araz çayının sağ sahili boyunca Petropavlovka, Saatlı və Mürsəlli yaşayış məntəqələrində və digər ərazilərdə suvarma şəbəkəsi və bəndlərinin təmiri üçün nəzərdə tutulmuşdu. Bundan sonra mart ayının 4-də nazir əvəzi M. Aslanov və su müfəttişi V.Sokolov maliyyə nazirinə müraciət edərək kreditlərin ayrılması işinin tez həll edilməsini xahiş edirlər. Kreditləşmənin təşkili ilə bağlı müraciətlər martın 27-də Ticarət və Sənayə Nazirliyinə də edilmişdi. Mütəxəssislər hesab edirdilər ki , suvarma şəbəkəsinin təmiri işləri ilə əlaqədər hər gün 600-700 işçinin çalışmasına ehtiyac vardır və əmək mükəlləfiyyətləri ilə bu işləri yerinə yetirmək mümkün deyil. Yerli inzibati orqanların köməkliyi ilə yaxın yaşayış məskənlərindən əmək haqlarının  ödənilməsi ilə işçilərin cəlb edilməsi olduqca vacibdir. Mənbələrin verdiyi məlumatlarda göstərilirdi ki suvarma şəbəkəsinin bərpası ilə əlaqədər 1918-ci ilin noyabrında 90 nəfər, dekabrında 152 nəfər , 1919-cu ilin yanvarında 170 nəfər, fevral-aprel aylarında isə 121-131 nəfər işçi çalışırdı [33, s.67].

Hazırda Azərbaycan hökuməti hidromeliorasiya, aqromeşəmeliorasiya, mədəni-texniki meliorasiya və kimyəvi meliorasiya üzrə tədbirlər həyata keçirir. 2003-2012-ci illərdə meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 7,3  dəfə, bütün maliyyə mənbələri hesabına sahəyə əsaslı kapital qoyuluşu 48 dəfəyə yaxın  artmışdır. Bunun nəticəsində mövcud meliorasiya və irriqasiya obyektləri modernləşdirilmiş, sistem üzrə işçilərin əmək haqqı  9,3 dəfə artmış, sahənin maddi-texniki bazası gücləndirilmiş, 2000-dən artıq maşın

və mexanizmlər, o cümlədən 1036 ədəd torpaqqazan texnika alınmış, onların məhsuldarlığı 2001-ci il ilə müqayisədə 2013-cü ildə 2 dəfəyə yaxın artmışdır. 2003-2012-ci illərdə 1481,2 kilometr suvarma kanalları, 1036 kilometr kollektor-drenaj şəbəkələri istifadəyə verilmiş, 279,1 min hektar suvarılan torpaqların su təminatı və meliorativ vəziyyəti yaxşılaşdırılmış, 21 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 722 ədəd subartezian quyusu qazılmışdır.

Başlanğıcını Azərbaycan və Rusiya arasında sərhəd çayı olan Samur çayından götürən və uzunluğu 182 kilometr olan Samur-Abşeron kanalı vasitəsi ilə hazırda respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsini suvarma suyu və Bakı, Sumqayıt şəhərlərini, habelə Abşeron yarımadasını içməli, suvarma və texniki su ilə təmin edir. Bu məqsədlər üçün Samur-Abşeron kanalı vasitəsilə ildə 703-865 milyon kubmetr su verilir ki, onun 270-350 milyon kubmetri suvarma, 278-340 milyon kubmetri içməli və digər məqsədlər üçün istifadə olunur.

Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının birinci mərhəlsində Samur çayı üzərində baş hidroqovşağın təmir-bərpası, kanalın Vəlvələçay çayına qədər olan ilk 50 kilometrlik hissəsinin, 60 min hektar sahədə təsərrüfatlararası kanalların və Xanarx kanalının yenidənqurulması, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının (SES-lə birlikdə) tikintisi nəzərdə tutulmuşdur.

Sonrakı mərhələlərdə kanal boyu çaylar üzərində suqəbuledici qurğuların və qidalandırıcı boru kəmərlərinin tikintisi, 150 min hektar sahədə suvarma sistemlərinin yenidənqurulması, 30,9 min hektrar sahədə yeni suvarılan torpaqların istismara verilməsi və digər işlər planlaşdırılır.

Dünya Bankının krediti ilə Samur-Abşeron kanalının ilk 50 kilometrlik hissəsinin və Samur çayı üzərində yerləşən Baş Suqəbulediji qurğunun bərpası, eləcə də bu hissədə yerləşən təsərrüfatlararası

kanalların yenidənqurulması işləri 2007-ci ilin birinci yarısında başa çatdırılmışdır.

İslam İnkişaf Bankının krediti ilə Samur-Abşeron suvarma sisteminin yenidənqurulması layihəsi tərkibində uzunluğu 67,2 kilometr olan Xanarx kanalının tikintisi 2006-cı ildə başa çatdırılmışdır. Kompleksin tərkibinə Vəlvələçay-Taxtakörpü kanalının, Taxtakörpü su anbarının SES-lə birlikdə və Taxtakörpü – Ceyranbatan kanalının tikintisi işləri daxildir. Ümumi uzunluğu 34,24 kilometr, suburaxma qabiliyyəti saniyədə 75 kubmetr, dibdən eni 4,0 metr və dərinliyi 4,3 metr olan kanalın tikilməsində məqsəd suyun Samur-Abşeron kanalının 50-ci kilometrindən Taxtakörpü su anbarına verilməsidir. Obyektin müqavilə dəyəri 128,83 milyon manat təşkil edir və ondan 2013-cü ilin 1 avqust tarixinə 124,16 milyon manat istifadə olunmuşdur. Bu məqsədlə 27 544 metr açıq beton üzlüklü kanal və onun üzərində 1 ədəd baş qurğu, uzunluğu 2 547 metr olan 3 ədəd polad və uzunluğu 577 metr olan 2 ədəd dəmir-beton dükerlər, uzunluğu 3 572 metr olan 2 ədəd tunel, 14 ədəd körpü, 28 ədəd selötürücü və 1 ədəd son sutullayıcı qurğuları tikilmişdir. Kanalın İslam İnkişaf Bankının vəsaiti hesabına maliyyələşdirilmiş 10,7 kilometr uzunluğunda birinci hissəsinin tikintisi başa çatdırılmış və 2011-ci ildə istismara verilmişdir. Kanalın Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ilin birinci yarısında 23,54 kilometr uzunluğunda ikinci hissəsinin və onun sutullayıcı qurğusunun tikintisi başa çatdırılmışdır. Bununla da uzunluğu 34 kilometr olan Vəlvələçay-Taxtakörpü kanalı vasitəsilə suyun Samur-Abşeron kanalının 50-ci kilometrindən götürülərək öz axını ilə Taxtakörpü su anbarında toplanılması mümkün olmuşdur. Vəlvələçay-Taxtakörpü kanalının tikintisinin başa çatdırılması ilə ümumi 19 034 hektar olmaqla 10 168 hektar sahədə (ondan 9250 hektar Şabran rayonunda, 918 hektar Quba rayonunda) mövcud suvarılan torpaqların suvarma suyu ilə təminatı yaxşılaşdırılacaq, Şabran rayonunda 8 866 hektar yeni suvarılan sahələrin istifadəyə verilməsi hesabına suvarılan torpaq sahələrinin artırılması imkanı yaranacaqdır.

Taxtakörpü su anbarının gil nüvəli torpaq bəndinin hündürlüyü 142,5 metr, qaşının uzunluğu 1 180 metr, qaşının eni 10,0 metr, gölün sahəsi 8,7 kvadrat kilometr, ümumi sututumu 268,4 milyon kubmetr, faydalı həcmi 238,4 milyon kubmetr, ölü həcmi 30 milyon kubmetrdir. Bənddə qapısız sutullayıcı və suqəbulediji qurğuları, enerci tuneli, SES binasının tikintisi və ümumi gücü 25 MVt olan 3 ədəd turbinin quraşdırılması nəzərdə tutulmuşdur. Obyektin müqavilə dəyəri 543,49 milyon manat təşkil edir və ondan 2013-cü ilin 1 avqust tarixinə 495,79 milyon manat istifadə olunmuşdur. Hazırda su anbarı bəndinin gövdəsində tələb olunan 23,48 milyon kubmetr torpaq işlərindən 23,26 milyon kubmetri yerinə yetirilmiş və onun üzərindəki qurğularda, SES-də son tamamlama işləri həyata keçirilir. Su anbarının SES-lə birlikdə tikintisi 2013-cü ilin sentyabrında başa çatdırılmışdır.

Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi kompleksinin ümumi dəyəri 1071,0 milyon manat təşkil edir və 2013-cü ilin 1 avqust tarixinə onun 1002,4 milyon manatı istifadə edilmişdir. Nəzərdə tutulmuş işlərin təyin olunmuş vaxtda başa çatdırılması üçün 2013-cü ildə Dövlət Neft Fondundan ayrılmış 107 milyon manat vəsaitdən başqa 50 milyon manat vəsaitin ayrılması tələb olunur.

Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi ilə Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının suya olan tələbatını yaxşılaşdırmaqla saniyədə 18 kubmetr suyun verilməsinə, eləcə də respublikanın şimal zonasında ekoloji tarazlığın təmin olunmasına imkan yaranacaqdır. Eyni zamanda suyun öz axımı ilə Ceyranbatan su anbarına verilməsi nəticəsində yalnız Sitalçay və Ceyranbatan nasos stansiyalarını ləğv etməklə ildə 167 milyon kvt/saat elektrik enerjisinə və 13-15 milyon ABŞ dolları məbləğində vəsaitə qənaət edilməsi mümkün olacaqdır. Eyni zamanda layihənin başa çatdırılması ilə cəmi 181 152 hektar olmaqla 150 256 hektar sahədə su təminatının yaxşılaşdırılması və gələcəkdə şimal çaylarından suyun götürülməsi layihəsinin həyata keçirilməsi ilə 30 896 hektar yeni suva-

rılan sahələrin əkin dövriyyəsinə daxil edilməsi nəzərdə tutulur.

Modernizasiya tədbirləri meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərini əhatə etmişdir.

Suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində aparılan lildən təmizləmə işlərinin həcmi 2,2 dəfə artmış, 2003-cü ildə suvarma kanalları və kollektor-drenaj şəbəkələrinin 10 477 kilometr hissəsi lildən təmizləndiyi halda, 2012-ci ildə bu iş 23 211 kilometr hissədə həyata keçirilmişdir. Çay məcralarında mexanizmlər vasitəsi ilə məcratəmizləmə və tənzimlmə işlərinin həcmi 2003-cü ilə nisbətən (7054 min kubmetr) 2012-ci ildə (16 711 min kubmetr) 2,4 dəfə, dağ çaylarında mövcud olan daş-beton bəndlərdə aparılan təmir işlərinin həcmi 1,2 dəfə artmışdır.

Son illərdə mühüm dövlət əhəmiyyətli su təsərrüfatı obyektlərində, Yuxarı Xanbulançay su anbarının qülləli suburaxıcı qurğusunda, Ağstafaçay sağ və sol sahil magistral kanallarında, Mil-Muğan və Samurçay hidroqovşaqlarının aşağı byefində, Türyançay hidroqovşağında, Yuxarı Qarabağ kanalının İncəçay çayı ilə kəsişməsindəki sutullayıcı qurğusunda, Yuxarı Şirvan kanalının Türyançay və Girdimançay dükerlərində, Şəmkir Maşın kanalının I və II pillə nasos stansiyalarında, Göygöl rayonunda Gəncəçay baş suqəbuledici qurğusunda, 130 ədəd subartezian quyusunda, Zərdab, Kürdəmir, Ağsu, İmişli, İsmayıllı, Yevlax, Şamaxı və Xızı rayonlarının ərazisindəki nov kanallarda, ayrı-ayrı rayonların qış otlaq sahələrində yerləşən boru kəmərlərində, dağ çaylarında mövcud olan kilometrlərlə daş-beton mühafizə bəndlərində, suvarma kanallarında və bir sıra digər obyektlərdə əsaslı təmir, bərpa və yenidənqurma işləri həyata keçirilmişdir.

2010-2013-cü illərdə uzun müddət istismarda olmuş, fiziki və mənəvi cəhətdən köhnəlmiş 112 ədəd tərpənməz və 65 ədəd üzən

nasos stansiyaları müasir tələblərə uyğun olaraq tamamilə yenidən qurularaq işlək vəziyyətə gətirilmişdir. Kür və Araz çayları boyunca 876 kilometr uzunluğunda mövcud torpaq mühafizə bəndlərində əsaslı surətdə hündürləndirmə, genişləndirmə və möhkəmləndirmə işləri görülmüş, çayların daha təhlükəli yerlərində 5,8 kilometr uzunluğunda daş-betonla sahilbərkitmə işləri aparılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 2006-cı il tarixli 83 nömrəli qərarına əsasən ayrı-ayrı su istifadəçiləri tərəfindən istifadə olunan nasos stansiyalarının və subartezian quyularının istismarında, xüsusi ilə enerji xərclərinin ödənilməsində yaranmış çətinliklər nəzərə alınaraq onların normal işinin təmin olunması, regionların sosial-iqtisadi inkişafı və yoxsulluğun azaldılması dövlət proqramlarında müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi məqsədilə ötən müddətdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansına 84,9 min hektar əkin sahəsinin suvarılmasına xidmət edən 68,1 $m^3$/san məhsuldarlığa, 46,9 meqavat gücə malik 185 nasos stansiyası və 949 subartezian quyusu qəbul edilmiş, bu obyektlərdə müvafiq təmir-bərpa işləri aparılaraq işlək vəziyyətə gətirilmişdir.

"Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2004-cü il tarixli Fərmanı ilə Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi ləğv edilərək Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 23 fevral 2006-jı il tarixli 372 nömrəli Fərmanı ilə Agentliyin bazasında Azərbayjan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ("Azmelsutəsərrüfat" ASC) yaradılmışdır. "Azmelsutəsərrüfat" ASC meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətləri göstərən və səhmləri dövlətə məxsus səhmdar cəmiyyətidir.

2004-cü ildə əlavələr və düzəlişlər edilmiş "Meliorasiya və İrriqa-

siya haqqında" Azərbayjan Respublikasının Qanununun tələblərinə uyğun olaraq Sudan İstifadəedənlər Birlikləri şəbəkə prinsipi əsasında yenidən yaradılmış və qeydiyyatdan keçmişdir.

2003-2012-ci illərdə ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb edən bir sıra meliorasiya və su təsərrufatı obyektlərinin tikintisi işləri başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir.

Bütün maliyyə mənbələrindən ayrılan vəsait hesabına 2003-2012-ci illərdə respublikanın sel və daşqın təhlükəli çaylarında 166 732 paqon metr sahilbərkitmə tədbirləri həyata keçirilmişdir ki, bu da əvvəlki 30 il ilə müqayisədə dəfələrlə çoxdur.

Yalnız Asiya İnkişaf Bankının krediti ilə həyata keçirilən "Selə qarşı tədbirlər" layihəsi çərçivəsində 2006-2008-ci illərdə respublikanın 11 rayonunda sel və daşqın təhlükəli çaylarında və Naxçıvan MR-in Şərur rayonunda Araz çayında 34089 paqon metr uzunluğunda sahilbərkitmə işləri yerinə yetirilmişdir. Bu tədbirlərin yerinə yetirilməsi nəticəsində respublikada 80 min hektar ərazinin, 215 min nəfər əhalinin məskunlaşdığı 5 şəhər və 43 kəndin sel və daşqın təhlükəsindən müdafiəsi təmin edilmişdir.

Dünya Bankının krediti ilə 140 min hektar suvarılan sahələrə xidmət edən Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağının, respublikanın 9 rayonunun və Naxçıvan MR-in (Babək və Şərur rayonları) 52 min hektara yaxın ərazisində suvarma-drenaj şəbəkələrinin təmir-bərpası işləri 2010-cu ildə başa çatdırılmış, 2011-ci ildən isə respublikanın daha 15 rayonunda 85 min hektar ərazidə Sudan İstifadəedənlər Birliklərinin inkişafına dəstək məqsədi ilə təsərrüfatdaxili suvarma-drenaj şəbəkələrinin təmir-bərpasına başlanılmışdır.

Ölkə əhalisinin daxili istehsal hesabına çörək və çörək məhsulları ilə təmin edilməsi məqsədi ilə iri taxılçılıq təsərrüfatlarının yaradılma-

sı barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin verdiyi tapşırığın icrasına uyğun olaraq Yuxarı Mil kanalının 10,7 kilometrlik hissəsinin tikintisi tamamlanmış, Beyləqan və Ağcabədi rayonları ərazilərində 4800 hektar sahədə özəl taxılçılıq təsərrüfatları yaradılmışdır. 2013-cü ildə Füzuli və Ağcabədi rayonlarının ərazilərində 5725,6 hektar torpaq sahələrində iri taxılçılıq təsərrüfatlarının yaradılması məqsədi ilə Yuxarı Mil kanalının 4,75 kilometrlik hissəsinin və onun üzərində 2 ədəd nasos stansiyasının tikintisi və 2,3 kilometrlik hissədə kanalın yenidənqurulması, Hacıqabul magistral kanalının 4,3 kilometrlik hissəsinin və Padar magistral kanalının tikintisi işləri aparılır. Buğdaya olan tələbatın bütün dünyada artması müxtəlif alimlər tərəfindən proqnozlaşdırırlır. Məsələn, Tvitin və başqaları hesablayıblar ki, taxıl tələbatı illik 1,17 faiz artmaqla 2050-ci ilə qədər 79 faiz yüksələcək [149]. Bunun müqabilində istehsalın illik 1,07 faiz illik artımla 71 faiz çoxalması və qiymətlərin real ifadədə 44 faiz bahalaşması proqnozlaşdırılır. Roseqrant və başqalarının hesablamalarına görə taxıla olan tələb illik 0,9 faiz olmaqla 56 faiz artacaq və 1 048 milyard ton təşkil edəcəkdir [132]. Roseqrantın hesablamalarına görə dövlət xərcləmələrinin illik 13 faiz artması (xüsusilə də, tədqiqat və işləmələrə (R&D)) məhsul istehsalını illik ifadədə 0,4 faiz çoxalda bilər. Bu hesablamalar onu göstərir ki, Azərbaycanda iri taxılçılıq təsərrüfatlarının yaradılması üçün dövlət xərcləmələri (xüsusilə, meliorasiya və irriqasiya sahəsində) gələcəkdə ölkənin ərzaq təhlükəsizliyinin mühüm tərkib elementi olan taxılla özünütəminat səviyyəsinə müsbət təsir göstərəcəkdir.

"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi ilə bağlı Abşeron magistral kanalının 20 kilometrlik hissəsində yenidənqurma işləri aparılmış, Xəzər rayonunun Zirə qəsəbəsi, Sabunçu rayonunun Bilgəh, Suraxanı rayonunun Hövsan və Abşeron rayonunun Goradil kəndlərinin 2917 hektar əkin və həyətyanı sahələrinin su təminatının

yaxşılaşdırılması və 2146 hektar yeni suvarılan sahələrin istifadəyə verilməsi üçün nasos stansiyalarının, suyığıcı hovuzların və 25,0 kilometr təzyiqli və 62,6 kilometr uzunluğunda suvarma boru kəmərlərinin tikintisi və təmir-bərpası üzrə işlər yerinə yetirilmişdir.

Hacıqabul rayonunda Pirsaat, Şamaxı rayonunda Zoqalavaçay su anbarlarında əsaslı təmir işləri başa çatdırılmış, Tovuz rayonunda Tovuzçay su anbarının tikintisi üzrə işlər davam etdirilir.

İşğal zonası ilə təmas xəttində və sərhəd ərazilərdə yerləşən Ağdam, Bərdə, Tərtər, Füzuli, Beyləqan, Goranboy, Tovuz, Ağstafa, Qazax, Samux, Göygöl və Şəmkir rayonlarının ərazilərində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədi ilə 26,4 kilometr uzunluğunda suvarma şəbəkəsi və təzyiqli boru kəmərləri tikilmişdir.

Dünya Bankının krediti hesabına respublikanın Şabran və Siyəzən rayonlarında içməli su təchizatı və kanalizasiya sistemlərinin bərpası və tikintisi işləri başa çatdırılmış, Ağsu, İsmayıllı, Masallı, Lerik, Yardımlı və Cəlilabad rayonlarında isə bu işlər davam etdirilir.

Bu tədbirlərin həyata keçirilməsi respublikamızda torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasına gətirib çıxarmış, yeni suvarılan torpaqların istifadəyə verilməsi nəticəsində ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təmin edilməsinə, yaşayış məntəqələrinin, əkin sahələrinin, hidrotexniki qurğuların və digər infrastruktur obyektlərin sel və daşqın sularının zərərli təsirlərindən mühafizəsinə, çayların su ehtiyatlarının nizamlanması hesabına onlardan daha səmərəli istifadə edilməsinə imkan yaranmışdır.

Torpaq istifadəçilərinə torpaqdan düzgün istifadə edilməsi üçün səmərəli aqrotexnikı tədbirlərin görülməsi məqsədilə informasiya məsləhət xidməti göstərilmiş, suvarmada yaranmış çətinlikıərin aradan qaldırılması, meliorasiya-irriqasiya sistemlərinin təmir-bərpası üçün müvafiq icra orqanlarının qarşısında məsələ qaldırılmışdır.

Kanallarda baş verən su itkilərinin əsas hissəsini onun dib və məcralarından sızmaya gedən itkilər təşkil edir. Bunun qarşısının alin-

masının əsas şərtlərindən biri də suvarma sistemlərinin istismarı suvarma suyundan daha səmərəli istifadə olunmasını təmin edən, sistemin bütün qurğularının işçi vəziyyatdə saxlanılması üçün vacib olan təşkilatı və texniki tədbirlər sistemidir.

Su ehtiyatlarından qənaətlə istifadə edilməsinin prinsipləri texniki, texnoloji, təşkilati və iqtisadi olmaqla 4 qrupa bölünür və respublikanın torpaq-iqlim şəraiti nəzərə alınmaqla tətbiqi tövsiyə olunur [31, s.206-207]:

1. *Kənd təsərrüfatı sistemində istifadə olunan yüksək su tələbatlı bitkilərin daha az su tələbatlı bitkilərlə əvəz olunması ilə əkin strukturunun təkmilləşdirilməsi, quraqlığa davamlı və az su tələbatlı yeni bitki sortlarının yaradılması;*
2. *Təsərrüfatlarda sudan istifadə yollarının təkmiləşdirilməsi, suvarma şəbəkəsindən, o cümlədən suvarma zamanı sahələrdə baş verən su itkilərinin minimuma endirilməsi;*
3. *Rasional suvarma üsullarının, texnologiyalarının və müasir suvarma texnikasının seçilməsi və tətbiqi;*
4. *K*ənd təsərrüfatı bitkilərinin optimal suvarma rejimlərinin işlənib hazırlanması və suvarma əkinçiliyində tətbiqi;
5. *Su qıtlığı şəraitində qeyri-ənənəvi suların suvarma məqsədi ilə istifadəsi yollarının və səmərəlliyinin təmin olunması.*

Kitabın III fəslində dövlətin tənzimlənmə siyasətinin əsas alətləri olaraq dövlət sahibkarlığı və sifarişinin nəzəri-metodoloji aspektləri təhlil edilmişdir. Bu fəsildə Dövlət Taxıl Fondunun və elevatorların ən modern texnologiyalardan istifadə edilərək qurulması və beləliklə, modernizasiya tədbirləri nəticəsində ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm bir infrastrukturun yaradılması təhlil edilir. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli 3004 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda Fövqəladə Hallar

Nazirliyinə həvalə edilmiş 5.2.6-cı bəndin ("Taxıla olan dövlət ehtiyacının tənzimləmə mexanizminin işlənib hazırlanması") icrasının təmin edilməsi məqsədilə modern infrastruktur qurulmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyul 2009-cu il tarixli 105 nömrəli Qərarı ilə "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları" təsdiq edilmişdir. Bu sənədə 5 əlavənin təsdiq edilməsi isə Dövlət Taxıl Fonduna tədarük edilən, Fonda saxlanmağa qoyulan və Fonddan istifadəyə buraxılan taxıl üçün tələbləri və taxılın tədarükü, daşınması, saxlanması, boşaldılması, qablaşdırılması və başqa proseslərdə yaranan təbii itki normalarını da müəyyən edir.

Dövlət Proqramının 5.9.1-ci bəndinin ("Taxıl və digər ərzaq məhsulları üzrə dövlət ehtiyatının yaradılması və idarə olunması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi") icrasının təmin edilməsi ilə əlaqədar taxıla olan dövlət ehtiyaclarının tənzimləmə mexanizmi olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 dekabr 2009-cu il tarixli 196 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında fövqəladə hallarda istehlakçıların taxıl və taxıl emalı məhsullarına tələbatını ödəmək, dövlət taxıl və taxıl emalı məhsulları ehtiyatlarını formalaşdırmaq, lazım gəldikdə daxili taxıl bazarında kəskin qiymət dəyişmələrinin qarşısının alınması məqsədilə Dövlət Taxıl Fonduna tədarük edilməsi üçün nəzərdə tutulan taxıl və taxıl emalı məhsullarının idxalı gömrük rüsumundan və Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara tətbiq edilən əlavə dəyər vergisindən azad edilmişdir.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın 5.9.3-cü bəndinin ("Ölkənin mövcud və perspektiv tələbatı nəzərə alınmaqla, yeni elevatorların və taxıl anbarlarının tikilməsi planının hazırlanması və həyata keçirilməsi") icrası ilə əlaqədar 2008-ci ildə Dövlət Proqramının yerinə yetirilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi nəzərdə tutulmuş vəsaitin bölgüsünə uyğun olaraq Bakı şəhəri ətrafında tutumu 100 min ton və Gəncə şəhərində tutumu 60 min ton olan müasir

tipli metal konstruksiyalı elevatorların layihələndirilməsi, tikinti-quraşdırma işləri başa çatdırılaraq istismara verilmişdir.

Cədvəl 5.1.

Azərbaycanda mövcud olan elevatorların reyestri

| № | Elevatorların adları | Taxıl saxlamaq üçün layihə gücü, mın ton | Hazırda taxıl saxlamaq olar, min ton |
|---|---|---|---|
| 1 | "ARAZ" ASC | 54,0 | 54,0 |
| 2 | "Bakı-Taxıl" ASC | 89,4 | 60,0 |
| 3 | "Karat-Holdinq" MMC, Xırdalan | 55,0 | 50,0 |
| 4 | "AVETA" MMC, Kürdəmir | 60,2 | 60,2 |
| 5 | "Dəvəçi-Dəyirman" MMC | 54,0 | 54,0 |
| 6 | "Gəncə-Dəyirman" MMC | 54,5 | 30,0 |
| 7 | Hövsan terminalı | 15,0 | 15,0 |
| 8 | Naxçıvan elevatoru | 18,0 | 18,0 |
| 9 | Fatoğlu | 5,0 | 5,0 |
| 10 | "NEON" Firması | 3,0 | 3,0 |
| 11 | Salyan | 62,0 | 0,0 |
| 12 | Yevlax | 20,1 | 0,0 |
| 13 | Qax | 15,0 | 0,0 |
| 14 | Ağdam | 96,2 | İşğal olunub |
| 15 | "Abşeron-Taxıl" ASC | 60,0 | 60,0 |
| 16 | DMEA-Səngəçal | 100,0 | 100,0 |
| 17 | DMEA-Gəncə | 60,0 | 60,0 |
| 18 | DMEA- Səngəçal | 100,0 | Tamamlama işləri aparılır |

**Mənbə: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi**

Ölkənin mövcud və perspektiv tələbatı nəzərə alınmaqla Dövlət Taxıl Fondunda ölkə əhalisinin illik tələbatının, ən azı, 2 aylıq həcmi miqdarında, yəni 260 min ton buğdanın dövlət ehtiyatına qoyulmasının məqsədəmüvafiq olduğunu nəzərə alaraq daha bir 100 min tonluq elevatorda tikinti işləri başa çatdırılmış və avadanlıqların quraşdırılması işləri tamamlanmaq üzrədir.

Cədvəl 5.2.

Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə bölgələrdə tikilən elevatorlar

| № | Elevatorların adları | Taxıl saxlamaq üçün layihə gücü, mın ton | Hazırda taxılsaxlamaq olar,min ton |
|---|---|---|---|
| 1 | Beyləqan rayonu | 20,0 | 20,0 |
| 2 | Abşeron rayonu | 10,0 | 10,0 |
| 3 | Bərdə şəhəri | 10,0 | 10,0 |
| 4 | Ağcabədi rayonu | 5,0 | 5,0 |
| 5 | Gəncə şəhəri | 3,0 | 3,0 |
| 6 | Gəncə şəhəri | 10,0 | 10,0 |
| 7 | Cəlilabad rayonu | 10,0 | 10,0 |
| 8 | Şəki rayonu | 10,0 | 10,0 |
| 9 | Oğuz şəhəri | 1,0 | 1,0 |
| 10 | Tovuz rayonu | 30,0 | 30,0 |
| 11 | Bərdə şəhəri | 10,0 | 10,0 |
| 12 | Salyan rayonu | 10,0 | 10,0 |
| 13 | Cəlilabad şəhəri | 10,0 | 10,0 |
| 14 | Qobustan rayonu | 10,0 | 10,0 |
| 15 | İsmayıllı rayonu | 24,0 | tikilir |
| 16 | İmişli rayonu | 50,0 | 50,0 |
| 17 | İmişli şəhəri | 43,8 | 43,8 |
| | Cəmi 17 layihə | 266,8 | |

**Mənbə: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi**

İnfrastrukturun modernləşdirilməsi üçün aşağıdakı fəaliyyətlər də həyata keçirilmişdir:

- *Səngəçal qəsəbəsi ərazisində tutumu 100 min ton olan müasir tipli idarəetmə avadanlıqları və aparatlarla təmin edilmiş elevator və elevatorda çalışan işçilər üçün infrastruktur obyektləri (inzibati bina, yeməkxana binası, istixana təminatı və s.) tikilib istifadəyə verilmişdir;*
- *Gəncə şəhərində tutumu 60 min ton olan müasir tipli idarəetmə avadanlıqları və aparatlarla təmin edilmiş elevator və elevatorda çalışan işçilər üçün infrastruktur obyektləri (inzibati bina və s.) tikilib istifadəyə verilmişdir;*
- *Naxçıvan Muxtar Respublikasında tutumu 18 min ton olan müasir tipli idarəetmə avadanlıqları və aparatlarla təmin edilmiş elevator tikilib istifadəyə verilmişdir;*
- *Gəncə şəhərində yerləşən "Qoşqar" kombinatının anbarları əsaslı şəkildə təmir edilmiş və kombinatın işçilərinin əmək şəraitini yaxşılaşdırmaq məqsədilə müasir tipli inzibati bina tikilmişdir;*
- *Səngəçal qəsəbəsi ərazisində 4 anbar tikilmişdir.*

"Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun 8.4-cü maddəsinin tələblərinə uyğun olaraq Dövlət Taxıl Fondunun formalaşdırılması üçün məhsul yığımı mövsümündə yerli buğda istehsalçılarından bazarın konyukturasına uyğun qiymətlərlə yerli istehsalçılardan taxılın qəbulu təşkil edilir. Həmçinin Dövlət Proqramının icrasını təmin etmək məqsədilə ölkə əhalisinin yüksək keyfiyyətli ərzaqlıq buğdaya olan tələbatını davamlı şəkildə təmin etmək məqsədi ilə Fondun maliyyə aktivindəki vəsaitləri hesabına ərzaqlıq buğda idxal olunur.

Modern texnologiyalar əsasında qurulan infrastruktur təkcə taxıl deyil, eyni zamanda digər ərzaq məhsulları, o cümlədən şəkər tozu, qarğıdalı yağı, günəbaxan yağı, kərə yağı, qənd, çay, düyü və buğda unu saxlanmasına imkan verir.

Azərbaycan hökumətinin beynəlxalq miqyasda əməkdaşlığı gücləndirməsi kənd təsərrüfatı sahəsində modernizasiya prosesində əhəmiyyətli rol oynayır. Hazırda Kənd Təsərrüfatı Nazirliyi dünyanın 57 ölkəsinin aidiyyəti qurumları və 20 beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Azərbaycan Respublikası 11 iyun 2013-cü il tarixdə Beynəlxalq Üzümçülük və Şərab Təşkilatının və Beynəlxalq Epizootik Büronun üzvü, 2011-ci ildə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Ümumdünya Səhiyyə Təşkilatının birgə orqanı olan Kodeks Alimentarius Komissiyasının və fevral 2007-ci ildən Bitki karantini və mühafizəsi üzrə Avropa və Aralıq dənizi Təşkilatının yaradılması haqqında Konvensiyaya qoşulmuşdur.

Şəkil 5.5.

Kənd təsərrüfatına yararlı torpaqların hər hektarına düşən büdcə xərcləri (ABŞ dolları ilə)




**Mənbə: Müəllifin hesablamaları**

Azərbaycan postsovet məkanında kənd təsərrüfatına yararlı torpaqların hər hektarına düşən büdcə xərcləri (2012-ci ildə 247 ABŞ dolları olmaqla) göstəricisinə görə öndə gedir. Son illər dövlət təkcə kənd təsərrüfatı istehsalının deyil, bütövlükdə aqrar-sənaye kompleksinin modernləşdirilməsini prioritet olaraq qəbul edib. Belə ki, dövlət xərcləmələri kənd təsərrüfatı istehsalçıları ilə yanaşı, emal sənayesini və infrastrukturu da əhatə edir. 2012-ci ilin dövlət büdcəsində aqrar-sənaye kompleksinə 878,9 milyon manat yönəldilməsi nəzərdə tutulmuşdur. Göstərilən rəqəmlərdən başqa, 2012-ci ildə Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən geri qayıdan vəsaitlər hesabına aqrar sahəyə əlavə olaraq 101 milyon manat kredit verilmişdir. Dövlət xərcləmələrinin əsas istiqamətləri aqrar sahənin modernləşdirilməsinə yönəlib ki, bu da sektorun rəqabətqabiliyyətinin artırılması və məhsul istehsal həcminin genişlənməsinə xidmət edir. Aqrar sektora yönəldilən büdcə resurslarının artırılması əsas məqsəd yox, bu sektorun inkişaf etdirilməsi üçün vasitə kimi çıxış edir. Əsas hədəf ərzaq təhlükəsizliyinə nail olunması, aqrar sektorda məhsuldarlığın artırılması, istehsalın effektivliyinin təmin edilməsi və emal sənayesi şəbəkəsinin genişlənməsidir. Eyni zamanda dövlət-biznes partyorluğununun güclənməsi ona imkan verər ki, aqrar sahə təkcə dövlət yardımlarından asılı vəziyyətə düşməməklə, həm də özəl sahibkarlığın resursları və təşəbbüsləri hesabına inkişaf etsin. Monokultur əkinçilikdən bitkiçiliyin şaxələndirilməsinə keçid dövlət və özəl resurslar hesabına modernləşdirilmədən əhəmiyyətli dərəcədə asılıdır.

16 yanvar 2014-cü il tarixdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və

ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanılması üçün anbarların yaradılması, həmin məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsini müəyyənləşdirir. Sənəddə özəl tədarük-satış bazalarının, ticarət (treyder) şirkətlərinin, logistik mərkəzlərin, qablaşdırma və tara təsərrüfatının, kənd təsərrüfatı və ərzaq məhsullarının daşınmasına xidmət edən xüsusi nəqliyyat vasitələri, o cümlədən avtorefrijerator parkının yaradılmasının dövlət tərəfindən dəstəklənməsi qeyd olunur. Prezidentin sərəncamı aqrar sahənin modernizasiyası prosesini daha da sürətləndirəcəkdir.

### 5.2. Azərbaycanda dünya investisiya trendlərinin kəsişməsi

Azərbaycanda kənd təsərrüfatı və ərzaq sənayesində xarici investisiyaların təsirini qiymətləndirmək bir sıra amillər (statistik məlumatların məhdudluğu, lazım olan zaman sıralarının mövcud olmaması və s.) səbəbindən mümkün olmasa da, qeyri-neft sahəsində əcnəbi sərmayələrin təsirini qiymətləndirmək mümkün olmuşdur. Azərbaycanda qeyri-neft sektorunda birbaşa xarici investisiyaların qeyri-neft sektorunun artımına təsir etməsini yoxlamaq üçün iki dəyişəndən ibarət vektor avtoreqressiya modeli (VAR) qiymətləndirilmişdir. VAR modeli aşağıda göstərilən istehsalat funksiyasına əsasında qurulub:

$$\mathbf{GDP_t = f(FDİ_t)}$$

*Burada* $GDP_t$ *– qeyri-neft Ümumi Daxil Məhsulu və* $FDİ_t$ *- birbaşa xarici investisiyalardır.*

VAR modelin qiymətləndirməsində rüblük və fəsillərə uyğunlaşdırılmış rəqəmlər istifadə olunublar. Bütün dəyişənlər nominaldırlar və loqarifmələniblər. Qiymətləndirmə 2005-ci ilin 1-cü rübündən 2010-cu ilin 3-cü rübünə qədər olan müddəti əhatə edir. VAR modeli qurulmazdan əvvəl, dəyişənlərdə vahid köklərin (unit roots) olub-olmamasını yoxlamaq üçün iki test tətbiq olunur: Genişləndirilmiş Diki Fuller Testi (Argumented Dickey-Fuller) və Filips-Peron Testi (Phillips-Perron). Testlər göstərir ki, iki dəyişənlərdə vahid köklər var. Sonradan dəyişənlərin birinci fərqlərinə (first order) testlər tətbiq olunub və testlər göstərib ki, dəyişənlərin birinci fərqlərində vahid köklər yoxdur. Bu səbəbdən dəyişənlərin birinci fərqləri istifadə olunub.

Cədvəl 5.3.

Vahid kök testləri, Sıfır fərziyyəsi: Dəyişilənin vahid kökü var (ehtimal qiymətləri)

| | Əlavə edilmiş Dickey-Fuller Testi | | Phillips-Perron Testi | |
|---|---|---|---|---|
| | GDP | FDI | GDP | FDI |
| Səviyyə | 0.8342 | 0.6683 | 0.6453 | 0.1812 |
| Birinci fərq | 0.0000 | 0.0054 | 0.0000 | 0.0000 |

VAR modelləri laqların sayına həssasdırlar. Adətən, laqların optimal sayını təyin etmək üçün Akaike Məlumat Meyarı (AMM) istifadə olunur. AMM-na əsasən laqların optimal sayı dörddür.

Cədvəl 5.4.

VAR modelin laqların optimal sayı

| Laq | AIC |
|---|---|
| 0 | 0.533453 |
| 1 | 0.575010 |
| 2 | 0.579783 |
| 3 | 0.566353 |
| 4 | -0.080795* |
| 5 | 0.078489 |

VAR modelin qiymətləndirilməsindən sonra modelin dəqiq olduğunu yoxlamaq üçün müəyyən testlər aparılır. İlk növbədə modelin sabitliyi yoxlanmalıdır. Səciyyəvi çoxhədlinin köklərin modulların 1-dən aşağı olması modelin sabit olduğunu göstərirlər. (Cədvəl 3.5.)

Cədvəl 5.5.

VAR modelin şərtli sabitliyin yoxlanması

| | |
|---|---|
| Səciyyəvi çoxhədlinin kökləri | |
| Asılı dəyişənlər: D(GDP) D(FDI) | |
| Müstəqil dəyişənlər: C | |
| Laqların sayı: 4 | |
| Kök | Modul |
| 0.224681 - 0.878667i | 0.906938 |
| 0.224681 + 0.878667i | 0.906938 |
| -0.496825 - 0.731246i | 0.884057 |
| -0.496825 + 0.731246i | 0.884057 |
| 0.659057 - 0.574011i | 0.873982 |
| 0.659057 + 0.574011i | 0.873982 |
| -0.724566 - 0.469616i | 0.863444 |
| -0.724566 + 0.469616i | 0.863444 |

Bundan əlavə, LM testi göstərir ki, heç bir seriyalı korrelyasiya yoxdur. Beləliklə demək olar ki, VAR modeli dəqiqdir.

Cədvəl 5.6.

VAR qalıq seriyalı korrelyasiya LM Testi, Sıfır fərziyyəsi:
N-ci laqda heç bir seriyalı korrelyasiya yoxdur

| Laqlar | LM-Stat | Ehtimal |
|---|---|---|
| 1 | 1.550643 | 0.8176 |
| 2 | 8.798985 | 0.0663 |
| 3 | 4.198750 | 0.3798 |
| 4 | 0.762067 | 0.9435 |
| 5 | 3.800484 | 0.4337 |
| 6 | 7.439354 | 0.1144 |
| 7 | 5.377375 | 0.2507 |
| 8 | 7.982338 | 0.0922 |
| 9 | 5.250905 | 0.2625 |
| 10 | 1.343295 | 0.8540 |
| 11 | 2.043800 | 0.7277 |
| 12 | 2.901331 | 0.5745 |

Azərbaycanda birbaşa xarici investisiyaların artımı qeyri-neft sektorunun artımına təsir etməsini və ya etməməsini təyin etmək üçün VAR modelə Grancer təsir testi tətbiq olunur. Testin nəticəsi göstərir ki, Azərbaycan iqtisadiyyatında, qeyri-neft sektoruna birbaşa xarici investisiyaların artımı qeyri-neft sektorunun artımına təsir göstərir.

Cədvəl 5.7.

Grancer təsir testi, Sıfır fərziyyəsi: Ekzogen parametrin dəyişməsi endogen parametrin dəyişməsinə təsir etmir (ehtimal qiymətləri)

| | | Endogen dəyişən | |
|---|---|---|---|
| Ekzogen dəyişən | | Qeyri neft Ümumi Daxili Məhsul | Birbaşa xarici investisiyalar |
| | Qeyri neft Ümumi Daxili Məhsul | - | 0.6873 |
| | Bir başa xarici investisiyalar | 0.0090 | - |

BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) Azərbaycan kimi dünya okeanına birbaşa çıxışı olmayan inkişaf etməkdə olan ölkələrə tövsiyyəsi ondan ibarətdir ki, xarici birbaşa investisiya cəlb etmək üçün bu ölkələr daha çox limanlara deyil, bazarlara oriyentasiya götürməlidirlər. Xarici investisiyaların cəlbində maraqlı olan Azərbaycan üçün bir maraqlı nüans da ondan ibarətdir ki, dünyada investisiya siyasətinə kənd təsərrüfatına investisiya qoyuluşu, dünya maliyyə arxitekturasının islahatı və iqlim dəyişikliklərinin təsirinin yumşaldılması kimi qlobal çağırışların təsiri əhamiyyətlidir.

Azərbaycanda kənd təsərrüfatı digər sahələrlə müqayisədə daha az xarici sərmayə cəlb etmişdir. Məsələn, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinə cəlb edilə sərmayə ölkə iqtisadiyyatı üzrə təşviq olunan investisiyanın 2010-cu ildə 0,1 faizini, 2009-cu və 2008-ci illərdə isə 0,6 faizini təşkil etmişdir. 2011-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın xüsusi çəkisi hətta 0-a yaxın olmuşdur. Yeni qlobal investisiya təmüyülləri şəraitində Azərbaycanın kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinə sərmayə cəlb etmək imkanları artmışdır.

Dünya okeanına birbaşa çıxışı olmayan ölkələr (landlocked) "coğrafiyanın lənətinə" tuş gəlirlər. UNCTAD-ın hesablamasına görə qapalı ölkələrin okeana çıxışı olan inkişaf etməkdə olan dövlətlərlə müqayisədə nəqliyyat xərcləri iki dəfə çox olur. Azərbaycan "coğrafiyanın lənətindən" qaçmaq üçün komunikasiya imkanlarını Qərb-Şərq

və Şimal-Cənub istiqamətində gücləndirməklə xarici sərmayələr üçün daha əlverişli şərait yaratmış olar.

Şəkil 5.6.

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində əsas fondlara yönəldilən xarici sərmayə




**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir**

Azərbaycanda qeyri-neft sektoru üzrə birbaşa xarici investisiyaların artımının qeyri-neft sektorunun inkişafına təsirini təyin etmək üçün tərəfimizdən vektor avtoreqresiya modelinə (VAR) Grancer təsir testi tətbiq olunub: Testin nəticəsi göstərir ki, Azərbaycanın qeyri-neft sektorunda birbaşa xarici investisiyaların artımı bu seqmentin inkişafına müsbət təsir edir. Bu ekonometrik hesablama da göstərir ki, qeyri-neft sektorunun inkişafında birbaşa xarici investisiyalar mühüm rol oynayır.

Azərbaycan özünün kiçik daxili bazarı, amma regional ixrac imkan-

larını nəzərə alıb ixracyönümlü xarici investisiyaların (export-oriented FDİ) və inkişaf etmiş infrastruktur və ucuz, həmçinin kvalifikasiyalı işçi qüvvəsinə əsaslanıb səmərəliliyə söykənən xarici investisiyaların (efficiency-seeking FDİ) modernləşmə prosesinə cəlbində maraqlı olmalıdır.

Dövlətlər investisiyaları cəlb etmək üçün aşağıdakı istiqmətlərdə fəaliyyət göstərirlər: a) Xarici birbaşa investisyalar üçün siyasət çərçivəsi müəyyənləşir; b) biznesin həyata keçirilməsi üçün tədbirlər görülür; c) xarici investisiyalar motivasiya edilir [155].

Investisiya potensialı olan şirkətlər daha çox satış ofislərini, istehsal və logistika fəaliyyətlərini beynəlmiləlləşdirirlər. Eyni zamanda ən az beynəlmiləlləşən fəaliyyətlər isə baş ofis, maliyyə və Tədqiqat və İnkişaf (R&D) olub. Növbəti üç il ərzində transmilli korporasiyaların beynəlmiləlləşməsi aşağı sürətlə olsa da davam edəcək. Transmilli korporasiyalar arasında aparılan sorğu [156] göstərib ki, 2011-ci ildə şirkətlər xaricdə daha çox investisiya yatırmağı düşünür. Paradoksal haldır ki, son qlobal iqtisadi böhran şirkətləri investisiya qoymaq üçün yeni bazarlar axtarmağa və bu yolla müvazinatlarını qorumağa təşviq edir. Çünki transmilli korporasiyalar öz bazarlarını coğrafi baxımdan nə qədər çox diversifikasiya etsələr, o qədər də müvazinatlarını qoruya bilərlərlər. Bu mənada Azərbaycan qeyri-neft sektoruna, xüsusən də aqrar sahədə modernləşmə prosesinə transmilli korporasiyaları cəlb etməklə, onlara təkcə yerli deyil, həm də regional (Qafqaz, Xəzər, MDB, İran, Türkiyə) bazarlara çıxmaq imkanı verir. Postböhran dövründə davamlılıq nöqteyi-nəzərindən diversifikasiyaya getmək istəyində Azərbaycanla transmilli korporasiyaların maraqları üst-üstə düşür. Azərbaycan regional bazarların əhatə dairələrinin kəsişdiyi bir məntəqə olaraq TMK-ların diqqəti uğrunda regional mübarizəni gücləndirməlidir.

Azərbaycan kimi xarici birbaşa investisiya "ovu"na çıxan ölkə üçün investisiyaların hansı TMK-lar tərəfindən qoyulması deyil, həm də, bu korporasiyaların hansı bazarlara meyllənməsi də maraqlıdır. BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) tərəfindən 2009-cu ildə keçirilən sorğu onu göstərib ki, Avropa TMK-ları öz investisiya-

larını daha çox Avropa məkanı (Aİ-12, Cənub-Şərqi Avropa və qalan Avropa), habelə Şimali Amerika və MDB ərazisində yatırırlar. Yaxın gələcəkdə Avropa kökənli TMK-lar az da olsa, MDB məkanında investisya fəaliyyətlərini genişləndirmək fikrindədirlər. Şimali Amerika TMK-ları daha çox öz regionlarına, Aİ-15 ölkələrinə, Şərqi, Cənubi və Cənub-Şərqi Asiyaya investisiya yatırmaqda maraqlı görünürlər. Ola bilsin ki, Şimali Amerika TMK-larının maraqları növbəti illər ərzində Asiyanın inkişaf etməkdə olan dövlətlərində artsın.

Şimali Amerikadan olan TMK-lar kimi Yapon şirkətləri də daha az beynəlmiləlləşiblər. Yapon TMK-larının əsas maraq dairəsinə öz regionları – Cənubi, Cənub-Şərqi və Şərqi Asiya, habelə Aİ-15 və Şimali Amerika daxildir. Yaponların transmilli şirkətləri gələcəkdə Avropadan çox Asiya regionuna və Latın Amerikasına, müəyyən qədər də Afrikaya istiqamətlənəcəklər. BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) tərəfindən 2009-cu ildə keçirilən sorğuya əsaslanan bu məlumatları yapon transmilli korporasiyaları arasında keçirilən digər sorğu da təsdiqləyir.

Asiyadan olan TMK-ların fokusu Şərqi, Cənubi və Cənub-Şərqi Asiya, habelə az miqyasda Qərbi Asiyadır. Bundan başqa asiyalı transmilli şirkətlər Aİ-15 və Şimali Amerikada da əhəmiyyətli iştiraka malikdirlər. Digər regionlardan fərqli olaraq Asiyadan olan TMK-lar daha çox Asiyada fəaliyyətlərini Asiyada konsentrasiya etməkdə maraqlıdırlar.

Azərbaycan xarici birbaşa investisiyaları cəlb edərkən hansı sahədə ixtisaslaşmış TMK-larla iş qurmağı da əvvəlcədən iki meyar üzrə hesablamaladır: 1) Azərbaycanın hansı sahələrdə xarici birbaşa investisiya cəlb etmək imkanları var; 2) Hansı sahələrdə ixtisaslaşmış TMK-lar daha fəal investisya siyasəti yürüdürlər. Qlobal investisiya trendlərinə dünya iqtisadi böhranı ciddi təsir göstərdi. Xüsusən istehsal sektoruna aid və biznes tsikli daha həssas (business-cycle-sensitive) olan sahələr – motor yağları, kimya, metal və qeyri-metal məhsullar, maşınqayırma və avadanlıq istehsalı üzrə ixtisaslaşan TMK-lar daha çox zərər çəkdilər. Digər tərəfdən isə qlobal böhranın daha aşağı tsiklliyə malik və ya in-

kişaf fazasında olan sahələrdəki (əczaçılıq, telekomunikasiya, biznes xidmətləri, ərzaq, içkilər və tütün istehsalı və s.) TMK-ların investisiya planlarına elə də ciddi təsiri olmadı. Ümumiləşdirərək demək olar ki, həm ilkin, həm istehsal, həm də xidmət sektorunda investisiya qoyuluşları 2012-ci ildən başlayaraq artmağa istiqamət götürəcək.

BMT-nin Ticarət və İnkişaf Konfransı bildirir ki, yaxın perspektivdə ərzaq və içkilər istehsalına xarici birbaşa investisiya cəlbi ilə bağlı optimizm daha böyükdür. (Ola bilsin ki, əsas insan ehtiyaclarına aid edildiyi üçün). Eyni zamanda istehsal məkanında xərclərə qarşı həssas sahələrdən sayılan, məsələn, geyim sənayesi üzrə ixtisaslaşan TMK-lar daha ucuz əmək qüvvəsi təklif edən ölkələrə istiqamətlənməyə meyllənəcəklər. Azərbaycan bu abzasda sadalanan sahələrdə rəqabət üstünlüyünə malikdir və xarici birbaşa investisiyaların cəlbi istiqamətində fəaliyyətini gücləndirməlidir. Körfəz ölkələri (Bəhreyn, Küveyt, Oman, Qatar, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri) onilliklər ərzində öz ərazilərində kənd təsərrüfatı məhsulları yetişdirmək siyasətindən əl çəkərək xüsusən keçid dövrünü yaşayan ölkələrdə investisiya yatırmaqla həmin məhsulları idxal etməyə prioritet verməyə başlayıblar. Bu mənada Azərbaycanın və Körfəz ölkələrinin maraqları üst-üstə düşür. Azərbaycanın kənd təsərrüfatı və ərzaq sənayesinə investisiya yatırmaqla Körfəz ölkələri Afrika və ya Cənub-Şərqi Asiya ölkələrinə nisbətən daha etibarlı tərəfdaş (siyasi, iqtisadi, nəqliyyat və logistika nöqteyi nəzərindən) qazana bilərlər. Bu istiqamət Azərbaycanın ixrac diplomatiyası üçün prioritetlərdən biri olmalıdır.

Azərbaycan həmçinin Avropa və Çinin transmilli şirkətlərini cəlb etməklə kənd təsərrüfatı, ərzaq və içki sənayesinə xarici investisiya axınını təmin edə bilər. “Cənub-Cənub investisiya trendi” çərçivəsində Avropadan Afrikaya; Çindən Afrika və Cənub-Şərqi Asiyaya; Körfəz ölkələrindən isə Afrika və Cənub-Şərqi Asiya dövlətlərinə investisiya axını baş verir. Belə investisiya vektorlarının üzərində yerləşən Azərbaycan mütləq ixrac yönümlü birbaşa invetisiyaların cəlbini sürətləndirməlidir. Məsələ ondadır ki, xüsusilə körfəz ölkələri və Çində izafi maliyyə kütləsi

var ki, investisiya olaraq yatırılması zəruridir, başqa tədəfdən Azərbaycan üçün isə qeyri-neft ixracını diversifikasiya etmək prioritetdir.

Region dövlətləri xarici investisiyaların cəlbi istiqamətində səylərini davam etdiriblər: Qazaxıstan xarici valyuta axınlarına məhdudiyyətləri aradan qaldırıb, Rusiya xüsusi iqtisadi zonalarda vəziyyəti yaxşılaşdırıb, Xorvatiya özəlləşdirməni davam etdirib, Belorus güzəştli investisiya müqavilələri imzalayıb, Özbəkistan mənfəət vergisini aşağı salıb və s. Göründüyü kimi, Azərbaycan regional rəqabət şəraitində xarici investisiyaların cəlbi istiqamətində gərgin mübarizəyə hazır olmalıdır.

Dünyada məşhur olan "Hippie's food" uşaq qidalarının istehsalı üzrə müəssisə 2009-cu ildə Gürcüstanda özünün istehsal müəssisəsini tikib. Gürcüstan dövləti müəssisənin fəaliyyətini dəstəkləmək üçün müəyyən güzəştlər nəzərdə tutub, əvəzində "Hippie food" xammalı kimi almanı yerli fermerlərdən alır [126].

Azərbaycanda aqrar sahənin modernləşdirilməsini sürətləndirmək və kənd təsərrüfatı istehsalçılarının texnikaya əlçatanlığı artırmaq üçün özəl sektorun da texniki təchizatın sahəsində fəaliyyəti genişlənməlidir. Bunun üçün kənd təsərrüfatı texnikasının istehsalı üzrə ixtisaslaşmış transmilli korporasiyaların Azərbayacana cəlb edilməsi mühüm addım sayıla bilər.

Azərbaycanda kənd təsərrüfatı və qida sənayesinin modernləşdirilməsinə əcnəbi sərmayələrin cəlbini sürətləndirmək məqsədilə Xarici investisiyaların təşviqi üzrə dövlət proqramı qəbul edilməli və xarici investisiyaların regional, sektoral, texnoloji və ixrac amillərinə söykənən təşviq tədbirləri müəyyənləşdirilməlidir.

Azərbaycanda "Rəqabət Məcəlləsi" və "İnvestisiya haqqında" yeni qanunvericilik aktları qəbul edildikdən sonra yeni "Xarici investisiyaların təşviqi üzrə dövlət proqramı"nın həyata keçirilməsi zəruridir.

### 5.3. Aqrar sahənin modernləşdirilməsində vençur kapitalın rolu

Qlobal iqtisadi böhran vençur kapitalın daha riskli, eyni zamanda perspektivli sahə olan kənd təsərrüfatına istiqamətlənməsi üçün zəmin yaradıb.

Vençur maliyyələşdirməsi – elmi-texniki araşdırmaların, kəşflərin, ixtiraların, kiçik və yeni şirkətlər tərəfindən aparılan hər hansı riskli, lakin perspektivli xarakter daşıyan yeniliklərin tətbiq edilməsinin kreditləşdirmə və maliyyələşdirmə forması və müvafiq mexanizmin elementidir [135, s.167-184]. Vençur fondları və şirkətləri elə kommersiya təşkilatlarıdır ki, texniki yenilikləri nəzərdən keçirir, seçir və praktik olaraq reallaşdırır, həmçinin texniki yeniliklərin inkişafı və başa çatdırılması üçün elmi tədqiqatların işlənməsi və ya həmin yeniliklərə malik şirkətləri və müəssisələrin maliyyələşdirilməsi və onlara məsləhətlərin verilməsi ilə məşğul olur [35, s.125].

Aqrar sektorun hazırda "uzun" pullara ehtiyacı var və vençur sərmayələr isə ən azı 5-6 illik müddətə yatırıla bilər. Bundan başqa, kreditdən fərqli olaraq, vençur investisiya girov, həmçinin yatırım zamanından dərhal sonra müntəzəm faiz ödənişləri tələb etmir. Baxmayaraq ki, ənənəvi bank kreditləri cəlb edən biznes layihələrində orta hesabla 30 faiz şəxsi və 70 faiz borc kapitalı olursa, vençur maliyyələşdirmə zamanı bu nisbət müvafiq olaraq 10 faiz və 90 faiz olur. Beləliklə, vençur kapitalın sahibkar üçün bir üstünlüyü də biznes planda sahibkarın payının daha az olmasındadır.

Vençur fodların MDB məkanında əhəmiyyətliliyini göstərmək üçün Qazaxıstan təcrübəsini təhlil etmək olar. "KazAqroİnnovasiya" SC-nin verdiyi məlumata görə, təkcə 2006-2008-ci illərdə Qazaxstanda kənd təsərrüfatının genefondunu zənginləşdirmək üçün təxminən 12 min yeni bitki nümunələri hazırlanmış, 48 aqro texnologiya işlənilmişdir. Lakin bu yeniliklərin əksəriyyəti kağız üzərində qalaraq icra mərhələsinə keçməmişdir. Bunun səbəbi lazım olan innova-

tiv infrastrukturun yoxluğu və aqrar-sənaye müəssisələrinin ödəmə qabilliyətinin məhdud olmasındadır. Kənd təsərüfatı istehsalçıları və elm müəssisələri arasında vasitəçi infrastrukturun olmaması gətirib ona çıxarır ki, elm və istehsalatın əlaqələrinin funksionallığı itir. Hansı ki, istehsalat yeni innovasiyaların tətbiqi hesabına modernləşərək daha məhsuldar olmağa, elm sferası isə kommersiyalaşaraq öz maddi-texniki bazasını gücləndirməyə və alimlərin sosial-rifah halını yaxşılaşdırmağa ehtiyac duyur. Belə funksional əlaqənin yaradılması istehsalat və elmin vəhdət təşkil edərək birgə inkişafını şərtlədirir. Oyun nəzəriyyəsinə görə belə münasibətlər "qələbə-qələbə" (win-win) formatına uyğundur və hər iki tərəf qarşılıqlı mənfəət əldə edir. Digər tərəfdən isə həm elm, həm də ki, istehsalat partnyor tərəfin daim inkişafında maraqlı olur. Elm və istehsalat arasında funksional əlaqə sadə şəkildə yalnız yeni kəşflərin elmi təsisatlardan təsərrüfat subyektlərinə satılması (əmtəə - pul dövrü ilə) ilə yekunlaşmır. Həm də elmi təsisatlar istehsalçılarla qarşılıqlı əməkdaşlıq şəraitində yeni tələb olunan texnologiyalara tələbi öyrənir, eyni zamanda modern texnologiyaların və digər elmi kəşflərin tətbiqi zamanı meydana çıxan təfərrüatları bilirlər. Bu isə imkan verir ki, elmi təsisatlar daha praktik və hədəfəyönəlik fəaliyyət göstərsinlər.

Bu zərurəti nəzərə alaraq Qazaxıstanda "KazAqroİnnovasiya" SC-nin strukturuna daxil olan **Aqro Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi** yaradılmışdır. Mərkəzin vəzifələrinə dövlət vəsaitlərindən istifadə edərək aqrar texnologiyaların yaranmasının dəstəklənməsi və inkişafı, həmçinin elmtutumlu texnologiyalara əsaslanıb yeni şirkətlər ("start-ap" və "spin-of") yaratmaq daxildir. Əslində belə yanaşma dövlət vəsaitləri hesabına vençur maliyyələşmə sayıla bilər. Bundan başqa 2008-ci ildə etibarən "KazAqroİnnovasiya" SC-nin Biliklərin Ötürülməsinin İnkişafı Departamenti fəaliyyət göstərir və qurum alimlər və təsərrüfatçılar arasında vasitəçi rolunu oynayır.

Azərbaycanda da elmlə iqtisadiyyatın əlaqəsini qurmaq üçün müvafiq strukturlar yaradılıb. Məsələn, Azərbaycan Respublikası Pre-

zidentinin 15 mart 2012-ci il tarixli sərəncamı ilə yaradılan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun məqsədi Azərbaycan Respublikası informasiya-kommunikasiya texnologiyaları sahəsində dövlət siyasətinin həyata keçirilməsinə yardım etmək, sahibkarlıq fəaliyyətini dəstəkləmək, innovasiya və elmi-tədqiqat layihələrini stimullaşdırmaq, müasir infrastrukturun inkişafına təkan vermək, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərmək, bu sahəyə yerli və xarici investisiyaları cəlb etməkdən ibarətdir. Eyni zamanda **Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun** əsas məqsəd elmin inkişafı ilk növbədə ölkənin, cəmiyyətin, iqtisadiyyatın inkişafına yardımçı olmaqdır. (Yeri gəlmişkən bu tip fondlar dünyada geniş yayılmışdır: Rusiya Fundamental Tədqiqatlar Fondu, Belarus Respublika Fundamental Tədqiqatlar Fondu, Amerikanın Mülki Tədqiqatlar və İnkişaf Fondu, Amerika Milli Elm Fondu, İsrail Elm Fondu və s.)

Lakin bu fondlar aqrar sahə ilə bilavasitə əlaqədar olmadığından təklif edərdik ki, Qazaxıstan təcrübəsini əsas götürərək Azərbaycanda aqrar sahədə intellektual məhsul bazarının strukturunun təkmilləşdirilməsi üçün elmi tədqiqatların nəticələrinin tətbiqi uzrə vasitəci fəaliyyət şəbəkəsi olaraq **Aqrar Elmin Kommersiyalaşdırılması Dövlət Fondu** təsis edilsin. Bu Fondun əsas məqsədi elmi tədqiqatların nəticələrinin bilavasitə iqtisadiyyatda tətbiqinə nail olmaq kimi müəyyənləşdirilməlidir. Fond həmçinin aqrar sahədə fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli layihələrin qrantlar şəklində maliyyələşdirilməsini də həyata keçirə bilər. Xarakter etibarı ilə bu fond dövlət dəstəyinə əsaslanan vençur maliyyələşmə kimi qiymətləndirilə bilər. **Aqrar Elmin Kommersiyalaşdırılması Dövlət Fondunun** sərmayələrinin əsas istiqamətləri yeni perspektivli heyvan və bitki sortlarının yaradılması, əkinçilikdə və kənd təsərüfatı mallarının emalı və saxlanılmasında istifadə olunan innovativ texnologiyaların inkişafı olmalıdır.

Azərbaycanda elmin iqtisadiyyatla əlaqəsinin gücləndirilməsi Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı uzrə Milli Strategiya"da da əks olunmuşdur. Strategiya elmi tədqiqatların prioritetlərinin dunya elminin inkişaf istiqamətlərinə və ölkənin mühüm ictimai-mədəni məsələlərinin həllinə uyğun muəyyənləşdirilməsinə, biliklərə əsaslanan yeni tipli iqtisadiyyatın formalaşdırılmasına, elm sahəsində idarəetmə sisteminin, elmi infrastrukturun modernləşdirilməsinə, elmi tədqiqat muəssisələrinin və butovlukdə elmin maliyyələşdirilmə mexanizmlərinin təkmilləşdirilməsinə, yuksək ixtisaslı kadrların hazırlanmasına, elmi məktəblərin qorunması və elmdə varisliyin təmin edilməsinə, elmin, təhsilin və istehsalın inteqrasiyasına, elmi işçilərin sosial təminatının yaxşılaşdırılmasına, elmin normativ huquqi bazasının və informasiya təminatının gucləndirilməsinə, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasına yonəlmiş elm və texnologiyaların inkişafı sahəsində dovlət siyasətinin əsas istiqamətlərinin, bu sahədə həyata keciriləcək tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur [1].

**Aqrar Elmin Kommersiyalaşdırılması Dövlət Fondunun** fəaliyyəti imkan verəcək ki, aqrar elmin strukturu kənd təsərrüfatının mövcud və perspektiv tələbatlarına uyğunlaşsın. Aqrar elm və kənd təsərrüfatının funksional cəhətdən partnyorluğunun gücləndirilməsi aqrar elmin ölkənin kənd təsərrüfatının inkişafında rolunu artırmaqla yanaşı, kadrların hazırlığını gücləndirəcək, fundamental elmi tədqiqatları genişləndirəcək, elmin maliyyələşdirilmə mexanizmini təkmilləşdirəcək, təkcə aqrar sahəni deyil, həm də elmi-texniki infrastrukturu modernləşdirəcək və elmin informasiya təminatını gücləndirəcəkdir.

Dünya təcrübəsi onu göstərir ki, kənd yerlərində fəaliyyət göstərən təşkilatların bir çoxu investisiyalar cəlb edə bilən şirkətlərin yaradılma-

sında maraqlıdırlar. Məsələn, ABŞ təcürübəsində aqrar sahəyə investisiya cəlbinə nail olmuş Tenesse ştatında “Texnologiya 2020”, Kentuki Elmi-texnolojı Korporasiyası, Misisipi Texnoloji Alyansı və Arkanzas Kapital Korporeyşn Qrupun uğur hekayətlərini nümunə gətirmək olar. Bu qruplar vençur forumların sponsorluğu, biznes-inkubatorların yaradılması, mütəxəssislərin hazırlanması, şirkətlər və perspektivli xarici maliyyə mənbələri arasında əlaqələrin gucləndirilməsi ilə məşğuldurlar. **Aqrar Elmin Kommersiyalaşdırılması Dövlət Fondu** start-up layihələri formasında hətta bu tipli şirkətlərin yaradılmasına da nail ola bilər. Beləliklə, dövlət aqrar sahənin modernləşdirilməsi üçün təkcə özünün vençur kapitalı ilə deyil, həm də cəlb edilən özəl sərmayələrlə töhfə verə bilər. Belədə özəl sərmayələr üçün aqrar sahədə olan risk antipatiyası dövlət kimi mötədil partnyorun qismində kompensasiya edilmiş olur. Xüsusilə də xarici investisiyaların təşviq edilməsi ilə Azərbaycan aqrar elmi dunya elmi, texnikası və texnologiyalarının prioritet istiqamətlərinə uyğun təşkil olunmaq imkanı qazana bilər.

Qərb təcrübəsi göstərir ki, hətta bəzi pensiya fondları və kənd yerlərində məskunlaşan universitet fondları aqrar sektor üçün investor rolunu oynayır. Kollec və universitetlər aqrar sahə üçün yeni ideyalar verməklə bərabər, həm də sərmayə yatıra bilərlər. Çünki böyük kapital sahibləri onlara güvənirlər. Məsələn, Kentukki universiteti vençur fondlara sərmayə qoyur. Ali təhsil müəssələrinin vençur sərmayələri həm onlara gəlir gətirir, həm də məzunların işlə təmin edilməsi nöqteyi-nəzərindən faydalıdır. Bir neçə il əvvəl Tenessee Universitetində tədris edilən sahibkarlıq kursları nəticəsində bir neçə yüksək texnologiyalara malik şirkətlər yarandı. Onlardan biri, “Protein Diskoveri” şirkəti, vençur maliyyə və güclü idarəçilər cəlb etmiş və hazırda kasıb ştatda öz inkişafını davam etdirməkdədir.

“Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı uzrə Milli Strategiya”da da göstərilib ki, elmi tədqiqat muəssisələri şəbəkəsinin təkmilləşdirilməsində strateji məqsəd tədqiqatların

nəzəri və tətbiqi aspektlərinin vəhdətinin təmin edilməsi olmalıdır. Burada elmi-tədqiqat muəssisələrinin ayrılıqda struktur-funksional xususiyyətləri ilə onların şəbəkə olaraq struktur keyfiyyətlərinin optimal uyğunlaşdırılması nəzərə alınmalıdır.

Baxmayaraq ki, Azərbaycan universitetlərinin maddi imkanları aqraq sahədə vençur sərmayələrin yatırılması üçün kifayət etmir, ilkin mərhələdə dövlətin universitetlərə dəstək verməsi (məsələn, birgə təsisatların yaradılması yolu ilə) bu problemi həll edə bilər. Azərbaycan universitetləri aqrar sahəyə vençur sərmayələr yatırmaqla elmin son nailiyyətlərini tədris proqramlarına daxil edəcək, elmi-tədqiqat fəaliyyətini səmərəli təşkil etmək imkanı qazanacaq, elmi kadr potensialını gücləndirəcək, fənlərarası tədqiqat sahələrini genişləndirəcək, tədqiqatların bilavasitə tətbiqi mexanizmini əldə edəcək, intellektual məhsul bazarının strukturunun təkmilləşdirilməsinə töhfə verəcək, distant təhsilin inkişafında əlavə imkanlar qazanacaq, tələbələrin gələcəkdə işlə təminatına kömək olacaq və mənfəət əldə edəcəkdir.

2012-ci ildə Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən dünyada ilk dəfə Samux rayonunun ərazisində yerləşəcək "Aqro-Enerji Kompleksin" layihəsi üzrə işlər başlanılmışdır. Layihənin əsas məqsədi kənd təsərrüfatı və sahə üzrə emal sahələrinin, yaşayış, sosial və digər binaların alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji təminatını və kənd təsərrüfatı və məişət tullantıları hesabına bioenerji istehsal etməklə enerji təminatını daha dayanıqlı etməkdən ibarətdir. Gələcəkdə bu tipli qəsəbələr digər rayonlarda tətbiq yaradılması üçün vençur kapitalın cəlb edilməsi məqsədəmüvafiq olardı.

Aqrar sahədə qurulan vençur investisiya fondlarının əsas fəaliyyət istiqamətlərindən biri də maarifləndirmə olmalıdır. Kənd yerində müvəffəqiyyətli vençur investisiyanın əsas cəhəti prosesdə iştirak edən bütün tərəflərin -sahibkarlar və investorların maraqlarının, həmçinin kommersiya və ictimai maraqların uzlaşdırılmasıdır.

Yeni iş yerlərinin açılışı uzunmüddətli maliyyə davamlılığını heç də əvəz etmir. Gəlirli, inkişaf etmiş şirkətlər yeni iş yerləri açaraq kənd yerinin əhalisini işlə təmin edəcəkdir və bununla əhalinin rifahını artıracaqdır. Kənd yerlərində fəaliyyət göstərən vençur fond inverstorları vəsaitlərini onların maraqlarını qarşılıyacaq, qazanc eldə edə bilən və eyni zamanda müvəffəqiyətli şirkət və investisiya komandalarına yatırmalıdırlar. Bir sözlə, kənd yerlərində vençur investisiya fondları kapital dövriyyəsini ənənəvi vençur fondlar kimi müvəfəqiyyətli həyata keçirməyi bacarmalıdırlar. Nəhayət, investorlar öz vəsaitlərini kənd vençur fondlarına yatırmağa hazır olduqda vəsaitləri güclü və bilikli idarə komandasına malik olan fonda yatırmalıdırlar. İdarəçilər investorların maraqlarını qarşılamadıqda və investisiyaların müvəfəqiyyətlə reallaşacağına zamin olmadığı zaman vençur kapitalın ömrü qısa olacaqdır.

Aqrar sahədə vençur maliyyələşdirilməni iri şirkətlər əsasən özləri həyata keçirə bilsələr də, kiçik və orta sahibkarların vençur sərmayə yatırımına cəlb olunması yalnız dövlətin və müvafiq təsisatların köməyilə mümkündür. Məsələn, Rusiya Kiçik Yenilikçi Müəssisələrə Yardım Fondu (KYMYF) yeniliklər tsiklinin ilkin mərhələlərində olan layihələri dəstəkləməkdə və vençur strukturları və digər maliyyə agentlikləri ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır [21, s.129]. Juma C. təklif edir ki, modern texnologiyaların regionlarda tətbqiqinin genişləndirilməsi üçün Çinin **Qığılcım Proqramından istifadə etmək yerinə düşər** [99, s.18]. Bu yolla sahibkarlar kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi istiqamətində uğur əldə edə bilərlər. Azərbaycanda yaradılması təklif edilən **Aqrar Elmin Kommersiyalaşdırılması Dövlət Fondu** aqrar sahədə kiçik və orta yenilikçi müəssisələrin vençur maliyyələşdirilməsinə cəlb edilməsəni nəzərdə tutan hökumət siyasətinin həyata keçirilməklə, onlara birbaşa maliyyə, informasiya və digər sahələrdə kömək təklif edə bilər, həmçinin yeni yüksək texnologiya məhsullarının inkişaf etdirilməsi və istehsalı ilə

əlaqədar layihələrin icrasına yardımçı olar, kiçik və orta sahibkarlar üçün infrastrukturun yaradılması və inkişaf etdirilməsinə dəstək verə bilər. İnnovativ sahibkarlığının inkişafının zəruriliyi aşağıdaki amillərlə şərtlənir [15, s.109-110]:

- *istehsalın inkişafının intensiv amillərinin güclənməsi iqtisadi fəaliyyətin bütün sferalarında ETT-nin tətbiq olunmasına imkan verir;*
- *yeni texnikanın işlənməsi və tətbiqi səmərəliliyinin yüksəldilməsində elm müəyyənedici rol oynayır;*
- *yeni texnikanın yaradılması, mənimsənilməsi müddətlərinin əhəmiyyətli dərəcədə azadılması, istehsalın texniki səviyyəsinin yüksədilməsi zərurliyi amildir. Habelə ixtiraçıların və səmərələşdiricilərin kütləvi yaradıcılığının inkişafı zəruridir;*
- *elmi-texniki istehsal prosesinin spesifik xüsusiyyəti özünü əsasən nəticələrin qeyri-müəyyənliyində, tədqiqatların çoxvariantlığında, riskin mövcudluğunda və mənfi nəticələrin alınması mümkünlüyündə göstərir;*
- *yeni məhsulların mənimsənilməsi zamanı müəssisənin xərclərin artır;*
- *texnika və texnologiyaların mənəvi cəhətdən sürətli tətbiqinin obyektiv zərurət olaraq meydana çıxır.*

Kiçik innovativ sahibkarlıq xüsusi proqrama, hər şeydən əvvəl isə vergi və kredit güzəştlərinin aydın şəkildə ünvanlandığı sistemə, vençur maliyyələşdirmənin avtonom sisteminə və inkişaf etmiş innovativ infrastruktura ehtiyac duyur. Azərbaycanda aqrar sahədə hazırlanması və həyata keçirilməsi tərəfimizdən təklif olunan bu proqramda innovativ sahibkarlığın dəstəklənməsi üçün aşağıdakı başlıca istiqamətləri göstərmək olar:

1. Kiçik innovativ sahibkarlığa dəstək məqsədilə infrastrukturun inkişafı (texnoparkların, innovativ-texnoloji və mühəndislik mərkəzlərinin, texnologiyanın ötürülməsi mərkəzlərinin, vençur və lizinq şirkətlərinin və başqa innovativ qurumların yaradılması);
2. Başlanğıc mərhələsində innovativ sahibkarlığın subyektlərinin fəaliyyəti üçün güzəştli rejimin yaradılması;

3. Mühasibat uçotu və hesabatı sisteminin sadələşdirilməsi;
4. İnnovativ sahibkarlığa dəstək fondlarının fəaliyyəti üzərində dövlətin maliyyə nəzarəti (büdcə resurslarının istifadəsi ilə bağlı) ;
5. İnnovativ biznesin təşkili və idarəolunması üçün kadr hazırlığı sisteminin inkişafı və s.

İnnovasiyanın mənimsənilməsinin sosial-iqtisadi əhəmiyyəti bundan ibarətdir ki, aqrar istehsalda innovativ fəaliyyətin nəticələrinin ardıcıl olaraq istifadə edilməsi istehlakçının iqtisadi və sosial səmərə əldə etməsi ilə nəticələnir ki, bu da istehsalın effektiv idarəolunması və inkişafı üçün maddi şərait yaradır. İnnovasiyanın mənimsənilməsinin funksional əhəmiyyəti isə elmi-texniki biliklərdəki və istehsal praktikasındakı fərqlərin aradan qaldırılmasından ibarətdir.

Aqrar sahədə innovasiya prosesinə sektorun özəllikləri - kənd təsərrüfatının əsasən təbii proseslərlə bağlı olması, nisbətən aşağı rəqabət imkanları və s. - təsir göstərir.

2012-ci il 4 iyun - 1 iyul tarixlərində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının keçirdiyi "Fermer ailələrinin sənaye yenilkləri sistemində tam iştirakı: Əsas məsələlər və Örnək çalışmalar" mövzusunda onlayn konfransda kənd təsərrüfatı istehsalçıları və yeniliklər təklif edən qurumların arasında "innovasiya maşınının çarxı" kimi qiymətləndirilən innovasiya brokerlərinin yaradılması  məsələsi də müzakirə olunub. Əgər yaradılmasını təklif etdiyimiz **Aqrar Elmin Kommersiyalaşdırılması Dövlət Fondu** vençur kapitalın dövlət xəttilə cəlbini ehtiva edirsə, innovasiya brokerləri özəl sektora məxsus olmaqla eyni funksiyanı daşıya bilər.

Yekunlaşdıraraq qeyd etmək olar ki, vençur maliyyələşdirilmə aqrar sahənin modernləşdidrilməsi yolu ilə kənd təsərrüfatının inkişafına töhfə vermək üçün optimal üsullardan sayıla bilər. Çünki vençur kapitalı fondları maliyyə resurslarının istifadəsi zamanı daha "səbirli" olurlar. Çünku vençur sərmayədarlarda banklardan fərqli olaraq risk tolerantlığı daha yüksəkdir və onlar yeni başlayan şirkətlərə maliyyə

resurslarını kredit şəklində deyil kapitalda pay iştirakı əsasında ayırırlar. Vençur sərmayədarlar aqrar sahədə olan sahibkarlara dəstəyini yalnız maliyyə resursları ilə məhdudlaşdırmayaraq, həm də şirkətlərin idarə olunmasında birbaşa iştrak edə bilər və biznes şəbəkəsi vasitəsi ilə müvəffəqiyyət əldə etməkdə kömək göstərə bilər.

Aqrar sahənin torpaq vergisindən başqa digər vergilərdən azad olunması, kənd təsərrüfatı və qida sənayesində istifadə olunmaq məqsədilə ölkəyə idxal olunan müəyyənləşdirilmiş məhsul və avadanlıqlar üçün gömrük rüsumu və ƏDV-nin aradan qaldırılması və aqrar sektora verilən subsidiyalar vençur kapitalın bu sahəyə cəlb olunması üçün imkanlar yaradır.

# FƏSİL VI

## Aqrar sahədə modernləşdirilmənin davamlı iqtisadi inkişafda rolu

## 6.1. Aqrar sahədə modernləşmə və ixrac potensialının artırılması

Modernizasiya siyasətinin sahəvi prioritetlərini müəyyənləşdirmək üçün müxtəlif elmi yanaşmalardan istifadə etməklə kənd təsərrüfatı və ərzaq sənayesi sahəsində rəqabət üstünlüyününə malik və ixracyönümlü sahələr seçilməlidir. Bu zaman aşağıdakı prinsiplər əsas götürülməlidir: *Regional tarazlıq; Sahələrarası balans (Xərclər-Buraxılış modeli əsasında); Məşğulluğun artırılması; İqtisadi təhlükəsizlik; Ərzaq təhlükəsizliyi; Geoiqtisadi tarazlıq; Ekoloji tarazlıq; Daxili Resurs Dəyəri daxil olmaqla iqtisadi səmərəlilik; İnnovasiya; Dövlət siyasəti və s.*

Məsələn, Çilinin ixracı təşviq edən ProChile təşkilatı öz ölkəsində yalnız 10 sektor seçərək onların promouşnu ilə məşğul oldu. Nəticədə bu gün Çilidə şərab, balıq, meyvə və tərəvəz, taxta, komputer proqramlarının ixracı ən yüksək həddə çatıb və ölkə mis ixracınının dominantlığından xilas olaraq ixracatını diversifikasiya edib.

Modernizasiya siyasətinin əsas məqsədi odur ki, ixrac məhsulunun istehsalının dəyər zəncirində (value chain) mümkün qədər daha çox həlqələrin əhatə edilməsinə nail olunsun: xammal və yarımfabrikat ixracından daha çox hazır məhsul istehsalına keçid təmin edilməlidir. Dəyər zəncirini aşağı (upstream) və yuxarı (downstream) istiqamətlərdə genişləndirmək ixtisaslaşmanın artması, resursların səmərəli istifadəsi və müsbət reputasiya yaranması baxımıdan mühümdür. Beləliklə, ixrac məhsullarının rəqabətədavamlılığı arta bilər. Bu arada biznes modelin seçilməsi vacib şərtdir: ixrac klasteri, kooperasiya və ya "bir kənd bir məhsul".

Tədqiqatlar göstərir ki, əlaqəli iqtisadi fəaliyyətlərin coğrafi yaxınlığı məhsuldarlığın artırılması və innovativ inkişafı təmin edir. Klasterlər – son istehsalçılar, təchizatçılar, xidmət provayderləri, tədqiqat laboratoriyaları, tədris müəssisələri və iqtisadiyyatın müəyyən sahəsi üzrə digər təsisatlar regional iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir [102]. Menecment elmində son təmayül - əsas fəaliyyətlər/kompe-

tentlik üzərində fokuslaşma şirkətlərin onlara yaxın olan partnyorlara etimadını artırıb [67].

Əgər inkişaf etmiş dövlətlərdə klasterlər daha çox innovasiya və biznes mühitinin yaxşılaşmasında fokuslaşırsa, inkişaf etməkdə olan və keçid ölkələrində əlavə dəyərin yaranması və ixracın gücləndirilməsi istiqamətində fokuslaşma var. Məsələn, inkişaf etməkdə olan dövlətlərdə donor təşəbbüsü ilə yaranan klasterlərdə ixracın genişlənməsi hədəflənməklə təchizat zəncirinin (supply chain) inkişafı məqsəd seçilir. Əlavə dəyərin artırılması və biznes mühitinin yaxşılaşdırılması da seçilən məqsədlər arasındadır. Keçid ölkələrində isə donor təşəbbüsü ilə yaranan klasterlər daha çox ixracın təşviqi və əlavə dəyərin artırılması məqsədi daşıyır. Bu mənada dövlət və ya biznesin təşəbbüsü ilə yaranan klasterlərdə məqsədlər fərqlənir [103].

Klasterlərin inkişaf konsepsiyasında aşağıdakı kəmiyyət və keyfiyyət qiymətləndirilmə üsullarından istifadə edilir: lokallaşma əmsalı, regional "xərclər-buraxılış" cədvəli, Porterin rəqabət üstünlükləri rombu, bazarların qiymətləndirilməsi, marketinq tədqiqatı, ekspert qiymətləndirilməsi və s.

Azərbaycanda məsələn, kənd təsərrüfatı üzrə ixrac klasterlərini belə yerləşdirmək olar: Lənkəranda – subtropik bitkilər klasteri, Qubada – alma klasteri, Xaçmazda – tərəvəz klasteri, Göyçayda – nar klasteri, Zaqatalada – fındıq klasteri, Gəncəbasarda – xurma klasteri, Cəlilabadda – üzüm klasteri, İmişlidə - şəkər klasteri və s. Yeri gəlmişkən, nəinki dünyanın inkişaf etmiş ölkələri, hətta MDB məkanında Rusiya və Qazaxıstan da klasterial inkişaf üzrə real addımlar atıblar.

İstehsal zəncirinin uzadılması upstream və downstream fəaliyyətlərin təşkili üçün Çinin "bir kənd bir məhsul" biznes modeli və ya İsrailin kooperasiya təcrübəsi də öyrənilə bilər.

Kənd təsərrüfatı məhsulu və ərzaq ixracının rəqabətədavamlılığı modernizasiya yolu ilə artırılmalıdır: daha az xərc və daha yüksək keyfiyyət. Azərbaycandan ixrac məhsullarının nə dərəcədə texniki

tərəqqiyə əsaslanaraq istehsal edilməsi təhlil edilməlidir: yəni ixrac və idxal məhsulları nə dərəcədə əsas istehsal amilləri (resurs və əmək) və mütərəqqi amillər (texnologiya və ixtisas dərəcəsi) əsasında yaradılır. Əgər ixrac məhsulları daha çox texnologiya və ixtisaslı əmək hesabına istehsal olunarsa bu, ölkənin üstünlüyü deməkdir. Azərbaycan çalışmalıdır ki, ixrac məhsulları daha çox modern texnologiyalar və yüksəkixtisaslı əmək əsasında istehsal edilsin. Hekşer-Olin modelinə əsasən Azərbaycan hansı istehsal amilindən (əmək, resurs, texnologiya və s.) daha zəngin olacaqsa həmin amillərin hesabına da istehsal etdiyi məhsulların ixracı üzrə ixtisaslaşacaq.

Dünya Bankının verdiyi məlumata əsasən kiçik ölçülü fermalarla bağlı yanaşmalardan biri diqqətin intensiv əmək və orta səviyyəli istehsal, habelə meyvə-tərəvəz ixracına yönəldilməsi olmuşdur. Məsələn, xarici bazarda, xüsusilə də Rusiya bazarında Azərbaycan almalarına tələbat artmaqdadır ki, bunun nəticəsində ötən illər ərzində ixrac artmısdır. Lakin sovet dövründən qalmış bağların yenilənməsi və daha məhsuldar sortların yetişdirilməsi bilavasitə modernizasiya sahəsində olan çağırış kimi qiymətləndirilməlidir. Nar yetisdirilməsi üçün tələb olunan məxsusi torpaq növü Azərbaycanda mövcuddur və fermerlər öz meyvə baglarını fəal səkildə genişləndirirlər. Həm alma, həm də nar modern texnologiyalarla emal olunaraq get-gedə daha çox şirə və şirə konsentratı istehsal olunur. Təzə tərəvəz ixracı əsasən Rusiya və Ukrayna olmaqla artmaqda davam edir. Əsas ixrac bazarları Rusiya və Ukrayna olsa da ixracatçılar Qərbi Avropa ölkələrinə də ixrac etməyi qarşılarına məqsəd qoyur. Azərbaycanın iqlim və hava səraiti modern istixanalarda ildə 3-4 dəfə məhsul yetişdirməyə imkan verir və enerji qiymətlərinin aşagı olması Azərbaycan bu baxımdan çox rəqabətli edir. İxracatının sürətlə artdıgı digər meyvə-tərəvəz məhsullarına albalı, xurma, fındıq, faraş kartof, kivi, feyxoa və tomat pastası konsentratı daxildir.

Müxtəlif tədqiqatlar Azərbaycanda balıqçılığın ixrac potensialına malik bir sahə olduğunu göstərir. İxrac həcminin artması üçün innova-

tiv balıqçılıq məhsulları və xidmətləri inkişaf etdirilməlidir.

Quşçuluğun inkişafı həm idxalın əvəzlənməsi, həm də ixracın genişlənməsinə gətirib çıxara bilər. Bunun üçün yeni texnologiyaların tətbiqi, damazlıq və yem bazasının, habelə menecment və marketinqin inkişafı və maliyyə resurslarına çıxışın genişləndirilməsi mühümdür.

Süd və ət ixracının genişləndirilməsi üçün sahəyə xarici birbaşa investisiyaları cəlb etməklə heyvanlarrın cins trəkibini təkmilləşdirmək, yem bazasını yaxşılaşdırmaq və menecmenti inkişaf etdirmək, habelə standartlara əməl etmək lazımdır.

Modernizasiya həm dəyər zəncirinin uzadılması, həm də hər bir mərhələdə daha yüksək əlavə dəyər əldə edilməsinə töhfə verə bilər. Aqrar sahədə ixrac məhsulunun istehsalının dəyər zəncirində (value chain) mümkün qədər daha çox həlqələrin əhatə edilməsinə nail olmaq lazımdır: xammal və yarımfabrikat ixracından daha çox hazır məhsul istehsalına keçid təmin edilməlidir.

İxrac məhsulunun rəqabətədavamlılığı artırılmalıdır: daha az xərc və daha yüksək keyfiyyət. Azərbaycandan ixrac məhsullarının nə dərəcədə texniki tərəqqiyə əsaslanaraq istehsal edilməsi təhlil edilməlidir: yəni ixrac və idxal məhsulları nə dərəcədə əsas istehsal amilləri (resurs və əmək) və mütərəqqi amillər (texnologiya və ixtisas dərəcəsi) əsasında yaradılır. Əgər ixrac məhsulları daha çox texnologiya və ixtisaslı əmək hesabına istehsal olunarsa bu, ölkənin üstünlüyü deməkdir. Azərbaycan çalışmalıdır ki, ixrac məhsulları daha çox modern texnologiyalar və yüksəkixtisaslı əmək əsasında istehsal edilsin. Hekşer-Olin modelinə əsasən Azərbaycan hansı istehsal amilindən (əmək, resurs, texnologiya və s.) daha zəngin olacaqsa həmin amillərin hesabına da istehsal etdiyi məhsulların ixracı üzrə ixtisaslaşacaq.

Modernləşmə Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulları və ərzaq üçün xarici bazarlara daxil olmaq imkanı yaradan sertfikatların əldə edilməsinə yardım göstərə bilər. Azərbaycan ixracatçıları xarici bazarların tələbini ödəmək üçün beynəlxalq səviyyədə

qəbul edilmiş sanitar və fitosanitar normalara, o cümlədən **"Qida Məcəlləsi"** (Codex Alimentarius) və **Bitki Mühafizəsi Konvensiyasının** (Plant Protection Convention) tələblərinə cavab verməlidirlər. Bundan başqa kənd təsərrüfatı sahəsində **Yaxşı Kənd Təsərrürfatı Təcrübəsi** (Good Agricultural Practices) və ərzaq emalı sənayesi üzrə **Yaxşı İstehsal Təcrübəsi** (Good Manufacturing Practices) standartları da mövcuddur.

Potensial ərzaq təhlükəsizliyi risklərinin sistematik analizi və belə risklərin aşağı salınması üçün nəzarət və monitorinq sistemini ehtiva edən **HACCP (Hazard Analysis at Critical Control Points)** tələblərinə cavab vermək üçün ixracatçılara şərait yaradılmalıdır.

Ölkənin keyfiyyət infrastrukturun inkşaf etdirilməsinin zəruriliyini nəzərə alaraq, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmuşdur. Komitə 2003-cü ildən Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) tamhüquqlu üzvüdür. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi 1 yanvar 2010-cu il tarixindən Avropa Standartlaşdırma Təşkilatında (CEN) və 2011-ci ildən isə Beynəlxalq Elektrotexnika Komissiyasının (İEC) İnkişaf etməkdə olan ölkələr üzrə proqramında müşahidəçi kimi iştirak edir.

Qida Məcəlləsi kimi tanınan Kodeks Alimentarius Komissiyasının standartlarının milli standartlar sisteminə daxil edilməsi sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin nəzdində Kodeks Alimentarius Milli Komitəsi yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyul 2010-cu il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın 5.8.3-cü bəndinə uyğun olaraq, yeyinti məhsullarına dair Kodeks Alimentarius, İSO, HACCP, Avropa İttifa-

qı standartlarının milli standartlar sistemınə daxil edilməsi sahəsində müvafiq tədbirlərin Kodeks Alimentarius Komissiyasının tövsiyyələri ilə əlaqələndirməklə, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Bu istiqamətdə yaradılmış yeni Milli Komitə, Kodeks Alimentarius Komissiyasının tövsiyyələrinə uyğun olaraq, yeyinti məhsulları üzrə standartların Azərbaycan Respublikasında tətbiqinə dair dövlət hakimiyyəti orqanları və qeyri-hökümət təşkilatları tərəfindən həyata keçirilən fəaliyyətləri əlaqələndirən məşvərətçi orqandır və öz işini kolegiallıq və aşkarlıq prinsipləri əsasında qurur. Əsas məqsəd Azərbaycan Hökümətinin Kodex Alimentarius Komissiyasında iştirakının əlaqələndirilməsi, Kodeks Alimentarius standartlarının ölkəmizdə tətbiqinə dair müvafiq işlərin təşkilidir. İndiyə qədər 5 Kodeks Alimentarius standartı dövlət standartı kimi qəbul edilmişdir.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tabeliyində yaradılan Təcrübə-Sınaq Mərkəzinin (AzTEST) laboratoriyaları ən müasir avadanlıqla təchiz olunmuş və peşəkar mütəxəssislərə malikdir. Mərkəzin Yeyinti və kənd təsərrüfatı məhsullarının sınaq laboratoriyası beynəlxalq müqayisəli səriştəlilik sınaqlarında iştirak etmişdir. Böyük Britaniyanın nüfuzlu UKAS akkreditasiya qurumu tərəfindən akkreditasiya olunmuş FAPAS və LGC Standarts təşkilatlarının keçirdikləri sınaqlarda 50-yədək xarici ölkənin müvafiq laboratoriyası iştirak etmişdir. Beynəlxalq müqayisəli sınaqlarda AzTEST-in qida məhsullarında mikrobiologiya, fiziki-kimyəvi və toksik metallar üzrə sınaqlarının nəticəsi ən düzgün nəticə hesab edilmişdir.

AzTEST Kənd təsərrüfatı və ərzaq məhsullarının sınağı laboratoriyası Almaniya Akkreditasiya Qurumu (DakkS) tərəfindən akkreditasiya olunmuşdur. DakkS mütəxəssislərinin sınaq laboratoriyasında apardıqları auditin nəticəsində qurulmuş infrastruktur, tətbiq edilən müasir sınaq avadanlıqları, səriştəli kadr potensialı və sınaqların düzgün metodlarla aparılması xüsusi qiymətləndirilmiş, bütün növ ərzaq

məhsullarının sınağının İSO/İEC 17025:2005 beynəlxalq standartı əsasında həyata keçirildiyi barədə rəy bildirilmişdir. Bundan başqa DakkS AzTEST-in laboratoriyasında bütün növ ərzaq məhsullarının mikrobioloji sınağını, o cümlədən meyvə şirələrində ağır metallar və titrlənən turşuların təyini, qablaşdırılmış içməli sularda kimyəvi analizləri yüksək qiymətləndirmiş, adıçəkilən sahələr üzrə də laboratoriyanı akkreditasiya etmişdir.

Beləliklə, Almaniya Akkreditasiya Qurumu tərəfindən Azərbaycan Respublikasında qurulmuş müasir sınaq laboratoriyasının akkreditasiyası ölkədə modernləşdirilmə istiqamətində atılan mühüm addımdır. Belə ki, Komitənin laboratoriyasının sınaq protokollarının xaricdə tanınması ilə yerli müəssisələr istehsal etdikləri ərzaq məhsullarının Avropa Birliyi ölkələrinə ixracı zamanı heç bir maneə ilə üzləşməyəcək, ixrac imkanları genişlənəcək, yerli sahibkarların xarici bazarlarda mövqe tutmaları üçün əlverişli şərait yaranacaqdır. Beynəlxalq akkreditasiyanın alınması həmçinin Azərbaycanın ÜTT-yə üzv olması üçün atılan addımlardan biridir.

İstehsal prosesinin digər motiv və etik standartları (Orqanik; Ədalətli Ticarət (Fair trade); Ekoloji təmiz (Rainforest Alliance or dolphin-safe tuna); Əmək (Social Accountability International's SA8000); Etik Ticarət Təşəbbüsü (The Ethical Trading Initiative)) da Azərbaycan ixracatçıları üçün vacibdir.

BMT-nin və Ümumdünya Səhiyyə Təskilatının ərzaq və kənd təsərrüfatı standartları (təmizləmə, çesidləmə və keyfiyyətə nəzarətin təmin olunması, əməyin qorunması və təhlükəsizlik standartları və fitosanitariya nəzarəti) tətbiq olunmalıdır.

Kənd təsərrüfatı sahəsində aqrar siyasətin həyata keçirilməsinin və dövlət yardımlarının idarə edilməsinin daha səmərəli və əlaqələndirilmiş şəkildə təşkil edilməsi, fermerlər və təsərrüfat subyektləri ilə qarşılıqlı əlaqənin asanlaşdırılması məqsədilə elektron qeydiyyat sistemi tətbiq edilməlidir.

### 6.2. Aqrar sahədə modernləşdirmə və ərzaq təhlükəsizliyi

Əslində ərzaq təhlükəsizliyi və rəqabət üstünlüyünə malik sahələrin inkişafı bir medalın iki üzüdür. Əgər ərzaq təhlükəsizliyi milli səviyyədə bütün ərzaq məhsulları ilə 100 faizlik təminatı əsas götürürsə, rəqabət üstünlüyü nəzəriyyəsi ölkənin yalnız rəqabət üstünlüyünə malik olduğu sahələrin inkişafını zəruri hesab edir. Məsələn, taxıl istehsalı Azərbaycanın ərzaq təhlükəsizliyi baxımından vacib element sayılsa da, rəqabət üstünlüyünə malik deyil. Belədə rəqabət üstünlüyü və ərzaq təhlükəsizliyi arasında "kompromis"in tapılması vacibdir. Belə kompromisin tapılmasında modernləşmə xüsusi əhəmiyyət kəsb edir. Çünki modernizasiya daha az resursla daha çox məhsul istehsalına imkan verir ki, bu da ərzaq təhlükəsizliyi və rəqabət qabiliyyəti arasında tarazlığın daha tez tapılmasına imkan verir. Modernizasiya kənd təsərrüfatı sahəsinin istehsal, bölgü, mübadilə və istehlak sferalarını əhatə etməklə ərzaq təhlükəsizliyinin həllində mühüm rol oynayır.

2003-2012-ci illər ərzində ərzaq təhlükəsizliyinin gücləndirilməsində xeyli uğurlar əldə edilmişdir. 2012-ci ildə 2003-cü ilə nisbətən taxıl istehsalı 36,2 faiz, o cümlədən buğda istehsalı 19,4 faiz, kartof 25,9 faiz, tərəvəz 16,2 faiz, bostan məhsulları 20,0 faiz, meyvə 41,6 faiz, üzüm 2,3 dəfə, ət (kəsilmiş çəkidə) 53,8 faiz, süd 47,2 faiz, yumurta 79,9 faiz, yun 36,3 faiz artmışdır.

Azərbaycanda ərzaq məhsulları ilə özünü təmin etmə səviyyəsi son 6 ildə əhəmiyyətli şəkildə artaraq 10 əsas məhsul qrupundan 6-sı üzrə ən azı 92% təşkil etmiş, o cümlədən 2 məhsul qrupu üzrə 100%-i ötmüşdür.

Aqrar sahədə rəqabətqabiliyyətli məhsulun istehsalı üçün mövcud müəssisə və təsərrüfat subyektlərində istehsal prosesində "elmi məhsulların" tətbiqi müasir dövrün ən aktual problemlərindəndir. Bir çox inkişaf etmiş ölkələrdə aqrar məhsullar aqrar "elmi-istehsal" birləşməsində hazırlanır. Respublikamızda da bunu həyata keçirmək

dövlətin əsas vəzifələrindən biri olmalı, aqrar sənaye istehsalı ilə elmi-tədqiqat müəssisələrinin qarşılıqlı münasibətləri təşkil edilməlidir. Bu münasibətlər Qərb ölkələrində "elm parkları" təşkilatları adı altında reallaşır. Şübhəsiz ki, bu sahəni yaxşı bilən kadr potensialını formalaşdırmaq, elmi işlərə maliyyə dəstəyi vermək, həmçinin onların reallaşdırılmasını həyata keçirmək, ilk növbədə, dövlətin köməyi ilə reallaşa bilər. Beynəlxalq təcrübəyə görə, aqrar sektorun inkişaf etdiyi ölkələrdə kənd təsərrüfatı məhsullarının 60 faizini yenilikçi-elmtutumlu məhsullar təşkil edir ki, onların da həyat dövrü 3-5 ildir [12, s.4]. Belə innovativ məhsulların həm yerli, həm də xarici bazarlarda rəqabət qabiliyyəti yüksək olur ki, bu da ərzaq təhlükəsizliyinin gücləndirilməsində öz sözünü deyir.

Azərbaycanda kənd təsərrüfatı istehsalçılarından məhsulun mütəmadi alınmasını təmin edən **supermarket (və ya hipermarket) şəbəkəsi** inkişaf etdirilməlidir. 1950-ci illərdə ABŞ-da, 1960-cı illərdə isə Avropada vüsət alan supermarketlər şəbəkəsi sonradan bir sıra inkişaf etmiş ölkələrdə, məsələn, Meksikada uğurla sınaqdan keçirildi. Supermarketlər dövlətin yaratdığı infrastrukturdan (yollar və s.) və soyuducusu olan nəqliyyat vasitələrindən istifadə etməklə kənd istehsalçılarının məhsullarını vaxtında toplayaraq satışını təşkil etməyə başladılar. Meksikanın təcrübəsi göstərir ki, əhalinin gəlirləri və təhsil səviyyəsi artdıqca (Azərbaycanda hər iki trend pozitivdir) alış-verişi daha çox supermarketlərdə edir.

ABŞ-da və Avropada supermarketlər kənd təsərrüfatı kooperativləri, istehsalçıların adından çıxış edən agentlər və ya brokerlərlə müqavilə imzalayaraq məhsulların "tarla"dan supermarketlərə məxsus distribusiya mərkəzlərinə gətirilməsini təmin edirlər. Supermarketlər məhsulların toplanması ilə yanaşı həm də çeşidləmə, qablaşdırma, markalanma, sertifikatlaşdırma, saxlama və daşıma məsələlərini də həll edirlər. Beləliklə, həm kəndlilər məhsullarını satdıqları qiymətdən razı qalır, həm də effektiv daşıma və logistika səbəbilə ərzağın pərakəndə

qiymətləri ucuzlaşır, ərzağın keyfiyyəti və istifadə imkanları (consumer-friendly) yaxşılaşır.

Cədvəl 6.1.

Azərbaycan Respublikasında ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Buğda | | | | | | |
| Özünü təminat səviyyəsi | 48% | 56% | 69% | 49% | 58% | 66% |
| Kartof | | | | | | |
| Özünü təminat səviyyəsi | 98% | 104% | 105% | 101% | 102% | 98% |
| Sair tərəvəzlər | | | | | | |
| Özünü təminat səviyyəsi | 99% | 104% | 102% | 99% | 95% | 99% |
| Meyvə və giləmeyvələr | | | | | | |
| Özünü təminat səviyyəsi | 138% | 161% | 136% | 108% | 117% | 126% |
| Ət və ət məhsulları | | | | | | |
| Özünü təminat səviyyəsi | 85% | 86% | 91% | 88% | 88% | 92% |
| Yumurta | | | | | | |
| Özünü təminat səviyyəsi | 98% | 99% | 98% | 98% | 77% | 96% |
| Bitki yağları | | | | | | |
| Özünü təminat səviyyəsi | 40% | 38% | 39% | 38% | 35% | 43% |
| Kərə yağı | | | | | | |
| Özünü təminat səviyyəsi | 77% | 84% | 66% | 50% | 50% | 50% |
| Duz | | | | | | |
| Özünü təminat səviyyəsi | 12% | 10% | 14% | 33% | 47% | 71% |
| Şəkər | | | | | | |
| Özünü təminat səviyyəsi | 619% | 186% | 165% | 154% | 183% | 174% |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Təhlillərimiz göstərir ki, bazar imkanlarına əlçatanlıq fermerlər tərəfindən yeniliklərin qəbulunda və tətbiqində həlledici əhəmiyyətə

malikdir. Bazara çıxış fermerləri daha çox istehsala və yeniliklər etməyə stimullaşdırır. Hətta kiçik fermerlər də yaranan bazar imkanlarından faydalanmaq üçün bir sıra çətinlikləri dəf etməyə ehtiyac duyur. Beləliklə, bazara çıxış imkanları yaxşılaşan kənd təsərrürfatı istehsalçıları daha innovativ olmaqla aqrar sahənin modernizasiya prosesinə töhfə verə bilərlər.

Satış kanalları ilə bağlı daha bir təcrübə ABŞ-da mövcuddur. İri şəhərlərin ətrafında özəl modern distribusiya mərkəzləri tikilib ki, kənd təsərrüfatı sahələrindən ərzaq dolu yük maşınlarını qəbul edərək, sonradan ərzağın pərakəndə ticarət məntəqələri arasında bölüşdürülməsini təmin etsin. Logistikanın mərkəzləşdirilməsi, modernləşdirilməsi və koordinasiyanın gücləndirilməsi nəticəsində ərzağın distribusiyasına sərf olunan zaman və maliyyə resurslarına qənaət edilir. Azərbaycanda belə təcrübənin tətbiqi imkanlarının nəzərdən keçirilməsi ərzağın qiymətinin formalaşması zamanı xüsusilə də logistika və distribusiya ilə əlaqədar yaranan problemləri həll edə bilər.

**Satış kooperativlərinin** təşkili məhsulun bazarlara çıxışını daha səmərəli təşkil edə bilər ki, beləliklə, həm istehsalçılar geniş təkrar istehsalı təmin edə biləcək qədər vəsait əldə edər, həm istehlakçılar daha ucuz və keyfiyyətli ərzaq məhsullarını ala bilərlər. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı kooperativlərinin iqtisadi mövqeyi çox yüksəkdir. Şimali Avropa ölkələrində kooperativlər heyvandarlıq məhsullarının satışı üzrə üstünlüyə malikdir. Bu ölkələrdə ət məhsullarının və diri heyvanların 80 faizi, yumurta məhsulunun 65-70 faizi, İsveç və Finlandiyada taxılın 65-79 faizi, Danimarkada 50 faizi kooperativlər tərəfindən satılır.

Azərbaycana ərzaq sahəsində ixtisaslaşmış transmilli korporasiyaların (TMK) (Nestle SA, Unilever, Danone və s.) təşviqi ərzaq təhlükəsizliyinin gücləndirlməsi və ərzaq qiymətlərinin optimallaşdırılması baxımından mühüm rol oynaya bilərdi. Transmilli korpo-

rasiyaların cəlbinin ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən aşağıdakı üstünlükləri var: a) Yeni texnologiya və mütərəqqi menecmentin tətbiqi ərzaq təklifinin artması ilə nəticələnə bilər; b) Transmilli korporasiyaların fəaliyyəti yeni iş yerlərinin açılması və beləliklə, gəlirlərin artması fonunda ərzaq məhsullarına əlçatarlığın artırılması deməkdir; c) Transmilli korporasiyalar ərzaq təklifinin davamlılığını təmin edirlər; d) Bu yolla ərzağın ekoloji təmizliyi yüksəldilə bilər.

TMK-ların ərzaq istehsalına cəlb edilməsinin dərinliyi ölkənin siyasi-iqtisadi müstəqilliyi ilə tarazlaşdırılmalıdır. Çünki TMK-lar dövlət siyasətinə təsir edə biləcək qədər resurslara (maliyyə, lobbi, siyasi və s.) malikdirlər. Üstəlik Azərbaycanın qida sənayesində müşahidə olunan oliqopoliya meylləri ilə TMK-ların cəlbi zamanı maraq toqquşmaları yarana bilər. Ona görə də ərzaq təhlükəsizliyinin təmin olunması üçün TMK-lar cəlb edilərkən aşağıdakı məsələlər nəzərə alınmalıdır: TMK-ların iştirakının "dərinliyi" (bazar payı); TMK-ların qida istehsalında dəyər zəncirinin hansı mərhələsinə (logistika, daşınma, distribusiya, istehsal və s.) cəlb olunması; TMK-ların daha çox yerli resurslar hesabına inkişaf etməyən, amma vacib ərzaq məhsullarının istehsal zəncirində iştirakı; TMK-ların hansı biznes modeli seçməsi və s.

Azərbaycanda ərzaq təhlükəsizliyini gücləndirmək məqsədilə qida sənayesində kiçik və orta sahibkarlıq vahidlərinin modernləşdirilməsi prosesi sürətləndirilməlidir. Bir tərəfdən yerli qida sənayesi "çempion"larının inkişafı təqdirəlayiqdir. Amma bu sahədə rəqabətin gücləndirilməsi də çağırış olaraq qalır. Rəqabət həm qida sənayesində modernləşdirmə və səmərəliliyin artırılmasına, beləliklə, ərzaq qiymətlərinin ucuzlaşması və keyfiyyətinin yaxşılaşdırılmasına gətirib çıxaracaq, digər tərəfdən isə kənd təsərrüftaı istehsalını da stimullaşdıracaq. Çünkü dəyər zəncirində kənd təsərrüfatı məhsulları sonrakı pillədə qida sənayesində emal edilir. Bəzən kənd təsərrüfatı istehsalçılarının emal müəssisələrinin tədarük qiymətlərindən şikayətlənməsi

təsadüfi deyil. Kənd təsərrüfatı istehsalçıları seçim imkanı olmayanda istehsal etdikləri məhsulu geniş təkrar istehsalı təmin etməyən qiymətə satmağa razı olurlar ki, nəticədə ərzaq təklifi azalır və proses ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir. Buna görə də Azərbaycan dövləti içki və tütün də daxil olmaqla qida sənayesində kiçik və orta sahibkarlığın modernləşmə cəhdlərini dəstəkləməklə ərzaq təhlükəsizliyinə töhfə verməkdə davam edir.

Azərbaycanda Taxıl Fondunun yaradılması kimi uğurlu təcrübə, digər əsas ərzaq məhsulları üzrə dövlət ehtiyatlarının formalaşdırılmasını zəruri edir. Belə ehtiyatların yaradılması dövlət əmtəə intervensiyaları həyata keçirməklə qiymətləri sabitləşdirməyə, nəticə etibarı ilə ərzaq təhlükəsizliyi üzrə immunitetin zəifləməsinə imkan verməməyə şərait yaradardı. Azərbaycan dövlətinin yaxından dəstəyilə saxlama anbarlarının və soyuducu kameraların tikintisi ərzaq qiymətlərinin "ütülənməsi" üçün zəmindir.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulalrı ilə etibarlı təminatına dair Dövlət Proqramı" çərçivəsində aqrar sahənin texniki, gübrə və yanacaq təminatı, damazlıq, toxumçuluq, baytarlıq və fitosanitariya sahəsində dövlət dəstəyi, habelə birbaşa subsidiyalaşdırma sahəsində görülən işlər nəticəsində ərzaq təhlükəsizliyi sahəsində xeyli uğurlar əldə edilmişdir.

Ərzaq istehsalında təklifin stimullaşdırılması bu sahədə modernizasiyanın həyata keçirilməsini və daha səmərəli təsərrüfatçılıq formalarının tətbiqini tələb edir.

Sahibkarlığa Kömək Milli Fondu, "Aqrolizinq" və "Aqrarkredit" agentliyi xəttilə ərzaq istehsalının modernləşdirilməsi, habelə Koopersiya haqqında qanunun qəbulundan sonra kənd təsərrüfatı istehsalında yeni biznes modellərin (təsərrüfatçılıq formalarının) tətbiq edilməsi təklif nöqteyi-nəzərindən ərzaq istehsalının stimullaşdırılmasını davam etdirəcək.

Cədvəl 6.2.

“2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” üzrə hədəf göstəricilərinə əməl edilməsi üçün tələb olunan modernizasiya tədbirləri

| S/S | Hədəflər | 2012-ci il | 2015-ci il üçün hədəf göstəriciləri | 2015-ci ilin hədəflərinə çatmaq üçün modernizasiya tədbirləri |
|---|---|---|---|---|
| 1 | Dənli bitkilərin əkin sahəsi (min hektar) (qarğıdalı ilə) | 1030,7 | 900 | Dənli bitkilərin itkisiz yığılması üçün kombaynların gücünün və sayının artırılmasına ehtiyac var. |
| 2 | Dənli bitkilərin məhsuldarlığı (s/hektar) | 27,2 | 32 | |
| 3 | Dənli bitkilərin ümumi istehsalı (milyon ton) | 2,8 | 2,8 | |
| 4 | Ət istehsalının həcmi /kəsilmiş çəkidə/ (min ton) | 275,1 | 340 | Məhsuldarlığın artırılması üçün cins tərkibinin yaxşılaşdırılması, yem bazasının gücləndirilməsi və maddi-texniki təchizat səviyyəsinin artırılması tələb olunur. |
| 5 | Süd və süd məhsulları istehsalı (milyon ton) | 1,7 | 2,4 | |
| 6 | Sənaye üsulu ilə illik quş əti istehsalı (min ton) | 36,7 | 80 | |
| 7 | Yumurta istehsalı (milyard ədəd) | 1,2 | 1,3 | |
| 8 | Kartof istehsalı (milyon ton) | 0,97 | 1,12 | Məhsuldar toxum sortlarının tətbiqi ilə yanaşı, həm də bir hektar əkin sahəsinə düşən kartofyığan kombaynın sayını 0,3-dən 0,4-ə yüksəltmək lazımdır. |
| 9 | Tərəvəz və bostan bitkiləri istehsalı (milyon ton) | 1,64 | 1,72 | Məhsuldar toxum sortlarının tətbiqi ilə yanaşı, meliorasiya və irriqasiya işlərinin aparılması, istehsalın təşkili üçün infrastrukturunun təkmilləşdirilməsi, habelə köhnəlmiş meyvə bağlarının yerində yenisinin salınması tələb olunur. |
| 10 | Meyvə istehsalı (min ton) | 809,8 | 800 | |
| 11 | Yağlı bitkilərin əkin sahələri (min hektar) | 75,8 | 135 | |
| 12 | Şəkər çuğundurunun əkin sahələri (min hektar) | 3,6 | 20 | Yeni əkin sahələrinin salınması və bir hektar əkin sahəsinə düşən çuğunduryığan kombayn sayını 1,2-dən 6 ədədə çatdırılması təmin olunmalıdır. |
| 13 | Çay yarpağı istehsalı (ton) | 567,9 | 3000 | Yeni əkin sahələrinin salınması və bir hektar əkin sahəsinə düşən çayyığan kombaynların sayı ən azı 5 dəfə artırılmalıdır. |
| 14 | Yem bitkilərinin əkin sahələri (min hektar) | 400 | 500 | İmişli, Qazax, Balakən və digər bölgələrlə yanaşı yeni yem zavodlarının tikintisinə Sahibkarlığa Kömək Milli Fondunun xəttilə vəsait ayrılmalı, yem bitkilərinin əkin sahələri genişləndirilməlidir. |
| 15 | Yüksək keyfiyyətli, balanslaşdırılmış qarışıq yem istehsalı (min ton) | 200 | 2000 | |

### 6.3. Aqrar sahənin inkişafında İKT-nin rolu

Ərzaq təhlükəsizliyini artırmaq və fermerlərin biznesini dəstəkləməkdə İKT-nin rolu getdikcə daha çox qəbul olunur və 2003-2005 İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində rəsmi olaraq təsdiqlənib. Buna kompyuterlərdən, internetdən, coğrafi informasiya sistemlərindən, mobil telefonlardan və həmçinin radio və televizor kimi ənənəvi mediadan istifadə daxildir. Elektron kənd təsərrüfatı nisbətən yeni bir fenomen olmasına baxmayaraq, İKT-nin kənd təsərrüfatının inkişafı və yoxsulluğun azaldılmasındakı iştirakına dəlillər getdikcə artır.

"Elektron Azərbaycan" Dövlət Proqramının çərçivəsində aqrar sahə ilə bağlı olan bir sıra dövlət orqanları - Kənd Təsərrüfatı Nazirliyi, Torpaq və Xəritəçəkmə Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində müvafiq fəaliyyələr həyata keçirilir. Məsələn, Torpaq və Xəritəçəkmə Komitəsində "Elektron Azərbaycan" Dövlət Proqramının tətbiq edilməsi və elektron imzadan istifadənin sürətləndirilməsi, həmçinin modern və çevik idarəetmənin təmin edilməsi, əhaliyə, dövlət orqanlarına göstərilən elektron xidmətlərin çeşidinin artırılması və keyfiyyətinin yüksəldilməsi məqsədilə Komitə üzrə 28 fevral 2012-ci il tarixlı 58 nömrəli əmr imzalanmışdır. Həmin əmrlə Komitənin strukturuna daxil olan Aparatının və rayon (şəhər) şöbələrinin, eləcə də tabeliyində olan qurumların əməkdaşları ilə idarəetmədə İKT-nin tətbiqinə dair keçiriləcək treninqlərin qrafiki təsdiq edilmiş və onların keçirilməsinə başlanılmışdır. Komitənin rayon (şəhər) şöbələrinin və tabeliyində olan qurumların regional bölmələrinin vahid İntranet şəbəkəsinə qoşulması virtual treyninqlərin keçirilməsinə və vətəndaşların internet üzərindən videoqəbulunun təşkilinə imkan yarada bilər. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Torpaq və Xəritəçəkmə Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti "Elektron Hökumət" Dövlət İnformasiya Sisteminə (EHDİS) inteqrasiya olunaraq Elektron Xidmətlər Portalın-

da müxtəlif interaktiv xidmətlər təklif edirlər. Hər üç orqan göstərilən xidmətin adı, bu xidmətin göstərilməsi üçün tələb olunan sənədlərin dəqiq siyahısı, müvafiq sənədlərin elektron formasını təqdim edərək şəxslərin elektron xidmətdən maneəsiz və sərbəst istifadəsini təmin edib. Elektron xidmət bölməsinə müraciət edən şəxslərin identifikasiyasını, onlar tərəfindən müəyyən edilmiş qaydada doldurulmuş ərizə və tələb olunan sənədlərin skan edilmiş surətlərinin elektron formada qəbul edilməsini, bu barədə göndərən şəxsə təsdiqetmə bildirişinin təqdim olunmasını həyata keçirən xüsusi proqram ("mühərrik") hazırlanmış və həmin sənədlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin edilir. Göstərilən xidmətlərə görə nəzərdə tutulan rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi üçün müvafiq billinq sistemləri yaradılmışdır. Elektron xidmət bölməsi vasitəsilə aparılan əməliyyatların əsasən EHDİS üzərindən həyata keçirilməsi fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədi ilə həmin sistemdə tətbiq olunan zəruri texniki təhlükəsizlik tədbirlərindən yararlanmağa imkan vermişdir.

Elektronlaşma istiqamətində daha bir addım kimi Torpaq və Xəritəçəkmə Komitəsində Geoportal və ictimai kadastr xəritəsi ilkin test rejimində istifadəyə verilmişdir.

Hazırda Kənd Təsərrüfatı Nazirliyində "Elektron nazirliyin" yaradılması üzrə iş aparılır. "Elekron nazirliyin" işə salınmasından sonra fermerlərin və onların torpaqlarının elektron qeydiyyatının sadələşməsindən başqa, bütün dövlət orqanlarında və digər aidiyyəti qurumlarda kənd təsərrüfatı üzrə bütün lazımi məlumatı, məsələn, fermer barədə, onun torpaqları, mal-qaranın sayı, subsidiyalar barədə məlumatları elektron şəkildə almaq imkan yaranacaq. Beləliklə, formalaşmaqda olan "şəbəkə cəmiyyəti" (network society) kənd təsərrüfatını da əhatə dairəsinə salmaqla bu sahədə iqtisadi səmərəliliyin yüksəlməsinə zəmin yaradır.

Kənd Təsərrüfatı Nazirliyi, Torpaq və Xəritəçəkmə Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində mövcud informasiya ehtiyatlarının tam elektronlaşdırılması və onların digər qurumların verilənlər bazaları ilə interoperabelliyinin təmin edilməsi məqsədəuyğun sayılmalıdır.

2003-2013-cü illər ərzində Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən 1 860 651 hektar sahədə dövlət torpaq kadastrı işlərinə aid irimiqyaslı torpaq tədqiqatı (eroziyyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqların müəyyən edilməsi və xəritələşdirilməsi), 1 192 846 hektar sahədə geobotaniki tədqiqat, 1 580 026 hektar sahədə torpaqların bonitirovkası və 51 rayon üzrə 938 314 təsərrüfatda torpaqların iqtisadi qiymətləndirilməsi işləri həyata keçirilmişdir. Bununla belə, 38 974 hektar torpaq sahəsinin ekoloji vəziyyəti və rekultivasiyası layihələri və 32 rayonun elektron kadastr xəritələri hazırlanmışdır.

Torpaq ehtiyyatları barədə aktual informasiyanın formalaşması, torpaqların istifadəsinə və mühafizəsinə dövlət nəzarətinin effektivliyinin artırılması dövlət torpaq kadastrının və torpaqların monitorinqinin mütəmadi şəkildə aparılmasından asılıdır. Dünyanın inkişaf etmiş dövlətlərinin təcrübəsi göstərir ki, torpaq-kadastr sistemləri dövlət idarəçiliyinin ayrılmaz tərkib hissəsidir. Dövlət torpaq kadastrı – torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası və iqtisadi qiymətləndirilməsi üzrə məlumatların məcmusudur. Bu sahədə avtomatlaşdırılmış sistemin olmaması torpaq münasibətlərinin tənzimlənməsində, torpaqların normativ qiymətlərinin müəyyənləşdirilməsində, torpaq reyestrinin tərtibində və torpaq bazarının formalaşdırılmasında, vergi dərəcələrinin müəyyənləşdirilməsi və tətbiqində, kadastr qiymətləndirilməsində, eləcə də torpağa investisiya qoyuluşu prosesinin inkişafında böyük çətinliklər yaradır.

Dövlət torpaq kadastrının aparılmasının avtomatlaşdırılmış sis-

teminin yaradılmasının texniki dəstək və maliyyələşdirilməsi işinə Dünya Bankının "Təsərrüfatların özəlləşdirilməsi" layihəsi, "Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi" layihəsi, "Daşınmaz əmlakın kadastr" layihəsi, İsveçrənin "SECO" təşkilatının "Kadastr layihəsi", Yaponiyanın "JİCA" təşkilatının "Azərbaycan Respublikasının ərazisinin 1:50000 miqyasında rəqəmsal ümumcoğrafi xəritəsinin yaradılması" layihəsi, Koreyanın "KOİCA" təşkilatının "Azərbaycanda Torpaq Kadastr Sisteminin təkmilləşdirilməsi" layihəsi və digər beynəlxalq maliyyə institutları cəlb olunmuşdur.

Birgə fəaliyyət nəticəsində müxtəlif variantlarda dövlət torpaq kadastrının torpaq reyestri hissəsinin modeli işlənib hazırlanmış və təcrübədən keçirilmişdir. 200-dən artıq azərbaycanlı mütəxəssisə kadastr işlərinin texnologiyaları öyrədilmiş, Azərbaycanın müxtəlif regionlarında Torpaq və Xəritəçəkmə Komitəsinin 20-yə yaxın regional torpaq kadastr mərkəzləri yaradılmış və lazımi avadanlıqlarla təchiz olunmuşdur.

Bununla belə, dövlət torpaq kadastrının mövcud vəziyyətinin obyektiv şəkildə qiymətləndirilməsi belə bir nəticəyə gəlməyə imkan verir ki, xeyli işlərin görülməsinə baxmayaraq, Azərbaycan Respublikasında dünya standartlarına cavab verən dövlət torpaq kadastr sisteminin yaradılmasına, bu sahədə xüsusi dövlət proqramının qəbul edilməsi nəticəsində torpaq kadastrının aparılması texnologiyalarının yenisi ilə əvəz edilməsi, torpaq kadastr məlumatlarının qəbulu, işlənməsi, saxlanılması və ötürülməsinin rəqəmsal (avtomatlaşdırılmış) metodlarına keçid ilə nail olmaq mümkündür.

AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu (TAİ) lokal şəbəkə infrastrukturunun yenidən qurulması, AzScienceNet elm kompüter şəbəkəsinin imkanlarından istifadə, şəbəkənin fiber-optik kabel vasitəsilə AzScienceNet-in qovşağına qoşulmasının təmini, Wi-Fi və Eduroam xidmətlərinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Torpaqşünaslıq və Aqrokimya İnstitutunda laboratoriya və struktur

bölmələrinin informasiyalaşdırılması, kompüter texnologiyalarının, qabaqcıl proqram təminatlarının imkanlarından geniş istifadə elmin inkişafında, innovativ nəticələrin əldə edilməsində və tətbiq olunmasında mühüm rol oynayır. Çünki inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində elmi-tədqiqat və eksperimentlərin yüksək səviyyədə aparılması üçün informasiya texnologiyalarının üstünlüklərindən geniş istifadə edilir, aqrar sahənin modernləşdirilməsində və innovativ elmi nəticələrin əldə edilməsində bu texnologiyalar həlledici əhəmiyyət daşıyır.

Aqrar sahədə elektronlaşdırılmanın genişlənməsi informasiyaların ötürülmə sürətini və dəqiqliyini yüksəldir. Məhsulların qiymətləri, qoyulan vəsaitlər və istehlakçı meylləri haqqında ən son məlumatlardan xəbərdar olmaq fermerin qəbul etdiyi qərarların optimallığını əsaslı şəkildə yüksəldə və sövdələşmələrdəki mövqeyinə müsbət təsir edə bilər. Belə məlumatlar gələcək əkin və məhsullar haqqında və məhsulları satmaq üçün ən yaxşı zaman və yer haqqında qərar qəbul etmək üçün alətdir. Bir çox ölkələrdə, bu məsələnin həlli üçün təşəbbüslər həyata keçirilir. Kənd təsərrüfatı məhsullarının təklifi və onlara olan tələbi qarşılaşdırmaq üçün qurulan sadə internet səhifələri aqrar məhsulların daha mürəkkəb ticarət sistemlərinin başlanğıcıdır. Bu saytlar yerli alqı-satqı internet səhifələrindən və qiymətlər haqqında informasiya sistemindən marketinq və ticarət funksiyaları təklif edən sistemlərə doğru inkişaf edirlər. Adətən, qiymətlər haqqında informasiya əsas regional bazarlardan toplanır və mərkəzi məlumat bazasında saxlanılır. Məlumat internet səhifəsində dərc olunur və məlumat mərkəzi vasitəsilə fermerlərə çatdırılır. Daha geniş auditoriyaya çatdırılmaq üçün, məlumatlar yerli radiolar, televiziyalar və ya mobil telefonlar vasitəsi ilə yayımlanır və beləliklə regiondakı istehsalçılar və ticarətçilər arasında vahid informasiya platforması yaradır. Məsələn, Şri-Lankada Qovi Qana layihəsi əsas bazarlarda qiymətləri işıq lövhələrində nümayiş etdirir. Hazırda

Amerikada aqrar sahənin informasiyalaşmasının təşkilinin mühüm istiqaməti kimi "Biliklərin yayılmasının kooperativ xidməti" adlı informasiya-məsləhət sistemi sürətlə inkişaf etdirilir. Bu sistem kənd təsərrüfatının bütün sahələrini, ərzaq kompleksinin əsas sektorlarmı əhatə etməklə, aqrar sahibkarların fəaliyyət mühitinin sosial-iqtisadi və ekoloji vəziyyəti barədə informasiya təminatını formalaşdırır. Həmin proses ciddi təşkilati hazırlığa əsaslanan şəbəkə infrastrukturunda reallaşır. Belə ki, "Biliklərin yayılmasının kooperativ xidməti" 130-dan çox kənd təsərrüfatı kolleci, on minə yaxın alim və mütəxəssisin çalışdığı 59 kənd təsərrüfatı stansiyası, 60-dan çox meşəçilik kolleci ilə sıx əməkdaşlıq edir [19, s.22].

Bu sistemlərin davamlılığı əsasən özəl sektor və təşkilatlanmış istehsalçı qrupların rolu olmaqla diqqət tələb edir. Xüsusilə əsas məhsullar üçün, vahid pəncərə mexanizmi təklif edən internet əsaslı ticarət platformaları yayılmağa başlayıb. Hindistanda özəl sektorun rəhbərlik etdiyi Agriwatch (www.agriwatch.com) və eChoupal proqramları (www.itcportal.com/ruraldevp_philosophy/echoupal.htm) bir neçə milyon fermeri qiymət informasiyası, tender və sövdələşmə vasitələri ilə təmin edir. Son illərdə qısa mesaj və mətn xidmətləri başlamışdır və məsələn, Seneqal, Benin və Zambiya kimi ölkələrdə qiymətlər və ticarət məlumatlarını mobil telefonlar vasitəsi ilə fermerlərə çatdırırlar. Qiymət və bazar informasiya sistemlərinin quraşdırılması Boliviya, Uqanda, Tanzaniya və Qanada Beynəlxalq Kommunikasiya və İnkişaf İnstitutu (BKİİ) tərəfindən istiqamətləndirilir. Qanada, BKİİ peyk, məlumat bazaları və mobil telefonlardan istifadə etməklə, kənlərdə soya istehsalçıları ilə dəyirmanları əlaqələndirməkdə Qərbi Afrikanın Sosial Sahibkarlıq Fonduna köməklik edir və bununla istehsalçılar üçün "ədalətli" gəliri və dəyirmanlar üçün xammala olan sabit təklifi təmin edir. Azərbaycanda orbitə buraxılan süni peyklərin imkanlarından istifadə edərək aqrar infromasiyaların toplanması və ötürülməsi üçün müvafiq infrastrukturun qurulması mümkündür.

İcmalar və fermer təşkilatlarına onların öz imkanlarını gücləndirmək və qoyulan vəsait və qiymətlər üzrə sövdələşmələr, torpaq iddiaları, resurslar üzərindəki hüquqlar və infrastruktur layihələrinin həyata keçirilməsi zamanı onların hüquq dairələrini daha yaxşı nümayiş eləmək üçün İKT-dən istifadə məqbul yoldur. İKT sosial təcridi azaltmaqla, kənd icmalarına digər maraqlı tərəflərlə birlikdə işləməyə imkan verir. O, yerli icmaların perspektivlərini milli və qlobal inkişaf baxımından genişlədirir, yeni biznes imkanları açır və partnyorlarl daha asan əlaqə saxlamağa imkan verir. İKT həmçinin prosesləri daha səmərəli və şəffaf etməyə xidmət edir. Qlobal Mövqeləndirmə Sistemlərinin (GPS) Qlobal İnformasiya Sistemləri, rəqəmsal kameralarla əlaqələndirilməsi kənd əhalisinə kommunikasiyada və sənədləşmədə kömək edir. Kənd icmaları kreditlərdən və kənd bankçılıq mexanizmindən daha asan istifadə etmək imkanı qazanır. Son mobil bank təşəbbüsləri xərcləri azaltmaq və yerli ticarəti stimullaşdırmaq üçün yeni imkanlar təklif edir. Məsələn, Hindistanın AMUL proqramı süd toplanmasını və 500 min üzvə ödənişləri avtomatlaşdırır və bununla da toplanmış südün həcmində və keyfiyyətində şəffaflığı artırır və fermerlərə ədalətli ödənişləri təmin edir.

Azərbaycan kəndlərində muştərilər şəxsi komputer, elektron planşet, tələb olunan proqram təminatına malik mobil telefon, bankomat, koşk və yaxud adi "touch tone" funksiyalı telefon kimi elektron qurğuları istifadə etməklə elektron bankcılıq xidmətlərinə giriş əldə edə bilərlər. Məlumat xarakterli elektron bankcılıq yalnız informasiyanın əldə edilməsinə əsaslanır. Belə ki, bank bu xidmət vasitəsilə oz məhsul və xidmətləri barədə informasiyanı muştərilərinə catdırır. Eyni zamanda, bank sistemləri və muştəri arasında bəzi qarşılıqlı əlaqənin yaradılmasına imkan verir. Yəni, daxili poct xidməti (*e-mail*), balansa nəzarət, kredit almaq ucun online muraciət, yaxud muştəri haqqında bəzi şəxsi məlumatların yenilənməsi kimi xidmətlər həyata kecirilir. Elektron bankcılığın bu növündə risk aşağı səviyyədədir [34, s.181].

Azərbaycanda informasiya və məlumatın kənd icmalarında səmərəli istifadəsi üçün bir neçə şərtlərə əməl olunmalıdır:

1. Kənd təsərrüfatı üzrə planlaşdırma zamanı İKT-nin imkanları nəzərə alınmalıdır: Getdikcə dövlətlər İKT ilə kənd təsərrüfatını əlaqələndirməyin və İKT-ni kənd təsərrüfatı siyasətinə və proqramlarına daxil etməyin vacibliyini daha yaxşı başa düşür.
2. Vacib kənd təsərrüfatı informasiyalarına ehtiyac: Davamlı və artan kənd təsərrüfatı istehsalı üçün məlumatlar müxtəlif agentliklər, xüsusən fermerlər, universitetlər, tədqiqat institutları, məsləhət xidmətləri, kommersiya müəssisələri və qeyri-hökumət təşkilatlarında (QHT) yayılmışdır. Lakin bu məlumatlar çox vaxt ya pis sənədləşdirilir, ya da ki, belə məlumatları əldə etmək çətin olur. Məsələn, Beynəlxalq Kommunikasiya və İnkişaf İnstitutu Boliviyada yerli icmaların kənd təsərrüfatı təcrübələrini sənədləşdirilməsini dəstəkləyir. Hindistandakı Bal Arısı proqramı kimi, digər təşkilatlar yerli məlumatları sistemləşdirməyə çalışır. Əgər məlumatlar mövcud deyilsə vasitəçi təşkilatlar onu yenidən meydana gətirməyə, məlumatı əlçatan etməyə və tədqiqat agentlərinə təsir etməyə köməklik edə bilərlər. İki hind əyalətində aktiv olan TeleSupport layihəsi fermerlərin suallarını toplayır. Sonra yerli tədqiqat institutları və universitetlərin bu sullara cavabları video formatda yerləşdirilir, yerli dildə internetdə (www.telesupport.org) saxlanılır və yerli icmalara bildirilir. Belə bir təcrübənin Azərbaycanda tətbiq edilməsi vacib kənd təsərrüfatı informasiyalarına ehtiyacı ödəyə bilər.
3. Vaxtında müvafiq formatlarda əldə edilə bilən informasiya: Texnologiyalarda informasiya əsasən çap olunmuş şəkildə və ya məlumat bazalarında olur. Məlumatlar çox vaxt tam olmur və ya digər mənbələrlə uyğun gəlmir. Faydalı təcrübələr və yeniliklər haqqında öyrənilən dərslər çox vaxt saxlanılmır. Miqyas effekti ümumi standartlarla paylaşılan platformalardan istifadə ilə reallaşa bilər. Kənd

icmalarının səmərəli istifadə edə bilməsi üçün informasiya uyğun formatda təqdim olunmalıdır. Videolar vasitəsilə mesajların effektiv olduğu sübut olunub. İndiki halda, faydalı təcrübələr haqqında videolar, kənd teatrları, televiziya və kənd yayımları kimi yerli innovasiyaya kömək edən əvvəlki və yeni medianı birləşdirmək ən uğurlu haldır. Məsələn, Uqandada BKİİ-nin ortaq proyektində mesajları kənd camaatına çatdırmaq üçün dram qrupu effektiv şəkildə istifadə olunur. BKİİ həmçinin tədqiqat məlumatlarını ingilis və yerli dildə mətn və görüntülü medianı birləşdirərək təqdim edən Zambiya Kənd Təsərrüfatı və Kooperativlər Nazirliyini dəstəkləyir. Məlumatların internetdə saxlanması artdıqca o vaxtında əldə olunur və proses belə davam edir.

4. Kənd icmalarını əlaqələndirmək üçün institusional mexanizmlər və insan potensialı: Kənd təsərrüfatı məlumat mərkəzlərində və kənd icmalarda olan informasiyalar arasında böyük bir boşluq var. Yerli səviyyədə son istifadəçilərə lazımlı informasiyanı təmin etməkdə çoxtərəfli mexanizmlərinin rolu vacibdir. İstifadəçilərin suallarına xüsusi hazırlanmış, keyfiyyətli cavablar almaq istəkləri getdikcə artır. Hindistanın Kənd Təsərrüfatı Klinikaları və Çilinin onlayn məsləhət xidmətində müştərilər suallarına cavabı bir gündən iki günə qədər müddət ərzində ala bilirlər. Hindistanda mobil Sual-Cavab xidməti başladılıb. Milli səviyyədə öyrənmək və informasiya paylaşımını təmin etmək üçün mexanizmlərin yaradılmasına ehtiyac var.

5. Kənddə məlumata çıxma və mübadilə mexanizmləri - bağlantı və teleməkəzlər: Yerli icmalarda istifadə olunan İKT-nin növü sürətlə dəyişir. Lakin böyük həcmdə məlumat bazasını saxlamaq və canlı rabitə üçün yaxşı bağlantı tələb etdiyindən geniş zolaqlı internetə çıxış ictimai innovasiya üçün mərkəzi yerdə durur. Son

zamanlara qədər, kənd yerlərində bağlantı sürətsiz dial-up xətləri ilə məhdudlaşırdı. Hazırda peyk bağlantısı uzaq ərazilərdə geniş zolaqlı internetə çıxışı mümkün edir. Azərbaycanda əhalinin 70 faizinin İnternetə çıxış imkanı vardır. Hazırda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında genişzolaqlı internetə çıxış arasında böyük fərq mövcuddur, belə ki, qlobal genişzolaqlı internet istifadəçilərinin yalnız üç faizi Afrikadadır. Yeni simsiz texnologiyalar və mobil telefon şəbəkələrinin yeni nəsli kəskin azaldılmış xərclərlə sürətli interneti təmin edəcək və bununla kənd ərazilərində internetin əhatəsini kəskin artıracaq. Müxtəlif çıxış vasitələri getdikcə daha ucuz və daha asan dəyişdirilə bilən olur. Yeni mobil telefon və noutbuklar rabitə, əməliyyatlar və məlumatların ötürülməsi üçün geniş funksionallığı ilə universal çıxışı təmin edir. Hindistanda ölkə miqyasında teleməmərkəzlər qurmaqdan ötrü Missiya 2007 üçün Milli İttifaq və Ümumi Xidmət Mərkəzi Sxemi hökumətin kəndlərdə çıxışı təmin etmək məqsədilə həyata keçirilən fəaliyyətinə nümunələrdir. Ekvador və Boliviyada BKİİ uzaq ərazilərdə çıxış üçün bölüşdürülmüş xərclərlə çox kiçik açıq terminallar əsasında telemərkəzlər qurmaqdan ötrü QHT-lərə dəstək verir. Kənd informasiya mərkəzləri yalnız fermer qruplarının İKT-dən istifadə üçün öyrənmə mühitini təmin etmir, həm də onların həyat şəraitindəki problemləri də birlikdə həll edir.

**Elektron kənd təsərrüfatının** inkişafı ilk növbədə qanunvericilik bazasının yaradılmasını tələb edir. Beləliklə, aqrar elektronlaşma üçün münbit sosial və siyasi mühit, həmçinin funksional sistem yaradıla bilər. Kənd təsərrüfatında İKT-nin tətbiqi bu sahədə kvalifikasiyanın artırılmasını zəruri edir və maarifləndirmə əsas vəzifə kimi qarşıda dayanır. BKİİ-nin 2006-cı ildə keçirdiyi sorğusu İKT-nin kənd təsərrüfatında istifadəsinə aid əllidən çox layihəni əhatə etmişdir. Respondentlər açıqca ifadə etmişlər ki, maarifləndirmə və təlimləri yüksək qiymətləndirirlər.

İKT-nin kənd təsərrüfatında səmərəli istifadəsi üçün geniş imkanlar olsa da, aşağıdakı çağırışlara cavab vermək lazımdır:

- Media vasitələrini bu istiqamətdə səfərbər etmək;
- Kənd təsərrüfatı məlumatlarının internetdə saxlanmasını artırmaq;
- Kənd icmaları üçün informasiyaya daha ucuz və keyfiyyəli çıxışı təmin etmək;
- Kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarında İKT-nin rolunu müəyyənləşdirmək ;
- Xüsusi hazırlanmış, keyfiyyətli kənd təsərrüfatı informasiya xidmətini gücləndirmək.

## 6.4. Kənd təsərrüfatının modernləşdirilməsinin davamlı enerji təminatına təsiri

Dünyada iqtisadi inkişafın ənənəvi (conventional growth) modeli qum saatı prinsipi ilə işləyir: daha çox ÜDM istehsalı üçün təbii sərvətləri daha çox istismar etmək tələb olunur. Ənənəvi iqtisadi inkişaf yolu ekoloji tarazlıq üçün (məsələn, qlobal istiləşmə formasında) ciddi çağırışlar ortaya qoyur. Bunun alternativi olaraq "yaşıl inkişaf" (green growth) isə bərpa edilən alternativ enerji növlərindən istifadə etməklə iqtisadi inkişafa nail olmanın mümkünlüyünü göstərir. Aqrar sahənin bilavasitə təbiətlə bağlı olması bu sektorda "yaşıl inkişaf" perspektivlərini nəzərdən keçirməyə imkan verir.

Son illərdə dünyanın inkişaf etmiş ölkələri öz siyasətlərini daha çox davamlı inkişafı təmin etmək istiqamətində qururlar. İqtisadi tərəqqinin bir modeli olan davamlı inkişafda əsas məqsəd modern texnologiyalardan yararlanmaqla ətraf mühiti qorumaq şərtilə mövcud resurslardan insanların ehtiyacları üçün istifadə olunmasını təmin etməkdir. Bu mənada enerji hasilatının modernizasiyası enerji səmərəliliyinə aparır [70, s.86]. Belə ki, bu resurslar istifadə olunarkən yalnız hazırkı vəziyyət deyil, eyni zamanda gələcək nəsillərin potensial ehtiyacları da nəzərə alınmalıdır. Müasir dövrdə enerjiyə və enerji resurslarına olan tələbatı nəzərə alsaq, onda davamlı enerji siyasətinin nə qədər əhəmiyyətli olduğunu görə bilərik. Azərbaycanda enerji səmərəlilyi potensialı yüksək olduğundan modernizasiya başqa ölkələrdə müşahidə olunan *geri qayıtma effekti* (rebound effect) yaratmayacaq [101].

Davamlı enerji siyasəti əsas iki istiqamətdən ibarətdir. Bunlardan biri alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin artırılması, digəri isə enerjiyə qənaət və enerji səmərəliliyinin artırılması siyasətləridir. Hər iki istiqamət modernizasiyanı vacib şərt kimi tələb edir. Ənənəvi enerji resurslarının emalı nəticəsində ətraf mühitə verilən ziyan, bu resursların tükənməsi və ölkələrin enerji təhlükəsizliklərini

təmin etmək istəmələri davamlı enerji siyasətinin hər iki istiqaməti ilə bağlı tədqiqatların və layihələrin artmasına gətirib çıxarmışdır. Əksər neft-qaz ölkələrindən fərqli olaraq Azərbaycanda da son illərdə bu məsələlərə diqqət artırılmışdır və bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 Oktyabr 2004-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" və 2009-cu ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması bu istiqamətdə aparılan əsas işlərdəndir. Indexmundi.com-un məlumatına əsasən Azərbaycanda hər ABŞ dolları ÜDM istehsalına (alıcılıq qabiliyyəti pariteti əsasında) görə karbon emissiyası 1994-cü ildə 3,3 kiloqramdan 2008-ci ildə 0,62 kiloqrama qədər aşağı düşmüşdür ki, bu da dünyada ən yüksək göstəricilərdən sayılır.

Davamlı enerji siyasətinin qeyd olunan iki istiqaməti bir-biri ilə çox əlaqəlidir və eyni dərəcədə əhəmiyyətlidir. Azərbaycanda ümumi enerji təchizatı 2008-ci ildə ən yüksək həddə çatmış, sonrakı iki il ərzində azalma müşahidə olunmuş və sonuncu 2011-ci ildə yenidən artmışdır. 2008-ci ildəki artımın əsas səbəbi Azərbaycanın ÜDM-nin əvvəlki illərə nisbətən kəskin artması, sonrakı iki il ərzində azalmanın səbəbi isə energetika sektorunda aparılan islahatlardır.

Azərbaycan Respublikasında "Alternativ enerji mənbələrindən istifadə olunması üzrə milli proqram"ın həyata keçirilməsi üçün tədbirlər planında qeyd edilmişdir ki, sənaye, kənd təsərrüfatı və məişət tullantılarından bio maddələrin istehsalı və tətbiqi üzrə müasir texnologiyaların işlənməsi həyata keçirilməli, habelə biokütlə ilə işləyən kiçik elektrik stansiyaları layihələndirilməli və inşa edilməlidir. Lakin araşdırmalar göstərir ki, xüsusilə kənd təsərrüfatı sektorunda biokütlə enerjisindən istifadə sahəsində irəliyə doğru ciddi addımlar atılmamışdır. Dünya ölkələrinin təcrubəsi göstərir ki, alternativ enerji mənbələrindən istifadə edilməklə istehsal olunan elektrik enerjisinin 79,9%-i biokütlədən alınan elektrik

enerjisinin payına düşür. Biokütlə kimi qəbul olunan enerji mənbələri aşağıdakılardır:meşə və ağac emalından alınan tullantılar, selluloz-kağız sənayesi tullantıları, kənd təsərrüfatının bioloji tullantıları, sənaye və məişət üzvi tullantıları, çirkab suları. Azərbaycanda kənd təsərrüfatının bioloji tullantıları və bəzi məhsulların hesabına enerjinin alınması üçün müvafiq tədqiqatların aparılması, müasir texnologiyaların tətbiqi və regionlarda biokütlə ilə işləyən kiçik elektrik stansiyalarının qurulması istiqamətində fəaliyyətlər həyata keçirilməlidir. Bio-enerji və ya biokütlədən alınan enerjinin müxtəlif faydaları var, bunlara aşağıdakılar daxildir: Təchizatın təhlükəsizliyi və müxtəlifliyi və yerli bərpa olunan enerji mənbələrinin inkişafı; İstixana qazları emissiyalarının azaldılması və tullantıların idarə edilməsi kimi ekoloji faydalar; Fermerlər üçün yeni imkanlar təklif edən kənd təsərrüfatı faydaları; Kənd sahələrində iş yerlərinin yaradılması və yerli təsərrüfatların gücləndirilməsi kimi əsas sosial faydalar [162]. Bio-enerji aşağıdakılar vasitəsilə birbaşa istismar edilə bilər: Bio-kütlə (məs. taxta yonqarları) texnoloji istilik və ya sahənin istiliyini təmin etmək üçün yandırıla bilər. Bio-kütlənin yanması həmçinin elektrik enerjisi istehsal edən generatorlarla birləşmiş mühərriklər və turbinləri işlətmək məqsədilə buxarı artırmaq üçün istifadə edilə bilər. Bio-kütlə (məs. heyvan peyini) anaerob çürümə vasitəsilə bio-qaza çevrilməklə bio-qaz qaz mühərriki və ya qaz turbinini yanacaqla təchiz etmək və ya istiliyi təmin etmək və ya buxarı artırmaq üçün qazanda yandırıla bilər. Azərbaycanda heyvandarlığın və quşçuluğun inkişaf etdiyi bölgələrdə kiçik bioqaz qurğularının tətbiqi nəticəsində əldə olunan maye gübrələrin əkinçilikdə məhsuldarlığın artırılmasında istifadə olunması mümkündür. ALTEN QRUP Şirkəti Azərbaycanda yerli fermerlərin istəyinə uyğun olaraq müxtəlif ölçülü (5, 10, 15 və 20 m2 ) kütlə istehsal edə bilən bioqaz reaktorlarını istismara vermişdir. ALTEN QRUP həmçinin Bakıda planlaşdırılan külək enerjisi mərkəzi və günəş panel qurğularından ibarət elektrik stansiyasının bir hissəsi olan 250 kilovat böyük ölçülü bioqaz qurğusunun layihələndirilməsini və quraşdırılmasını həyata keçirir. Yeni

bioqaz qurğusu yerli üzvi tullantıların təmizlənməsi barədə məsələlərin həll olunması və tələblərə cavab verən yüksək keyfiyyətli gübrələrin istehsalı ilə məşğul olan fermer təsərrüfatına daha çox faydalı ola bilər. Bioqaz istehsalı prosesində istehsal olunan gübrə torpağı liflərlə və minerallarla zənginləşdirir. Gübrənin tərkibində heç bir süni kimyəvi qarışıq olmadığı üçün istixanalarda yetişdirilən tərəvəzlər 100 faiz təbii olur. Bu sahəyə vençur kapitalın cəlb edilməsilə satılan istixanaların sayı arta və maya dəyəri aşağı düşə bilər. Azərbaycanda özəl şirkətlərin bioenerji istehsalı sahəsində digər layihələri də var.

Eyni zamanda Qobustan rayonu ərazisində tikilən hibrid tipli elektrostansiya özündə bioqaz, külək və günəş sistemlərini birləşdirir və qurğu dunyada bu tipdə tikilən ilk elektrostansiyadır. Poliqon ərazisində hər birinin gücü 0,9 meqavata çatan üç külək turbini, 1,8 meqavat gücündə günəş enerjisi stansiyası və 1 meqavat gücündə bioenerji qurğusu yaradılmışdır. Bu stansiya Qobustan rayonunun əhalisini alternativ enerji mənbələri hesabına enerji ilə tam təmin edəcəkdir [14].

Asiya İnkişaf  Bankı, Avropa İttifaqı və digər beynəlxalq partnyorlar Azərbaycanda biokütlə enerjisinin istehsalının təşkil olunmasında Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə birgə əmkdaşlıq edirlər.

Azərbaycanda ümumi enerji təhcizatında əsas yeri son istehlak tutur. 2011-ci ildə son istehlak ümumi enerji təhcizatının 58,2 faizini təşkil edib. Son istehlakdan sonra ikinci ən böyük payı isə 23,2 faizlə transformasiya sektorunun prosesləri tutur. Transformasiya prosesləri təbii enerji resurslarının elektrik və istilik enerjisinə çevrilməsi prosesləridir. Bu sahədə son illərdə əsasən azalma müşahidə olunmuşdur ki, bu da energetika sektorunda aparılan islahatlarla əlaqəlidir. 2011-ci ildə ümumi enerji təhcizatında itkilər və energetika sektoru müvafiq olaraq 9 faiz və 7,5 faiz təşkil etmişdi. İtkilərin payı son üç il ərzində azalsa da, Avropanın inkişaf etmiş ölkələriylə müqayisədə hələ də xeyli böyük paya sahibdi. Azərbaycanda modern texnologiylar tətbiq etməklə

kənd təsərrüfatının bioloji tullantıları hesabına enerjinin alınması son enerji istehlakının və transformasiya proseslərinin səmərəliliyinin artırılmasına, habelə enerji təhcizatında itkilərin azalmasına gətirib çıxara bilər. Azərbaycanda İxracın və İnvestisiyanın Təşviqi Fondunun verdiyi məlumata əsasən, ölkədə kənd təsərrüfatı tullantılarının həcmi 45 milyon kubmetr təşkil edir.

Azərbaycanda kənd təsərrüfatı istehsalının getdikcə daha çox elektrik enerjisi istehlak etməsi bu sahədə modernizasiya aparılmaqla davamlı enerji mənbələrindən, o cümlədən biokütlə enerjisindən istifadəni zəruri edir. Məsələn, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2007-2011-ci illərdə kənd təsərrüfatı, meşəçilik və balıqçılıqda elektrik enerjisi istehlakı 21,3 faiz artmışdır.

Şəkil 6.1.

Kənd təsərrüfatı, meşəçilik və balıqçılıqda elektrik enerjisi istehlakı (milyon kVt saat)




**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Kənd təsərrüfatının enerji səmərəliliyini dəyərləndirmək üçün dünya təcrübəsində enerji intensivliyi göstəricisindən istifadə olunur. Kənd təsərrüfatının enerji intensivliyi istehlak olunan enerji miqdarının bu sahənin ÜDM-inə nisbətinə bərabərdir və 1 manat ÜDM üçün istifadə olunan enerji miqdarını göstərir. Azərbaycanda kənd təsərrüfatı, meşəçilik və balıqçılıqda ümumi enerji intensivliyi 2007-ci illə müqayisədə 2011-ci ildə 15, 2 faiz azalaraq 0,28 kilovatt/saat/manata bərabər olmuşdur. 2000-ci illə müqayisədə Azərbaycanda ümumi enerji səmərəliliyi göstəricisi də xeyli yaxşılaşmışdır. Enerji intensivliyində kəskin azalmanın əsas səbəbi son illər ərzində ÜDM-in kəskin artmasıdır. Digər bir səbəb elektrik enerjisi istehsalında tamamilə təbii qazdan istifadəyə keçilməsi və sayğaclaşma kimi energetika sektorunda aparılan islahatlardır. Sadalan arqumentlərdən başqa kənd təsərrüfatı istehsalında daha modern və enerjiyə qənaət edən cihaz, maşın və avadanlıqların tətbiqi və enerji istehlakına psixoloji münasibətin yaxşılaşması enerji səmərəliliyini artırmışdır.

Şəkil 6.2.

Azərbaycanda kənd təsərrüfatı, meşəçilik və balıqçılıqda ümumi enerji intensivliyi (kilovatt/saat/manat)




**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.**

Azərbaycan enerji səmərəliliyinə görə dünya ölkələri arasında orta mövqeni tutur və dünyanın bəzi inkişaf etmiş ölkələriylə müqayisədə heç də geri qalmır. Enerji səmərəliliyinə görə dünyada son yerləri Səudiyyə Ərəbistanı, Bəhreyn, Qazaxıstan, Türkmənistan və Özbəkistan kimi karbohidrogen resurslarla zəngin olan ölkələr tutur. İlk yerlərdə isə İsveçrə, İtaliya və Danimarka kimi Avropanın inkişaf etmiş ölkələri kalibrasiya edilib.

Şəkil 6.3.

Enerji istehlakı tne/ÜDM AQP dollar - ölkələrin müqayisəsi




**Mənbə: Beynəlxalq Enerji Agentliyi**

Azərbaycanın ümumi enerjiistehlakı və səmərəliliyi göstəricilərinin Yaponiya, Almaniya, Birləşmiş Krallıq, İtaliya kimi dünyanın inkişaf etmiş ölkələri ilə müqayisəsi göstərir ki, Azərbaycanda kifayət qədər enerjiyə qənaət potensialı var. Bu potensialın istifadə edilməsi modernizasiya siyasəti ilə uzlaşdırılmalıdır. Enerjiyə qənaət edən və ətraf mühitə təsiri minimum olan modern texnologiyaların tətbiqi imkan verəcək ki, Azərbaycanda mövcud olan enerji potensialı geniş istifadə edilsin və enerji səmərəliliyi təmin olunsun. Gələcəkdə dünya təcrübəsindən istifadə etməklə Azərbaycanda vergi siyasəti vasitəsilə enerji səmərəliliyinə aparan modernizasiya prosesini stimullaşdırmaq mümkündür [151, s.3-24].

2011 və 2012-ci illərdə dünyada biokütlə enerjisinin çox az artma-

sına baxmayaraq, Dünya Bankının hesablamalarına görə biokütlə kənd təsərrüffatı məhsulları bazarında mühüm rol oynayacaqdır [87, s.109]. Dünya Bankının hesabatında biokütlə enerjisinin istehsalı gündəlik 1,3 min barel neft həcmi ekvivalentində qiymətləndirilir və gələcəkdə mötədil şəkildə artımı proqnozlaşdırılır. Dünya üzrə taxıl və bitki yağı istehsalında istifadə olunan məhsul növləri altında zəmilərin 10 faizidir ki, bu da gələcək iki onillik ərzində biokütlə enerjisisinin hasilatının illik 5 faizlik artımını proqnozlaşdırmağa əsas yaradır. Bu cür yanaşma İƏİT, FAO və Beynəlxalq Enerji Agentliyinin hesabatlarında əsasən təsdiqlənir. Lakin ətraf mühitə təsir və enerji təhlükəsizliyi perspektivindən əldə olunan səmərələrin biokütlə enerjisinin baha başa gəlməsini kompensasiya edəcəyi sual altındadır. Enyi zamanda biokütlə enerjisinin istehsalının genişlənməsi ərzaq qiymətlərinə təsiri müzakirə obyekti olaraq qalır. Burada iki məqama xüsusi fikir vermək lazımdır. Birincisi, neftin qiymətləri biokütlə enerjisinin istehsalının nə dərəcədə səmərəli olmasını müəyyənləşdirəcək. Dünya Bankının proqnozlarında neftin qiymətləri 2014-2015-ci illərdə hər barelə görə 101 ABŞ dolları olacaqdır. OPEC-in proqnozlarında OPEC-in istinad səbətinə əsasən neftin 1 barelinin qiyməti orta müddətli dönəmdə 100 ABŞ dolları olacaqdır. Yalnız inflyasiya qiymətləri 2025-ci ilə qədər 125 ABŞ dolları/barelə çatdıra bilər [157, s.7]. Göründüyü kimi neftin qiyməti o qədər də bahalaşmayacaq ki, biokütlə enerjisinin hasilatı müqayisədə iqtisadi baxımdan rentabelli olsun. Buna görə də, əsas diqqət biokütlə enerjisinin daha səmərəli üsullarla alınmasını təmin edən modern texnologiyaların inkişafına və bu sahəyə investisiya qoyuluşuna istiqamətlənməlidir.

Bir hektar torpaqdan 10 ton qarğıdalı almaq mümkündür ki, bunun da hər tonunun qiyməti yem və ərzaq məqsədi üçün 250 ABŞ dolları ilə götürülsə, qarğıdalının yekunda cəmi dəyəri 2500 ABŞ dollarına bərabərdir. (Hərçənd ki, Azərbaycanda qarğıdalının məhsuldarlığı illik orta hesabla 2 dəfə az, başqa sözlə, hər hektardan 5 ton təşkil edir).

Təsəvvür edək ki, qarğıdalı etanol istehsalı üçün satılır. Onda bir hektar qarğıdalı məhsulundan alınan 4000 litr etanolun qiyməti (0,63 ABŞ dolları/litr hesabı ilə) 2520 ABŞ dolları təşkil edəcəkdir. Əgər modern texnologiyaların tətbiqi nəticəsində qarğıdalının etanol alınması 10 faiz artsa, onda bir hektar ərazidən əldə olunan gəlir 2750 ABŞ dollarına çatar. Əlbəttə, bu halda imkan xərci (opportunity cost) əsasında yem və ərzaq üçün də qarğıdalının qiyməti bahalaşacaqdır.

Azərbaycanda qarğıdalıdan etanol alınması məsələsində bir neçə aspekt nəzərdə tutulmalıdır: 1) Ölkənin ərzaq təhlükəsizliyi tələb edir ki, taxıl məhsulları daha çox daxili qida və yem tələbatının ödənilməsinə yönəldilsin. Hazırda taxıl məhsulları ilə özünütəminat səviyyəsi Ərzaq təhlükəsizliyi proqramında qarşıya qoyulan hədəflərdən uzaqdır. Məsələn, buğda ilə özünütəminat səviyyəsi 2012-ci ildə 66 faiz olmuşdur; 2) Medalın digər üzü iqtisadiyyatın rəqabət qabiliyyətidir. Əgər modern texnologiyalar qarğıdalının etanola çevrilməsini, qarğıdalıdan yem və ərzaq məhsulu kimi istifadədən daha rentabelli edəcəksə, onda birinci istiqamətə üstünlük verilməsi iqtisadi məntiqlə izaholunandır; 3) 2010-cu ildə qarğıdalının məhsuldarlığı hər hektardan 4,51 ton təşkil etmişdir ki, bu da 2005-ci ildən ən aşağı göstəricidir. Ümumiyyətlə, taxıl məhsullarının rentabellik səviyyəsi, son illər təbii amillərin təsiri altında güclü fluaktasiyaya məruz qalmışdır və 2010-cu ildə 39,8 faiz təşkil etmişdir. Nəzərə alanda ki, taxıl məhsullarının hər hektarına 80 manat subsidiya verilir, üstəlik taxıl istehsalçıları digər güzəştlərdən (vergi güzəşti, maya dəyərindən ucuz su resursu, imtiyazlı kreditlər və s.) də yararlanırlar, onda bu səviyyədə rentabellik göstəricisinin mahiyyəti aydınlaşar. Digər tərəfdən isə lazımi aqrotexniki qaydalara tam əməl edilməməsi, əsas və dövriyyə vəsaitləri (texnika, gübrə və s.) ilə normativlərə uyğun təmin olunmamaq maya dəyərini aşağı salır. 2010-cu ildə 1 ton taxılın (qarğıdalısız) maya dəyəri 149,1 manat təşkil etmişdir. Kompleks modernizasiya tədbirləri nəticəsində hər hektardan istehsal olunan qarğıdalının məhsuldarlığını yüksəltmək müm-

kündür. Yüksək məhsuldarlıq şəraitində gələcəkdə əlverişli texnoloji imkanlar yaranarsa və etanol qiymətləri artarsa qarğıdalı məhsulundan yanacaq istehsalında istifadə daha səmərəli olacaqdır.

Qərb alimlərindən Lustiq, Hedi, Fan, Baffes və Dennis neftin və bioyanacağın qiymətləri arasında funksional asılılığın olduğunu öz əsərlərində qeyd etmişdilər [116, 91, 54]. Hanson və başqaları ümumi tarazlıq modelinə əsaslanaraq ABŞ-da neft qiymətlərinin dəyişməsinin kənd təsərrüfatı məhsullarına təsirini qiymətləndirmişlər. Gilbert isə hesablamışdır ki, enerji məhsullarının qeyri-enerji məhsullarına transmissiya əmsalı 0,12 və əksinə 0,25 təşkil edir [83, s.773-783].

Şəkil 6.4.

Azərbaycanda dən üçün qarğıdalının məhsuldarlığı (sentner/hektar)




**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.**

Azərbaycan biokütlə enerjisinin alınması sahəsində uğur əldə edərsə, daxili tələbata yönəldilən karbohidrogen mənşəli enerjinin ixracı imkanı genişlənər və ölkə daha çox ixrac gəliri əldə edə bilər.

Azərbaycanın son illər elektrik enerjisinin net idxalçısından net ixracatçısına çevrilməsi təmayülünün daha da gücləndirilməsi məqsədilə tükənən və bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi ixracını da genişləndirmək mümkündür.

Tarif Şurası yalnız iki bərpaolunan enerji növü üçün tariflər müəyyənləşdirmişdi. Belə ki, Tarif Şurasının qərarına əsasən külək elektrik stansiyalarında istehsal olunan enerjinin 1 kVt/saatı üçün (ƏDV ilə) birlikdə 4,5 qəpik və özəl kiçik su elektrik stansiyalarının hasil etdiyi elektrik enerjisinin hər kVt/saatı üçün ƏDV daxil olmaqla 2,5 qəpik qiymət müəyyənləşdirilmişdir. Gələcəkdə alternativ enerji mənbələrindən istifadənin inkişaf perspektivini nəzərə alaraq digər enerji növləri, o cümlədən kənd təsərrüfatı sektorunda əldə edilə bilən enerji növləri üçün tariflərin müəyyənləşdirilməsi məqbuldur.

Hazırda inkişaf etməkdə olan ölkələrin enerji tələbatının 1/3-i (məsələn, Nepal və Efiopiya demək olar ki, istehlak etdiyi enerjinin əksəriyyətini biokütlədən hasil edir, Hindistan və Braziliya üçün isə biokütlə neftdən daha əhəmiyyətli enerji növüdür), inkişaf etmiş ölkələrin isə enerji tələbatının 3 faizi biokütlə hesabına ödənilir [61, s.314]. Hesablamalara görə 2050-ci ildə biokütlə dünya enerji tələbatının yarısını təmin edə bilər ki, bu da 400 milyon hektar ərazi və kənd və meşə təsərrüfatı qalıqlarının yarısının emalını tələb edir. Beləliklə, Azərbaycanda xüsusən postneft dövründə davamlı iqtisadi inkişafı təmin etmək üçün biokütlə enerjisinin istifadəsi istiqamətində dünyada cərəyan edən təmayüllərə uyğun olaraq strateji konsepsiya qəbul olunmalı və həyata keçirilməlidir. Azərbaycanda MARKAL/TİMES proqramından istifadə edilərək ölkəmiz üçün enerjinin gələcək təklifi və tələbi proqnozlaşdırılmalı, alternativ və ənənəvi enerji mənbələrinin optimal nisbəti müəyyənləşdirilməli və enerji səmərəliliyi potensialı üzə çıxarılmalıdır. Azərbaycanda kompleks enerji strategiyasında biokütlə enerjisindən istifadənin konseptual əsasları qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə formalaşdırılmalıdır.

BMT tərəfindən Azərbaycanda bu əsrin ilk yarısında temperaturun yüksəlməsi və su ehtiyatlarının azalması proqnozlaşdıırlır. Belə bir çağırışla üzləşən Azərbaycan gələcəkdə istilik və quraqlıq sevən bitkilərin əkilməsi  və meliorasiya və irriqasiya infrastrukturunun daha da təkmilləşdirilməsi yolu ilə su ehtiyatlarından istifadənin rasionallığını artırılması perspektivlərini nəzərdən keçirməlidir.

# FƏSİL VII

# Aqrar sahədə modernləşdirmə siyasətinin təkmilləşdirilməsi yolları

## 7.1. Aqrar sahədə Məcmu Amil Məhsuldarlığının artırılması yolları

Bu fəsildə Azərbaycanın kənd təsərrüfatında istehsal vasitələrinin kəmiyyət dəyişmələrinin istehsal olunan məhsulun həcminə təsiri qiymətləndirilmişdir. İstehsal vasitlərinin kəmiyyət və keyfiyyət dəyişməsi müəyyən mənada modernizasiya paradiqmasına uyğun gəlir. Burada söhbət təkcə, yeni texnika və ya məhsuldar sort və cinslərdən getmir, həm də əməyin kvalifikasiyasının yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Modernizasiya nəticəsində tətbiq edilən yeni texnologiyalar adekvat olaraq əmək qüvvəsinin təşkili, miqyası və keyfiyyəti ilə bağlı yeni tələbləri ortaya qoyur. Nəzərə alanda ki, 2012-ci ildə Azərbaycanda məşğul əhalinin 38 faizi kənd təsərrüfatı sahəsində çalışmışdır, onda bu sektorda əmək qüvvəsinin kəmiyyət və keyfiyyət meyarlarına uyğun güclənməsinin nə dərəcədə əhəmiyyətli olması aydınlaşar. Azərbaycanda kənd təsərrüfatı sahəsində məşğul olan əhali orta dünya göstəricisi - 35,3 faizdən (2008-ci ilin göstəricisi) bir qədər yüksəkdir. İnkişaf etmiş ölkələrdə əhalinin maksimum 5 faizi kənd təsərrüfatı ilə məşğul olur: məsələn, Belçikada əhalinin 2 faizi (2007-ci il), Kanadada 2 faizi (2006-cı il) və ABŞ-da cəmi 0,7 faizi (2009-cu il). Belçikada kənd təsərrüfatı ilə məşğul olan 2 faiz əmək qüvvəsi ÜDM-in 0,7 faizini, Kanadada kənd təsərrüfatı ilə məşğul olan 2 faiz əmək qüvvəsi ÜDM-in 2,2 faizini və ABŞ-da kənd təsərrüfatı ilə məşğul olan 0,7 faiz əmək qüvvəsi ÜDM-in 1,2 faizini təmin edir. Azərbaycanda isə aqrar sahədə çalışan 38 faiz əhali ÜDM-in cəmi 5 faizini istehsal edir. Tədqiqat maraqlı iki tendensiyanı üzə çıxarır:

1. *Ölkədə adambaşına düşən milli gəlir artdıqca kənd təsərrüfatının ÜDM-də xüsusi çəkisi azalır;*
2. *Ölkədə adambaşına düşən milli gəlir artdıqca kənd təsərrüfatının ÜDM-də və əhalinin məşğulluğunda xüsusi çəkiləri daha çox yaxınlaşır.*

Şəkil 7.1.
MDB ölkələrində kənd təsərrüfatı ilə məşğul olan əmək qüvvəsinin xüsusi çəkisi (faizlə)




**Mənbə: ABŞ MKİ**

Apardığımız araşdırma göstərir ki, Azərbaycanda kənd təsərrüfatı əmək tutumludur və məcmu məhsuldarlıq amili (Total Factor Productivity) müsbətdir. Kitabda əmək və kapital həcmi ilə məhsul istehsalı arasında əlaqəni təhlil etmək üçün iqtisadi-riyazi üsullar tətbiq olunmuş və istehsal funksiyasından istifadə edilmişdir. Müqayisəli təhlil göstərir ki, Azərbaycan iqtisadiyyatında son illərdə ümumi məhsuldarlıq artımının yüksək olmasına baxmayraq kənd təsərrüfatında bu göstərici aşağı səviyyədədir.

Qısa və orta müddətli dönəmdə aqrar sahə qeyri-neft ixracının genişlənməsində mühüm rol oynayacaqdır. Azərbaycanda 2011-ci ildə qeyri-neft ixracının 47 faizini kənd təsərrüfatı məhsulları, ərzaq və içkilər təşkil etmişdir. Kənd təsərrüftanının ixracyönümlülüyü isə

bilavasitə sahənin moderlşədirilməsində və nəticə etibarı ilə rəqabət qabiliyyətinin artmasından asılıdır. Dissertaiyanın digər fəsillərində qeyd olunduğu kimi meliorasiya və irriqasiya tədbirlərinin aparılması, təsərrüfatların modern texnika və texnologiylarla təmin edilməsi, dövriyyə vəsaitlərinin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədqiqat və işləmələrə daha çox sərmayə yatırılması, habelə əmək qüvvəsinin keyfiyyətinin təkmilləşdirilməsi kənd təsərrüfatının rəqabət qabiliyyətini və məhsul həcmini artırmışdır. Lakin kənd təsərrüfatı üçün lazım olan texnikanın sayı və gübrənin miqdarı hələ də orta dünya səviyyəsindən geridə qalır.

Kənd təsərrüfatında modernləşdirmənin əsas istiqamətlərini müəyyənləşdirmək üçün aqrar istehsalda azalan, artan və yaxud sabit geri qayıtma tendensiyasının mövcud olmasını aydınlaşdırmaq lazımdır. Kənd təsərrüfatı iqtisadiyyatına dair nəzəri və empirik araşdırmaların bir hissəsi modernizasiya səviyyəsinin qiymətləndirilməsinə yönəlmişdir. Nepalın ənənəvi kənd təsərrüfatının modernləşdirilməsində təhsilin təsirinin qiymətləndirilməsi üçün Pudasaini istehsal funksiyası metodundan yararlanmışdır [128, s.509-515]. Konstantin *və başqaları* qeyd etmişdir ki, istehsal sərhədindən (production possibility frontier) yuxarı fəaliyyət göstərən istehsalçılar texniki səmərəli hesab olunur, lakin istehsal sərhədindən aşağıda fəaliyyət göstərənlər texniki səmərəsizdir [68]. Modernləşmə isə istehsalçılara istehsal sərhədindən yuxarı sahədə fəaliyyət göstərməyə imkan verir. Kənd təsərrrüfatı sahəsində araşdırmalar zamanı istehsal funksiyasının əleyhinə çıxanlar alimlər də olmuşdur. Məsələn, İşikava kənd təsərrüfatı istehsal vasitələrinin bir-birilə münasibətdə komplementar xarakterini nəzərə alaraq, Kob-Duqlas istehsal funksiyasının kənd təsərrüfatı üçün qəbuledilməz olduğunu deyirdi [97, s.85]. Sau isə inanırdı ki, əgər istehsal funksiyasının tənliyində yalnız iki sərbəst dəyişən - torpaq və insan əməyi kimi göstəricilər qəbul edilərsə, onda reqressorlar arasındakı qarşılıqlı kollinearlıq problemini həll etmək olar [137]. Bəzi alimlərin fikrincə

isə ekonometriyaçılar silsiləvi reqressiya (ridge regression), reqressiyanın başlıca komponentləri, dəqiq xətti məhdudiyyətlər, Bayes ekonometrikası və qarışıq hesablama kimi üsullar icad etməklə kollinerlıq effektlərinin yumşaldılmasında xeyli irəliləyiş əldə etmişlər [120, s.199-210].

Skot *və başqaları* kross-sahəvi tənlik əsasında (cross-sectional) Qərbi Avropa üçün kənd təsərrüfatında faktor əvəzlənməsini (factor substitution) təhlil etmiş və fermanın sahəsi və əməyin dəyəri rasında müsbət qarşılıqlı əlaqə olduğunu qeyd etmişdir [140]. Kob-Duqlas istehsal funksiyasını istifadə edən Fleşer *və başqaları* Çin kənd təsərrüfatının məhsuldarlıq səviyyəsini təyin etmişdir [78, s.112-123]. Jorgenson *və başqaları* isə kənd təsərrüfatında istehsal funksiyasının hesablanması üçün iki istehsal faktorunu – kapital və əməyi istifadə etmişdir [98]. Lakin Eçvarria deyirdi ki, həm kapital, həm də əmək torpaqla müqayisədə daha sürətlə artdığından, onların çəkilərinin artırılması daha az məcmu məhsuldarlıq artımı dərəcəsinə gətirib çıxarır [73].

Azərbaycan kənd təsərrüfatında istehsal amilləri (input) ilə məhsul arasındakı əlaqənin göstərilməsi üçün istehsal funksiyasının Kob-Duqlas forması istifadə olunmuşdur. EViews kompüter proqramından istifadə edərək Kob-Duqlas istehsal funksiyası aşağıdakı tənliklə hesablanmışdır:

$$\text{Log}\,(\text{ÜDM_aqrar}) = A + \alpha \log\,(\text{kapital}) + \beta \log\,(\text{əmək})$$

Burada, **ÜDM_aqrar, kapital və əmək** müvafiq olaraq kənd təsərrüfatında əlavə dəyəri və kapital və əmək kimi istehsal amillərini simvolizə edir. ***A*** məcmu məhsuldarlıq faktoru, $\alpha$ və $\beta$ isə müvafiq şəkildə kapital və əməyin məhsul elastikliyidir.

1995 və 2010-cu illər arası illik məlumatların Kob-Duqlas istehsal funksiyası ilə hesablanması aşağıdakı nəticəni verir:

Cədvəl 7.1.

1995-2010-cu illərdə kənd təsərrüfatında əlavə dəyər, kapital və əmək üzrə illik məlumatların əsasında Kob-Duqlas istehsal funksiyasının hesablanması

| |
|---|
| Asılı dəyişən: LOG (ÜDM_AQRAR) |
| Metod: ən kiçik kvadratlar |
| Tarix: 04/17/12 Vaxt: 13.52 |
| Nümunə: 1995 2010 |
| Daxil edilən müşahidələr: 16 |
| LOG (ÜDM_AQRAR) = C(1) + C(2)*LOG(KAPİTAL) + C(3)*LOG(ƏMƏK) |

| | **Əmsal** | **Standart xəta** | **t-statistikası** | **Ehtimal** |
|---|---|---|---|---|
| C(1) | 5.556043 | 1.882492 | 2.951431 | 0.0112 |
| C(2) | 0.291408 | 0.024381 | 11.95213 | 0.0000 |
| C(3) | 0.050194 | 0.267223 | 0.187836 | 0.8539 |
| | | | | |
| R-kvadratı | 0.958641 | Asılı variasiyanın ədədi ortası | | 6.907368 |
| Uyğunlaşdırılmış R-kvadratı | 0.952278 | S.D. asılı variasiya | | 0.485797 |
| Reqressiyanın S.X. | 0.106124 | Akaike məlumat kriteriyası | | -1.481062 |
| Qalıqların kvadratının cəmi | 0.146409 | Şvartz kriteriyası | | -1.336201 |
| Log ehtimalı | 14.84849 | Hannan-Kvin kriteriyası | | -1.473644 |
| F-statistikası | 150.6615 | Darbin-Vatson statistik | | 1.541963 |
| Ehtimal (F-statistikası) | 0.000000 | | | |

Məhsul elastikliyi məhsulun istehsalda işlənmiş əmək, yaxud da kapital səviyyəsindəki dəyişikliyə cavab dərəcəsini ölçür (*seteris paribus, yəni başqa amillər sabit qaldığı şəraitdə*). Bu halda $\alpha = 0.29$ olması onu göstərir ki, kapitalda 1% artım kənd təsərrüfatı məhsulunun 0,29% artması deməkdir. Müstəqilliyin ilk mərhələsində Azərbaycanda kənd təsərrüfatı sektorunda hər işçiyə düşən kapitalın azalması müşahidə edilsə də, sonradan dövlət xərcləmələri hesabına bu göstərici xeyli yaxşılaşmışdır.

*β=0.05* onu bildirir ki, əməyin 1% artımı məhsulda təxminən 0.05% artıma yol açacaqdır. Kapitala nisbətən əməyin son məhsula təsirinin belə aşağı olması digər ölkələrin kənd təsərrüfatında da özünü göstərən bir tendensiyadır. Fikrimizcə, kənd təsərrüfatının daha çox əmək tutumlu olması təsir dərəcəsində təhlil etdiyimiz disproporsiyanın yaranmasına səbəb olur.

Bu tənlikdə məhsul və kapital dəyişənləri sıfır hipotezini qəbul etmir, çünki *p-qiymәti* əhəmiyyətlilik dərəcəsindən – 0.05-dən azdır. Bu səbəbdən də nəticə statistik baxımdan əhəmiyyətlidir. Lakin əmək dəyişəni sıfır hipotezini rədd edə biməz, çünki *p-qiymәti* əhəmiyyətlilik dərəcəsindən – 0.05 az deyil.

Məcmu məhsuldarlıq amili texnoloji inkişafı ehtiva edir. Məcmu məhsuldarlıq amilinin müsbət qiymət alması kənd təsərrüfatının inkişafının modernləşməyə əsaslandığını göstərir.

Bizim tənlikdə log(kapital) və log(əmək) əmsallarının cəmi 1-dən azdır, amma fərqin statistik əhəmiyyətli olmasını yoxlamaq üçün sabit qayıtmalar hipotezi testini (hypothesis test of constant returns) tətbiq edəcəyik. Təsəvvür edək ki, sabit qayıtmalar hipotezi aşağıdakı formadadır:

$$\alpha + \beta = 1$$

EViews proqramı əsasında apardığımız hesablama Vald testi (Wald test) üzrə növbəti nəticəni göstərir:

Cədvəl 7.2.

Vold testi

| Vold testi: | | | |
|---|---|---|---|
| Test Statistikası | Dəyər | Azadlıq dərəcəsi | Ehtimal |
| F-statistikası | 6.919133 | (1, 13) | 0.0208 |
| Chi-kvadratı | 6.919133 | 1 | 0.0085 |
| Sıfır Hipotezi yekunu: | | | |
| Normal Mədudlaşma (= 0) | | Dəyər | Standart xəta |
| -1 + C(2) + C(3) | | -0.658398 | 0.250301 |
| Əmsallar üçün məhdudlaşmalar xəttidir. | | | |

Burada yalnız bir xətti məhdudiyyət var və iki test stastistikası (F-statistikası və Chi kvadratı) eyni nəticə verir: *p-dəyərinin* göstəricisi əsasında sabit qayıtmaları ehtiva edən sıfır hipotezini rədd etmək olar.

Kənd təsərrüfatında kapital və əməyin əvəzlənməsinin sabit elastikliyinin hesablanması üçün Əvəzetmənin Sabit Elastikliyi (Constant Elasticity of Substitution (CES)) istehsal funksiyası istifadə edilmişdir. Apardığımız hesablamaların nəticəsi aşağıdakı kimi olmuşdur:

Cədvəl 7.3.

1995-2010-cu illərdə kənd təsərrüfatında əlavə dəyər, kapital və əmək üzrə illik məlumatların əsasında Əvəzetmənin Sabit Elastikliyi istehsal funksiyasının hesablanması

| | | | | |
|---|---|---|---|---|
| Asılı dəyişən: LOG(ÜDM_AGRAR) | | | | |
| Metod: Ən kiçik kvadratlar | | | | |
| Tarix: 04/17/12 Vaxt: 15:23 | | | | |
| Nümunə: 1995 2010 | | | | |
| Daxil edilən müşahidələr: 16 | | | | |
| Konvergensiya 110 təkrarlanmadan sonra əldə edilmişdir | | | | |
| LOG(ÜDM_AQRAR) = C(1) + C(2)*LOG(C(3)*KAPITAL^C(4)+(1-C(3))*ƏMƏK^C(4)) | | | | |
| | Əmsal | Std. Xəta | t-Statistik | Ehtimal |
| C(1) | 5.587684 | 0.228686 | 24.43390 | 0.0000 |
| C(2) | 0.150257 | 0.191895 | 0.783017 | 0.4488 |
| C(3) | 0.999987 | 0.000171 | 5862.056 | 0.0000 |
| C(4) | 2.386303 | 2.837588 | 0.840962 | 0.4168 |
| R-kvadratı | 0.975878 | Asılı dəyişənin ədədi ortası | | 6.907368 |
| Uyğunlaşdırılmış R-kvadratı | 0.969848 | Asılı dəyişənin standard kənarlaşması | | 0.485797 |
| Reqressiyanın S.X. | 0.084356 | Akaike info krit. | | -1.895229 |
| Qalıqların kvadrat cəmi | 0.085391 | Schwarz kriteriyası | | -1.702081 |
| Log ehtimalı | 19.16183 | Hannan-Quinn krit. | | -1.885338 |
| F-statistikası | 161.8250 | Durbin-Watson stat. | | 1.732107 |
| Ehtimal(F-statistikası) | 0.000000 | | | |

Cədvəldəki C(3) parametri istehsal amillərinin optimal paylanmasını müəyyən edir. Bu parametr 1-ə çox yaxındır. Bu cədvəldəki C(1) bir daha Kob-Duqlas istehsal funksiyasından məcmu məhsuldarlıq amili ilə bağlı nəticəni sübut edir.

1996 və 2010-cu illər arası kənd təsərrüfatında əsas fondlar təxminən 2,4 dəfə artmışdır. Maşın və avadanlıq, qoşqu heyvanları və məhsuldar mal-qara kənd təsərrüfatının uzunmüddətli aktivləri arasında xüsusi çəkisini saxlamışdır. Lakin bina və başqa strukturlar, və qaldırıcı nəqliyyat vasitələrinin xüsusi çəkisi 1996-cı ildəki 51,5 faizdən 2010-cu ildə 70,9 faizə qalxmışdır. Digər tərəfdən uzunmüddətli əkinlərin xüsusi çəkisi 15,5 faizdən 0,9 faizə qədər kəskin sürətdə enmişdir. Bununla yanaşı, azalma nəqliyyat vasitələrinə də aiddir: müqayisə olunan dövrdə nəqliyyat vasitələrinin xüsusi çəkisi 7,6 faizdən 3,4 faizə qədər enmişdir. Azərbaycanda traktor, kotan, kultivator, toxumsəpən maşın və ot biçən texnika say etibarı ilə sovet dövründəki müvafiq göstəricilərdən geri qalır.

İstehsal funksiyalarının təhlili onu göstərir ki, kapital kənd təsərrüfatının inkişaf etdirilməsində mühüm rol oynayır. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə ərzaq təhlükəsizliyi və yoxsulluğun azaldılması üçün böyüməkdə olan kənd təsərrüfatı əsas rol oynadığından yeganə yol kapital və əməyin məhsuldarlığının artırılmasıdır. Bu mənada əsas istehsal fondlarının modernləşdirilməsi və dövriyyə vəsaitlərilə təminat səviyyəsinin yaxşılaşdırılması, həmçinin əmək qüvvəsinin kvalifikasiyasının yüksəldilməsi kənd təsərrüfatı sektorunda məhsuldarlığın artmasına gətirib çıxara bilər.

İstehsal biznesi ilə məşğul olan sahibkar istehsal fondlarına, uyğun ixtisaslı işçi qüvvəsinə, materiallara, informasiya və s. malik olmalı, mənfəət əldə etmək üçün müəyyən istehsal dövranını başa çatdırmalıdır. Ona görədir ki, sahibkarların əksəriyyəti bugünkü gerçəkliyi nəzərə alaraq, digər biznes növləri ilə məşğul olmağa üstünlük verir. Lakin istehsal biznesi ölkə iqtisadiyyatının inkişafında həlledici rol oynayır və o, bazar iqtisadiyyatı möhkəmləndikcə öz layiqli yerini tutmağa başla-

yır, hətta mənfəətlilik baxımından da daha cəlbedici olur [30, s.345].

Təhlil göstərir ki, kənd təsərrüfatı sektoru iqtisadiyyatın digər sahələri ilə müqayisədə fondla silahlanma səviyyəsinin artım sürətinə görə geridə qalır. Məsələn, 2000-ci ildə kənd təsərrüfatı, ovçuluq və meşəçilik iqtisadiyyatın sahələri üzrə əsas fondların 14,4 faizinə malik idisə, 2010-cu ildə bu göstərici 1,82 dəfə azalaraq 7,9 faizə düşmüşdür. Hansı ki, müqayisə olunan dövrdə kənd təsərrüfatı, ovçuluq və meşəçilik sahəsində məşğul əhalinin xüsusi çəkisi demək olar ki, dəyişməmişdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, iqtisadiyyatın sənayedən başqa digər sektorlarında da əsas fondların xüsusi çəkisi azalmışdır. Məsələn, 2000-2010-cu illərdə tikintidə bu göstərici 5 fazidən 2,8 faizə (1,8 dəfə), nəqliyyat və rabitədə 13,6 faizdən 9,6 faizə (1,4 dəfə) və digər sahələrdə 35,3 faizdən 23,3 faizə (1,5 dəfə) enmişdir. Lakin bu o demək deyil ki, sadalanan sahələrdə, o cümlədən, kənd təsərrüfatı, ovçuluq və meşəçilik sektorunda əsas fondlar azalmışdır. Sadəcə, iqtisadiyyatın neft sektorunun sürətli inkişafı bu sektorda əsas fondların daha yüksək templə modernizasiyasına və artmasına səbəb olmuşdur. Kənd təsərrüfatı, ovçuluq və meşəçilik sahəsində 2000-ci ildə balans dəyərilə bir işçiyə 1789 manat əsas fond düşürdüsə, 2010-cu ildə bu göstərici 73 faiz artaraq 3092 manata çatmışdır. Əməyin fondla silahlanma səviyyəsinin yaxşılaşması istehsal funksiyası ilə hesabladığımız məcmu məhsuldarlıq amilinin pozitiv dəyərində də görsənir. Bu o deməkdir ki, aqrar sektor digər iqtisadiyyat sahələri ilə müqayisədə geridə qalsa da, əsas itehsal fondlarının sürətli artımına nail olmuşdur. Kənd təsərrüfatı, ovçuluq və meşəçilik sektorunda fond verimi - istehsal fondlarının dəyərinin vahidinə düşən məhsul itehsalı - 2000-ci ildə 0,29 manatdan 2010-cu ildə 0,42 manata yüksəlmişdir. Əlbəttə, fondveriminin artımını nominal ifadəsi hələ səmərəlilik göstəricisi sayıla bilməz.

Kənd təsərrüfatı, ovçuluq və meşəçilik sektorunda fondveriminin real ifadədə artımı yalnız kompleks modernizasiya nəticəsində müm-

kündür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə iri taxılçılıq təsərrüfatlarının yaradılması üçün seçilən torpaq sahələrinin əkinə yararlı vəziyyətə gətirilərək dövriyyəyə daxil edilməsi üçün həmin torpaqların keyfiyyət göstəriciləri, habelə su mənbələri, məhsuldar toxum sortları, maddi-texniki təminat və sair vacib amillər nəzərə alınmışdır. Nazirlər Kabinetinin 2012-ci il 11 aprel tarixli 90 s nömrəli Qərarına əsasən taxılçılıq üzrə özəl pilot təsərrüfatlarının yaradılması məqsədilə 4800 hektar qış otlaq sahələrinin (o cümlədən Ağcabədi rayonunda 3300,0 hektar, Beyləqan rayonunda 1500 hektar) təyinatı dəyişdirilərək ehtiyat fondu torpaqları kateqoriyasına keçirilmişdir. Həmin ərazilərdə kompleks meliorativ tədbirlər həyata keçirilməklə 2013-cü ilin məhsulu üçün payızlıq buğda səpilmiş və bu sahələrin hər hektarından 50 sentnerdən artıq buğda toxumu məhsulu əldə edilmişdir. Nazirlər Kabinetinin 2013-cü il 03 aprel tarixli 64 s nömrəli Sərəncamına əsasən Hacıqabul, Füzuli və Ağcəbədi rayonlarında 5625,6 hektar torpaq sahələri iri taxılçılıq təsərrüfatlarının yaradılması üçün ayrılmışdır. Hazırda bu ərazilərdə kompleks meliorativ tədbirlər həyata keçirilməklə 2014-cü ilin məhsulu üçün payızlıq taxıl əkini nəzərdə tutulur. İri taxılçılıq təsərrüfatlarında qoyulan sərmayələrin ilkin iqtisadi nəticələri kompleks modernizasiya tədbirlərinin əhəmiyyətinin pilot qaydada təsdiqi sayıla bilər.

İqtisadiyyatımızın aqrar bölməsində təsərrüfat formalarının müxtəlifliyi, məhsulların boluşdürülməsinin bazar prinsiplərinə keçilməsi, sərbəst maddi-texniki resurslar bazarının formalaşdırılması, kənd təsərrüfatı təyinatlı torpaqların dövriyyəsi və ondan istifadə olunması haqqında qanunvericilik bazasının hazırlanması, qəbul edilməsi və zaman keçdikcə dəyişən şəraitə uyğun olaraq təkmilləşdirilməsi şübhəsiz ki, bu sahədə bütün işlərin yenidən qurulmasına, istehsalın səmərəliyinin yüksəlməsinə və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına özünün müsbət təsirini göstərəcəkdir [28, s.183-184].

Şəkil 7.2.
Kənd təsərrüfatı məhsullarına dəyərin əlavə edilməsi yolları




Azərbaycanda aqrar sektorda istehsal amillərinin son məhsula təsirini analiz edərkən yeni bir yanaşma - əlavə-dəyərli kənd təsərrüfatı (value-added agriculture) paradiqmasının nəzərə alınması məqsədəuyğundur. İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı istehsalında yeni əlavə dəyərin yaradılması mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatında dəyərin artırılmasına müvafiq innovasiya yönümlü proseslər, məsələn, bio texnologiyanın tətbiqi, ərzaq mühəndisliyi (istehlak oluna bilən xam məhsul), hormonsuz mal əti, bio-yanacaq və s. məhsuldarlığı artıran fəaliyyətlərlə nail olmaq mümkündür. Əlavə dəyər konsepsiyasına əsasən modernləşmə mövcud proses, prosedur, məhsul və xidmətlərin təkmilləşdirilməsi, yaxud yenilərinin yaradılması ilə yerinə yetirilə bilər. Modernləşdirmə hətta ənənəvi bitkilərin qeyri-qida məhsullarına çevrilməsinə, məsələn, qarğıdalıdan etanol və soya kökündən biodizel yanacağının alınmasına qədər genişləndirilə bilər.

## 7.2. Aqrar sahədə investisiya qoyuluşunun modernizasiya prosesində rolu

FAO-nun 1980-2005-ci illər üzrə 100 ölkənin məlumatları əsasında hesablamaları göstərir ki, az məhsuldar kənd təsərrüfatı sahəsinə malik olan ölkələr daha məhsuldar aqrar sektoru olan dövlətlərin səviyyəsinə yaxınlaşmaqdansa, uzaqlaşırlar və burada konvergensiya hiss olunmur [129]. Yaxşı idarəçilik, infrastrukturun təkmilləşdirilməsi, mükəmməl inkişaf etmiş torpaq bazarı və kiçik sahibkarlara əlverişli olan texnologiyaların əlçatarlığı inkişaf etməkdə olan ölkələri "məhsuldarlığın aşağı artımı tələ"sindən xilas edə bilər.

Start vəziyyətində kənd təsərrüfatı üzrə aşağı məhsuldarlığa malik olan ölkələr hər işçiyə düşən əsas fondlar və fermer təsərrüfatının orta ölçüsü göstəriciləri üzrə geriləyirlər. Azərbaycanda kənd təsərrüfatı üzrə istehsal funksiyalarının qiymətləndirilməsi onu göstərir ki, məcmu amil məhsuldarlığı artır və bu baxımdan Azərbaycan digər inkişaf etməkdə olan ölkələrlə müqayisədə istisna təşkil edir. Hazırda Azərbaycanda kənd təsərrüfatının məcmu amil məhsuldarlığının yüksəlməsi ölkəmizin inkişaf etmiş dövlətlərlə aqrar sektorun məhsuldarlığı sahəsində konvergensiya etdiyini göstərir. Belə paradoksun yaranmasında əsas səbəb Azərbaycanda neft gəlirlərinin qeyri-karbohidrogen sektorunun, o cümlədən, kənd təsərrüfatının inkişafına yönəldilməsi ilə əlaqədardı. Dövlət və özəl sektor, həmçinin xarici sərmayədarların (xarici dövlətlər və beynəlxalq təşkilatlar) kənd təsərrüfatı sektoruna sərmayə yatırmaqda aşağıdakı əsas məqsədləri var:

1. *Bütün növ investisiyaları təşviq edə biləcək əlverişli sərmayə mühitinin yaradılması;*
2. *Dövlət sərmayələrini yüksək gəliri təmin edən ictimai əmtəələrə (high-return public goods) yatırılması;*
3. *Kiçik və orta sahibkarların yığım və investisiya etməsinə mane olan baryerlərin aradan qaldırılması;*
4. *Özəl iri biznesin sosial bərabərlik və ekoloji davamlı inkişafa xidmət edən investisiyaları üçün şəraitin formlaşdırılması.*

**Aqrar oriyentasiya indeksi** (agricultural orientation index) kənd təsərrüfatının dövlət büdcəsinin xərclərində xüsusi payının, bu sahənin ÜDM-dəki xüsusi çəkisinə nisbətilə ölçülür. İndeks kənd təsərrüfatının iqtisadiyyatda oynadığı rolun bu sahənin dövlət büdcəsindən aldığı vəsaitə uyğunluq dərəcəsini göstərir.

Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri 2012-ci ilin dövlət büdcəsində 472,3 milyon manat təşkil və ya dövlət büdcəsi xərclərinin 2,78 faizini təşkil etmişdir. 2012-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 2 milyard 783 milyon manatlıq ÜDM istehsal olunmuşdur ki, bu da ölkə üzrə ÜDM-in 5,15 faizini təşkil edir. Beləliklə, Azərbaycanda aqrar oriyentasiya indeksi 2012-ci ildə 0,54 təşkil etmişdir. 2011-ci ildə aqrar oriyentasiya indeksi 0,56 olmuşdur. Aqrar oriyentasiya indeksinin 1-dən kiçik olması kənd təsərrüfatı sahəsinin dövlət büdcəsindən ÜDM-dəki payı ilə müqayisədə aşağı səviyyədə maliyyələşdirilməsini göstərir. Lakin kənd təsərrüfatı sahəsinə verilən vergi güzəştləri, suvarma-irriqasiya sistemlərinin təkmilləşdirilməsinə çəkilən xərclər, kənd əhalisinin dövlət büdcəsindən aldığı sosial ödənişləri və digər aqrar sahə ilə bağlı xərcləri nəzərə alanda aqrar oriyentasiya indeksinin niyə belə kiçik olması aydınlaşır. Hətta deyilən xərc maddələri də nəzərə alınmasa belə, Azərbaycanda aqrar oriyentasiya indeksini dünya ölkələri ilə müqayisədə kifayət qədər yüksək saymaq olar. Məsələn, Azərbaycan bu göstəriciyə görə Avropa və Mərkəzi Asiya regionu ölkələrini 1,5 dəfə və Cənubi Asiya ölkələrini isə 2 dəfə geridə qoyur [146, s.44]. FAO-nun fərqləndirdiyi 6 regiondan yalnız Şərqi Asiya və Sakit okean hövzəsi ölkələrində aqrar oriyentasiya indeksi Azərbaycandan yüksək olmuşdur. Müqayisə onu göstərir ki, Azərbaycanda kənd təsərrüfatı sektoruna dövlət sərmayəsi daha yüksək səviyyədə yatırılır. İqtisadi nəzəriyyəyə görə indi yatırılan investisiya gələcək məhsul artımı deməkdir. Beləliklə, yüksək aqrar oriyentasiya indeksi Azərbaycanda kənd təsərrüfatının orta və uzunmüddətli dönəmdə davamlı iqtisadi inkişafına müsbət töhfə verəcəkdir.

Şəkil 7.3.

Aqrar oriyentasiya indeksinin müqayisəsi




**Mənbə: FAO və DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir (Azərbaycanın göstəricisi 2012-ci il, qalan regionların göstəricisi 2005-2007-ci illərə aiddir).**

Dünya Bankının tədqiqatlarında yardımın nisbi dərəcəsi (the relative rate of assistance (RRA)) metodologiyasından istifadə edərək hökumətin digər sahələrlə müqayisədə kənd təsərrüfatı qiymətlərinə necə təsir göstərməsi ölçülür. Əgər yardımın nisbi dərəcəsi müsbət göstəriciyə malikdirsə, onda kənd təsərrüfatının subsidiyalaşdırılması üzə çıxır, əksinə isə aqrar sektorun ağır vergi yükü altında olması deməkdir [52]. Azərbaycanda yardımın nisbi dərəcəsi müsbət göstəriciyə malikdir. Tarixi təcrübə göstərir ki, inkişaf etmiş ölkələrdə yardımın nisbi dərəcəsinin yüksək olması kənd təsərrüfatında investisiyaları təşviq etmişdir, əksinə yardımın nisbi dərəcəsinin aşağı olduğu inkişaf etməkdə olan ölkələrdə aqrar sahədə sərmayə təşəbbüslərinə imkan olmamışdır. Azərbaycanda yardımın nisbi dərəcəsinin müsbət işarəsi aqrar sahəyə investisiya axını üçün ilkin, amma çox mühüm

bir əsası yaradır. FAO-nun hesablamaları göstərir ki, xüsusən də inkişaf etməkdə olan ölkələrdə yardımın nisbi dərəcəsinin yüksəlməsi hər işçiyə düşən kapitalın həcmini artırmışdır.

Şəkil 7.4.

Kənd təsərrüfatı müəssisələrində əsas istehsal fondlarının strukturu, %-lə




***Mənbə:*** *DSK, Azərbaycanın statistik göstəriciləri, 2011*

Cədvəldən göründüyü kimi son illərdə əsas istehsal fondlarının strukturunda dəyişiklik baş vermişdir. Binalar, tikililər, ötürücü qurğularun payı azalmış, maşın və avadanlıqların xüsusi çəkisi isə əksinə artmışdır. Maşın və avadanlıaqların payının artması kənd təsərrüfatının maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə "Aqrolizinq" SC-nin yaradılması və bu əsasda, aqrar sektorun zəruri avadanlıqlarla təmin edilməsi istiqamətində işlərin intensivləşdirilməsi ilə bağlı olmuşdur.

Eyni zamanda, kənd təsərrüfatı üzrə əsas istehsal fondlarının ünsürlərindən biri – çoxillik əkmələr üzrə də göstəricilər qənaətbəxş deyil. Belə ki, meyvə-giləmeyvə, üzüm bağları və çay plantasiyalarından ibarət çoxillik əkmələrin sahəsi, istər 1990-cı illə, istərsə də 1995-ci illə müqayisədə əsaslı şəkildə azalmışdır [163].

Digər məqam ***istifadəyə verilmiş*** əsas fondların illər üzrə həcminin getdikcə azalmasıdır. Əgər 2008-ci ildə bu rəqəm 140,6 milyon manat təşkil edirdisə, sonrakı illərdə bu göstərici azalmağa doğru meyil etmiş müvafiq olaraq 2009-cu ildə 120,2, 2010-cu ildə 111 milyon manat, 2011-ci ildə isə 97,9 milyon manata bərabər olmuşdur.

Yuxarıda qeyd edildiyi kimi aqrar sektorda investisiya qoyuluşu ərzaq təhlükəsizliyinin və davamlı inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu əsasda, "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda 2015-ci il üçün icra meyarlarını təşkil edən hədəf göstəricilərinə çatma səviyyəsini müqayisə edək.

Cədvəl 7.4.

2012-ci ildə "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda müəyyən edilən hədəflərin reallaşdırılma nisbəti

| | | Hədəf göstəricilər | Fakt | % |
|---|---|---|---|---|
| 1 | dənli bitkilərin əkin sahələri, min ha | 900 | 967,3 | 107,4 |
| 2 | məhsuldarlıq, s/ha | 32 | 23,3 | 72,7 |
| 3 | **ümumi istehsalı, milyon ton** | 2,8 | 2,6 | 92,5 |
| 4 | **ət istehsalı, min ton** | 340 | 263,7 | 77,6 |
| 5 | süd və süd məhsullarının istehsalı, milyon ton | 2,4 | 1,6 | 66,7 |
| 6 | sənaye üsulu ilə illik quş əti istehsalı, min ton | 80 | 71,6 | 89,5 |
| 7 | yumurta istehsalı, mlrd.ədəd | 1,3 | 1,0 | 76,9 |
| 8 | kartof istehsalının həcmi, min ton | 1120 | 938,5 | 83,8 |
| 9 | tərəvəz və bostan bitkiləri istehsalı, milyon ton | 1,72 | 1,69 | 98,3 |
| 10 | meyvə istehsalı, min ton | 800 | 765,8 | 95,7 |
| 11 | yağlı bitkilərin əkin sahələri, min hektar | 135 | 63,7 | 47,2 |
| 12 | **şəkər çuğundurunun əkin sahəsi, min hektar** | 20 | 7,3 | 36,5 |
| 13 | **çay yarpağı istehsalı, min ton** | 3 | 0,53 | 17,7 |
| 14 | yem bitkilərinin əkin sahələri, min hektar | 500 | 394,3 | 78,9 |

**Qeyd.** *Faktiki göstəricilər DSK-nın Azərbaycan rəqəmlərdə nəşrindən götürülmüşdür.*

Cədvəldən göründüyü kimi yalnız dənli bitkilər üzrə proqramda qoyulan hədəflərə çatmaq mümkün olmuşdur. Digər hədəflərin reallaşdırılmasında yaranan problemlər bir tərəfdən, yem bazasının zəif olması, ət və süd emalı zavodlarının gücünün yetərincə olmaması, digər tərəfdən, məhsuldarlığın aşağı olması və yeni texnologiyaların tətbiqindəki geriləmə, həmçinin bitkiçilik və heyvandarlığın potensialının tam istifadə edilməməsi ilə bağlıdır. Deməli, sadalanan problemlərin həlli güclü maddi-texniki bazanın yaradılmasını tələb edir. Bu isə öz növbəsində, aqrar sektora əsaslı vəsait qoyuluşunun həcminin və strukturunun genişləndirilməsini şərtləndirir.

Bu hədəflərə çatmaq üçün hansı sayda zəruri maddi-texniki bazaya malik olmaq lazımdır? Aparılan təhlillər aşağıdakı nəticələri əldə etməyə imkan vermişdir. Kənd təsərrüfatının texnika ilə təmin edilmə səviyyəsinə diqqət yetirək. Beynəlxalq Ərzaq Təşkilatı (FAO) tərəfindən tərtib edilən statistik məcmuədə kənd təsərrüfatı üçün zəruri olan traktorlar və taxılyığan-kombaynların ölkələr üzrə hər min hektara düşən nisbəti göstərilmişdir.

Cədvəldən göründüyü kimi hər min hektara düşən əsas kənd təsərrüfatı texnikasının illər üzrə sayı ölkəmizdə azalmış və Azərbaycan bu göstəriciyə görə nəinki dünya və Avropanın aparıcı ölkələri (İtaliya, Fransa, AFR, Birləşmiş Krallıq və s.) hətta, keçmiş SSRİ ölkələri arasında son yerlərdən birində qərarlaşmışdır.

Keçmiş SSRİ ölkələri ilə müəyyən edilmiş göstəricilərlə müqayisədə xeyli kənarlaşma müşahidə olunur. Azərbaycan üzrə hər min hektara düşən traktorların sayı 8,4 olduğu təqdirdə dünya üzrə bu göstərici 20,2, taxılyığan kombaynlarda isə müvafiq olaraq 0,8 və 2,9-dur.

Cədvəl 7.5.

Keçmiş SSRİ ölkələri üzrə hər min hektara düşən traktor və kombaynların sayı

| | TRAKTORLAR | | | | | TAXILYIĞAN KOMBAYNLAR | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **1994-1996** | **1999-2001** | **2004** | **2005** | **2006** | **1994-1996** | **1999-2001** | **2004** | **2005** | **2006** |
| Azərbaycan | **16,4** | **14,9** | **14,7** | **8,4** | **8,4** | **2,4** | **1,9** | **1,9** | **0,8** | **0,8** |
| Belarusiya | 18,4 | 12,0 | 10,0 | 9,7 | 9,5 | 3,6 | 2,8 | 2,3 | 2,3 | 2,4 |
| Gürcüstan | 21,9 | 22,4 | 32,0 | 42,7 | 53,2 | 1,3 | 1,1 | 2,5 | 1,5 | 0,4 |
| Ermənistan | 30,6 | 29,7 | 33,2 | 33,3 | 36,4 | 4,0 | 3,1 | 3,2 | 3,2 | 3,5 |
| Qazaxıstan | 5,3 | 2,4 | 2,1 | 2,0 | 2,0 | 2,0 | 1,0 | 0,9 | 0,9 | 0,9 |
| Qırğızıstan | 18,3 | 18,9 | 15,8 | 15,7 | 19,1 | 2,6 | 2,5 | 2,1 | 2,3 | 2,8 |
| Latviya | 47,4 | 57,1 | 55,2 | 51,4 | 46,9 | 4,8 | 6,2 | 6,3 | 6,1 | 5,8 |
| Litva | 31,5 | 44,1 | 68,6 | 63,7 | 65,0 | 3,0 | 3,5 | 9,6 | 9,2 | 9,4 |
| Moldova | 27,8 | 22,8 | 22,2 | 22,3 | 22,4 | 3,4 | 3,1 | 3,3 | 3,3 | 3,3 |
| Rusiya Federasiyası | 8,3 | 6,0 | 4,4 | 3,9 | 3,6 | 2,3 | 1,6 | 1,2 | 1,1 | 1,0 |
| Tacikistan | 37,7 | 31,0 | 29,0 | 28,8 | 29,6 | 1,5 | 1,5 | 1,4 | 1,4 | 1,5 |
| Türkmənistan | 30,9 | 29,4 | 28,1 | 27,0 | 26,6 | 9,3 | 8,8 | 8,4 | 8,1 | 8,0 |
| Ukrayna | 14,1 | 11,0 | 11,4 | 10,9 | 10,6 | 2,7 | 2,1 | 1,8 | 1,8 | 1,8 |
| Özbəkistan | 38,0 | 38,0 | 37,8 | 38,6 | 39,1 | 1,6 | 1,6 | 1,6 | 1,6 | 1,6 |
| *Dünya üzrə orta* | ***18,7*** | ***19,3*** | ***20,0*** | ***20,2*** | ***20,2*** | ***2,9*** | ***2,9*** | ***2,9*** | ***2,9*** | ***2,9*** |

**Mənbə: FAO-nun statistik məcmuəsi, 2009**

Dövlət Statistika Komitəsinin məlumatlarında əsas kənd təsərrüfatı texnikası növləri üzrə traktorların sayının 2007-2010-cu illərdə demək olar ki, dəyişmədiyi, kultivator (9,2 faiz), toxum səpənlərin (4,3 faiz), kombaynların (7,7 faiz) sayının isə azaldığı qeyd edilir. Bu uyğunsuzluğun aradan qaldırılması məqsədilə zəruri maddi texniki bazanın təmin edilməsi prosesinin sürətləndirilməsi aqrar sektora əsaslı vəsait qoyuluşunun həcminin əhəmiyyətli şəkildə artırılması lazımdır.

Maddi-texniki bazanın təkmilləşdirilməsi üçün ölkədə olan traktor və taxılyığan-kombaynların sayı və qiyməti əsas götürülməklə aparılmış hesablamalar aşağıdakı nəticələri əldə etməyə imkan verir. Ölkə üzrə *hər min hektara düşən* traktor sayı ilə dünya göstəricisi arasındakı fərqi aradan qaldırmaq üçün tələb olan maliyyələşmənin həcmini hesablayaq. Hər min hektara Tələb olunan traktorların sayını tapmaq üçün dünya üzrə göstəricidən (hər min hektara 20,2 traktor) ölkə üzrə göstərici (hər min hektara 13,4 traktor) çıxmaq lazımdır. Beləliklə müəyyən olunur ki, dünya üzrə orta göstəriciyə çatmaq üçün Azərbaycanda hər min hektara əlavə 6,8 traktor lazımdır. Tələb olunan traktorların sayını (6.8) hər min hektara düşən kənd təsərrüfatı bitkilərinin əkin sahələrinə (1583,9) vurmaqla 10770 ədədini alırıq. "Aqrolizinq ASC" tərəfindən gətirilən 1 traktorun (Belarus MTZ-89.2) qiyməti 28500 manatdır. Bu məbləği şərti orta qiymət kimi götürüb tələb olunan traktorların sayına (10770) vurmaqla dünya üzrə orta göstəriciyə çatmaq üçün Azərbaycanda traktorların alınmasına 306,9 milyon manat vəsait lazım olduğunu hesablamaq mümkündür.

Eyni hesablamanı taxılyığan kombaynlar üzrə də apara bilərik. Hər min hektara tələb olunan taxılyığan kombaynların sayını tapmaq üçün dünya üzrə orta göstəricidən (hər min hektara 2.9 taxılyığan kombayn) ölkə üzrə olan göstəricini (hər min hektara 2 taxılyığan kombayn) çıxmaqla 0,9 ədədini alırıq. Hər min hektara tələb olunan taxılyığan kombaynların sayını (0.9) Azərbaycanda dənli bitkilərin əkin sahələrinə (967,3 min hektar) vurmaqla əlavə 871 taxılyığan kombayna ehtiyac olması aydınlaşar. "Aqrolizinq ASC" tərəfindən gətirilən 1 taxılyığan kombaynın (SK-5ME-1) qiyməti 71000 manatdır. 1 taxılyığan kombaynın qiymətini (71000) tələb olunan taxılyığan kombayların sayına (871) vurmaqla müəyyənləşdirmək olur ki, taxılyığan kombaylara orta dünya səviyyəsində tələbi ödəmək üçün 61,8 milyon manat sərmayə lazımdır.

Bu halda, bir məqama xüsusilə diqqət yetirmək lazımdır ki, 2011-ci ildə ölkə üzrə olan 3 791 taxılyığan kombayndan 2 615-i və ya baş-

qa sözlə 68,9 faizi istifadə edilmişdir. Bu kombaynların 47 faiz müasir tələblərə cavab verir.

Kotanların sayı 2010-cu ildə 1990-cı illə (13 318 ədəd) müqayisədə demək olar ki 3 dəfə azalmış və 4 409-a çatmışdır. "Aqrolizinq ASC" tərəfindən 2011-2012-ci illərdə 3,4,5 və 6 gövdəli kotanlar gətirilmişdir. Bu kotanların orta qiyməti 2 962,5 manat təşkil etmişdir. Azərbaycanda 1990-cı ilin rəqəmləri ilə müqayisədə 8 909 ədəd kotan çatışmazlığı diqqəti çəkir. Bu sayda kotanların gətirilməsi 26,4 milyon manat əlavə maliyyə vəsaiti deməkdir.

Yuxarıdakı təhlillərdən göründüyü kimi traktor, taxılyığan kombayn və kotanların sayının artırılaraq dünya üzrə orta göstəriciyə çatdırılması məqsədilə 395,1 milyon manat həcmində investisiya tələb olunur.

Kənd təsərrüfatında əkinlərə mineral gübrələrin verilməsi (100 faiz qidalı maddə hesabı ilə) göstəricisinə diqqət yetirdikdə aşağıdakı mənzərəni müşahidə edirik.

Şəkil 7.5.

Kənd təsərrüfatında əkinlərə mineral gübrələrin verilməsi, min ton




**Mənbə: "Azərbaycanın kənd təsərrüfatı" məcmuəsi, DSK, 2011**

Şəkildən göründüyü kimi əgər 1985-ci ildə 267,8 min ton gübrə verilirdisə, artıq 1995-ci ildə rəqəm 11,4 min tona düşmüş, 1999-cu ildə isə 1,3 min tona qədər azalmışdır. Son illərdə bir qədər irəliləmə müşahidə edilsə də hələ də aqrar sahə gübrələrin verilməsinə görə 1985-ci və 1990-cı illərin səviyyəsinə çata bilməmişdir. Müvafiq olaraq 1985-ci ilin göstəricisi 2010-cu ilin rəqəmindən 8,4 dəfə, 1990-cı ilin göstəricisi isə 4,4 dəfə yüksəkdir. DSK-nın məlumatlarına görə gübrələnmiş sahənin ümumi əkində xüsusi çəkisi əgər 1985-ci ildə 80 faiz idisə, 1990-cı ildə bu rəqəm 64 faizə bərabər olmuş, 2010-cu ildə 34 faizə qədər azalmışdır.

Məsələn, gübrələrdən normativə uyğun istifadə edilərsə (həmçinin lazım olan reproduksiyalı toxumlar səpilərsə və suvarmadan mütərəqqi istifadə olunarsa), taxılın orta məhsuldarlığını hər hektardan 25 sentnerdən 35 sentnerə qaldırmaq mümkündür.

Təhlil göstərir ki, ölkə üzrə gübrə verilməsi səviyyəsi hətta 1990-cı illə müqayisədə aşağıdır və bu göstərici orta dünya səviyyəsinə çatdırılarsa, ölkə üzrə məhsuldarlığın 40 faiz artacağı proqnozlaşdırılır. Hesablamalarımız göstərir ki, Azərbaycanda 1990-cı ilin səviyyəsində gübrə istifadəsini təmin etmək üçün illik əlavə olaraq 50 milyon manat vəsaitə ehtiyac vardır.

2011-ci ildən ölkədə gübrə zavodunun tikilməsi ilə bağlı işlərin başlanması gübrəyə olan tələbatın ödənilməsinə xidmət edəcəkdir. Belə ki, "2008-2015-ci illərdə Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ilə müəyyən edilmiş hədəfə uyğun olaraq Sumqayıt şəhərində Karbamid istehsalı zavodunun təməli qoyulmuşdur. Zavodun tikintisi üçün "Azərikimya" İstehsalat Birliyinin istifadəsində olan ərazidən 24 hektar torpaq sahəsi ayrılmışdır. Müəssisənin tikintisi dövlət investisiyaları hesabına 2012-2014-cü illərdə həyata keçiriləcəkdir. Karbamid istehsalı zavodunun inşası zamanı 3 min nəfər, müəssisə fəaliyyətə başladıqdan sonra isə 500 nəfər işlə təmin olunacaqdır. Azərbaycanda gübrə istehsalının təşkil

olunması kənd təsərrüfatının bu məhsula olan tələbatını əsaslı şəkildə ödəməklə yanaşı, həm də ixrac imkanlarını genişləndirəcəkdir.

Diferensiallaşdırılmış paylanma texnologiyası - GPS-dən (ingiliscə GPS – global positioning system) istifadə etməklə gübrənin əkin sahəsinin hansı hissəsində paylanması üçün qərarın verilməsində istifadə olunur. Belə modern texnologiyanın tətbiqi istisadi baxımdan səmərəli olmaqla bərabər, həm də kənd təsərrüfatı məhsulunun ekoloji təmizlik səviyyəsini yüksəldir.

Dünya təcrübəsi göstərir ki, "dəqiq əkinçilik" (xüsusi sensorlar, aerofoto çəkilişləri, geoinfromasiya sistemləri əsasında hazırlanan xüsusi kompüter proqramları, GPS və s. vasitələrdən istifadə etməklə) üçün çəkilən xərcləri 2-4 il ərzində geri qaytarmaq mümkündür. Məsələn, Rusiyanın Samara vilayətində "Культура" müəssisəsində resurları qənaət edən və naviqasiya avadanlığına əsaslanan "dəqiq əkinçilik" texnologiyasından istifadə nəticəsində hər hektarda 107 rubl vəsaitə qənaət edilmişdir [47]. Eyni zamanda kimyəvi gübrələrin paylanmasının optimallaşdırılması hesabına hər hektardan 1 sentner daha çox məhsul götürmək mümkün olmuşdur. Azərbaycanın kənd təsərrüfatı istehsalında "dəqiq əkinçiliyin" tətbiqi nəticəsində gübrəyə və yanacağa qənaət etməklə, məhsudarlığı və məhsulun keyfiyyətini yüksəltmək mümkündür.

Ekoloji vəziyyətin ağırlaşması bizim ölkəmizdə də orqanik məhsullara olan tələbatı genişləndirir. Buna görə də kimyəvi gübrələrin istifadəsi olmadan istehsal edilən orqanik məhsullar ətraf mühitə təsir, emal və qablaşdırma standartlarını əsas götürən xüsusi qurumlar tərəfindən sertifikatlaşdırılmalıdır. Məsələn, ABŞ-da belə qurum Milli Orqanik Proqram (National Organic Program) və Böyük Britaniyada Orqanik Fermerlər və İstehsalçıların Orqanik Standartları (Organic Farmers and Growers Organic Standards) adlanır, həmçinin Avropa İttifaqında sertifikatlaşdırma zamanı Aİ-nin ekotənzimlənmə (EU-Eco-regulation 1991) sənədi əsas götürülür.

Azərbaycanda bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var.

Azərbaycanda kənd təsərrüfatının istehsal vasitələri və dövriyyə vəsaitləri ilə təmin edilməsi təkcə dövlət monopoliyasında olmalı deyil. Bu bazarda rəqabət mühitinin yaradılması və özəl biznesin cəlb edilməsi həm xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, həm də qiymətlərin aşağı düşməsinə şərait yarada bilər.

Kənd təsərrüfatı texnikasının gömrük rüsumlarından azad edilməsi fermerlərin imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, aqrar sektorda fermer təsərrüfatlarının daha da səmərəli çalışması üçün kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin də gömrük rüsumlarından azad edilməsi məqsədəuyğun olardı.

"Aqrolizinq" ASC-nin qurumları vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən xidmətlərin bir qisminin dəyəri aşağıdakı kimi müəyyən edilmişdir: 1 hektar sahədən taxıl biçini – 27 manat; 1 hektar sahəyə diskli mala çəkilməsi – 8 manat; 1 hektar sahənin rotasion mala ilə yumşaldılması – 16 manat; cərgəarası becərmədə kultivasiya işləri – 10 manat. Yuxarıdakı normativlər reallıqda kənd təsərrüfatında aparılan işlərin tam dəyərinin ödənilmədiyini göstərir. Misal üçün, 1 hektar sahədən taxıl biçini üzrə xərc 27 manat həcmində müəyyən edilmişdir. Bu xərcin tərkibinə taxıl biçini üzrə xərc həmçinin, bu biçini yerinə yetirən şəxsin əmək haqqı xərci, taxılbiçən kombaynın istismar olunduğu şəraitdə ehtiyat hissələrinin yeniləri ilə əvəz edilməsi, istifadə edilən yanacaq və s. məsrəflər aid edilir. Təbii ki, 27 manat məbləği qeyd edilən xərc komponentlərinin tam olaraq maliyyələşdirilməsi üçün yetərli ola bilməz. Beləliklə, "Aqrolizinq" ASC-nin göstərdiyi xidmətlər də əslində dövlətin kənd təsərrüfatını subsidiyalaşdırmasını göstərir.

Dövlət aqrar sahəyə irriqasiya və meliorasiya sahəsində apardığı modernləşdirilmə siyasəti nəticəsində dəstək verir. Xüsusilə, su ehti-

yatlarının 70 faizinin ölkədən kənarda formalaşdığını və su ehtiyatlarından həm də sənaye və əhali tərəfindən istifadəsini nəzərə alsaq, onda kənd təsərrüfatının su resursu ilə təminatında dövlətin nə qədər mühüm rol oynadığını aydınlaşdırmaq olar. Azərbaycan

Dünya Su Menecmenti İnstitutunun (International Water Management Institute) məlumatına görə kənd təsərrüfatı qlobal miqyasda su resurslarının 70 faizini istifadə etməklə ev təsərrüfatları, sənaye və ətraf mühit məqsədləri üçün sudan istifadə sahəsində rəqabət yaradır. Bu problemin həllində ən yaxşı üsul su resurslarının səmərəli idarəedilməsi və müvafiq infrastrukturun inkişaf etdirilməsidir. Azərbaycanda da su mənbələrində götürülən illik 10-14 milyard kubmetr suyun 60-70 faizi kənd təsərrüfatının, 20-25 faizi sənayenin, qalan hissəsi isə təsərrüfat və içməli su tələbatının ödənilməsinə sərf edilir.

Azərbaycanda meliorasiya və irriqasiya sahəsinə qoyulan investisiyalar barədə kitabın digər fəslində geniş təhlil verilmişdir. Azərbaycan kimi su ehtiyatları ilə zəif təchiz olunmuş ölkədə kənd təsərrüfatında yeraltı sulardan istifadə məqsədəuyğundur. Hazırda dünyada bu tendensiya irriqasiya menecmentinin diqqət mərkəzindədir. Su resurslarından daha səmərəli istifadənin bir yolu da dəmyə əkinçiliyinin inkişaf etdirilməsidir. İnkişaf etmiş ölkələrin təcrübəsində dəmyə əkinçiliyi geniş yayılıb. Dünyada əkinçiliyin 80 faizi dəmyə ərazilərdə yayılıb və bu sahələrdən dünya üzrə ərzaq tələbatının 58 faizi təmin olunur [153, s.13]. Dünyada dəmyə ərazilərinin potensialından 2-5 dəfə az istifadə olunması faktı üzə çıxarılmışdır.

Dəmyə ərazilərində suvarma işinin yüksək səviyyədə təşkil etmək üçün müvafiq infrastrukturun qurulması məqsədilə sərmayə yatırmaq lazımdır. Məsələn, yağış suyunu yığan sistem (rain catchment system) 100 min litr və daha çox həcmdə su ehtiyatı yarada bilir. Bəndlərin və dambaların tikintisi də su ehtiyatlarının yığılması və səmərəli istifadəsini təmin edə bilər. Azərbaycanın rütubətlənmə əmsalı vahiddən çox olan ərazilərində - qonur və qəhvəyi dağ-meşə, dağ-çəmən, sarı, qara və tünd

şabalıdı kimi münbit torpaqlarda - dəmyə əkinçiliyinin inkişafı üçün geniş imkanlar var. Məsələn, Böyük Britaniyada quraqlıqla mübarizə məqsədilə İqlim Dəyişikliyi Komitəsi irriqasiya səmərəliliyini artırmaq üçün fermerlərə su-saxlama qurğularının quraşdırılmasından ötrü təşviqlərin tətbiqini təklif edir. Azərbaycanda respublika əhamiyyətli meliorasiya və irriqasiya sistemlərinin inkişaf etdirilməsində dövlətin dominant mövqeyi ilə yanaşı, kəndlərdə müvafiq infrastrukturun qurulması üçün aqrar istehsalçıların təşviq edilməsi mühüm rol oynaya bilər.

Meliorasiya və su təchizatı ilə bağlı investisiya çatışmazlığının maliyyələşmənin həcmi üzrə nəzərdən keçirək. "Meliorasiya və su təchizatı" ASC tərəfindən dövlət proqramalrında nəzərdə tutulan tədbirlər üzrə həm büdcə vəsaiti, həm də xarici kreditlər hesabına aşağıdakı istiqamətlərdə tələb olunan maliyyələşmənin həcmi 2012-ci ildə 851 870 min manatdır. Tələb olunan məbləğ üzrə ayrılan vəsaitin həcmi 291 milyon manat təşkil edib. Bu tələb olunan məbləğin 34 faizinə bərabərdir.

Əsas vəsait çatışmazlığı iri taxılçılıq təsərüfatının yaradılması nəzərdə tutan obyektlər üzrə 74,6 faiz, torpaqların su təminatının vəziyyətinin yaxşılaşdırılması və meliorativ vəziyyətinin yaxşılaşdırılması üzrə 26,6 faiz, sel və daşqaın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə tədbirləri 81,5 faiz, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsilə bağlı işlər üzrə 88,1 faiz təşkil edib.

Oksford Univeristetinin Smit adına Müəssisə və Ətraf Mühit Mərkəzi xəbərdarlıq edir ki, iqlim dəyişikliyi, torpaqların deqredasiyası və su çatışmamazlığı dünya üzrə hər il böyük həcmdə kənd təsərrüfatı aktivlərini məhv edə bilər. Azərbaycan bu dünya trendini nəzərə alaraq iqlim dəyişikliyi, torpaqların deqredasiyası və su çatışmamazlığının vura biləcəyi zərərlərin qarşısına almaq üçün həm dövlət, həm də özəl biznesin təşəbbüslərini birləşdirməli və rasional investisiya siyasəti yürütməlidir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının modern texnologiyalar əsasında emalı imkan verər ki, bazara son məhsul xam məhsul olaraq çıxarılmasın. İlkin məhsulun dərindən emalı bir sıra əlavə məhsullar da istehsal edə bilər ki, bu da kənd təsərrüfatının rentabelliyinin artırılması üçün əsas olar. Məsələn, taxılın dərin emalını həyata keçirən zavodun layihə dəyəri 110 milyon avro, özünüödəmə müddəti isə 5 ildir. Hazırda taxılın dərin emalını yalnız iri şirkətlər həyata keçirə bilir.

Qlobal iqlimin istiləşməsi kənd təsərrüfatı üçün quraqlıq və təbii kataklizmlər, məhsuldalığın düşməsi və ərzaq təhlükəsizliyi üçün təhlükələr vəd edir. Hazırda iqlim dəyişmələrinə adaptasiya olunmaq üçün aşağıdakı modernizasiya tədbirlərinin həyata keçirilməsi zəruridir:

- *resursların daha qənaətlə istifadəsini təmin edən aqrotexnologiyalar tətbiq oluna bilər;*
- *"torpağın sıfır emalı" kultivasiya metodu ilə toxum şumlanmamış torpağa birbaşa basdırılır. Bu yolla torpağın nəmliyi saxlanılır, qidalı maddələrin azalmasının qarşısı alınır və məhsuldarlıq yüksəlir. (Hazırda dünyada əkinlərin 2 faizi bu yolla aparılır)*
- *aşağı temperaturlarda suya meylli bitkilərin və ya biokütlənin yandırılması torpağın davamlılığını təmin edən biokömürü formalaşdırır;*
- *zərərverici həşəratlarla mübarizə üçün kompleks nəzarət və idarəetmə (integrated pest management) sistemi insan və ətraf mühit üçün pestisidlərin təsirini minimuma endirir;*
- *nitratlardan istifadənin kompleks idarəedilməsi (integrated plant nutrient system management) sistemi hətta iqlim dəyişikliyi zamanı məhsuldarlığın aşağı düşməsinin qarşısını ala bilir.*

## 7.3. Modernləşdirmənin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri

Aqrar sahədə modernləşdirməni sürətləndirmək üçün xarici investisiyaların təşviqi üzrə dövlət proqramı qəbul edilməli və xarici investisiyaların regional, sektoral, texnoloji və ixrac amillərinə söykənən təşviq tədbirləri müəyyənləşdirilməlidir. Türkiyə təcrübəsinə uyğun olaraq Azərbaycanda da xarici investorların cəlbi üçün regionlar aşağıdakı kimi təsnifləşdirilə bilər: ***inkişaf etmiş (məsələn, Abşeron iqtisadi rayonu); prioritet regionlar; həmçinin normal regionlar.*** Prioritetlik dərəcəsinə uyğun olaraq xarici investisiyaların cəlbi üçün uyğun miqyaslarda təşviq tədbirləri nəzərdə tutula bilər. Fikrimizcə, aqrar sahədə modernləşdirməni həyata keçirə biləcək xarici sərmayədarları cəlb etmək üçün bir sıra təşviq təşəbbüsləri gerçəkləşdirilməlidir.

Azərbaycanda aqrar sahədə modernləşdirməni sürətləndirmək üçün Xüsusi İqtisadi Zonaların daha da inkişaf etdirilməsinə ehtiyac yaranmışdır. Məsələn, Çexiya 10 ildən artıq bir müddətdə 100-dən çox sənaye zonası inkişaf etdirmişdir; Türkiyə 2010-cu ilə qədər 80 sənaye zonası yaratmağı planlaşdırmışdı; Gürcüstan 3 azad sənaye zonasının təşkili üzərində işləyir; Rusiya 9 xüsusi zona (texnoloji, sənaye, liman) yaratmışdır.

Aqrar sahədə əsaslı vəsait qoyuluşu, tikinti və ixraca yönəlik xarici birbaşa investisiyalar Əlavə Dəyər Vergisindən (ƏDV) azad edilərsə, Türkiyə və Gürcüstanda olduğu kimi xarici sərmayədarların stimullaşdırılması ilə nəticələnər.

Aqrar sahədə dəyər zənciri üzrə klasterlərin yaradılması modernləşdirmənin sürətlənməsi ilə nəticələnə bilər. Regionlara xarici birbaşa investisiyaların cəlbi üçün Rusiya və Qazaxıstanda olduğu kimi klasterial inkişaf proqramlarının həyata keçirilməsi və ya Türkiyənin təcrübəsində olduğu kimi, 50 pririotet bölgədə xüsusi təşviq siyasətinin reallaşdırılması nəzərə alına bilər.

Azərbaycanın özünün istehsal etmədiyi kənd təsərrüfatı avadanlıqları və ya onların komponentlərinə idxal rüsumlarının aradan qaldırıl-

ması əcnəbi sərmayədarları stimullaşdıra bilər. Məsələn, Qazaxıstan öz istehsalı olmayan avadanlıqların ölkəyə gətirilməsini idxal rüsumlarından azad edib. Gürcüstan da eyni yolla gedərək maşın və avadanlıqlar üçün heç bir idxal rüsumu tətbiq etmir. Türkiyə isə maşın və avadanlıqların alınması üçün Əlavə Dəyər Vergisindən güzəştlər tətbiq edir.

Daxil olduğumuz regionda Rusiya, Gürcüstan, Qazaxıstan və Türkiyə biznes inkubatorlarının yaradılması sahəsində ciddi səylər göstərirlər. Azərbaycanda da bu təcrübənin geniş tətbiqinə ehtiyac var. Xüsusilə kənd təsərrüfatı sahəsində yaradılacaq biznes inkubatorlar modern texnologiyaların tətbiqini daha da asanlaşdıra bilər.

Gürcüstan, Qazaxıstan və Türkiyə xarici sərmayədarlara vergi güzəştləri verirlər. Azərbaycan belə bir təşviq strategiyasını işləyib həyata keçirməklə xarici investisiyaları aqrar sahəyə, həmçinin ərzaq və içkilərin istehsalına cəlb edərək modernləşdirmə üçün əlavə imkanlar yara bilər.

Azərbaycan Türkiyənin təcrübəsindən istifadə edərək bərpa olunan enerji sahəsində xarici investorlara imtiyazlar (məsələn, enerjinin qiyməti ilə bağlı) verə bilər. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı məhsulları və üzvi birləşmə tullantıları alternativ enerji mənbəyi sayılır. Azərbaycanda biokütlənin həcmi 200 min tondur ki, onun da 60 faizi və ya 120 min tonunu meşə və kənd təsərrüfatı məhsulları təşkil edir. Azərbaycanda hər il peyin yığımının həcmi (fermalar üzrə) belədir: iri buynuzlu mal-qara - 120 min ton; donuz - 32,5 min ton; Qoyun və keçi - 7,6 min ton; quşlar - 7,5 min ton [29, s.292]. Azərbaycanın kənd təsərrüfatı sahəsində modern texnologiyaların tətbiqi ilə biokütlə enerjisinin alınması mümkündür.

Azərbaycan Türkiyə təcrübəsinə istinadən sərmayələrin (xüsusən də modernləşdirməyə xidmət edən) yatırılması üçün cəlb edilmiş kreditlərin faizlərinin bir hissəsini dövlət hesabına ödənilməsi praktikasından istifadə edə bilər. Xüsusilə də, əgər sərmayədar aqrar sahədə modernləşdirmə həyata keçirirsə, onun cəlb etdiyi kreditlərin faizlərinin bir hissəsini dövlət hesabına ödənilməsi mümkündür. Türk

Xəzinədarlığı kiçik və orta sahibkarlıq, tədqiqat və inkişaf (R&D), ətraf mühitin mühafizəsi sahələrində, habelə 50 prioritet region üzrə investisiyaların cəlbi zamanı sərmayədarların kredit faizlərinin bir hissəsini ödəyir. Hətta Türkiyədə bəzi qurumlar (Tükiyə Elmi və Texnoloji Tədqiqat Şurası və Türkiyə Texnologiyanın İnkişaf  Fondu) tədqiqat və inkişaf (R&D) üzrə xərclərin bir hissəsini sərmayədarlara qaytarır və bu istiqamətdə qrantlar verir.

Qazaxıstanda investisiya üzrə təşviqləri həyata keçirmək üçün respublikanın Sənaye və Ticarət Nazirliyi yanında İnvestisya Komitəsi yaradılıb. Komitə xarici investorların nə dərəcədə güzəştlər sistemindən faydalana bilməsini müəyyənləşdirir. Qazaxıstanda investisiyaları təşviq etmək üçün 36 kateqoriya üzrə 245 imtiyazlar var. Belə bir praktikanın Azərbaycanda da tətbiqi faydalı olardı. Təkilf edərdik ki, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında İnvestisya Komitəsi yaradılsın və qurum xarici sərmayədarlara verilən güzəştlərin icrasını təmin etsin.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə əsas vəsaitlərin amortizasiyası qalıq dəyəri metodu ilə hesablanır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən amortizasiya olunan aktivlər üzrə illik amortizasiya normaları aşağıdakı kimi müəyyən edilir: binalar, tikililər və qurğular - 7 faizədək; maşınlar, avadanlıq və hesablama texnikası - 25 faizədək; nəqliyyat vasitələri - 25 faizədək; iş heyvanları - 20 faizədək; geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər - 25 faizədək; qeyri-maddi aktivlər - istifadə müddəti məlum olmayanlar üçün 10 faizədək, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə; digər əsas vəsaitlər - 20 faizədək.

Kənd təsərrüfatına xidmət göstərən müəssisələrdə modernizasiyanı sürətləndirmək üçün amortizasiya norması bir iqtisadi siyasət aləti kimi istifadə oluna bilər. Kənd təsərrüfatı məhsulları istehsalına çəkilən xərclərin strukturunda əsas vəsaitlərin amortizasiyası 2010-cu ildə 4,9 faiz təşkil etmişdir. Bitkiçilik sahəsində bu göstərici 4,9 faiz, heyvandarlıqda isə 7,4 faiz qeydə alınmışdır. Bundan başqa kənd təsərrüfatı

məhsullarının istehsalına çəkilən xərclərin strukturunda material xərcləri 50,4 faiz (müvafiq olaraq bitkiçilikdə 60,2 faiz və heyvandarlıqda 50 faiz) təşkil etmişdir ki, bunun da 33,6 faizi kənar təşkilatların göstərdiyi xidmətə görə ödənişdir. Hansı ki, kənd təsərrüfatına xidmət göstərən kənar təşkilatlar da əsas vəsaitlərinə görə amortizasiya xərclərinə malikdirlər.

Hərçənd ki, kənd təsərrüfatı istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azaddırlar, lakin aqrar sahəyə xidmət göstərən müəssisələrdə amortizasiya norması əhəmiyyətli rol oynayır. Amortizasiya fondu istehsal prosesində istehlak edilmiş istehsal vasitələrini bərpa etmək üçün yaradılır. Mənfəət və amortizasiya ayırmaları xüsusi maliyyə resurslarını əmələ gətirir ki, müəssisə bu vəsaitdən istifadə edir. Beləlilklə, mənfəətə təsir göstərən çoxsaylı amillər arasında istehsal edilən məhsulların amortizasiyasının hesablanma metodu üzrə təsərrüfatın uçot və maliyyə siyasəti də var.

Modernizasiya bir proses kimi, xüsusilə də tam bərpa üçün amortizasiya zamanı, başqa sözlə, yeni əsas fondların alınmasında daha qabarıq ifadə olunur.

Azərbaycanda kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri 2000-2011-ci illər ərzində nominal ifadədə iki dəfə artmışdır. Bu müddət ərzində bir təsərrüfata düşən kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri 2,3 dəfə çoxalmışdır. Kənd təsərrüfatı sahəsində əsas fondların artımı bilavasitə dövlət tərəfindən həyata keçirilən modernizasiya siyasətinin nəticəsində baş vermişdir. Özəl sektorun modernizasiya prosesinə yaxından cəlb olunması üçün amortizasiya normasını tənzimləmək kimi təşviq üsullarından istifadə etmək mümkündür. Amortizasiya ayırması kənd təsərrüfatı müəssisəsinin maddi-texniki bazasını yeniləşdirmək üçün əsas pul vəsaiti mənbələrindəndir. Amortizasiya siyasətinin nə dərəcədə əsaslandırılmış olmasından asılı olaraq müəssisə xərcləri bərabərhissəli qaydada yeni yaranmış məhsulun üzərinə keçirir. Amortizasiya siyasətinin təhlili bəzən onu göstərir ki, amortizasiya norması aşağı

qiymətləndirilib, maya dəyərində “titrəmələr” baş verir, vergi bazasının azaldılması imkanları məhdudlaşdırılır və s.). Aqrar müəssisələrdə vergiödəyiciləri özləri də əsas fondların fəaliyyət xüsusisyyətlərinə uyğun olaraq amortizasiya siyasətini müstəqil şəkildə formalaşdıra bilər. Bu yolla da vergi ödənişlərinin həcmi azala bilər, həmçinin əsas fondların istismarda olduğu dövrdə məhsul istehsalanın xərclərinin sabitliyi təmin edilmiş olar.

Amortizasiya siyasəti fondların dövretmə müddətinə təsir göstərməklə istehsalın intensivlik səviyyəsini yüksəldə və sahə strukturunu təkmilləşdirə bilər. Amortizasiya siyasəti ilə irəli aparılan modernləşmə əməyin fondla təchiz olunma səviyyəsini təkcə kəmiyyət deyil, həm də keyfiyyət nöqteyi-nəzərindən yeni mərhələyə keçirə bilər. Beləliklə, orta illik işçilərin hər nəfərinə düşən əsas istehsal fondlarının təkcə orta illik dəyəri yox, həm də modern fondların məhsuldarlıq səviyyəsi yüksələ bilər. Modernizasiya kənd təsərrüfatı müəssisələrinin istehsal potensialının yüksəlməsinə, istehsalın intensivləşdirilməsinə və əmək məhsuldarlığının artmasına xidmət edir.

Kənd təsərrüfatı məhsullarının emalı sənayesində istifadə edilən texnikanın lizinq vasitəsilə təkmilləşdirilməsi, istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılmasına imkan verən mütərəqqi maşınlar sisteminin tətbiqi istehsal parametrlərinin (dəqiq respturanın, müəyyənləşdirilmiş temperatur rejimlərinin və s.) dəqiq təminatına, yeni texnoloji proseslərin tətbiqinə və kənd təsərrüfatı məhsulunun çeşidini artırmağa şərait yaradır [26, s.178].

Azərbaycanda kənd təsərrüfatı sahəsində lizinq mexanizminin inkişaf etdirilməsi bütövlükdə lizinq bazarının vəziyyəti ilə bağlıdır. Lizinq bazarında inkişafa nail olmaq üçün ilk növbədə qanunvericilikdə olan boşluqlar (xüsusilə, Vergi Məcəlləsi və Mülki Məcəllədə lizinqə dair ziddiyyətlər) aradan qaldırılmalı, lizinq sektorunda əsas vəsaitlərin yenilənməsini təmin etmək üçün sürətli amortizasiya tətbiq olunmalı və lizinq obyektinə qoyulan ƏDV aradan qalıdırlmalı və banklarla eyni rəqabət mühiti təmin edilməlidir.

Düzdür, dövlət "Aqrolizinq" ASC vasitəsilə 2005-2012-ci illər üzrə dövlət büdcəsindən və digər mənbələrdən kənd təsərrüfatının əsas və dövriyyə vəsaitləri ilə təmin olunması üçün 370,63 milyon manat maliyyə vəsaiti ayrılmışdır. Belə ki, ayrılmış və təkrar istifadə olunan vəsait hesabına 2005-2012-cu illər ərzində müxtəlif markalı 1033 ədəd taxıl biçən kombayn, 4252 ədəd traktor, 164 ədəd ekskavator, 8960 ədəd traktora qoşulan kənd təsərrüfatı texnikaları (kotanlar, kultivatorlar, ot biçən texnika, ot və küləş presləyən, malalar, taxıl səpən, gübrə səpən, çiləyicilər, traktor qoşquları və s.), 9 dəst süd zavodu avadanlıqları, 23 dəst soyuducu kameraları, 8 dəst qarışıq yem istehsal zavodu avadanlıqları, kənd təsərrüfatı texnikalarına lazım olan ehtiyat hissələri, dəzgahlar alınmışdır. Nəticədə, kənd təsərrüfatı müəssisələrində əsas istehsal fondlarının strukturunda maşın və avadanlıqların payı 2003-cü ildə 10,2 faiz olduğu halda 2011-ci ildə bu göstərici artaraq 17,2 faiz olmuş, 1000 hektar əkinə traktor düşən traktorların sayı 11,9-dan 13,3-ə çatmışdır.

Lakin sağlam rəqabət mühitinin inkişafı üçün "Aqrolizinq" ASC ilə bərabər digər lizinq şirkətlərinin də inkişafına dəstək verilməlidir. Lizinq bazarında rəqabət mexanizmi kənd təsərrüfatı istehsalçılarını əsas və dövriyyə fondları ilə əlverişli müddətlərdə və keyfiyyətli şəkildə təmin etməyə şərait yaradardı. Lizinq şirkətləri aqrar sahədə modernləşmə prosesinə təkcə özlərinin deyil, həm də xarici bazarlardan cəlb etdiyi kapitalın hesabına töhfə verə bilərlər. Ümumiyytələ, kənd təsərrüfatı sahəsində lizinqin inkişafı aşağıdakı səmərələri verə bilər:

1. *Kiçik və orta sahibkalığın tədiyyə qabiliyyəti aşağı olduğundan və girov çatışmazlığı səbəbindən lizinq əsas və dövriyyə vəsaitlərinin cəlb edilməsi üçün daha əlverişli mexanizmdir;*
2. *Banklar və lizinq şirkətləri arasında birincinin xeyrinə olan diskriminasiya qaldırılacağı halda, lizinq aqrar sahənin modernləşdirilməsi üçün alternativ mənbə kimi çıxış edə bilər;*
3. *Lizinq aqrar istehsalçıların risklərini minimuma endirmək imkanı verir;*
4. *Lizinq bank kreditlərindən fərqli olaraq qabaqcaqdan ödəniş tələb*

*etmədiyinidən və büdcə məhdudiyyətlərini aşdığından daha səmərəli maliyyələşdirmə mexanizmidir.*

Lizinqin üç xüsusi səmərəsini müəyyənləşdirmək olar: a. multiplikativlik xassəsi (modern texnikanın tətbiqi dalğavarı şəkildə geniş təkrar istehsalın bütün mərhələlərinə sirayət edir); b. inteqrativlik xassəsi (inteqrativ səmərə məhsuldar qüvvələri inkişaf etdirir); c. sosial xassə (insanların yaradıcılıq imkanlarının dərk olunması və özünüifadəsi üçün şərait yaradır) [22, s.82].

Azərbaycanda aqrar sahədə moderləşməni sürətləndirmək üçün elm və təhsilin vahid platformada prosesə qoşulmasını təmin etmək lazımdır. Tədqiqatlarımız göstərir ki, Azərbaycan Dövlət Aqrar Universitetinin bazasında **universitet klasteri** ideyasının gerçəkləşməsi aqrar sahədə kadr hazırlığı, innovativ inkişaf və modernizasiya üçün əlavə bir təkan ola bilər. Universitet klasteri məfhumunun ideoloji əsasları "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında öz əksini tapmışdır. Konsepsiyada nəzərdə tutulur ki, ölkədə innovativ iqtisadiyyatın yaradılması məqsədi ilə elm və istehsal arasındakı əlaqələr gücləndiriləcək, tətbiqi elmi araşdırmaların bazarın tələbatına müvafiq aparılması üçün zəruri mexanizmlər yaradılacaqdır. İnnovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirləri reallaşdırılacaq və müvafiq qanunvericilik bazası yaradılacaqdır. İnnovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafı üçün əlverişli mühit yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılması da nəzərdə tutulur.

**Universitet klasteri** terminə bir çox dövlətlərdə, xüsusilədə

MDB ölkələrinin demək olar ki, yarısında rast gəlmək mümkündür. Hazırda bu konsepsiya *Rusiya Federasiyası, Gürcüstan, Belarus, Qırğızıstan* və s. MDB ölkələrində kifayət qədər populyarlaşdmışdır. İnkişaf etmiş ölkələrin təcrübəsində Universitet klasterinə bir sıra hallarda ümumi təhsil strategiyası, bəzən isə xüsusi innovasiya proqramları çərçivəsində baxılır. Bu ölkələrin bir neçəsinin təcrübəsinə nəzər salaq.

2008-ci ildən innovasiya proqramı kimi hazırlanaraq tətbiq edilən "Universitet klasteri" proqramı Rusiya Federasiyasının Elmlər Akademiyası və bir neçə özəl təşkilatın dəstəyi ilə həyata keçirilir. Proqram Rusiyanın (Sankt-Peterburqdan Vladivostoka qədər) 69 təhsil müəssisəni əhatə edir. İlkin mərhələdə, 46 təhsil müəssisəsi bu layihədən yararlana bildi.

Proqram çərçivəsində vahid infrastrukturun ekosistemin yaradılması nəzərdə tutulur. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin reallaşdırılması qeyd edilir:

1. *Hesabalama (və ya hesablayıcı) infrastrukturun yaradılması və inkişaf etdirilməsi;*
2. *Bu bazada servislərin yaradılması;*
3. *Xüsusi təcrübi konstruktor işlərinin aparılması üçün stendlərin hazırlanması;*
4. *Təhsil və təlim proqramlarının hazırlanması üçün təhsi planlarının tərtib edilməsi;*
5. *Bu əsasda xüsusi elmi-tədqiqat mərkəzlərinin formalaşdırılması;*
6. *Hər bir region üzrə konkret bir və ya bir neçə təhsil müəssisəsinin timsalında qurulması.*

Ukraynada klasterlərdən elm və təhsildə istifadə hələ 90-cı illərdən başlanmış, lakin daha ciddi formaya 2008-ci ildə keçdi. Ukrayna təcrübəsinin əsas xüsusiyyəti hər bir region üzrə konkret bir və ya bir neçə təhsil müəssisəsinin timsalında klasterlərin formalaşdırılması nəzərdə tutulur.

Belorusda təhsil klasterinə keçid digər MDB ölkələrində olduğu kimi daha çox təhsildə informasiya sistemlərinin inkişaf etdirilməsi ilə bağlıdır. Bu halda, daha çox regional müstəvidə klasterlərin inkişafı

hədəf hesab edilir. Əsas dəstək Regional İnnovasiya Sistemləri Agentliyi (RİSA) tərəfindən verilir.

İnkişaf etmiş ölkələrin təcrübəsindən də universitet və ya elm mərkəzlərinin bazasında yaranan klasterlərin uğurlu inkişafına dair çoxlu misallar gətirmək olar. Məsələn, İtaliyanın az inkişaf etmiş Siciliya regionunun inkişafı üçün texnoloji inqilabı hədəfləyən klasterial yanaşma tətbiq edildi. Siciliya klasterinin inkişafının nüvəsində ST Microelectronics firması dayanırdı. 1980-ci ildə ST Microelectronics firması Kostanye Universiteti ilə birgə proqram həyata keçirərək perspektiv istiqamətlərdə gənc kadrların hazırlığına başladı. Beləliklə, ada qrant və subsidiyalar almaq üçün Avropa İttifaqının prioritet seçdiyi əraziyə çevrildi.

Şəkil 7.6.

Universitet klasterinin təklif etdiyi xidmətlərin istiqamətləri




İtaliyanın digər geridə qalmış regionu Sardiniyada klasterial inkişafın nüvəsində Kaqliari Universiteti ilə birlikdə İnternet texnologiyalarını inkişaf etdirən Tiscali firması dayandı.

Elə ABŞ-dakı məşhur "Silikon vadisi" klasterinin inkişafı üçün iki əsas çıxış nöqtəsi vardı: Stantford Universiteti ilə klasterin lider müəssisəsi - Hewlett Packardın (HP) qarşılıqlı əlaqəsi; Hewlett Packard (HP) şirkətinin iqtisadi və akademik fəaliyyətinin stimullaşdırılmasında maraqlı olan tərəflərlə əlaqələr.

Bu baxımdan Azərbaycan Dövlət Aqrar Universitetinin bazasında yaranan klaster əmək bazarının tələbinə uyğun kadr hazırlığını həyata keçirməklə yanaşı, həm də konseptual sənədlərin (qanun layihəsi, siyasət sənədi və s.) yazılmasını, habelə biznesə konsaltinq, outsorsinq və outstaffinq xidmətlərinin göstərilməsini təşkil edə bilər. Bunun üçün Azərbaycan Dövlət Aqrar Universitetinin aşağıdakı üstünlükləri var: a) *Sadalanan xidmətləri həyata keçirə biləcək insan resursları və maddi-texniki baza; b)Dövlətin resurslarından istifadə etmək; c)Beynəlxalq nüfuz; d) Əmək bazarında müsbət imic və s.*

Azərbaycan Dövlət Aqrar Universitetinin bazasında yaranacaq klasterin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə təhsil siyasətinin qurulması istiqamətində aşağıdakı məsələlər öz konseptual həllini tapmalıdır:

- *Yüksək təhsil standartlarının hazırlanması;*
- Müəllim heyətinin hazırlanması ilə bağlı təkliflərin işlənməsi;
- *Təhsil müəssisəsi və işəgötürənlər arasında qarşılıqlı əlaqə mexanizminin təkmilləşdirilməsi;*
- *Müəssisələrin təhsil və təlimdə iştirakını aktivləşdirmək;*
- *Təhsilin bütün səviyyələrində motivasiyanın yaradılması;*
- *Təhsil müəssisəsində klasterial inkişafla bağlı informasiya təminatı sisteminin yaradılması.*

Eyni zamanda elmi-texniki siyasətin reallaşdırılması mexanizminin təkmilləşdirilməsi məqsədilə aşağıdakı işlər görülməlidir:

- *Elm və texnika üzrə siyasətlə ölkənin rəqabətqabiliyyəti arasında lazımi əlaqənin qurulmasının əsaslandırılması;*

- *Azərbaycan Dövlət Aqrar Universitetində elmi tədqiqatlarla məşğul olan strukturlara dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi;*
- *Azərbaycan Dövlət Aqrar Universiteti ilə klasterin müəssisələri arasında təkmil qarşılıqlı əlaqə mexanizminin yaradılması;*
- *Klaterə daxil olan müəssisələri öz daxilində elmi tədqiqatların həvəsləndirilməsi üçün mexanizmin işlənməsi.*

Universitet klasterinin son məhsulunun bazarlara çıxışını təmin etmək üçün marketinq strategiyasının qurulmalıdır. Biznesin effektiv idarə edilməsi, marketinqin prinsiplərinin biznesə tətbiq edilməsi və davamlı uğur əldə etmək üçün marketinq strategiyasının müəyyənləşdirilməsi vacib amillərdəndir. Marketinq strategiyası ümumi biznes strategiyasının bir hissəsi olaraq biznes hədəflərinə çatmaq üçün marketinq alətlərindən istifadədə ümumi yanaşmanı nəzərdə tutur. Burada bir sıra suallar cavablandırılmalıdır: Biz hazırda hansı mövqedəyik; Haraya doğru irəliləmək istəyirik; Ora nəyə görə getmək lazımdır; Ora necə gedəcəyik – marketinq alətlərindən istifadə strategiyası necə olacaqdır.

Təhsilinin səmərəliliyini qiymətləndirmək məqsədilə ən geniş istifadə edilən indikator təhsildən qayıdış (*return to education*) əmsalıdır. Bu əmsal nə qədər yüksək olarsa, deməli insanın əldə etdiyi hər əlavə təhsil onun gəlirini (maaşını) bir o qədər çox artırır. Əksinə, əmsalın kiçik olması təhsilin aşağı səmərəyə malik olmasını göstərir. Azərbaycan Dövlət Aqrar Universitetinin bazasında yaradılan universitet klasteri əslində təhsildən qayıdış əmsalının artmasına gətirib çıxara bilər.

Azərbaycanda aqrotexnoparkların yaradılması kənd təsərrüfatı sahəsində biliklərin kommersiyalaşdırılması, aqrar sahənin modernləşdirilməsi, səmərəliliyin artırılması, ümumilikdə iqtisadiyyatın diversifikasiyası istiqamətində irəliyə atılmış bir addım ola bilər. Aqrotexnoparklar Sinqapur, Kamerun, Bruney, Rusiya və s. ölkələrdə

fəaliyyət göstərirlər. Araşdırmalarımız göstərir ki, Azərbaycan ərazisində aqrotexnoparkı Naxçıvan Muxtar Respublikasında təsis etmək mümkündür. Naxçıvanın blokada şəraitində olması bu ərazidə kənd təsərrüfatının modernləşdirilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, aqrar məhsulların ixracının artırılması yolu ilə xarici valyuta əldə edilməsi və yeni iş yerlərinin yaradılmasını zəruri edir. Artıq Azərbaycan hökuməti yüksək texnologiyalara əsaslanan, rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı məqsədilə ölkədə sənaye parklarının yaradılmasına başlayıb. Sumqayıt Kimya Sənaye və Balaxanı parklarının yaradılmasına dair 2011-ci ilin dekabrında prezident fərmanları imzalanıb.

Naxçıvan aqrotexnoparkı bölgənin elmi potensialından (əlbəttə, park yaradılandan sonra bu potensial daha da gücləndirilməlidir) istifadə edə bilər. Qeyd edək ki, AMEA-nın Naxçıvan bölməsi (xüsusilə, Bioresurslar İnstitutunda Meyvə, tərəvəz və üzüm laboratoriyası, Dənli taxıl, paxlalı və texniki bitkilər laboratoriyası, Biokimyəvi tədqiqatlar laboratoriyası, Nəbatat şöbəsi, Bitki sistematikası şöbəsi və Zooloji tədqiqatlar şöbəsi) və Naxçıvan Dövlət Universiteti (xüsusilə, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində kimya, coğrafiya, zoologiya, botanika və baytarlıq kafedraları) aqrotexnoparkın formalaşmasına elmi cəhətdən töhfə verə bilər. Naxçıvanda AMEA-nın bölməsi qismində elmi və Naxçıvan Dövlət Universitetinin simasında təhsil müəssisələrinin aqlomerasiyası institutsional mühiti formalaşdırır ki, bu yolla intellektual dəyər kənd təsərrüfatı sahəsinə ötürülə və innovativ sahibkarlığın yeni formaları üzə çıxa bilər. Rusiya təcrübəsindən istifadə edərək Naxçıvan aqrotexnoparkında Aqrar Texnologiyalar üzrə İnnovativ Mərkəz yaratmaq mümkündür. Aqrar Texnologiyalar üzrə İnnovativ Mərkəz aqrar sahənin uzunmüddətli inkişaf perspektivinə əsaslanaraq elm, təhsil və istehsalatın geniş inteqrasiyasına nail olmağı hədəf seçməlidir. Əsas elmi-tədqiqat istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- *K*ənd təsərrüfatı istehsalında yeni texniki və texnoloji səviyyəyə çıxmaq üçün genetika, biotexnologiya və mikrobiologiya sahəsində uğurlar əldə etmək;
- *Ərazinin adaptiv-landşaft təkmilləşməsi, müxtəlif aqrotexnologiyaların layihələndirilməsi;*
- *Resurslara qənaət edən, ekoloji təmiz və yüksək məhsuldar texnologiyaların istifadəsi və s.*

Kənd yerlərində orta təbəqinin məşğul olduğu sahibkarlıq fəaliyyətinə dəstək vermək məqsədilə gənclərin sıfırdan yeni biznesə başlaması (start-up) stimullaşdırılmalıdır. Bunun üçün vençur kapitaldan istifadə mümkündür. Xüsusən informasiya-komunikasiya texnologiyaları sahəsində "hay-tek startap" layihələrə dəstək vermək olar. Azərbaycanın dünya okenanına birbaşa çıxışı olmadığından xidmət sahələri, xüsusən də insan kapitalına əsaslanan (məsələn, kompüter proqramlarının yazılışı) sektorlarda uğur qazanmaq mümkündür. Startap layihələrinin bütün mərhələlərində "toxum" əkilməsi (seed stage), layihənin başlanması (startup stage), layihənin inkişafı (growth stage), layihənin genişlənməsi  (expansion stage) və layihənin çıxışı (exit stage) üzrə gənclərə dəstək verilməsi orta sinfin modernləşdirmə prosesinə qoşulmasına daha geniş imkan yaradardı. Startap layihələri üçün xüsusi biznes inkubatorların yaradılması da mümkündür.

## 7.4. Kənd təsərrüfatının modernləşdirilməsində tədqiqat və işləmələrin (R&D) rolu

Kənd təsərrüfatının modernləşdirilməsinə və rəqabət qabiliyyətinin artmasına təsir göstərən amillərdən biri də tədqiqat və işləmələrə (R&D) çəkilən daxili xərclərin artmasıdır. Kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə çəkilən daxili xərclər 2000-2011-ci illər ərzində 9,2 dəfə artmışdır. Hansı ki, müqayisə olunan dövrdə tədqiqat və işləmələrə çəkilən daxili xərclər respublika üzrə cəmi 8 dəfə çoxalmışdır.

Francesco and Mario kimi tədqiqatçlar innovasiyaların əmək məhsuldarlığını artırmaq üçün effektivliyinin yüksək olduğunu hesablamışdılar [80]. Buna görə də inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə sərmayə yatırılmasını təşviq etmək üçün müxtəlif təşəbbüslər tətbiq edilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının tədqiqat və işləmələrin həyata keçirilməsi üçün vergi güzəştləri edən ölkələrinin sayı 1996-cı ildə 12-dən 2008-ci ildə 21-ə çatmışdır. 2008-ci ildə şirkətlərin hər 1 ABŞ dolları məbləğində tədqiqat və işləmə xərclərinin Polşada 0.01 ABŞ dolları və İspaniyada 0,4 ABŞ dolları subsidiya şəklində dövlət tərəfindən ödənilmişdir. 2011-ci ildə Azərbaycanda tədiqat və işləmələrə ümumilikdə 109,8 milyon manat və ya ÜDM-in cəmi 0,2 faizi həcmində vəsait xərclənmişdir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə xeyli kiçik göstəricidir.

Elmi tədqiqat və işləmələr kənd təsərrüfatı sektorunda elmi biliklərin artırılması və onların tətbiq edilməsi üçün yeni sahələrin tapılmasına xidmət edir. Elmi tədqiqat və işləmələrin əsas istiqaməti kimi fundamental tədqiqatların (biliklərdən istifadə edilməsi ilə əlaqədar olaraq heç bir konkret məqsəd daşımayan yeni biliklərin əldə edilməsinə yönəldilmiş eksperimental və ya nəzəri tədqiqatlar) və tətbiqi tədqiqatların (konkret praktiki məsələlərin həll edilməsi məqsədi ilə yeni biliklərin əldə edilməsinə yönəlmiş orijinal işlər) genişləndirilməsinə ehtiyac var. Kənd təsərrüfatı sahəsində tətbiqi

tədqiqatlar fundamental tədqiqatların nəticələrindən istifadə edilməsinin mümkün yollarını, əvvəllər formalaşdırılmış problemlərin həlli üçün yeni metodları müəyyənləşdirməyə imkan verə bilər.

Kənd təsərrüfatı sahəsində işləmələr (tədqiqatlar və ya praktiki sınaqlar nəticəsində əldə edilmiş mövcud biliklərə əsaslanmış və yeni materialların, məhsulların, proseslərin, qurğuların və s. yaradılmasına yönəldilmiş mütəmadi işlər) mövcud obyektlərin modernləşdirilməsi məqsədini daşımaqla konstruktor işləri, layihə işləri və texnoloji işləri əhatə edir. Elmi tədqiqat və işləmələri yerinə yetirən əmək qüvvəsinin kvalifikasiyasının yüksəldilməsi əmək məhsuldarlığına bilavasitə müsbət təsirini göstərə bilər.

Şəkil 7.7.

Kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə (R&D) çəkilən daxili xərclər




**Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir**

2008-ci ildə dünyada kənd təsərrüfatı üzrə tədqiqat və işləmələrə (R&D) çəkilən ictimai xərclər 31,7 milyard ABŞ dolları təşkil etmiş-

dir. Bu xərclər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında təxminən bərabər bölünmüşdür. Kənd təsərrüfatı üzrə tədqiqat və işləmələrə (R&D) ən çox ictimai vəsait xərcləyən Çin, Hindistan və Braziliya dünya üzrə göstəricinin 1/4-ini, inkişaf etməkdə olan ölkələrdəki göstəricinin isə demək olar yarısını təmin ediblər. Afrikanın Böyük Səhradan cənubdakı hissəsi, Asiya-Sakit Okean hövzəsi (Çin və Hindistanı çıxmaqla), Latın Amerikası və Karib hövzəsi (Braziliyanı çıxmaqla), Qərbi Asiya və Şimali Afrika, Şərqi Avropa və post-sovet respublikaları kənd təsərrüfatı üzrə tədqiqat və işləmələrə (R&D) çəkilən ictimai xərclərin 3-6 faizini təmin ediblər. 1990-cı illərdə kənd təsərrüfatı üzrə tədqiqat və işləmələrə (R&D) çəkilən ictimai xərclər aşağı artım tempinə malik idisə, 2000-2008-ci illər ərzində bu göstərici 22 faiz artaraq 26,1 milyard ABŞ dollarından 31,7 milyard ABŞ dollarına çatmışdır. Çin və Hindistan qlobal artımın yarısını verməklə aqrar sahədə tədqiqat və işləmələrə (R&D) 5,6 milyard ABŞ dolları ictimai xərclər həyata keçirmişdilər.

Azərbaycanda da bu dövrdə tədqiqat və işləmələrə (R&D) çəkilən xərclər artmışdır. Məsələn, kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə (R&D) çəkilən daxili xərclər (əsasən dövlət tərəfindən) 2000-ci ildə 912 min manatdan 2008-ci ildə 4 milyon 799 min manata çatmış və ya 5,26 dəfə böyümüşdür. Hansı ki, bu dövrdə aşağı gəlirli ölkələrdə aqrar sahədə tədqiqat və işləmələrə çəkilən ictimai xərcləri 2000-2008-ci ildə illik orta hesabla 2,1 faiz, orta gəlirli ölkələrdə isə 4,4 faiz artmışdır. Beləliklə, Azərbaycan kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə (R&D) çəkilən xərclər nöqteyi-nəzərindən müqayisə oluna biləcək ölkələrin orta artım tempini xeyli üstələmişdir.

Azərbaycanda tədqiqat və işləmələri yerinə yetirən dövlət sektoru təşkilatlarının sayı 2000-ci ilə 90-dan 2008-ci ildə 92-ə yüksəlmişdir. Ümumilikdə, Azərbaycanda müqayisə olunan dövrdə elmi-tədqiqat və konstruktor təşkilatları, ali təhsil müəssisələri və tədqiqat və işləmələri yerinə yetirən digər təşkilatların cəmi sayı 137-dən 146-a yüksəlmişdir.

Tədqiqat və işləmələri yerinə yetirən dövlət təşkilatlarının və ali təhsil müəssisələrinin sayı çoxalsa da, sahibkarlıq sektorunda tədqiqat və işləmələri yerinə yetirən qurumların sayı 2001-ci ildə 19-dan 2008-ci ildə 15-ə düşmüşdür.

Kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə (R&D) çəkilən xərclərin strukturunun təhlili də göstərir ki, heç də bu sahəyə ayrılan vəsait tamamilə tədqiqatlara transformasiya olmamışdır. Məsələn, Afrikanın cənubundakı ölkələrdə vəsait daha çox əmək haqqı artımı, infrastrukturun bərpası və avadanlıqların alınmasına xərclənmişdir [57]. 2008-ci ildə MDB-yə üzv olan ölkələr üzrə avadanlıqlara çəkilən cari xərclər tədqiqat və işləmələrə çəkilən cari xərclərə nisbətən faizlə və amortizasiyasız ən yüksək Tacikistanda olmuşdur - 12,6 faiz. Təhlil göstərir ki, bu tendensiya əvvəlki illərdə infrastrukturun daha çox sıradan çıxması ilə əlaqədardır. Azərbaycanda isə bu göstərici 2008-ci ildə 2,9 faiz təşkil etməklə daha çox sürətlə inkişaf edən Çin, Braziliya və Hindistanda avadanlıqlara çəkilən cari xərclər sahəsində təmayülə uyğun olmuşdur.

İnkişaf etmiş ölkələrdə Kənd təsərrüfatı sahəsində tədqiqat və işləmələrə (R&D) çəkilən ictimai xərclərin artım tempi 1980-cı illərdə orta hesabla 2 faiz, 2000-ci illərin əvvəllərində 1,1 faiz və 2005-2008-ci illərdə isə sıfır faiz təşkil etmişdir.

Tədqiqat və işləmələrə çəkilən xərclərin nisbi ifadədə müqayisəsi də əhəmiyyətlidir. Kənd təsərrüfatı tədqiqatlarına çəkilən xərclərin kənd təsərrüfatının ÜDM-ə nisbəti - tədqiqaq intensivliyi nisbəti (research intensity ratio) adlanır. 2008-ci ildə inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı sahəsində hər 100 ABŞ dolları ÜDM-in 0,54 ABŞ dolları həcmində tədqiqat xərcləri olub. Aşağı gəlirli ölkələrdə bu göstərici 0,44 ABŞ dolları, orta gəlirli ölkələrdə isə 0,55 ABŞ dolları təşkil edib. Azərbaycanda 2008-ci ildə kənd təsərrüfatı sahəsində hər 100 ABŞ dolları ÜDM-in 0,23 ABŞ dolları həcmində tədqiqat xərcləri olub. Sonrakı illərdə bu göstərici artaraq 2011-ci ildə 0,31 ABŞ dollarına çatsa

da, hələ də orta gəlirli ölkələrin müvafiq göstəricisinin səviyyəsindən təxminən iki dəfə geridə qalır. Müqayisə üçün qeyd edək ki, inkişaf etmiş ölkələrdə 2008-ci ildə kənd təsərrüfatı sahəsində hər 100 ABŞ dolları ÜDM-in 3,07 ABŞ dolları həcmində tədqiqat xərcləri olub ki, bu da Azərbaycandakı analoji göstəricidən 13,3 dəfə yüksəkdir. İnkişaf etmiş ölkələrdə tədqiqaq intensivliyi nisbətinin yüksək səviyyəsi aşağıdakı amillərlə bağlıdır:

1. Ölkə inkişaf etdikcə, onun iqtisadiyyatı daha çox elmtutumlu olur və tədqiqaq intensivliyi nisbəti iqtisadiyyatın bütün seqmentlərində yüksəlir;
2. Məhsuldarlığın yüksək həddinə (productivity frontier) yaxınlaşan ölkələr elmin də yüksək inkişaf həddinə çatmasına can atırlar;
3. Milli gəlir artdıqca ictimai institutlar daha çox ətraf mühit, qida təhlükəsizliyi, tədiqat və sosial rifah məsələlərinə diqqət yetirirlər, nəinki aqrar məhsulun artmasına.

Ölkədə milli gəlir səviyyəsi aşağı olduqca, kənd təsərrüfatı tədqiqatlarına çəkilən xərclərin kənd təsərrüfatının ÜDM-ə nisbəti, başqa sözlə, tədqiqaq intensivliyi daha mühüm əhəmiyyət kəsb edir. Məsələn, 2008-ci ildə kənd təsərrüfatı aşağı gəlirli ölkələrin ÜDM-nin 29 faizini, orta gəlirli ölkələrin ÜDM-nin 10 faizini və yüksək inkişaf etmiş ölkələrin ÜDM-nin 1 faizini təşkil edib. Beləliklə, aqrar sahənin ÜDM-də payı artdıqca bu sektorda tədqiqat və işləmələrə çəkilən xərcin əhəmiyyəti də böyüyür. Azərbaycanda işçi qüvvəsinin 38 faizi və ÜDM-in 5 faizi aqrar sahənin payına düşdüyünə görə, bu sektorda tədqiqat və işləmələrə çəkilən xərclər bilavasitə iqtisadi və sosial vəziyyətə əhəmiyyətli təsir göstərir.

Kənd təsərrüfatı sahəsində tədqiqat və işləmə xərclərinin volatilliyinin qiymətləndirilməsi üçün standart kənarlaşma əmsalının hesablanır [145, s.5]. Bunun üçün tədqiqat və işləmlərə çəkilən xərcin məbləği loqarifmlənməlidir [72].

$$g = \ln\left(\frac{S_t}{S_{(t-1)}}\right) \quad s = 1,\ldots, N,$$

burada s aqrar sahədə tədqiqat və işləmələrə çəkilən xərc, t isə ildir.

$$V = \sqrt{\frac{1}{N}\sum_{s=1}^{N}(Gs-\mu)^2}, \text{ burada, } \mu = \frac{1}{N}\sum_{S=1}^{N} Gs$$

Aqrar sahədə tədqiqat və işləmələr üçün çəkilən xərclərin volatillik əmsalı (V) yuxarıdakı düstur vasitəsilə hesablanıb. 2007-2011-ci illərdə Azərbaycan üçün tədqiqat və işləmələr üçün çəkilən xərclərin volatillik əmsalı 0,99-a bərabər olub ki, bu da yüksək göstəricidir. Məsələn, 2000-2008-ci illərdə aşağı gəlirli ölkələrdə eyni qayda ilə hesablanmış volatillik əmsalı 0,21, orta gəlirli ölkələrdə 0,14 və inkişaf etmiş ölkələrdə 0,11 olmuşdur. Volatillik əmsalına təsir gösərən amillər müxtəlifdir: Afrikanın cənubundakı ölkələrdə tədqiqat və işləmələr üçün çəkilən xərclərin volatillik əmsalı donorların qısamüddətli layihə-təyinatlı fəaliyyətləri ilə bağlı olduğu halda, Azərbaycanda daha çox dövlətin bu sahəyə ayırdığı vəsaitlər əhəmiyyətli rol oynayır. Azərbaycanda aqrar sahədə tədqiqat və işləmələr üçün çəkilən xərclərin demək olar ki, hamısı dövlətə məxsusdur. Azərbaycanda volatillik əmsalının belə yüksək olması 2000-ci illərdən başlayaraq kənd təsərrüfatı sektorunda tədqiqat və işləmələr üçün çəkilən xərclərin ilbəil kəskin artımı ilə əlaqədardı.

Braziliya və Çin də kənd təsərrüfatının modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması üçün dövlət maliyyəsi hesabına tədqiqat və işləmələrə çəkilən xərcləri artırır. (ABŞ-da aqrar tədqiqatlara şəkilən xərclər 1950-2007-ci illərdə illik 2,16 faiz yüksəlmişdir). Məsələn, 2000-2008-ci illərdə Çin aqrar sahədə tədqiqat və işləmələri maliyyələşdirmək üçün dövlət xərclərini 2 dəfə artırmışdır. Braziliyada inkişaf etməkdə olan ölkələr arasında ən təkmil tədqiqat sistemi qurulsa da, tədqiqat və işləmələrə çəkilən xərclərin volatilliyi 1990-cı və 2000-ci illərdə yüksək olmuşdur. Lakin son illərdə Braziliya hökuməti

bu sahədə daha sabit və davamlı siyasət yürütməyə başlamış və 2008-2011-ci illərdə aqrar sektorda tədqiqat və işləmələrə çəkilən xərcləri 20 faiz artırmışdır. Xərclərin artımı ilə yanaşı Braziliya və Çində institutsional islahatlar da aparılmışdı ki, nəticədə tədqiqat və işləmələrə çəkilən xərclər kənd təsərrüfatının məhsuldarlığının yüksəlməsinə və rəqabətqabiliyyətinin artmasına gətirib çıxarmışdı. Azərbaycan üçün də əhəmiyyətli olan bu islahatlar fermerlər üçün təşəbbüsləri, makroiqtisadi mühiti, təlim və təhsil sistemini, infrastruktur və bazara çıxış məsələlərini əhatə etmişdir [66]. Braziliyada kənd təsərrüfatının modernizasiyası nəticəsində ümumi amil məhsuldarlığı 2009-cu ildə 1970-ci illərə nisbətən 176 faiz, Çində isə 82 faiz yüksəlmişdir.

Azərbaycan üçün orta-gəlirli ölkələrdə aqrar sahədə tədqiqat və işləmələrə çəkilən xərclər üzrə təcrübənin daha bir əhəmiyyətli məqamı özəl sektorun iştirakı ilə bağlıdır. Məsələn, Hindistanda 1990-cı illərin ortalarından tədqiqat və işləmələrə özəl biznes tərəfindən çəkilən xərclərin həcmi 2000-ci illərin sonu ilə müqayisədə 5 dəfə artmışdır [125]. Çində özəl sektorun aqrar sahədə tədqiqat və işləmələrə çəkdiyi xərcin xüsusi çəkisi 2006-cı ildə 16 faizə çatmışdır [93]. Azərbaycanda özəl sektorun aqrar sahədə tədqiqat və işləmələrə sərmayə yatırması üçün beynəlxalq təcrübədə mövcud olan mexanizmlərin əsasında yeni yanaşma tərzi formalaşdırılmalıdır.

Özəl sektor Banqladeş, Hindistan və Pakistanda xüsusən də toxumçuluq sahəsində tədqiqat və işləmələrə (R&D) böyük vəsait yatırır [122]. Xüsusi sektorun tədqiqat və işləmələrə (R&D) meyllənməsinin əsasında hökumətin apardığı təşviqedici siyasət durur. Hökumətin dövlət-özəl sektor partyorluğunu dəstəkləməsi və intellektual əmlak hüquqlarını qoruması firmaları yeni texnologiyaları inkişaf etdirməyə həvəsləndirir. Azərbaycanda da Dünya Bankı ilə birgə Daşınmaz Əmlakın Milli Qeydiyyat Sistemi, habelə dövlət əmlakının idarə edilməsinin informasiya sisteminin inkişaf etdirilib. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik – 2011-2012" hesabatına əsasən

Azərbaycan mülkiyyətin bir növü olan "intellektual mülkiyyət hüquqlarının qorunması" sahəsində 142 ölkə arasında 60-cı yeri tutur. Bu sahədə ölkədə daha da irəli gedilməsi üçün elmi-tədqiqat institutlarının və şirkətlərin tədqiqat və işləmələrə ayırdığı vəsait artırılmalı, universitetlər və biznesin bu sahədə əməkdaşlığı gücləndirilməli, adambaşına düşən patentlərin sayı artırılmalı, yeni ixtiralar stimullaşdırılmalı və mövcud ixtiraların qeydiyyata alınması sürətləndirilməlidir. Hindistan təcrübəsindən istifadə edərək Azərbaycanda intellektual mülkiyyət hüququnun qorunmasının beynəlxalq standatrlarla harmonizasiyasına çalışılmalıdır.

Azərbaycanda tədqiqat və işləmələrin genişləndirilməsinə aşağıdakı donor təşkilatlarının cəlb edilməsi əhəmiyyətli nəticələr verə bilər:

1. Çoxtərəfli təşkilatlar: Avropa İttifaqı, Beynəlxalq Aqrar Tədqiqat Məsləhət Qrupu (*Consultative Group on International Agricultural Research (CGIAR)) və BMT-nin qurumları;*
2. *Donor dövlətlər: Məsələn, Norveç və Yaponiya;*
3. Özəl donorlar: *Məsələn, Rokfeller Fondu;*
4. İnkişaf bankları: Dünya Bankı və Asiya İnkişaf Bankı.

Beynəlxalq donorların tədqiqat və işləmələrə cəlbi Azərbaycanda beynəlxalq təcrübənin əsasında və əcnəbi ekspertlərin iştirakı ilə xarici investisiya və qrantların ayrılması ilə aqrar sahənin modernləşdirilməsinə töhfə vermək mümkündür. İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, xarici donorların maliyyə resursları elə də böyük olmasa da (məsələn, 2006-cı ildə Latın Amerikası və Karib hövzəsi ölkələrində donorların tədqiqat və işləmələrdəki payı cəmi 3 faiz təşkil etmişdir), amma effektivdir.

İqtisadi ədəbiyyatın təhlili onu göstərir ki, aqrar tədqiqat və işləmələr məhsuldarlığa müsbət təsir göstərir və tədqiqat və işləmələrin daxili gəlirlilik əmsalı (internal rate of return (IRR)) inkişaf etməkdə olan ölkələrdə 40 faizdən çoxdur [51]. Evenson R. da belə bir qənaətə

gəlmişdir ki, aqrar tədqiqat və işləmələr üzrə daxili gəlirlilik əmsalı 40 faizdən yüksəkdir [77].

Azərbaycan Dünya İqtisadi Forumunun hazırladığı "Qlobal Rəqabətlilik 2013-2014" hesabatında "vençur kapitalın əlçatarlılığı" göstəricisinə əsasən dünyada 52-ci və MDB-də və türk respublikaları arasında isə 1-ci yerdə gedir. Hətta Azərbaycan bu göstəriciyə əsasən Avstriya, İslandiya, Kipr, Bolqarısatan və s. kimi Avropa ölkələrini də geridə qoymuşdur. "Qlobal Rəqabətlilik 2013-2014" hesabatının metodologiyasına əsasən sahibkarların riskli və innovativ layihələr üçün vençur kapital əldə etməsinin asanlıq dərəcəsi müəyyənləşdirilir. Bu zaman 1 - ən çətin, 7 isə - ən asan əlçatarlıq səviyyəsini müəyyənləşdirir. Azərbaycanın bu intervalda göstəricisi 2,9-a bərabərdir ki, bu da MDB coğrafiyasında ən yaxşı nəticə hesab olunsa da, çağırışların qaldığını göstərir.

**Nəticə**

Kitabın üzərində işləri tamamlayanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü ilin Azərbaycanda "Sənaye ili" elan edilməsi haqqında sərəncam imzaladı. Sənəddə qeyd olunurdu ki, ötən əsrin 70-80-ci illərindən başlayaraq Azərbaycanda sənayeləşmə siyasəti geniş miqyasda həyata keçirilmiş, yüzlərlə sənaye müəssisəsi inşa edilmiş, bu sahədə güclü potensial yaradılmışdır. Son on ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi 2,7 dəfə artmışdır. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"ın hazırlanmasını nəzərdə tutan sərəncam Azərbaycan iqtisadiyyatının yeni sənaye inqilabının yaratdığı qlobal çağırışlara hazırlanması nöqteyi-nəzərindən əhəmiyyətlidir. Məhz sənayeləşmə magistral xətti Azərbaycan iqtisadiyyatının digər sektorlarının - kənd təsərrüfatı və xidmət seqmentinin gələcək inkişaf trayektoriyasının formalaşmasına əhəmiyyətli təsir göstərəcək. Azərbaycan inkişaf etmiş sənaye dövlətlərinə xas iqtisadi struktura doğru istiqamət alıb. Burada aqrobiznesin əsas rolu mümkün qədər çox modernizasiya olunmaqla ümumi iqtisadi məqsədlərə töhfə verməkdir. Sənayeləşmə aqrobiznesin modernizasiyası və rəqabətqabiliyyətinin yüksəldilməsinə xidmət etməklə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini və postneft dövrünə hazırlanmasını təmin edə bilər. Öz növbəsində aqrar sektor sənayenin bir sıra sahələrinin - qida məhsulları, içki, tütün, geyim, dəri və dəri məhsullarının istehsalı, toxuculuq və əczaçılıq industriyasının inkişafında əhəmiyyətli rol oynamaqla sənayeləşmə prosesini sürətləndirəcəkdir.

Təhlil göstərir ki, Verdon-Kaldor qanununun 1993-2011-ci illərdə Azərbaycanda tətbiqi mümkün olmuşdur. Bu qanundan çıxan və gələcək üçün əhəmiyyətli olan nəticə budur ki, əmək məhsuldarlığının özünə və istehsala olan təsiri 4-5 ildən sonra mənfiyə dəyişə bilər. Bu

çağırışı nəzərə alaraq əmək qüvvəsinin kəmiyyət və keyfiyyət baxımından yenilənməsi və bilik iqtisadiyyatı dövrünün tələblərinə uyğulaşdırılması əsas şərtdir. Modernizasiya prosesində aqrar mütəxəssislərin əməyinin mürəkkəbləşməsi işçi qüvvəsinin peşəkarlıq səviyyəsinin artımını zəruri edir. Hazırda kənd təsərrüfatı istehsal vahidlərinin əvvəllər tələb duymadıqları bir sıra mütəxəssislərə ehtiyacı olduğundan modernizasiya prosesinə dəstək verməkdən ötrü qısa, orta və uzunmüddətli dönəmlərdə yüksək-ixtisaslı kadrların hazırlanması üçün proqramların işlənib həyata keçirilməsi zəruridir.

Yüksək aqrar oriyentasiya indeksi Azərbaycanda kənd təsərrüfatının orta və uzunmüddətli dönəmdə davamlı iqtisadi inkişafına müsbət töhfə verə bilər.  Azərbaycanda hər min hektara tələb olunan traktor, taxılyığan kombayn və kotanların sayının artırılaraq qısamüddətli dönəmdə dünya üzrə orta göstəriciyə, uzunmüddətli dönəmdə isə sənayecə inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılması vacib şərtdir.

Azərbaycanda aqrar sahədə moderləşməni sürətləndirmək üçün elm və təhsilin vahid platformada prosesə qoşulmasını təmin etmək lazımdır. Bunun üçün universitet klasteri, torpaq qrant universitetləri, Aqrar Elmin Kommerisyalaşdırılması Fondu və aqrotexnoparkların yaradılması əhəmiyyətli olardı.

Azərbaycanda aqrobiznesin inkişafı sənayeləşmə və elektronlaşma ilə sıx bağlıdır. Aqrar modernizasiya Azərbaycan iqtisadiyyatında resurslardan istifadənin səmərəliliyini artırmaq kimi əsas iqtisadi çağırışa öz töhfəsini verə bilər.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı uzrə Milli Strategiya, Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il Fərmanı ilə təsdiq edilmişdir.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər), Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-ci il 24 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 22 may 2004-ci il 222 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
4. Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2004-ci il 298 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
5. Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyası, Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2007-ci il 2292 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
6. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azadılması və davamlı inkişaf Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
7. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il 3004 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
8. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il 80 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
9. 2011-2013- cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində həyata keçiriləçək Tədbirlər Planı, Azərbaycan Respublikası Prezidentinin 4 may 2011-ci il 1490 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
10. 2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün in-

kişafına dair Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2011-ci il 1890 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
11. Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı, Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
12. Alıyev İ., Mustafayev A., Aqrar sahə modernləşmə mərhələsindədir, Azərbaycan qəzeti, 2012, 30 noyabr, s.4.
13. Allahverdiyev Q.S., Kənd təsərrüfatının peşəkar kadr hazırlığı sisteminin təkmilləşdirilməsi, Az.ETKTİ və Tİ-nun Elmi Əsərləri, 1/2012, s.196.
14. Bədəlov A., Yunanıstan-Azərbaycan yaşıl enerji oxu, 2011, http://area.gov.az/news-and-events/alternativ-v-b-rpa-olunan-enerji-m-nb-l-ri-zr-d-vl-t-agentliyinin-direktoru-akim-b-d-lovun-yunan-stan-az-rbaycan-ya-l-enerj/
15. Eminov N.O., İnnovasiya yönümlü iqtisadi inkişafın əsasında müasir sahibkarlığın inkişaf istiqamətləri, Az.ETKTİ və Tİ-nun Elmi Əsərləri, 3/2012.
16. Eminov N.O., Milli innovasiya infrastrukturunun formalaşmasi və inkişafi problemləri, AMEA-nın xəbərləri (İqtisadiyyat seriyası), 2, 2012, s.27.
17. Əhmədov B.S., "İnvestisiya" və "kapital" anlayışlarının mahiyyəti: mikroiqtisadi və makroiqtisadi yanaşmalar, Azərbaycanın Vergi Xəbərləri, 1/2011, s.74.
18. Əliyev İ.İ., Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində, Bakı, Azərbaycan, 2007, s.862. s.366
19. Əliyev F.V., Azərbaycanda aqrar sahənin informasiya təminatinda beynəlxalq təcrübənin tətbiqi məsələləri, İqtisadiyyat və audit, 2008, Bakı, №9(99), s. 22.
20. Əmiraslanov A., Azərbaycan iqtisadiyyatı və bazar münasibətləri, Qanun nəşriyyatı, Bakı, 1998.
21. Faydalı biznes və investisiya mühitinə dair vəsait, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), ISBN-10: 3-9502218-0-8, red hot 'n' cool, Vyana, 2006, s. 129
22. Hüseynova S.M., Lizinq xidmətləri bazarının formaları və inkişafının

nəzəri-metodoloji məsələləri, Az.ETKTİ və Tİ, Elmi Əsərləri, 2012/1, s.82
23. İmanov K., Qloballaşan iqtisadi sistemdə aqrar siyasət, Xalq qəzeti, 11 iyul 2009, s. 6.
24. İsmayılov M.H., Mehdiyeva M.M., İqtisadi Təhlil Fənni üzrə Proqram, Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə 2010, s. 26.
25. Quliyev E., Etibarlı ərzaq təminatı sistemi: Kooperasiya və inteqrasiya problemləri, Elm, Bakı, 2013, s.210.
26. Qurbanov P.Ə., Aqrar sahədə lizinq münasibətlərinin formalaşdığı şəraitdə innovasiyaının istehsalın rəqabət qabiliyyətinə təsiri, Azərbaycan ETKTİ və Tİ, Elmi Əsərlər, 4, Bakı, 2012, s.178.
27. Məmmədov N., Bərxudarov M., İqtisadi təhlükəsizlik, İqtisad Universitetinin Nəşriyyatı, Bakı, 2006, s.261
28. Məmmədli O., İsmayılov M., İsmayılov F., Milli iqtisadiyyatın təmzimlənməsi, MBM, Bakı, 2008, s.183-184.
29. Məmmədov S.Z., Babayev N.Ə., Alternativ enerji mənbələri, Azərbaycan Dövlət Aqrar Universiteti, Energetika kafedrası, Gəncə, 2011, s.292
30. Mustafayev F. F., Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri, Bakı, Elm, 2008, s.345.
31. Rəhmani Ə.V., İstehsal resurslarından və aqrolizinq xidmətindən istifadənin yaxşılaşdırılması, Az.ETKTİ və Tİ-nun Elmi Əsərləri, 1/2012, s.206-207
32. Səmədzadə Z., Çin qlobal dünya iqtisadiyyatında, Elm və Təhsil, Bakı, 2009, s. 285
33. Səməndərov S.S., 1917-1920-ci illərdə Azərbaycanda aqrar məsələ, Bakı, 2009, s. 67.
34. Tağıyev X., Azərbaycanda elektron bankçılıq xidmətləri: mövcud vəziyyət və inkişaf perspektivləri, Azərbaycan Vergi Jurnalı, 2013, 3, s.181.
35. Архангельский В.Н., Бударина А.В., Буланов В.С. и др. Государственное регулирование рыночной экономики. М., РАГС, 2010, с.125.
36. Виленски А., Парадокс поддержка малого бизнеса: первичные результаты кризиса, Вопросы экономики, 6, 2011 .

37. Глазев С., Глобальный экономический кризис на фоне чередования технологических методов, Вопросы экономики, 3, 2009.
38. Голиченко О., Формирование модернизации России и инновационные стратегии: проблемы и решения, Вопросы экономики, 8, 2010.
39. Гуриев С., Модернизация или инновация: что важнее для экономики России?, Forbes, 2010.
40. Кондратев В., Инфраструктура как фактор экономического роста, 2010, www.perspektivy.info/rus/ekob/
41. Кудрин А., Итоги кризиса и перспективы социально-экономического развития России, Вопросы экономики, 3, 2011.
42. Мау В., Мировая экономика в 2009 году: Между кризисом модернизацией, Вопросы экономики, 2, 2010.
43. Модернизация экономики и выращивание институтов, / отв. Ред. Е.Г.Ясин – М, изд-кий дом, ГУ, ВШЭ, 2005, с. 438
44. Нагиев А.Т. Проблемы формирования социально-ориентированной эффективной экономической системы, Баку-Иршад, 1994, с. 148
45. Плотников В.Н., Модернизация фермерского уклада в современной России: Источники, проблемы и механизмы осуществления, Волгоград, 2011
46. Салахов С., Инновационное развитие сельскохозяйственного сектора: реалии и перспективы, Az.ETKTİ və Tİ Elmi Əsərləri, Şərq-Qərb, Bakı, 4/2012, с.9
47. Тараскин И. А., Интеллектуализация труда как фактор повышения эффективности на сельскохозяйственных предприятиях, Научно-исследовательский Институт Труда и Социального Страхования Министерства Здравоохранения и Социального Развития Российской Федерации, Москва, 2011.
48. Теория инновационной экономики: учебник/Под ред. О.С.Белокрыловой-Ростов н/Д: Феникс, 2009, с. 242.
49. Шуленбаева Ф.А., Инновационная модернизация в сельскохозяйственном производстве: проблемы и перспективы развития в Республике Казахстан, Астана, 2010, стр. 5.

50. Adamopoulous T., Restuccia D., The Size Distribution of Farms and International Productivity Differences, Manuscript, University of Toronto, 2011.
51. Alston J., Chan-Kang C., Marra M., Pardey P., Wyatt T., Meta-analysis of rates of return to agricultural R&D, Ex Pede Herculem, Research Report No. 113, Washington, DC, IFPRI, 2000.
52. Anderson K., Valenzuela E., Estimates of global distortions to agricultural incentives, 1955 to 2007, Washington, DC, World Bank, 2008.
53. Arrow K. J., Higher Education as a Filter, Journal of Public Economics, 2 (3), p. 193.
54. Baffes J., Dennis A., Long-Term Drivers of Food Prices, Policy Research Working Paper 6455, World Bank, Washington DC, 2013.
55. Becker G. S., Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education, 3rd Edition, 1994.
56. Becker G.S., Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education, second edition, National Bureau of Economic Research, Inc., New York, 1975, p.9.
57. Beintema N. M., Stads G. J., African Agricultural R&D in the New Millennium: Progress for Some, Challenges for Many, IFPRI Food Policy Report, Washington, DC, International Food Policy Research Institute, 2011.
58. Bergek A., Jacobsson S., Hekkert M., Smith K., Functionality of innovation systems as a rationale and guide in innovation policy, Innovation policy, theory and practice, An international handbook, Cheltenham, Elgar Publishers, 2010.
59. Berman M., All That Is Solid Melts into Air: The Experience of Modernity, Penguin Books, Reissue edition, 1988, p.15
60. Branscomb L. M., Choi Y.H., Korea at the turning point: Innovation-Based Strategies for Development, Greenwood Publishing Group Inc., London, 1996.
61. Booth C., Hammond F. N., Lamond J., Proverbs D. G., Solutions for Climate Change Challenges in the Built Environment (Innovation in the Built Environment), Wiley-Blackwell, Oxfrod, UK, 2012, p.314.
62. Cardoso F.H., Enzo F., Dependency and Development in Latin

America, University of California Press, 1979

63. Carlisle F. R., Induced Agricultural Innovation and Environmental Quality: The Case of Groundwater Regulation, Land Economics, University of Wisconsin Press Journals Division, Vol. 63, No. 3 (Aug., 1987), p. 249.
64. Caselli F., Accounting for Cross-Country Income Differences, in Philippe Aghion and Steven N. Durlauf, eds., Handbook of Economic Growth, Vol. 1A, Elsevier, 2005, chapter 9, pp. 679-741.
65. Castiglione C., Verdoorn-Kaldor's Law: an empirical analysis with time series data in the United States Advances in Management & Applied Economics, International Scientific Press, vol.1, no.3, 2011, p.160.
66. Chen K., Flaherty K., Zhang Y., China: Recent Developments in Agricultural R&D, ASTI Country Note, Washington, DC, International Food Policy Research Institute, 2012.
67. Chesbrough H. W., Open innovation: the new imperative for creating and profiting from technology, Harvard Business School Press, Cambridge, MA, 2004.
68. Constantin P. D., Rivera E.B., Rivera Y., Martin D.L., Cobb-Douglas, Translog Stochastic Production Function and Data Envelopment Analysis in Total Factor Productivity in Brazilian Agribusiness, The Flagship Research Journal of International Conference of the Production and Operations Management Society, Volume 2, 2009.
69. Dholakia H., Dholakia R.H., Modernization of agriculture and economic development, The Indian Experience, Indian Institute of Management, Ahmedabad, India, p. 18.
70. Diesendorf M., Greenhouse Solutions with Sustainable Energy, UNSW Press, 2007, p. 86.
71. Djomo J.M.N.,The Effects of Human Capital on Agricultural Productivity and Farmer's Income in Cameroon, International Business Research Vol. 5, No. 4, Canadian Center of Science and Education, April 2012, p.149.
72. Durlauf S. N., Johnson J. A., Temple P. R. W., Growth Econometrics. In Handbook of Economic Growth. Vol. 1a., Amsterdam, Elsevier, 2005.

73. Echevarria C., A three-factor agricultural production function: the case of Canada, International Economic Journal 63, Volume 12, Number 3, University of Saskatchewan, 1998.
74. Edmondson A.C., Bohmer R., Pisano G.P., Disrupted routines: Team learning and new technology adaptation, Administrative Science Quarterly, 46, 2001, pp. 685-716.
75. Eisenstadt S. N., Modernization. Protest and Change, Prentice Hall, 1966
76. Eisenstadt S. N., Revolution and the Transformation of Societies: A Comparative Study of Civilizations, N.Y., The Free Press, 1978
77. Evenson R., Economic impacts of agricultural research and extension, In Handbook of agricultural economics, vol. 1, Amsterdam, The Netherlands, Elsevier Science, 2001.
78. Fleisher B.M., Yunhua L., Economies of scale, plot size, human capital and productivity in Chinese Agriculture. Quart. Rev. Econ. Finance, 32, 1992, pp. 112-123.
79. Frank A.G., Latin America: Underdevelopment and Revolution, Monthly Review Press, 1970.
80. Francesco B., Mario P., The impact of innovation on labour productivity growth in European industries: Does it depend on firms' competitiveness strategies? IPTS working paper on corporate R&D and innovation No. 13/2009, http://iri.jrc.es/papers/13_IPTS_WP_JRC53698.pdf
81. Garelli S., The competitiveness road map: 2009 – 2050, IMD, 2009.
82. Gibbons M., Science's new social contract with society, Nature 102, 1999.
83. Gilbert C. L., The Impact of Exchange Rates and Developing Country Debt on Commodity Prices, Economic Journal, vol. 99, 1989, pp. 773-783.
84. Granger C. W. J., Newbold P., "Spurious regressions in econometrics", Journal of Econometrics 2, 1974, pp. 111–120.
85. Granger C.W.J., Developments in the Study of Cointegrated Economic Variables, Oxford Bulletin of Economics and Statistics, 48(3), 1986, pp. 213-228.
86. Gray A., Boehlje M., Amanor-Boadu V. , Fulton J., Agricultural In-

novation and New Ventures: Assessing the Commercial Potential, American Journal of Agricultural Economics, Agricultural & Applied Economics Association, Vol. 86, No. 5, Proceedings Issue (Dec., 2004), p. 1322.
87. Global Economic Prospects, Office of the Publisher, World Bank, 1818 H Street NW, Washington, DC, 2013, p. 109.
88. Habermas J., Theorie des kommunikativen Handelns , Frankfurt, Suhrkamp, 2 vols, 1981.
89. Hamalainen K. and Pehkonen J. (1995), Verdoorn's Law in the Multivariate Context, Economic Notes, 24(1), pp. 175-186.
90. Hayward J., Agricultural extension: The World Bank's experience and approaches, FAO Report of the Global Consultation on Agricultural Extension, Rome, 1990, pp. 115-134
91. Heady D., Fan S., Reflections on the Global Food Crisis: How it Happened? How it Hurt? And, How we Can Prevent the next One?, Research Monograph 165, Washington, DC, International Food Policy Research Institute, 2010.
92. Holahan P.J., Aronson Z.H., Jurkat M.P., Schoorman F.D., Implementing computer technology: A multiorganizational test of Klein and Sorra's model, Journal of Engineering and Technology Management, 21, 2004, pp. 31-50.
93. Hu R., Liang Q., Pray C., Huang J., Jin Y., Privatization, public R&D policy, and private R&D investment in China's agriculture, Journal of Agricultural and Resource Economics 36 (2), 2011, pp. 416–432.
94. Huntington S.P., Political Order in Changing Societies, (The Henry L. Stimson Lectures Series), Yale University Press, 2006
95. Inglehart R., Welzel C., Modernization, Cultural Change, and Democracy: The Human Development Sequence, Cambridge University Press, 2005
96. International Journal of Technology and Globalisation , Volume 2 (3) Inderscience Publishers, Jan 1, 2006, p.289.
97. Ishikawa, "Economic Development in Asian Perspective", Tokyo, Kinokuniya Bookstore, 1967, p. 85.
98. Jorgenson D.W., Gollop F. M. and Fraumeni B.M., Productivity and U.S. Economic Growth, Cambridge (MA), Harvard University

Press, 1987.
99. Juma C., The New Harvest, Agricultural İnnovation in Africa, Oxford University Press, Inc., New York, 2011, p.18.
100. Kaldor, N. (1966), Causes of the Slow Growth in the United Kingdom. Cambridge: Cambridge University Press, p. 289
101. Kenneth A. S., Kurt V.D., The Effect of Improved Fuel Economy on Vehicle Miles Traveled: Estimating the Rebound Effect Using U.S. State Data, 1966-2001, University of California Energy Institute: Policy & Economics, 2005.
102. Ketels C., Sölvell Ö, Innovation clusters in the 10 new member states of the European Union, Luxembourg: Office for Official Publications of the European Communities, 2006.
103. Ketels C., Lindqvist G., Sölvell Ö., Cluster initiatives in developing and transition economies, 2006.
104. Klein J.K., Andrew P., Knight Innovation Implementation, Overcoming the Challenge, Current Directions in Psychological Science, Vol. 14, No. 5 (Oct., 2005), p. 243
105. Klein J.K., Andrew P., Knight Innovation Implementation, Overcoming the Challenge, Current Directions in Psychological Science, Vol. 14, No. 5 (Oct., 2005), pp. 244-245
106. Klein J.K., Conn A.B., Sorra J.S., Implementing computerized technology: An organizational analysis, Journal of Applied Psychology, 86, 2001, pp. 811-824.
107. Klein J.K., Rails R.S., The organizational dynamics of computerized technology implementation: A review of the empirical literature, L.R. Gomez-Mejia & M.W. Lawless (Eds.), Greenwich, CT: JAI Press, Implementation management of high technology, 1995, pp. 31-79.
108. Knell M., Structure Change and the Kaldor-Verdoorn law in the 1990s, Revue d'économie industrielle. Vol. 105. 1er trimestre, 2004, p. 71.
109. Knowledge Economy Index, (KEI) 2007 Rankings, World Bank, 2007.
110. Kydland F. E., Prescott E.C., Time to Build and Aggregate Fluctuations, Econometrica , Vol. 50, No. 6, 1982, pp. 1345-1370.

111. Lagakos D. , Mike W.,Specialization, Agriculture, and Cross-Country Productivity Differences, Manuscript, Arizona State University, 2010.
112. Leeuwis C., Of computers, myths and modelling: The social construction of diversity, knowledge, information, and communication technologies in Dutch horticulture and agricultural extension, Wageningen Studies in Sociology, Wageningen Agricultural University, 1993.
113. Leydesdorff L., Etskowitz H., Can the public be considered as a fourth helix in university industry - government relationships, Report of the 4th Triple Helix conference, Science and public policy 30, 2003.
114. Lipset S.M., Some Social Requisites of Democracy, American Political Science Review 53, no. 1, 1959, pp. 69-105.
115. Luhmann N., The differentiation of society, Columbia University Press, New York, 1982.
116. Lustig N., Thought for Food: The Challenges of Coping with Soaring Food Prices, Working Paper no 155, Center for
117. Global Development, Washington, DC, 2008.
118. Machlup F., The Production and Distribution of Knowledge in the United States, Princeton University Press, 1970.
119. Mamgain V., Are the Verdoorn–Kaldor's laws applicable in the Newly Industrializing Countries, Review of the Development of Economics, 3(3), 1999, p.295.
120. Mittelhammer R.C., Douglas L. Y., Damrongsak T., John T.D., Mitigating the Effects of Multicollinearity Using Exact and Stochastic Restrictions: The Case of an Aggregate Agricultural Production Function in Thailand, American Journal of Agricultural Economics, Vol. 62, No. 2, 1980, pp. 199-210.
121. Moris J., Extension alternatives in tropical Africa, Overseas Development Institute, London, 1991.
122. Naseem A., Nagarajan L., Mudasser M., Qureshi F., Private Agricultural Research and Innovation in Pakistan, Montreal, QC, Washington, DC, New Brunswick, NJ, McGill University, International Food Policy Research Institute, Rutgers University, 2012.

123. Pascal L. G., Hartley F. W., The Effect of Innovation on Agricultural and Agri-food Exports in OECD Countries, Journal of Agricultural and Resource Economics, Vol. 32, No. 3 (December 2007) p. 448
124. Perez C., Technological Revolutions and Financial Capital – the dynamics of bubbles and golden ages, Edward Elgar, Cheltenham, 2002.
125. Pray C, Nagarajan L., Innovation and Research by Private Agribusiness in India, IFPRI Discussion Paper 1181, Washington, DC, International Food Policy Research Institute, 2012.
126. President Mikheil Saakashvili's annual report to Parliament, Gürcüstan Respublikasının Prezidentinin rəsmi internet saytı, 26 fevral 2010-cu il, http://www.president.gov.ge/en/PressOffice/Documents/AnnualReports?p=4954&i=1
127. Przeworski A., Limongi F., Modernization: Theories and Facts, World Politics 49, 1997, pp. 155-183.
128. Pudasaini S. P., The Effects of Education in Agriculture: Evidence from Nepal, American Journal of Agricultural Economics, Oxford University Press on behalf of the Agricultural & Applied Economics Association,Vol. 65, No. 3, 1983, pp. 509-515.
129. Rapsomanikis G., Vezzani A., Lagging behind. An investigation on the dynamics of agricultural labour productivity, ESA working paper series, Rome, FAO, 2012.
130. Restuccia D., Dennis T Y., Xiaodong Z., Agriculture and Aggregate Productivity: A Quantitative Cross-Country Analysis, Journal of Monetary Economics, March 2008, 55 (2), pp.234-250.
131. Romer P.M.,Human Capital and Growth: Theory and Evidence, University of Chicago, 1989, p.2.
132. Rosegrant M. W., Huang J., Sinha A., Ahammad H., Ringler C., Zhu T., Sulser T. B., Msangi S., Batka M., Exploring alternative futures for agricultural knowledge, science and technology (AKST), ACIAR Project Report ADP/2004/045, Washington, DC, IFPRI, 2008.
133. Rostow W.W., The Stages of Economic Growth: A Non-Communist Manifesto, Cambridge University Press, 3 edition, 1991.
134. Rueschemeyer D., Stephens E., Stephens D. J., Capitalist Development and Democracy, University of Chicago Press, 1992.

135. Ruhnka, J.C., Young, J.E., A venture capital model of the development process for new ventures, Journal of business venturing, Volume 2, Issue 2, 1987, pp. 167-184.
136. R&D Tax Treatment in OECD Countries: Comparisons and Evaluations, OECD, 2008.
137. Sau, R.K., Agricultural Revolution by Production Function, Economic and Political Weekly, Vol. 6, No. 26, 1971.
138. Schluchter W., The rise of Western rationalism: Max Weber's developmental history, Berkeley: University of California Press, 1981.
139. Schultz T. W., Investment in human capital, The American Economic Review, Vol.51, No. 1, 1961, pp.1-17.
140. Scott H.G., Smyth D. J., Demand for Farm Machinery-Western Europe, Royal Commission on Farm Machinery, Ottawa, Queen's Printer, Study No. 9, 1970.
141. Segerstrom P.S., Innovation, Imitation, and Economic Growth, Journal of Political Economy, The University of Chicago Press, Vol. 99, No. 4, Aug., 1991, p. 807
142. Sjo B., Testing for Unit Roots and Cointegration, 2008, p.10, http://www.iei.liu.se/nek/ekonometrisk-teori-7-5-hp-730a07/labbar/1.233753/dfdistab7b.pdf
143. Smelser N. J., Evaluating the model of structural differentiation in relation to educational change in the nineteenth century, Neofunctionalism, ed. J. Alexander, Beverly Hills: Sage, 1985, pp. 113–30.
144. Smits R.E., Kuhlmann S., Shapira P., "The Theory and Practice of Innovation Policy - An International Research Handbook, Edgar Elgar, 2010.
145. Stads G. J., "Africa's Agricultural R&D Funding Rollercoaster: An Analysis of the Elements of Funding Volatility." In Agricultural R&D: Investing in Africa's Future-Analyzing Trends, Challenges, and Opportunities, Washington, DC, and Accra, IFPRI and FARA, 2011, p.5.
146. The state of food and agriculture, FAO, Viale delle Terme di Caracalla, Rome, Italy, 2012, p.44.
147. Thirlwall A. P., A Plain Man's Guide to Kaldor's Growth Laws, Journal of Post Keynesian Economics, Vol. 5, No. 3, 1983, pp. 345-358.

148. Tokgoz S., Private Agricultural R&D in the United States, Journal of Agricultural and Resource Economics, Western Agricultural Economics Association, Vol. 31, No. 2 (August 2006), p. 212.
149. Tweeten L., Thompson S. R., Long term output supply/demand balance and real food prices, Working Paper AEDE-WP 0044-08, Ohio State University, OH, 2008.
150. Verdoorn, J. P. (1949), "On the Factors Determining the Growth of Labor Productivity," in L. Pasinetti (ed.), Italian Economic Papers, Vol. II, Oxford: Oxford University Press, 1993.
151. Wackernagel M., William R., Perpetual and structural barriers to investing in natural capital: economics from an ecological footprint perspective, Ecological Economics, Vol.20, No.3, 1997, pp. 3-24.
152. Wallace E. Huffman, Modernizing agriculture: a continuing process, Questia, Daedalus, Vol. 127, 1998.
153. Wani S.P., Rockström J., Oweis T., Rainfed Agriculture: Unlocking the Potential, MPG Books Group, UK, 2009, p.xiii.
154. Weber M., The Protestant Ethic and the Spirit of Capitalism, CreateSpace Independent Publishing Platform, 2012.
155. World Investment Report 1998: Trends and determinants, UNCTAD, 1999.
156. World investment prospects survey 2009-2011, UNCTAD, 2009.
157. World Oil Outlook, Organization of the Petroleum Exporting Countries, Vienna, Austria, 2012, p.7.
158. Woodward D., Guimarães P., Porter's cluster strategy and industrial targeting, 2007.
159. Zandweghe W.V., Why Have the Dynamics of Labor Productivity Changed?, Economic Review, 3rd quarter, 2010, p. 12, http://www.kansascityfed.org/publicat/econrev/pdf/10q3VanZandweghe.pdf
160. Zubović J., Domazet I., Stošić I., Development of Human Capital as a Tool for Improving Productivity of Agricultural Sector – Case of Serbia, 113th EAAE Seminar The Role of Knowledge, lnnovation and Human Capital in Multifunctional Agriculture and Territorial Rural Development", Belgrade, December 9-11, 2009, p. 451.
161. http://anfes.gov.az/az/pages/11648bca-1ee9-11e0-abe4-2f80f755c2ce/%C4%B0QT%C4%B0SAD%C4%B0YYATIN%20

SAH%C6%8FL%C6%8FR%C4%B0%20%C3%9CZR%C6%8F.html#submenu

162. Bioenerji, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəsmi internet saytı, http://area.gov.az/renewable-energy/bioenergy/
163. http://anfes.gov.az/az/pages/11648bca-1ee9-11e0-abe4-2f80f755c2ce/%C4%B0QT%C4%B0SAD%C4%B0YYATIN%20SAH%C6%8FL%C6%8FR%C4%B0%20%C3%9CZR%C6%8F.html#submenu
162. Bioenerji, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəsmi internet saytı, http://area.gov.az/renewable-energy/bioenergy/
163. http://www.wto.az/pdf/wto/UTT_Hesabat_YIIM.pdf

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİ

# İQTİSADİ MODERNİZASİYA

*Vüsal Qasımlı*

BAKI-2014